# AZƏRBAYCAN PREZİDENTİ

AZƏRBAYCAN NƏŞRİYYATI
BAKI-2004

A 18(04)

**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi**
**"Azərbaycan" nəşriyyatının nəşri**

A 18(04) Azərbaycan Prezidenti — Bakı. "Azərbaycan" nəşriyyatı, 2004. 264 səh.

A $\frac{4804000000-018(04)}{M\ 670(07)-2004}$ Sifarişlə

ISBN 9952-33-000-6

© "Azərbaycan" nəşriyyatı, 2004.



# FAKTLARIN DİLİ İLƏ

Hər bir xalqın tarixində Prezident seçkiləri öz əhəmiyyətinə görə ən başlıca yer tutur. Çünki xalq özünə yeni lider seçir və təbii ki, növbəti illərdə onun taleyini də məhz bu yeni lider müəyyənləşdirməlidir.

2003-cü il oktyabr ayının 15-də Azərbaycan XXI əsrdə özünün ilk prezidentini seçdi. İlham Heydər oğlu Əliyev böyük səs çoxluğu ilə növbəti 5 ildə Azərbaycanın prezidenti seçildi. Seçki prosesi necə keçdi, müşahidəçilər və seçicilər bu prosesə necə qiymət verdilər, seçki günündə xalqın əhval-ruhiyyəsi necə idi, namizədlər arasında səslər necə bölündü. Yerli və xarici KİV seçkini necə işıqlandırdı, dünyanın ən mötəbər qurumlarının və ən nüfuzlu siyasətçilərinin seçkiyə münasibəti necə oldu, Azərbaycanın yeni prezidentini kimlər təbrik etdi, andiçmə mərasimi necə keçirildi, yeni prezidentin 100 günlüyünə rəqəmlər və faktlar hansı qiyməti verdilər?...

Bütün bunlar barədə rəsmi məlumatları kitab halında bir yerə toplamaq zərurətini görərək kitabın naşirləri bu addımı atdılar. Adətən dünyanın əksər ölkələrində "Yeni prezidentlər" tipli nəşrlərə böyük yer ayrılır. Həmin qəbildən olan nəşrlərdə prezident seçkilərinin yuxarıda sadaladığımız məqamları əks olunaraq tarixin yaddaşına yazılır.

Biz də bu ənənəyə qoşularaq "Azərbaycan prezidenti" nəşrini hazırlayıb geniş oxucu kütləsinin ixtiyarına veririk.

Azərbaycanda prezident necə seçilir? Prezident seçilmək üçün hansı şərtlər vacibdir? Prezident seçilən şəxsin hansı səlahiyyətləri və təminatları var?

Bəlkə də çoxlarımız bütün bunları detallarına qədər bilmirik. Odur ki, nəşrimizdə ilk öncə "Azərbaycan dövləti və Azərbaycanın dövlət başçısı" başlığı altında Azərbaycan Respublikasının Konstitusiyasından seçmələr təqdim olunur.

Sonra Azərbaycanda yeni minilliyin ilk prezident seçkilərinə qatılan namizədlər barədə məlumat verilir.

Seçki zamanı bütün KİV seçicilərin görünməmiş aktivliyini qeyd etdi. Xalq seçkiyə həvəslə gedirdi. Bu həvəs təkcə Bakıda yox, hətta ölkənin ən ucqar dağ kəndlərində də hiss olunurdu. Kitabın növbəti bölümündə paytaxtın hər bir rayonunun, habelə ölkənin bölgələrinin müxtəlif seçki məntəqələrindən reportajlar qeyd edilib. Eyni zamanda dünyanın bir neçə ölkəsindəki Azərbaycan səfirlikləri və diplomatik nümayəndəliklərində keçirilən səsvermə prosesinə də toxunulub.

Seçkiyə Mərkəzi Seçki Komissiyasının mətbuat konfransı ilə ilk yekunun vurulması, seçkinin rəsmi yekunları sonrakı bölmələrdə öz əksini tapıb.

Artıq heç kimə sirr deyil ki, Azərbaycanın hələ heç vaxt seçkiləri minilliyin bu ilk prezident seçkiləri qədər beynəlxalq aləmdə maraq oyatmayıb.

Seçkilərdə mindən çox xarici müşahidəçi qeydə alınmışdı. Onlardan 163 nəfəri Müstəqil Dövlətlər Birliyinin, 660-ı ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun, 180-i ABŞ-ın, 32-si Avropa Şurası Parlament Assambleyasının, 24-ü ATƏT-in Parlament Assambleyasının müşahidəçiləri idi.

Beynəlxalq müşahidəçilərin seçki prosesinə verdikləri qiymət də kitabda öz əksini tapıb.

Yeni minillikdə seçilmiş Azərbaycan Respublikasının ilk prezidenti İlham Əliyevə dünyanın ən tanınmış siyasi liderlərinin, dövlət, elm, mədəniyyət xadimlərinin təbriklərinə də xüsusi bölmə ayrılıb.

Prezident seçkilərinin rəsmi nəticələri elan olunduqdan sonra keçirilən andiçmə mərasimi, bu mərasimdə Azərbaycanın yeni prezidentinin çıxışı ictimaiyyət arasında böyük maraq doğurmuşdu. Odur ki, həmin mərasim də kitabda öz əksini tapıb.

Adətən yeni seçilmiş prezidentlərin fəaliyyətinə ilk qiyməti 100 gündən sonra verirlər. Bəs prezident İlham Əliyevin 100 günü necə qiymətləndirilib?

Dövlət Statistika Komitəsinin məlumatı əsasında prezidentliyin ilk 100 gününün sosial-iqtisadi mənzərəsi, habelə prezidentin daxili və xarici siyasətinin 100 gündəki prioritet istiqamətləri növbəti bölmələrdə oxuculara təqdim olunur. Eyni zamanda "Sel" Analitik İnformasiya və Sorğu Mərkəzinin prezidentin ilk 100 günü ilə bağlı keçirdiyi rəy sorğusunun nəticələri də qeyd edilib.





Konstitusiyamızda yazılır: "Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır".

Torpaqlarının bir hissəsinin Ermənistan təcavüzü altında inləməsindən əziyyət çəkən azərbaycanlılar ümidvardırlar ki, ümummilli lider Heydər Əliyevin başladığı işləri yeni prezident — İlham Əliyev müvəffəqiyyətlə başa çatdıracaq və xalqın ən əsas arzusu həyata keçəcək. Ölkənin ərazi bütövlüyü bərpa ediləcək.

Elə bu istəklə də sıravi azərbaycanlılar 15 oktyabr seçkilərində böyük həvəslə iştirak edib inandıqları namizədə səs verdilər.

Qoy Azərbaycan xalqının XXI əsrdə seçdiyi ilk prezidentinin qədəmləri uğurlu olsun.

# AZƏRBAYCAN DÖVLƏTİ VƏ AZƏRBAYCANIN DÖVLƏT BAŞÇISI

**(Azərbaycan Respublikasının Konstitusiyasından seçmələr)**

I. Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır.

II. Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

III. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

IV. Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

### *Azərbaycan dövlətinin başçısı*

I. Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir.

II. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.

III. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır.

IV. Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.





### *Azərbaycan Respublikasının Prezidentliyinə namizədlərə aid tələblər*

Yaşı otuz beşdən aşağı olmayan, Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər.

### *Azərbaycan Respublikası Prezidenti seçkilərinin əsasları*

I. Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında, sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir.

II. Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

III. Bu səs çoxluğu səsvermənin birinci dövrəsində toplanmayıbsa, səsvermə günündən sonra ikinci bazar günü səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə ancaq birinci dövrədə ən çox səs toplamış iki namizəd, yaxud ən çox səs toplamış və öz namizədliyini geri götürmüş namizədlərdən sonra gələn iki namizəd iştirak edir.

IV. Səsvermənin ikinci dövrəsində səs çoxluğu toplayan namizəd Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

V. Heç kəs iki dəfədən artıq təkrarən Azərbaycan Respublikasının Prezidenti seçilə bilməz.

VI. Bu maddənin tətbiqi qaydası qanunla müəyyən edilir.

### *Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları*

Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında məlumatı səsvermə günündən sonra 14 gün ərzində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi rəsmən elan edir.

### *Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin andı*

I. Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxs Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında məlumatın elan olunduğu gündən başlayaraq, 3 gün ərzində Konstitusiya Məhkəməsi ha-

kimlərinin iştirakı ilə belə bir and içir: "Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm".

II. And içdiyi gündən Azərbaycan Respublikasının Prezidenti öz səlahiyyətlərinin icrasına başlamış sayılır.

### *Azərbaycan Respublikası Prezidentinin toxunulmazlığı*

Azərbaycan Respublikasının Prezidenti toxunulmazlıq hüququna malikdir. Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqəti qanunla qorunur.

### *Azərbaycan Respublikası Prezidentinin təminatı*

Azərbaycan Respublikasının Prezidenti və onun ailəsi dövlət hesabına təmin edilir. Azərbaycan Respublikası Prezidentinin və onun ailəsinin təhlükəsizliyini xüsusi mühafizə xidmətləri təmin edir.

### *Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri*

Azərbaycan Respublikasının Prezidenti:

1) Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri təyin edir;

2) Azərbaycan Respublikasının dövlət büdcəsini Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə təqdim edir;

3) dövlət iqtisadi və sosial proqramlarını təsdiq edir;

4) Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə Azərbaycan Respublikasının Baş nazirini vəzifəyə təyin edir; Azərbaycan Respublikasının Baş nazirini vəzifədən azad edir;

5) Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir; zəruri hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclaslarına sədrlik edir;

6) Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefası haqqında qərar qəbul edir;

7) Azərbaycan Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları yaradır;





8) Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktlarını ləğv edir;

9) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının Apellyasiya məhkəmələri hakimlərinin vəzifəyə təyin edilməsi haqqında Azərbaycan Respublikasının Milli Məclisinə təqdimatlar verir; Azərbaycan Respublikasının digər məhkəmələrinin hakimlərini vəzifəyə təyin edir; Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir;

10) Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir;

11) Azərbaycan Respublikasının hərbi doktrinasını Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir;

12) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali komanda heyətini vəzifəyə təyin və vəzifədən azad edir;

13) Azərbaycan Respublikası Prezidentinin İcra Aparatını təşkil edir və onun rəhbərini təyin edir;

14) Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir;

15) Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndəliklərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələrini təyin edir və geri çağırır;

16) xarici dövlətlərin diplomatik nümayəndələrinin etimadnamə və övdətnamələrini qəbul edir;

17) dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlayır, dövlətlərarası beynəlxalq müqavilələri təsdiq və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir; təsdiqnamələri imzalayır;

18) referendum təyin edir;

19) qanunları imzalayır və dərc edir;

20) vətəndaşlıq məsələlərini həll edir;

21) siyasi sığınacaq verilməsi məsələlərini həll edir;

22) əfv edir;

23) dövlət təltifləri ilə təltif edir;

24) ali hərbi və ali xüsusi rütbələr verir;

25) ümumi və qismən səfərbərlik elan edir, habelə səfərbərlik üzrə çağırılanları tərxis edir;

26) Azərbaycan Respublikası vətəndaşlarının müddətli hərbi xidmətə çağırılması və müddətli hərbi xidmətdə olan hərbi qulluqçuların ehtiyata buraxılması barədə qərarlar qəbul edir;

27) Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasını yaradır;

28) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir;

29) fövqəladə və hərbi vəziyyət elan edir;

30) Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır;

31) Azərbaycan Respublikasının dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş xərclər çərçivəsində xüsusi mühafizə xidmətləri yaradır;

32) bu Konstitusiya ilə Azərbaycan Respublikası Milli Məclisinin və məhkəmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər məsələləri icra qaydasında həll edir.



## YENİ MİNİLLİYİN İLK PREZİDENT SEÇKİLƏRİ

2003-cü il oktyabrın 15-i müstəqil Azərbaycanın yeni minillikdəki tarixinə ilk prezident seçkiləri günü kimi daxil oldu. Həmin gün milyonlarla seçici seçki məntəqələrinə gələrək qarşıdakı beş ildə ölkənin taleyini ən layiqli namizədə etibar etdiklərini bildirdi. Qəbul olunmuş yeni Seçki Məcəlləsi əsasında vətəndaşların öz iradələrini sərbəst ifadə etmələri üçün bütün tədbirlər görülmüşdü. Bunu hələ seçki günündən əvvəl Azərbaycana gəlmiş minə yaxın beynəlxalq müşahidəçi də təsdiq etmişdi.

Seçkilərə 8 namizəd qatılmışdı:

İlham Heydər oğlu Əliyev - ölkənin baş naziri;

Lalə-Şövkət Hacıyeva - Liberal Demokrat Partiyasının sədri;

Hafiz Ələmdar oğlu Hacıyev - Müasir Müsavat Partiyasının sədri;

Qüdrət Müzəffər oğlu Həsənquliyev - Azərbaycan Xalq Cəbhəsi Partiyasının Birləşdiricilər qanadının sədri;

İlyas Abbas oğlu İsmayılov - Ədalət Partiyasının sədri;

İsa Yunis oğlu Qəmbər - Müsavat Partiyasının başqanı;

Etibar Səlidar oğlu Məmmədov - Milli İstiqlal Partiyasının sədri;

Sabir Xudu oğlu Rüstəmxanlı - Vətəndaş Həmrəyliyi Partiyasının sədri.

Seçki öncəsi keçirilən monitorinqlərdə, aparılan rəy sorğularında, bir qayda olaraq, Yeni Azərbaycan Partiyasının sədr müavini, ölkənin baş naziri İlham Əliyevin seçkilərdə qeydsiz-şərtsiz qalib gələcəyi təxmin edilirdi.

Seçki günü bu təxminlər büsbütün özünü doğrultdu.

# PAYTAXT SAKİNLƏRİNİN YÜKSƏK FƏALLIĞI

***Xarici müşahidəçilər də, siyasi və ictimai təşkilatların seçki prosesini izləyən nümayəndələri də, KİV də Azərbaycanda XXI əsrin ilk prezident seçkilərinin böyük ruh yüksəkliyi ilə və mütəşəkkil keçdiyini dönə-dönə vurğuladılar. Gəlin öncə seçki saatlarının Bakıda - ölkə paytaxtında necə vurmasını müşahidə edək. Özü də AzərTAc-ın və "Azərbaycan" qəzetinin peşəkar jurnalistlərinin və onlara öz fikirlərini bildirən müxtəlif siyasi düşərgələrin nümayəndələrinin gözü ilə.***

*Səbail*

29 saylı Səbail seçki dairəsinin əhatə etdiyi 26 seçki məntəqəsində 34 min 368 nəfər seçicinin səs verməsi üçün lazımi şərait yaradılmışdı. İlk dəfə dəvət olunmuş xarici müşahidəçilər üçün tərcümə xidməti təşkil edilmiş, bütün məntəqələrdə seçki prosesi videolentə köçürülmüşdü. Məqsəd baş verə biləcək mübahisələrin qarşısını almaq idi. Bundan başqa, seçkiləri 71 yerli müşahidəçinin izləməsi üçün imkan yaradılmışdı. Bütün məntəqələrdə nəqliyyat, rabitə, səhiyyə və iaşə xidmətləri təşkil edilmişdi. Seçki dairəsi seçicilər üçün azad və ədalətli şərait formalaşdırmışdı.

17 saylı seçki məntəqəsində seçki günü əsl qələbəlik vardı. Axınla gələn insanlar növbəyə düzülərək səs verməyə tələsirdilər. Burada 1544 nəfər seçicinin 300 nəfərdən çoxu saat 10.00-da artıq səs vermişdi. Seçici Şahvələd Əmirov bildirdi ki, seçki tamamilə demokratik şəraitdə keçir, hər kəs öz istədiyi namizədə sərbəst şəkildə səs verir, heç bir təzyiqdən söhbət belə gedə bilməz.

17 saylı seçki məntəqəsində seçkilərə nəzarət edən Avropa Şurasının müşahidəçiləri Berit Lindeman və Romella Flories şəraitlə yaxından tanış oldular. Xarici müşahidəçilər seçki kabinələrinə, şəffaf qutulara baxdılar, səs verən seçicilərlə söhbət edib onların rəyini diqqətlə öyrəndilər. Onlar seçkinin gedişindən heç bir narazılıqları olmadıqlarını vurğuladılar.

Məntəqədəki müxalifət partiyalarından olan istər komissiya üzvləri, istərsə də müşahidəçilər prosesin normal, mövcud qayda-qanunlara əməl olunmaqla keçdiyini və heç bir qanun pozuntusunun qeydə alınmadığını etiraf etdilər. Müşahidəçilər - ALP üzvü Gülağa Axundov və Ümid Partiyasının üzvü Alay İmanov bildirdilər ki, heç bir ciddi pozuntu baş verməyib. Günortadan xeyli keçənədək seçki məntəqəsinə gələnlərin ardı-arası kəsilmirdi.





*Yasamal*

Rayonda yerləşən 4 dairənin 105 məntəqəsində 134 min seçici səs verməli idi. Seçicilərin normal səs vermələri üçün məntəqələrdə bütün texniki-təşkilati işlər vaxtında və keyfiyyətlə görülmüşdü.

16 saylı ikinci Yasamal seçki dairəsinin 24 məntəqəsi 37 min 553 seçicini əhatə edirdi.

Həmin dairənin 3 saylı məntəqəsinin sədri Fərrux Ağasıbəyli seçicilərin fəallığının yüksək olduğunu vurğuladı. Məntəqə sədri müşahidəçilərə seçki prosesini izləmək üçün hər cür şərait yaradıldığını qeyd edərək bir məqamı təəssüflə söylədi ki, müxalifət partiyalarının müşahidəçiləri öz hüquq və səlahiyyətlərini bilmirlər. Buna görə də seçki prosesində onlara öz hüquq və səlahiyyətlərini başa salmaq məcburiyyətində qalırlar.

Dairənin 24 saylı məntəqəsinin sədri Malik Heydərov da vətəndaşların seçkilərdə fəal iştirak etdiklərini, bunun üçün onlara hər cür şərait yaradıldığını vurğuladı. Sədr seçkilərin gedişinin yerli və xarici müşahidəçilər tərəfindən izlənildiyini söyləyərək qeyd etdi ki, onlar məntəqənin fəaliyyətinə heç bir irad tutmayıblar.

17 saylı Yasamal üçüncü seçki dairəsinin sədri Qədir Kərimov dairədə 30 minə yaxın vətəndaşın səs verməli olduğunu söylədi. Sədr vətəndaşların seçki prosesində fəallıq göstərdiyini xüsusi qeyd etdi. O, həmçinin bildirdi ki, seçki prosesi bütün məntəqələrdə yerli və xarici müşahidəçilər tərəfindən izlənilib. Bunun üçün onlara hər cür şərait yaradılıb. Qədir Kərimov da müxalifət partiyalarının bir çox nümayəndələrinin öz hüquq və səlahiyyətlərini bilmədikləri üçün seçki prosesinə müdaxilə etdiklərini vurğuladı.

Bu dairənin 1 saylı seçki məntəqəsinin sədri Əbülfəz Nağıyev müxalifət partiyalarının bəzi nümayəndələrinin məntəqədə qəsdən gərginlik yaradaraq seçki prosesinin gedişinə mane olduqlarını söylədi. O qeyd etdi ki, seçicilər bülleteni qutuya atarkən onlarla söhbət etdiyi, əllərindəki zərf və bülletenlərə baxdığı üçün məntəqə komissiyasının ADP-dən olan üzvü Əfşan Paşayev barəsində akt bağlanılıb. Lakin məntəqə sədri müşahidəçilərin işindən razılıq edərək onlarla heç bir problem olmadığını söylədi.

*Xətai*

Rayondakı seçki məntəqələri Avropa standartları səviyyəsində təşkil olunmuş, ən müasir texniki avadanlıqlar və rabitə xidməti ilə təchiz edilmiş, seçkilərin gedişi barədə məlumatların hər iki saatdan bir MSK-ya, oradan isə İnternetlə dünyaya çatdırılması üçün kompüterləşdirilmişdi. Seçkilərdə səsvermə hüququna malik 144 min 945 nəfər vətəndaş iştirak edirdi. Seçkilərin tam şəffaf və demokratik prinsiplər əsasında keçirilməsinə həm iqtidar, həm də müxalifət tərəfdən 1672 nəfər vətəndaş, o cümlədən müxtəlif ölkələrdən gəlmiş onlarla müşahidəçi və xarici kütləvi informasiya vasitələrinin təmsilçiləri nəzarət edirdilər.

Səsvermə zamanı heç bir qanun pozuntusu müşahidə olunmurdu. Bunu 23 saylı seçki dairəsinin 8 saylı seçki məntəqəsində məşvərətçi səslə iştirak edən Azərbaycan Milli İstiqlal Partiyası Xətai rayon təşkilatının üzvü Fikrət Heydərov və digər müşahidəçilər də təsdiq etdilər.

Səs verib məntəqədən ayrılan yurddaşlarımızdan bir neçəsi mediaya açıqlama verdi:

*Cəmilə Ramazanova, müəllimə:*

- Mən İlham Əliyevə səs verdim. İlham Əliyevin yeni neft strategiyasının uğurla irəliləməsində, Azərbaycan idmanının tərəqqisində böyük xidməti var. O, AŞPA sədrinin müavini və büro üzvü kimi dünyanın ən nüfuzlu siyasətçilərindən birinə çevrilib. İlham Əliyev xalqın mənafeyinin, milli maraqlarının, təhlükəsizliyinin, ölkədə ictimai-siyasi sabitliyin qarantıdır. Onun fəaliyyəti, sözün əsl mənasında, dövlət quruculuğu prosesinin bütün sahələrinin vahid sintezidir. Belə bir şəxsiyyətə necə səs verməyəsən...

*Ş. Abdullayev, "Odlar Yurdu" Universitetinin IV kurs tələbəsi:*

- İlham Əliyevə səs verdim. Mən uzun illər idmanla məşğul olmuşam. İdman mənim ömrümün ayrılmaz bir parçasıdır. Gəlin açıq etiraf edək ki, İlham Əliyevə qədər Azərbaycanda idmanı iflic vəziyyətinə salmışdılar. Bu sahəni inkişaf etdirən yalnız İlham Əliyev oldu. Bu gün Azərbaycanda idmanın kütləvi xarakter alması, bütün sahələr üzrə beynəlxalq yarışlarda qazandığımız böyük uğurlar və buna görə məmləkətimizin adının dünyanın idman salnamələrinə qızıl hərflərlə yazılması, respublikamızın onlarca rayonunda ucaldılmış və hazırda ucaldılmaqda olan dünya standartlarına uyğun nəhəng idman olimpiya kompleksləri Milli Olimpiya Komitəsinin sədri kimi məhz cənab İlham Əliyevin gərgin və səmərəli fəaliyyətinin nəticəsidir.





*Nəsimi*

22 saylı Nəsimi ikinci dairə seçki komissiyasının 23 və 24 saylı seçki məntəqələrində səhər saat 8.00-dan etibarən vətəndaşların axın-axın məntəqələrə gəldikləri müşahidə edilirdi. Hər iki məntəqədə seçkilərə dair təlimat xarakterli broşürlar və kitabçalar, habelə bülletenlərin qeydinə kömək məqsədilə nümunələr qoyulmuşdu. 23 saylı məntəqənin sədri Ə. Rüstəmovun bildirdiyinə görə, burada 1266 nəfər səs verməli idi. Səsvermənin gedişatını xarici ölkələrin nümayəndələri ilə yanaşı, yerli müşahidəçilər də izləyirdilər və qanun pozuntusu hallarına rast gəlmədiklərini vurğulayırdılar.

1445 seçicini əhatə edən 24 saylı məntəqənin sədri D.Əsgərova da əhalinin xüsusi fəallığını, seçkilərin gedişatına mane ola biləcək hər hansı qanunazidd hərəkətlərin qeydə alınmadığını söylədi. Yeni Azərbaycan Partiyasından müşahidəçi Adil Şükürov səsvermə prosesinin normal qaydada, şəffaf getdiyini vurğuladı. Qeyd etdi ki, hər iki məntəqədə yaradılan şərait, demokratik ab-hava vətəndaşların öz iradəsini sərbəst şəkildə ifadə etməsinə imkan verir. Bütün bunlar xarici və yerli müşahidəçilərin gözləri qarşısında baş verdiyindən hamı seçici hüquqlarına necə hörmətlə yanaşıldığını yaxşı görür. Bitərəf müşahidəçi E. Cabbarov da məntəqələrdə səsvermənin gedişindən razılığını, saxtakarlığa yol verilmədiyini bildirdi.

*Nərimanov*

16 saylı seçki məntəqəsində seçicilər fəallıq göstərirdi. Vətəndaşlar bir-bir müxtəlif partiyalardan olan müşahidəçilərin gözü qarşısında qeydiyyatdan keçir, səsvermə kabinəsində prezident görmək istədiyi namizədin adının önündən işarə edib bülletenini qutuya salırdı. Məntəqə seçki komissiyasının sədri Xalidə Bağırova, eləcə də müşahidəçilərlə söhbət etdik. ADP nümayəndəsi Nazim Abbasov dedi:

- Saat 12-yə az qalır. Səsvermənin gedişində qanun pozuntusuna və digər neqativ hallara yol verilməyib.

Söhbətimizə rayonun veteranlarından hesab olunan - Xuluflu küçəsi 27, mənzil 21-də yaşayan Yuri Qorbaçov da qoşuldu:

- Mən milliyyətcə rusam, yaxınlıqda yaşayıram. Həyat yoldaşımla səsverməyə gəlmişəm. Səsvermənin təşkilindən çox razı qaldıq. Biz ailəlikcə İlham Əliyevə səs vermişik və bundan çox məmnunuq.

17 saylı seçki məntəqəsində də əsl qələbəlik idi. Üzü təbəssümlü seçicilər musiqi sədaları altında səsvermə məntəqəsinə daxil olurdu. Mən

təqənin önündə seçicilərdən biri ilə - 76 yaşlı ağsaqqal Xəlil Ələkbərovla həmsöhbət oluruq:

- Böyük sevinc içindəyəm. Məntəqədə üçüncü səs verən mən olmuşam. Bayaqdan burada səsverməyə gələn tanışlarımla söhbətləşirik. Biz hamımız böyük inamla balalarımızın, nəvələrimizin xoşbəxt gələcəyi və ölkəmizin tərəqqisi naminə İlham Əliyevə səs verdik.

Rayonun 15 saylı seçki məntəqəsində də eyni qələbəlik idi. Məntəqə sədri İsrafil İbrahimov bildirdi ki, səsvermədə 1035 nəfərin iştirakı üçün hər cür şərait yaradılıb. Xüsusi düzümlə öz yerlərində əyləşib öz müşahidəçilik missiyasını yerinə yetirən nümayəndələrlə söhbət etdik. Müsavat Partiyasının nümayəndəsi Elşən Əhmədov məntəqə sədri və həmkarlarının fikirləri ilə razılaşaraq bildirdi ki, səsvermə prosesində heç bir qanun pozuntusu müşahidə olunmayıb.

19 saylı Nərimanov birinci seçki dairəsinin 25 saylı seçki məntəqəsində də səsvermə yüksək səviyyədə təşkil olunmuşdu. Bunu ATƏT-in müşahidəçi missiyasının üzvü, Azərbaycandakı ABŞ səfirliyinin nümayəndəsi və Moskvadan gəlmiş müşahidəçilər də məmnunluqla bildirdilər.

***Nizami***

Rayonda prezident seçkilərinə vaxtında və ciddi hazırlıq işi görülmüş, seçicilərin səsvermədə fəal iştirakı üçün lazımi tədbirlər həyata keçirilmişdi. Nizami rayonunda üç dairə seçki komissiyası fəaliyyət göstərirdi. 24, 25 Nizami və 26 saylı Nizami-Sabunçu dairə seçki komissiyalarının 71 seçki məntəqəsində 86024 nəfər səs verməli idi.

24 saylı Nizami birinci seçki dairəsinin sədri Nurəli Rəhimov qeyd etdi ki, çox yüksək fəallıqla keçən səsvermədə heç bir qanun pozuntusu qeydə alınmayıb. N. Rəhimovun sözlərini dairə seçki komissiyasının digər üzvləri də təsdiqlədilər.

25 saylı Nizami ikinci seçki dairəsinin sədri Edilman Məmmədovsa bildirdi ki, səsvermədə iştirak edəsi 35459 nəfərdən saat 14.00-dək təxminən 17000-i səs vermişdir. 19 saylı məntəqənin sədri Maral Seyidəliyeva və komissiyanın üzvü bitərəf Amil Kərimov da seçkinin şəffaf keçirildiyini, müşahidəçilər və nəzarətçilər üçün hər cür şərait yaradıldığını və heç bir qanun pozuntusu halları olmadığını söylədilər. Vətəndaş Həmrəyliyi Partiyasının nümayəndəsi Yusif İsmayılov və AXCP-nin nümayəndəsi Yaşar Məmişov da deyilənləri təsdiqlədilər.





Həmin məntəqədə səs verən Azərbaycan Dövlət Tibb Universitetinin üçüncü kurs tələbəsi, prezident təqaüdçüsü Afət Cabbarova qeyd etdi ki, ilk dəfədir səs verir. O, oktyabrın 15-nin yaddaşında ən unudulmaz gün kimi qalacağını söylədi. A. Cabbarova və onun kimi ilk dəfə səs verən Azərbaycan Dövlət Neft Akademiyasının tələbəsi Ceyhun Şirzadov bildirdilər ki, bu seçki onlarda demokratik və azad ölkənin vətəndaşları olduqlarına bir daha əminlik yaratdı.

***Sabunçu***

27 saylı Sabunçu birinci seçki dairəsi 30 məntəqəni birləşdirirdi. 40 min nəfərə qədər seçicinin səs verməli olduğu bu məntəqələrdə təşkilati işlər yüksək səviyyədə qurulmuşdu. Dairə seçki komissiyasının sədri Aydın Hüseynovun məlumatına görə, seçicilərin fəallığı olduqca yüksək idi. Adamlar yalnız ruh yüksəkliyi ilə yox, olduqca ciddi prinsipiallıqla seçkiyə gəlirdilər. Təkcə son saatların yekunlarına diqqət yetirməklə bu dinamikanı aydın şəkildə görmək olardı: saat 10-da 5 min, saat 12-də 13500, saat 15-də 22 mindən çox seçici səs vermişdilər. Bu, o demək idi ki, saat 15-in nəticələrinə görə, dairədə seçkini baş tutmuş hesab etmək olardı.

Dairənin tərkibindəki 9 və 10 saylı məntəqələr Bakıxanov adlı mədəniyyət sarayında yerləşirdi. Məntəqələrdəki seçici fəallığı elə ilk baxışdan diqqəti cəlb edirdi. Seçkilərin gedişini müşahidə edən müxtəlif siyasi partiyaların nümayəndələri ilə söhbət etdik. Yeni Müsavat Partiyasının nümayəndəsi Rafael Abbasov və AMİP-çi Məhərrəm Ələkbərov seçkinin gedişində ciddi qanun pozuntuları olmadığını söylədilər. Dedilər ki, bəzi xırda qüsurlar olsa da, onlar seçkinin gedişinə təsir edəcək dərəcədə deyillər. Hər iki müxalifət nümayəndəsi bildirdi ki, onlar son illərdə dəfələrlə seçkilərdə müşahidəçi kimi iştirak ediblər. Amma seçicilərin fəallığını indiki qədər yüksək görməyiblər. Eyni fikri Ana Vətən Partiyasının nümayəndəsi müşahidəçi Atəş Verdiyev də söylədi.

***Suraxanı***

Respublikanın hər yerində olduğu kimi, paytaxtın Suraxanı rayonunda da böyük bir canlanma, ruh yüksəkliyi var idi. Səsvermə hüququ olan vətəndaşlar siyasi fəallıq göstərərək dəstə-dəstə səsvermə məntəqələrinə gəlirdilər. Bunu Suraxanı rayonunun ərazisində yerləşən bütün seçki mən-

təqələrində açıq-aydın görmək olardı. Məlumat üçün qeyd edək ki, Suraxanı rayonunda 36 min 345 nəfər səsvermə hüququ olan vətəndaş yaşayır. Burada üç dairə seçki komissiyası fəaliyyət göstərirdi. 31 saylı Suraxanı seçki dairəsinin sədri Elçin Cabbarovun verdiyi məlumata görə, onun rəhbərlik etdiyi DSK-nın tərkibində 28 seçki məntəqəsi səs toplayırdı. Bunların 14-ü Qaraçuxurda, 14-ü isə Yeni Günəşlidə yerləşirdi.

Yeni Günəşlidə fəaliyyət göstərən 21 və 22 saylı seçki məntəqələri 279 saylı orta məktəbin binasında yerləşirdi. Burada seçicilər üçün hər cür şərait yaradılmışdı. 21 saylı məntəqənin sədri Məmməd Əliyevin verdiyi məlumata görə, məntəqənin fəaliyyət göstərdiyi ərazidə 1473 nəfər səsvermə hüququ olan vətəndaş yaşayır. Həmin vətəndaşlar səsvermədə xüsusi fəallıq göstərir, axın-axın məntəqəyə gəlib səsvermədə iştirak edirdilər. Onların səs verməsi üçün hər cür şərait yaradılmışdı. Onun fikirlərini burada müxtəlif partiyaları təmsil edən 20 nəfər müşahidəçi də təsdiqlədi. ATƏT-dən iki nəfər nümayəndə gəlmişdi. Onlar da seçicilərə yaradılan şəraitdən razı qaldıqlarını bildirdilər.

Azərbaycan Neft Akademiyasının IV kurs tələbəsi Dursun Abdullayev jurnalistlərə dedi:

- Mən ilk dəfədir ki, səsvermədə iştirak edirəm və tarixi bir gün yaşayıram. Bu gün ömrümə yazılan bir gündür. Müstəqil Azərbaycanın vətəndaşı kimi prezident seçkilərində iştirak etdiyimə sevinirəm. Ona görə sevinirəm ki, xalqımızın ləyaqətli oğluna, özümüzün gələcəyimizə və gəncliyin qayğıkeşinə verilən səslər içərisində mənim də səsim var.

***Binəqədi***

8 saylı birinci Binəqədi seçki dairəsinin 20, 21 və 22 saylı məntəqələri 276 saylı məktəbdə təşkil olunmuşdu.

20 saylı seçki məntəqəsinin sədri Fərhad Tərlanov səsvermənin normal getdiyini qeyd etdi.

Azərbaycan Milli İstiqlal Partiyasının üzvü Vaqif Əliyev, müstəqil müşahidəçi Mübariz Rəhimov və məntəqələrə təhkim olunmuş digər müşahidəçilər seçki prosesi zamanı heç bir problemlə üzləşmədiklərini bildirdilər.

Müsavat Partiyasının üzvü Ramil Şavruqov da kiçik texniki qüsurlar istisna olunmaqla seçki prosesinin yüksək səviyyədə keçdiyini qeyd etdi.

215 saylı uşaq bağçasının binasında yerləşən ikinci seçki dairəsinin 23 saylı məntəqəsində, əsasən, cəzaçəkmə müəssisələrində qeydiyyatda olan vətəndaşlar səs verirdi. Böyük fəallıq müşahidə olunan məntəqədə Liberal Partiyasının nümayəndəsi Ehram Nuriyev və Xalq Cəbhəsi Partiyasının üzvü Elman Əliyev gözlədiklərindən də yüksək fəallıq və şəffaf prosedur müşahidə etdiklərini söylədilər. Beynəlxalq müşahidəçilərin də dediyinə görə, səsvermə heç bir nöqsan olmadan keçirilirdi.





8 saylı birinci seçki dairəsinin 28-ci məntəqəsində ATƏT nümayəndələri, habelə müşahidəçi İsrafil Hüseynli bəzi vətəndaşların texniki səbəblərdən adlarının tərtib olunmuş siyahılarda olmadığını qeyd etsələr də, ümumiyyətlə, seçkilərin yüksək səviyyədə keçirildiyini bildirdilər. Həmin vətəndaşlar isə rayon məhkəməsinin vasitəsilə, qanuna müvafiq qaydada, seçkilərdə istədikləri namizədə səs verdilər.

Rayondakı 143 saylı orta məktəbdə təşkil olunmuş 9 saylı 2-ci seçki dairəsinin 9-cu məntəqəsində bəzi xırda texniki nöqsanlar qeyd edildi. Bu, əsasən siyahıların tərtibatı ilə bağlı idi. Milli İstiqlal Partiyasının üzvü Ramin Ağakişiyev, Demokratik Seçki Məntəqəsinin nümayəndəsi Gülsüm Hüseynəliyeva və müstəqil müşahidəçi Arif Zərbəliyev seçki prosesinin normal şəraitdə və yüksək fəallıqla keçdiyini vurğuladılar.

***Əzizbəyov***

Əzizbəyov rayonu üzrə 75488 nəfər seçici var idi. Bundan ötrü 13 və 14 saylı 2 dairə, 60-a yaxın məntəqə seçki komissiyaları yaradılmışdı. Jurnalistlər 13 saylı dairə seçki komissiyasının 1 və 2, 14 saylı dairə seçki komissiyasınınsa 7 saylı məntəqəsinə baş çəkdilər. Seçicilərlə, komissiya üzvləri ilə, müşahidəçilərlə görüşüb fikirlərini öyrəndilər, orada olduqları müddətdə seçkinin gedişini izlədilər. Ötən seçkilərə nisbətən çox yüksək fəallığın, mütəşəkkilliyin, seçkiyə böyük marağın şahidi oldular.

Hər üç məntəqədə artıq saat 11-12 radələri olmasına baxmayaraq, seçicilərin təqribən 25-30 faizi öz səsini vermişdi. Məntəqə seçki komissiyalarının sədrləri Mansur Qafarov, Mürvət Mirzəliyev və Flora Hüseynova seçki təcrübələrində heç vaxt belə fəallığın şahidi olmadıqlarını bildirdilər. Qeydiyyat məsələlərindəki uyğunsuzluqlar ucundan bəzi seçicilərin adları siyahılara düşməmişdi. Komissiya üzvlərinin səyi nəticəsində bu məsələ qısa müddətdə məhkəmələr vasitəsilə yoluna qoyulurdu.

Saat 11.30-da 1 saylı məntəqədə 1488 seçicidən 350-si səsvermədə iştirak etmişdi. Məntəqə sədri Mansur Qafarovun dediyinə görə, heç bir şikayət daxil olmamış, hüquq pozuntusu qeydə alınmamışdı.

Müxalifət nümayəndələri olan müşahidəçilər də əsaslı narazılıqların olmadığını vurğulayırdılar: Adəm Hüseynov (ADP üzvü, 1 saylı məntəqə-

nın komissiya üzvü): Seçkinin gedişindən əsasən razıyam. Ciddi qanun pozuntusu müşahidə etməmişəm. Amma 1-2 nəfərin xarici ölkələrə getmək üçün verilən pasportla səs vermək istədiyinin şahidi oldum.

*Vaqif Mehdiyev (Liberal Partiyası, müşahidəçi):* -Seçki yaxşı gedir. Maraq böyükdür. Bəzi seçicilər narazılıq edirlər ki, bir ailədən siyahıda atanın adı var, oğulun yoxdur, yaxud əksinə. Komissiya üzvləri bu məsələni yerindəcə aydınlaşdırıb səs vermək üçün lazımi şərait yaradırlar.

*Nizami Nasirov (Müsavat Partiyasının üzvü, 2 saylı məntəqədə müşahidəçi):* - Seçki hələlik normal gedir. Narazılıq yoxdur. Siyahıya 140 nəfərin adı əlavə olunmuşdu. Bu, bizim üçün qaranlıq qalırdı. Komissiya sədri izahat verdi ki, onlar cəzaçəkmə müəssisələrindən buraxılanlardır. Hələlik ayrı problem yoxdur.

*Rafiq Yusifov (Müsavat Partiyasının üzvü, 7 saylı məntəqədə müşahidəçi):* - 20 nəfər adı siyahıda olmadığı üçün geri qaytarılıb. Məhkəmə onların səsvermə hüququnu bərpa etməlidir. Başqa narazılıq, hüquq pozuntusu müşahidə etməmişəm. Səsvermə demokratik keçir, heç bir təzyiq göstərən yoxdur.

*Bahaddin Əsgərov (AMİP-in üzvü, 7 saylı məntəqədə müşahidəçi):* - Mən də həmkarımla razıyam. Siyahıda adı olmayanlar var. Bu MİS-lərin günahıdır. Həmin məsələ qaydaya salınır. Ayrı narazılığım yoxdur.

Jurnalistlər 2 saylı məntəqədə ATƏT-in müşahidəçiləri - italiyalı Covanni Kesler, danimarkalı Kime Şon, norveçli Yan Yohan ilə görüşüb söhbət etdilər. Onlar müşahidə apardıqları müddətdə qanun pozuntusu qeydə almadıqlarını, seçkinin demokratik şəraitdə keçdiyini bildirdilər. Dedilər ki, seçicilərin fəallığı, seçkiyə böyük maraq göstərməsi demokratiyanın bir hissəsidir. Azərbaycan gənc demokratik respublikadır. İnkişaf müşahidə olunur. İnsanlarınız səmimidirlər.





## BAŞ NAZİR İLHAM ƏLİYEV 6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏS VERDİ

Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsində xüsusi canlanma müşahidə olunurdu.

Azərbaycan Respublikasının baş naziri, prezidentliyə namizəd İlham Əliyev səhər saat 11-də xanımı və qızı ilə birlikdə səs verməyə gəldi. Seçki məntəqəsinin qarşısında Azərbaycan hökumətinin başçısına gül-çiçək təqdim olundu.

Baş nazir İlham Əliyev səsvermə otağına gəlib seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı. Bu anı yerli və xarici ölkələrin onlarca mətbuat orqanının, televiziya kanallarının nümayəndələri izləyirdilər.

İlham Əliyevin xanımı Mehriban Əliyeva və qızı Leyla da səs verdilər.

Sonra baş nazir İlham Əliyev seçki məntəqəsində yerli və xarici kütləvi informasiya vasitələrinin çoxsaylı müxbirlərinin suallarına cavab verdi.

**SUAL:** Seçkilərlə əlaqədar Sizin fikrinizi bilmək istərdik. Seçki kampaniyasına münasibətiniz necədir?

**CAVAB:** Münasibətim çox müsbətdir. Seçki kampaniyası çox uğurla başa çatır. Əminəm ki, bu seçkilər Azərbaycanın xoşbəxt gələcəyi üçün mühüm bir addım olacaqdır. Mən arzu edirəm ki, ölkəmiz qüdrətli, zəngin dövlətə çevrilsin. Azərbaycanda yaşayan hər bir insan normal həyata layiq olsun. Əminəm ki, bu, belə də olacaqdır.

**SUAL:** Əhval-ruhiyyəniz necədir?

**CAVAB:** Əhval-ruhiyyəm çox yaxşıdır, çox gözəl hisslər keçirirəm. Əminəm ki, bu seçkilər Azərbaycan cəmiyyətinin inkişafında, xalqımızın rifah halının yüksəlməsində və dövlətçiliyimizin möhkəmlənməsində mühüm addım olacaqdır.

**SUAL:** Siz kimə səs verdiniz?

**CAVAB:** Mən Azərbaycanın xoşbəxt gələcəyinə səs verdim.

**SUAL:** Seçkilərin gedişindən razısınızmı?

**CAVAB:** Bəli, razıyam.

**SUAL:** Prezident seçilərsinizsə, ilk addımlarınızı bilmək olarmı?

**CAVAB:** Əgər mənə etimad göstərilərsə, bütün addımlarım - istər ilk, istərsə də sonrakı addımlarım Azərbaycanın dövlətçiliyinin, suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsinə, iqtisadi inkişafa, sosial problemlərin həllinə, xüsusilə daha ağır şəraitdə yaşayanların - qaçqınların, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına, Dağlıq Qarabağ probleminin ədalətli və beynəlxalq hüquq normalarına uyğun şəkildə həllinə yönəldiləcəkdir.

**SUAL:** Seçkilərdə əhalinin fəallığı Sizi razı salırmı?

**CAVAB:** Bəli. Mənə verilən məlumatlara görə, o cümlədən televiziya kanallarından verilən reportajlara əsasən, deyə bilərəm ki, fəallıq çox yüksək səviyyədədir, artıq səhər saatlarında əhalinin böyük bir hissəsi öz münasibətini bildiribdir. Bu, təbiidir. Çünki bu gün Azərbaycanın gələcək inkişafı, hansı yolla irəliləyəcəyi müəyyən olunur. Əlbəttə, insanlarımızın fəallığı başa düşüləndir və təbiidir.

**SUAL:** Prezident seçilsəniz, Azərbaycan mətbuatı ilə bağlı hansı addımları atacaqsınız?

**CAVAB:** Atılacaq bütün addımlar Azərbaycanda söz azadlığının, demokratiyanın daha da inkişafına yönəldiləcəkdir. Bu, mətbuata da aiddir. İndi mən hansısa konkret söz deyə bilmərəm və heç bir vəd vermək istəmirəm. Amma əminəm ki, görüləcək bütün tədbirlər Azərbaycanın milli maraqlarının daha da ciddi şəkildə qorunmasına yönəldiləcəkdir.

**SUAL:** Siz ilk turda qalib gələcəyinizə əminsinizmi?

**CAVAB:** Mən özümün və yaxud digər namizədlərin şansını əvvəlcədən qiymətləndirmək istəmirəm və hesab edirəm ki, bu, düzgün deyildir. Heç kimə qabaqcadan nəticələr çıxarmağı məsləhət görmürəm. Lakin demək istəyirəm ki, keçirilmiş seçkiqabağı kampaniya və Azərbaycan vətəndaşlarının mənə göstərdiyi münasibət belə bir əminlik yaratmışdır ki, onlar öz seçimlərini etmişlər və bu seçim seçkilərin nəticələrində öz əksini tapacaqdır. Azərbaycana sülh, sabitlik, iqtisadi inkişaf, beynəlxalq aləmə inteqrasiya lazımdır. Ölkəmizə vətəndaş müharibəsinə, xaosa, anarxiyaya və cəhalətə qayıtmaq lazım deyildir. Azərbaycan əhalisinin böyük əksəriyyəti bunu çox gözəl başa düşür.

**SUAL:** Gürcüstanda da Sizin seçkilərdə qalib gəlməyinizi arzulayırlar. Bununla bağlı nə deyərdiniz?





**CAVAB:** Təşəkkür edirəm. Gürcüstan vətəndaşlarına öz minnətdarlığımı bildirirəm. Bizim ölkələrimiz arasında münasibətlər qarşılıqlı anlaşma və dostluq əsasında, xalqlarımızın mənafeyi naminə daha da möhkəmlənməlidir.

**SUAL:** Seçkilərin bu günədək gedişi haqqında fikrinizi öyrənmək istərdik.

**CAVAB:** Seçkiqabağı kampaniya azad və şəffaf şəraitdə keçirilib, hər bir kəs bütün məsələlərə öz münasibətini bildirmək imkanına malik idi. Əminəm ki, bugünkü seçkilər azad və demokratik şəraitdə keçəcək və Azərbaycan xalqı özü kimə səs verəcəyini sərbəst və açıq şəkildə müəyyən edəcəkdir.

***

Yerli müşahidəçilər səsvermənin gedişini izləyirdilər. Oraya ATƏT-in müşahidəçilər missiyasının nümayəndəsi, Avropa Şurası Parlament Assambleyasının məruzəçisi Martines Kassan da gəlmişdi.

Azərbaycanın hər yerində olduğu kimi, 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsində də seçicilər böyük fəallıqla səs verirdilər.

# AZƏRBAYCANIN BÖLGƏLƏRİ DƏ SEÇKİYƏ FƏAL QOŞULDULAR

Seçki günü tək Bakıda deyil, Azərbaycanın bütün bölgələrində bir canlanma müşahidə olunurdu. AzərTAc-ın və "Azərbaycan" qəzetinin müxbirləri ölkədəki seçki prosesini büsbütün izləyib hər şeyi olduğu kimi salnaməyə çevirdilər...

*Gəncə*

Hansı məntəqəyə gedirdinsə, insan əlindən tərpənmək olmurdu. Seçicilər növbəyə düzülmüşdülər. Hamı öz vətəndaşlıq borcunu yerinə yetirməyə tələsirdi. Hər bir seçiciyə öz seçimini sərbəst ifadə edə bilməsi üçün hər cür şərait yaradılmışdı. İlk dəfə tətbiq olunan şəffaf qutularda hər kəsin "səsi" aydın görünürdü.

Müxtəlif partiyaların nümayəndələri səsvermənin gedişinə cidd-cəhdlə göz qoyurdular.

Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının, Texnologiya Universitetinin, Humanitar kollecin, 1 və 5 saylı məktəblərin binalarında yerləşən məntəqələrdə əsl bayram əhval-ruhiyyəsinin şahidi olurdun...

Şəhərdəki 4 seçki dairəsinin 104 məntəqəsində səsvermə mütəşəkkil başlandı. Akademiyanın binasındakı 10 saylı məntəqədə yüz yaşlı professor, respublikanın əməkdar zootexniki Rəhim Mehdiyev öz ürək sözlərini söylədi:

- Çox şadam ki, vaxtilə cümhuriyyətin fəaliyyət göstərdiyi bu tarixi binada indi müstəqil ölkəmizin daha xoş gələcəyi naminə səs verirəm. Baxıram, hər yerdə seçki necə ədalətli, obyektiv, əsl demokratik yolla keçir. Bu da bir nailiyyətdir. İndi Azərbaycanı tanımaq olmur. Hər sahə ilbəil, aybaay inkişaf edir, gözəlləşir, dünya miqyasında özünəlayiq yer tutur.

Müxalifətin nümayəndələrinin rəyləri də müsbət idi.

38 saylı Nizami ikinci seçki dairəsində Vətəndaş Həmrəyliyi Partiyasının təmsilçisi Lena Məmmədova ilə söhbət etdik.

- Seçkilərə hazırlığın ilk vaxtlarından mən bu işlə bağlıyam - dedi. Dairə və məntəqələrin formalaşdırılmasında iştirak etmişəm. Seçki Məcəlləsinə uyğun olaraq hər yerdə müxalifət partiyalarının nümayəndələrinə kifayət qədər yer ayrılıb. Onların sərbəst fəaliyyəti üçün lazımi şərait yaradılıb. Heç yanda, heç bir hüquq pozuntusu görməmişəm. Günün müxtəlif vaxtlarında 6, 10, 11, 21 və 22 saylı məntəqələrdə olmuşam. Camaat axışıb gəlir. Müşahidəçilərlə, seçicilərlə söhbət etmişəm. Heç bir problem, heç bir xoşagəlməz hadisə yoxdur. Seçki prosesi demokratik şəkildə gedir.





37 saylı Nizami birinci seçki dairəsində Azərbaycan Liberal Partiyasını Fikrət İmaməliyev təmsil edirdi. Onun da fikri öyrənildi:

- Hələlik heç bir iradım yoxdur, - dedi, - səhərdən bəri məntəqələri gəzirəm. Yeni Gəncə, Bağmanlar, Mahrasa bağı sahələrində olmuşam. Adamlarda böyük ruh yüksəkliyi duyulur. Hamı seçkiyə həvəslə gəlir. Məntəqələrdə iş yaxşı qurulub. Müxtəlif partiyaların müşahidəçilərinə lazımi şərait yaradılıb. Səsvermə normal keçir. Seçicilərə heç bir təzyiq, təsir göstərilmir. Mən elə bilirəm ki, bu seçki Azərbaycanda demokratiyanın inkişafında irəliyə doğru atılan uğurlu addımlardan biridir.

Bu seçkinin xarakterik cəhətlərindən biri də o idi ki, yerlərə çoxlu xarici müşahidəçilər də gəlmişdilər. Humanitar kollecin binasındakı 6 saylı məntəqədə ATƏT-in müşahidəçisi Maykl Katula jurnalistlərə dedi ki, bir həqiqət yeqindir, adamlar çox gəlirlər, hamı seçkidə ürəklə iştirak edir.

*Naxçıvan*

Oktyabrın 15-də Naxçıvan Muxtar Respublikası adi günlərdən fərqlənən, tarixə çevrilən əlamətdar bir gün yaşadı. Prezident seçkilərində iştirak edən hər bir naxçıvanlının çöhrəsində qətiyyət, öz seçiminə inam duyulurdu. Son illər muxtar respublikada geniş vüsət almış quruculuq, abadlıq işləri, yeniləşən, gəncləşən Naxçıvanın bugünkü işıqlı siması onun xoş gələcəyindən soraq verdiyi üçün naxçıvanlılar verilən hər bir səsin qiymətini və dəyərini yaxşı bilir, elliklə seçkidə iştirak edirdilər.

Naxçıvan şəhərindəki 37 seçki məntəqəsinin hamısında böyük qələbəlik idi. Hər yerdə ətrafa şən musiqi sədaları yayılırdı. 15 nömrəli orta məktəbin binasında yerləşən 4-18 saylı seçki məntəqəsində həm müxalifətin, həm də iqtidarın müşahidəçiləri iştirak edirdilər. Müsavat Partiyasının nümayəndəsi Oruc Əsgərov və YAP nümayəndəsi Kəmalə Mustafayeva bildirdilər ki, seçkilər şəffaf və demokratik şəraitdə keçir və heç bir pozuntuya yol verilməyibdir.

4-26 saylı məntəqə seçki komissiyasının sədri Nemət Əliyarov dedi ki, komissiya üzvləri və müşahidəçilər YAP, AXCP, Müsavat Partiyası və Azərbaycan Liberal Partiyasının nümayəndələrindən ibarətdir.

Onlarla söhbət zamanı məlum oldu ki, bu məntəqələrdə seçki yüksək əhval-ruhiyyə, şəffaflıq və demokratiya şəraitində keçib, heç bir xoşagəlməz hadisə və qanun pozuntuları baş verməyib.

***Sumqayıt***

Respublikanın bütün bölgələrində olduğu kimi, Sumqayıtda da seçicilər yüksək mütəşəkkillik nümayiş etdirdilər. Şəhər sakinləri seçki məntəqələrinə gələrək öz mövqelərini bildirdilər. Sumqayıtda yerləşən 42 saylı seçki dairəsinin 7 saylı seçki məntəqəsinin sədri Aydın Musayev prosesin kifayət qədər şəffaf şəraitdə keçirildiyini və seçicilərin fəallığının qənaətbəxş olduğunu söylədi. Onun sözlərinə görə, burada heç bir ciddi qanun pozuntusu qeydə alınmamış, vətəndaşların sərbəst şəkildə səs verməsinə tam imkan yaradılmışdır. Lakin bəzi problemlər də var idi. Belə ki, burada müxalifət nümayəndələri müxtəlif təxribatlar törətməklə səsvermə prosesini pozmağa cəhd göstərmişdilər. Namiq Orucovun verdiyi məlumata görə dairə seçki komissiyasının Cahan Əliyeva adlı müsavatçı üzvü seçki məntəqəsində təbliğat işi aparmağa cəhd göstərmiş, ona edilən xəbərdarlıqlara baxmayaraq ciddi qanun pozuntusu hesab olunan hərəkətlərə yol vermişdi. Bundan başqa o, Nizami Quliyev adlı müşahidəçinin şəxsiyyətini təhqir etməkdən belə çəkinməmişdi. N. Orucovun sözlərinə görə, ümumiyyətlə, müxalifətdən olan müşahidəçilər Seçki Məcəlləsinin müvafiq maddələrini kobud şəkildə pozmuşlar. Onlar məntəqəyə baş çəkən beynəlxalq müşahidəçilərə də yanlış məlumatlar verməyə cəhd göstərmişlər.

Həmin dairənin 8 saylı məntəqəsində də müxalifət nümayəndələrinin seçkini pozmaq cəhdləri oldu.

Qeyd edək ki, hər iki məntəqədə seçicilər azad şəkildə öz seçimlərini edir və bu cür təxribatlara fikir vermirdilər. Məntəqədən kənarda jurnalistlərlə söhbət edən seçici Rəşad Əliyev səsvermə zamanı heç bir maneəyə rast gəlmədiyini və istədiyi namizədə sərbəst şəkildə səs verdiyini söylədi. O, hətta hansı namizədə səs verdiyini də açıq şəkildə bildirdi: "Azərbaycan vətəndaşlarının əksəriyyəti kimi, mən də sabitliyin və inkişafın təminatçısı olan Heydər Əliyev siyasi kursuna səs vermişəm. Hesab edirəm ki, bu, ən doğru seçimdir". Digər bir seçici Mehdiqulu Hüseynov isə öz seçimini çoxdan müəyyənləşdirdiyini və İlham Əliyevin lehinə səs verdiyini açıqladı. 8 saylı məntəqədə səs verən Cəmilə Əliyeva da Heydər Əliyev siyasi kursunun Azərbaycana yalnız uğur gətirdiyini vurğulayaraq İlham Əliyevin namizədliyini dəstəklədiyini söylədi. Ümumiyyətlə, məntəqədən kənarda söhbətə qoşulan əksər sumqayıtlı seçicilər Heydər Əliyev siyasi kursuna etimad göstərdiklərini gizlətmədilər. Onların bir çoxu öz seçimlərini həm də cənab prezidentin Sumqayıta məlum səfərindən sonra şəhərdə müşahidə edilən müsbət dəyişikliklərlə əsaslandırırdılar.





***Ağdam***

Prezident seçkiləri Azərbaycanda əhalinin siyasi fəallığının yüksək olduğunu bir daha nümayiş etdirdi. Elə Sumqayıt şəhərində yerləşən 119 saylı Ağdam kənd seçki dairəsinin 37 saylı məntəqəsində də bunun şahidi olardın. İlk növbədə onu qeyd edək ki, məntəqənin qarşısında seçkilərin bayram ovqatında keçdiyini təsdiqləyən canlı musiqinin təşkil olunması insanların bu prosesə böyük həvəslə qatıldığını nümayiş etdirirdi. Məntəqənin sədri Şakir Səfərov heç bir qanun pozuntusunun qeydə alınmadığını və ağdamlıların seçkilərdə yüksək əhval-ruhiyyə ilə iştirak etdiyini söylədi. Saat 13.00-a qədər 811 seçicidən təxminən 300 nəfəri səs vermişdi. Müşahidəçi Xanış Məmmədovun verdiyi məlumata görə isə seçicilər heç bir çətinliklə qarşılaşmadan prosesdə fəal iştirak edirdilər və məntəqənin işi kifayət qədər effektli şəkildə təşkil olunmuşdu.

Məntəqənin sədri komissiya üzvlərindən Dilşad Bağırovanın, Akif Hüseynovun, Yusif Vəliyevin, Fəxrəddin Qəmbərovun, Vaqif Hüseynlinin seçkilərdə çox fəal şəkildə iştirak etdiklərini və komissiyanın işinə yaxından köməklik göstərdiklərini vurğuladı. Komissiyanın müxalifətdən olan üzvü Bakir Məmmədov (Liberal Demokrat Partiyası) heç bir qanun pozuntusunun olmadığını təsdiqlədi. O, seçkilərin gedişindən razı olduğunu bildirdi. Komissiyanın katibi (AKP) Sədaqət Şirinova da ciddi qanun pozuntularına rast gəlmədiyini və hər şeyin normal məcrada davam etdiyini bildirdi.

Dairənin 36 saylı məntəqəsində də eyni ab-havanın şahidi olardın. Məntəqənin sədri Adil Quliyev artıq saat 13.30-a qədər 535 nəfər seçicidən 200-ə qədərinin səs verdiyini söylədi. O, heç bir qanun pozuntusunun olmadığını və hətta müxalifət təmsilçilərinin də seçkilərin gedişindən razı qaldıqlarını söylədi. Məntəqənin katibi M. Əsgərov (AXCP), üzvü Ceyhun Əliyev (AMİP) də bu fikirlərlə şərik olduqlarını bildirdilər. Çox maraqlı məqamlardan biri də bu idi ki, hər iki məntəqədə komissiya üzvləri seçkilərdə çox fəal və işgüzar şəkildə iştirak edirdilər.

Məntəqədən kənarda jurnalistlərlə söhbət edən seçicilər də bu fikirləri təsdiqləyərək səsvermə zamanı problemlə qarşılaşmadıqlarını bildirdilər. Onlar hamısı birmənalı şəkildə Heydər Əliyev siyasi kursuna səs verdiklərini və bunun ən düzgün seçim olduğunu vurğuladılar. Ağdamlıların fikrincə, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və qaçqınların, məcburi köçkünlərin öz torpaqlarına qayıtması yalnız Heydər Əliyev siyasi kursunun davam etdiyi təqdirdə mümkün ola bilər.

***Bərdə***

15 oktyabr prezident seçkiləri qədim Bərdədə böyük mütəşəkkillik, siyasi fəallıq şəraitində keçirildi. Seçki məntəqələrində səhər tezdən çal-çağır başlamışdı. Rayon mərkəzinin hər yerində adi gündən fərqli bir qələbəlik vardı. Adamlar bülleten almaq, səs vermək üçün növbəyə dayanmışdılar.

Bərdə şəhər 13 saylı seçki məntəqəsində komissiya üzvləri gərgin işləyirdi. Məntəqə seçki komissiyasında iqtidar və müxalifət partiyalarının nümayəndələri təmsil olunmuşdu. Burada çox sayda müşahidəçilər də fəaliyyət göstərirdi. YAP, Müsavat, VHP-nin müşahidəçiləri daha çox fəal idilər. Yeni Azərbaycan Partiyasından olan müşahidəçi Əlövsət Məmmədov dedi:

- Komissiya üzvləri ilə birlikdə biz müşahidəçilər də səhər tezdən - məntəqə fəaliyyətə başlayandan buradayıq. Bütün proseslər Seçki Məcəlləsinə uyğun həyata keçirilir. Heç bir qanunsuzluğa yol verilmir. Məntəqədə olan beynəlxalq müşahidəçilər də səsvermənin gedişindən razı qaldılar.

42 saylı Qaradəmirçi kənd seçki məntəqəsində də səsvermə şəffaf və demokratik keçirilirdi. Azərbaycan Liberal Partiyasından olan müşahidəçi Bulud Quliyev dedi ki, heç bir qanun pozuntusundan söhbət gedə bilməz. Prosesə ciddi nəzarət edirik. Komissiya üzvlərinin işindən razıyıq. Başlıcası isə odur ki, seçicilər yüksək mütəşəkkillik nümunəsi göstərirlər.

94 saylı Bərdə dairə seçki komissiyasında da ahəngdar iş gedirdi. Komissiyanın sədri İsmayıl Həsənov bildirdi ki, ərazidə çox sayda beynəlxalq və yerli müşahidəçilər fəaliyyət göstərir. Hələ ki, işimizdə elə bir nöqsan yoxdur. Dairəyə daxil olan 44 məntəqənin hər biri ilə müntəzəm əlaqə saxlayırıq. Dairə 63 kəndi əhatə edir. 38.017 nəfər seçicinin artıq saat 12.00-da yarıdan çoxu səsvermədə iştirak etmişdi.





***Zaqatala***

Rayonun hansı yaşayış məntəqəsinə üz tuturdunsa, adamların yüksək əhval-ruhiyyəsi ilə qarşılaşırdın. Hər yandan çal-çağır sədaları duyulur, adamlar dəstə-dəstə seçki məntəqələrinə gələrək vətəndaşlıq borclarını yerinə yetirirdilər. Seçkilərdə 60200 nəfərdən çox seçki hüququ olan rayon sakini iştirak edirdi. Rayonda fəaliyyət göstərən 110 saylı Zaqatala və 111 saylı Zaqatala-Balakən seçki dairələrinə daxil olan məntəqələrdə seçkilərin azad, demokratik və şəffaf keçməsi üçün bütün prosedur qaydalarına ciddi əməl edilmişdi. Seçkiləri çoxlu sayda müşahidəçilər izləyirdilər. 110 saylı Zaqatala seçki dairəsinə daxil olan 41 seçki məntəqəsində, 111 saylı Zaqatala-Balakən seçki dairəsinə daxil olan 39 seçki məntəqəsində seçki prosesi normal keçmişdir. 110 saylı Zaqatala seçki dairəsinin sədri Nürəddin Abdurzayev və 111 saylı Zaqatala-Balakən seçki dairəsinin sədri Elxan Vəliyev bildirdilər ki, rayonda seçicilərin yüksək fəallığı müşahidə olunub. Yerlərdən daxil olan məlumatlara əsasən saat 16-dək artıq 28700 nəfər seçici seçkilərdə iştirak etmişdi.

Seçicilərin seçiminə gəldikdə isə, əksəriyyət üstünlüyü zamanın sınaqlarından uğurla çıxmış, inkişaf və tərəqqi rəmzi olan Heydər Əliyev siyasi kursuna verirdi. Seçki məntəqələrində jurnalistlərlə görüşən seçicilərin bəzilərinin dedikləri bunu sübut edirdi.

*Məmməd Rəcəbov, fermer:*

- Möhtərəm prezidentimiz Heydər Əliyev torpağı biz kəndlilərə verdi. Biz onun kəndli əməyinə olan qayğısını heç vaxt unutmayacağıq. Mən əminəm ki, onun yolunu davam etdirən İlham Əliyev də biz kəndlilərə lazımi qayğı göstərəcək, kəndin dirçəlməsi üçün lazımi tədbirlər həyata keçirəcək. Mən və ailə üzvlərim elə bu inamla da prezidentliyə namizəd İlham Əliyevə səs vermişik.

*Şəhər 1 saylı orta məktəbin müəllimi Samirə Şirinova:*

- Cənab İlham Əliyev müasir Azərbaycan gəncliyinin lideridir. Biz ona inanırıq. Bu gün mən və rəfiqələrim seçki məntəqələrinə gələrək ən layiqli namizəd olan İlham Əliyevə səs vermişik.

***Qəbələ***

Qəbələ rayonundakı 116 saylı Qəbələ seçki dairəsinin 45 saylı seçki məntəqəsində seçkilər yüksək səviyyədə keçirildi. Dairə seçki komissiyasının sədri Adil Vəlibəyovun bildirdiyinə görə saat 12.00-da seçicilərin 45 faizinə qədəri seçki məntəqələrinə gələrək səs vermişdilər. Saat 16.00-da

isə səs verənlərin sayı 60 faizi keçmişdi. Onun bildirdiyinə görə, seçkiləri 400-ə qədər yerli və xarici müşahidəçilər izləmişlər və heç bir qanun pozuntusu aşkarlanmamışdır.

Şəhərdəki 1 və 4 saylı Çuxurqəbələ, Kürd, Zalamkənd məntəqələrində seçicilərin fəallığı daha yüksək olmuşdur. 5 saylı məntəqədə səs verən ağsaqqal A. Kazımov bildirdi ki, Azərbaycanın xoş gələcəyi naminə ən layiqli namizədə səs verib.

4 saylı məntəqənin üzvü Eldar Kərimov qeyd etdi ki, bu seçkilərdə seçicilərin fəallığı daha yüksəkdir. Qeyri-hökumət təşkilatının rəhbəri, 4 saylı şəhər məntəqəsində müşahidəçi olan Cavanşir Musaboyov vurğuladı ki, 20-yə qədər məntəqədə apardığımız müşahidələr zamanı heç bir qanun pozuntusu müşahidə etməmişik. Bütün məntəqələrdə seçicilərin fəallığı yüksəkdir.

***Şəmkir***

Əhməd Cavad adına Mədəniyyət Mərkəzindəki 1 saylı məntəqədə seçkiyə çox sayda adam axışıb gəlmişdi... Dəstə-dəstə toplaşaraq növbə gözləyən sakinlər müstəqil Azərbaycanın uğurlarından danışır, seçkilərə hazırlıqla əlaqədar yerlərdə görülən xeyirxah işlərdən ürəkdolusu söhbət açırdılar.

Şəmkir hər sahədə prezident seçkilərinə dəyərli töhfələrlə gəlmişdi. Ötən seçkilərdən bəri Yenikənd SES istifadəyə verilmiş, Avropa standartlarına uyğun stadion tikilmişdi. Qaçqınlara 126 evi olan yaraşıqlı bir qəsəbə salınmış, neçə-neçə məktəb, məscid, xəstəxana, mədəniyyət evi üçün binalar ucaldılmışdı. Körpülər, yollar çəkilmiş, minlərlə ailə təzə mənzilə köçmüşdü.

Şəmkirdə üç dairənin 102 məntəqəsi fəaliyyət göstərir. Bundan əlavə, Cəbrayıl-Qubadlı, Kəlbəcər və Laçın rayonlarından gələn məcburi köçkünlər üçün ayrıca məntəqələr düzəldilmişdi. Bir sözlə, Şəmkirdə yüz min nəfərdən çox adam səs verirdi.

KİV nümayəndələri 98 saylı dairənin 1, 2 və 12 saylı məntəqələrində oldular, yerlərdə vəziyyəti öyrəndilər. Seçicilərlə, müxtəlif siyasi partiyaların nümayəndələri ilə və müşahidəçilərlə görüşüb söhbət etdilər. Yekdil fikir belə idi ki, şəmkirlilər müstəqil Azərbaycanın daha xoş sabahı naminə səs verməyə gəliblər.

*Qocaman maarif işçisi Maqsud Hacıyev:*

- Mən çox seçkidə iştirak etmişəm, ancaq bu cür təntənəni, coşğunluğu, sözün düzü, heç vaxt heç yerdə görməmişəm. Özüm ailəmlə birgə





Düzcırdaxan kəndində səs vermişəm. Sonra da bir sıra yerləri gəzdim. Əhməd Cavad adına, Füzuli adına, Cahangir Rüstəmov adına şəhər, Aşağı Seyfəli, Abbaslı, Xanalar, Çinarlı kənd məktəblərindəki seçki məntəqələrində gördüklərimə düzü heyran qaldım. Hər yerdə seçkilərin obyektiv, əsl demokratik yolla keçməsi üçün hər şərait yaradılıb. Adamlar dəstə-dəstə gəlir. Heç bir təsir, təzyiq olmadan hər kəs sərbəst surətdə istədiyi namizədə səs verirlər. Mən bu şəffaf, obyektiv seçkiləri Azərbaycanda əsl xalq hakimiyyətinin, demokratiyanın təntənəsinin ən bariz nümunəsi hesab edirəm.

Samux, Xanlar, Goranboy və Daşkəsən rayonları ilə də əlaqə saxlanıldı. Dedilər ki, hər şey normal gedir, adamlar böyük fəallıqla öz vətəndaşlıq borclarını yerinə yetirirlər.

***İsmayıllı***

Rayonda bütün ümumxalq, ümumdövlət əhəmiyyətli kampaniyaların mütəşəkkil keçməsi artıq ənənəyə çevrilib. İsmayıllı camaatı Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsinə, onun inkişafına, tərəqqisinə, beynəlxalq aləmdə nüfuzunun artmasına xidmət etməyi şərəf işi sayır. Mütəşəkkillik, gündən-günə öz təsdiqini daha qətiyyətlə tapan ənənə bu dəfə də nümayiş etdirildi. İsmayıllılılar prezident seçkisini özlərinə layiq səviyyədə, tam əmin-amanlıq, yekdillik şəraitində, sivil cəmiyyətə məxsus bir səviyyədə keçirdilər.

*86 saylı İsmayıllı dairə seçki komissiyasının sədri Firudin Ağayev:*

- Ümumiyyətlə, rayonda seçkilərə ciddi hazırlıq görülmüşdü. Səsvermənin tam şəffaf, demokratiya şəraitində keçməsi üçün vaxtında müvafiq tədbirlər həyata keçirilmişdi. Əvvəlcədən belə bir yəqinlik formalaşmışdı ki, xalq ölkənin gələcək taleyini müəyyənləşdirən bu kampaniyada tam sərbəst şəkildə öz iradəsini ifadə edə biləcəkdir. Seçkinin gedişi sübut etdi ki, bu yəqinlik əbəs deyilmiş. Səsvermə ilk andan əsl qələbəliklə başladı və dairənin əhatə etdiyi 50 məntəqənin heç birində qanun pozuntusu və elə bir ciddi narazılıq qeydə alınmadı. Hətta rayonda olmuş ATƏT-in və MDB ölkələrinin müşahidəçiləri də seçkilərdən məmnunluqlarını gizlətmirdilər.

Ümumiyyətlə, səsverməni 400-ə qədər müşahidəçi izləyirdi. Onların, eləcə də kütləvi informasiya vasitələri nümayəndələrinin sərbəst işləmələri üçün hər cür şərait yaradılmışdı. Seçicilərin mütəşəkkilliyinin, yekdilliyinin əsl sübutunu isə rəqəmlər göstərirdi. Saat 13.00-a olan məlumatda

mövcud 30366 seçicinin artıq 53,9 faizi səsvermədə iştirak etmişdi. Ruşan, Quşençə və Qubaxəlilli kəndlərində bu rəqəmlər müvafiq şəkildə 95, 76 və 74 faiz təşkil edirdi. Səsvermə elə bu əhval-ruhiyyə ilə də başa çatdı.

Rayon camaatı öz iradəsinə əməl edərək istədiyi, etibar etdiyi, inandığı namizədə səs verdi və bir daha bəyan etdi ki, onu öz inamından, etiqadından heç bir qüvvə döndərə bilməz.

*Qax*

Qaxlılar prezident seçkilərinə yüksək əhval-ruhiyyə ilə gəlmişdilər. Seçicilər ürəklərinin istəyi ilə ən layiqli bildikləri namizədə səs verdilər.

*Rayon müharibə, silahlı qüvvələr və əmək veteranları şurasının sədri Əli Babayev dedi:*

- Böyük Vətən müharibəsində Berlinədək çətin və şərəfli yol keçmişəm. Döyüş xidmətlərim orden və medallarla, mükafatlarla qiymətləndirilib. SSRİ dağılandan sonra respublikamızda hakimiyyətə gələn iqtidar müharibə veteranlarını üzdən-gözdən salmışdı. Az qala, bizi vətən xaini adlandırırdılar. Cənab Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra hüquqlarımızı bərpa etdi. Ölkədə əmin-amanlıq yarandı. Dövlətimizin iqtisadi qüdrəti artdı. Azərbaycanımızın adı dünyanın inkişaf etmiş ölkələri sırasında çəkildi. İndi dinc şəraitdə qurub yaradırıq. Ölkəmiz gündən-günə tərəqqi edir.

*Qax şəhər sakini Mahinur Hacıyeva:*

- Uzun illər tibb sahəsində çalışmışam. Erkən yaşlarında həyat yoldaşım dünyasını dəyişib. Övladlarımı dövlətimizin köməyi və zəhməti ilə böyüdüb boya-başa çatdırmışam. Bir neçə ildir ki, pensiyaya çıxmışam. Cənab Heydər Əliyevin qayğısı üstümüzdən əskik olmayıb. Onun xalqımıza göstərdiyi misilsiz xidmətlər heç vaxt unudulmayacaq. Rayonumuzun sağlam düşüncəli seçiciləri kimi, mən və ailə üzvlərimiz seçimimizi çoxdan müəyyən etmişik. Biz bundan sonra da cənab Heydər Əliyevin siyasətini dəstəkləyəcəyik.

*Gülnar Hüseynova:*

- Azərbaycan Dövlət Pedaqoji Universitetini bu il bitirmişəm. Şəhər 2 saylı orta məktəb-liseyində müəllim işləyirəm. Müəllim olmaq, gələcəyimiz olan uşaqlara dərs demək şərəfli işdir. Bu gün isə daha məsul bir iş üçün seçki məntəqəsinə tələsirəm. Layiqli namizədə səs verməyə gedirəm.





Qaxda prezident seçkiləri mütəşəkkil, şəffaf və yüksək səviyyədə, seçicilərin fəallığı şəraitində keçdi. Seçicilər inandıqları namizədlərə səs verdilər. Bununla da öz vətəndaşlıq borclarını yerinə yetirdilər.

*Qusar*

51 saylı seçki dairəsinə daxil olan 58 məntəqədə 40052 seçici səs verməli idi. Günün birinci yarısında seçicilərin yarıdan çoxu məntəqələrə gəlib öz iradəsini ifadə etdilər. Dairə seçki komissiyasının sədri İsabala Xankişiyev bildirdi ki, dairəyə yerlərdən heç bir şikayət daxil olmayıb, seçkilər tam şəffaf şəraitdə keçirilir. ATƏT-in və MDB-nin müşahidəçiləri əksər məntəqələrdə oldular. Həm komissiyalarda, həm də müşahidəçi qismində kifayət qədər müxalifət nümayəndələri təmsil edilmişdi.

Şəhər 4 saylı orta məktəbindəki, Bədirqala və digər kəndlərdəki seçki məntəqələrini gəzərkən KİV nümayəndələri bunun şahidi oldular.

*Quba*

Yəhudilərin kompakt yaşadığı Qırmızı qəsəbə bayramsayağı bəzədilmişdi, musiqi sədası bircə an da səngimirdi. 5214 saylı seçki məntəqəsinin sədri Zemfira Ağaverdiyeva seçkilərin demokratik şəraitdə keçdiyini bildirdi. Komissiya üzvləri Rasbil İsaakov (YAP), Alik Səlimov (ALP), Anar Kərimov (Müsavat), müxalifətdən olan müşahidəçilər dedilər ki, seçkilərin gedişi ilə bağlı heç bir iradları yoxdur.

Qəsəbədəki digər seçki məntəqəsində yerli müşahidəçilərlə yanaşı, ATƏT nümayəndəsi Mey-Ami və Ben-Arye də seçkinin nəticəsinə təsir edə biləcək heç bir qanun pozuntusuna rast gəlmədiklərini söylədilər.

Vəlvələ kəndindəki seçki məntəqəsində də qanun pozuntusuna yol verilməmişdi. Müxalifət nümayəndələri seçki məntəqəsində gedən prosesdən razılıq edirdilər.

*Qazax*

Qazaxda səsvermə musiqi sədaları altında, böyük ruh yüksəkliyi ilə, şadyanalıqla başlandı. İlk baxışdan hiss olunurdu ki, müstəqil ölkənin taleyində xüsusi rol oynayacaq bu seçkilərin gedişi ilə hamı ürəkdən maraqlanır. Şəhərin hər yerində, eləcə də Həsənbəyli, Kosalar, Aslanbəyli, Qaymaqlı kəndlərindəki seçki məntəqələrində əsl bayram əhval-ruhiyyəsi duyulurdu.

İnternat məktəbindəki 6 saylı məntəqədə də seçicilər üçün hər cür şərait yaradılmışdı. Məntəqənin müdiri Tahirə Süleymanova dedi ki, burada

1230 nəfər səs verəcək. Günün birinci yarısında seçicilərin xeyli hissəsi artıq öz vətəndaşlıq borcunu yerinə yetirmişdi.

Qazax rayonunun bir çox kəndi Ermənistanla təmas nöqtəsində yerləşir. Jurnalistlər həmin kəndlərdəki sakinlərin, habelə məcburi köçkünlərin vəziyyəti ilə maraqlandılar. Yuxarı Əskipara, Aşağı Əskipara, Barxudarlı, Sofulu və Xeyrimli kəndlərinin seçiciləri üçün Qazax şəhərindəki seçki məntəqələrində hər cür şərait yaradılmışdı.

Gün yarı olmamış Qaymaqlı, Yuxarı Salahlı, Qazaxbəyli kəndlərindən xoş xəbərlər gəldi. Onlar seçkini uğurla başa çatdırmışdılar. 107 saylı dairə seçki komissiyasının sədri Səfurə Rəhimova günün ikinci yarısında məlumat verdi ki, seçicilərin 87,5 faizi öz vətəndaşlıq borcunu yerinə yetirib.

Qonşu Ağstafa, Tovuz və Gədəbəy rayonlarında da prezident seçkiləri mütəşəkkil surətdə, xoş əhvalla keçdi.

*Abşeron*

Səhər tezdən Abşeron rayonundakı Masazır kəndində adamlar axın-axın bələdiyyənin binasında yerləşən 10 saylı məntəqəyə tələsirdi. Məntəqə təlimata uyğun olaraq saat 8-də açıldı və ilk səs verən Qərbi Azərbaycan ərazisindəki doğma ev-eşiyindən qaçqın düşən 70 yaşlı Rəşid Cabbarov oldu. Media mənsubları Rəşid kişidən kimə səs verdiyini soruşanda o, sevinclə dedi: "Kimə səs verəcəyəm? Özünüz bilirsiniz ki, biz keçmiş hökumətlərin yanlış siyasəti nəticəsində yurd yerlərimizi itirdik, illər boyu tikib qurduqlarımızı, əcdadlarımızın uyuduğu torpaqları nankor ermənilər işğal etdi. Biz məhz Heydər Əliyev xəttinin davam etdirilməsi nəticəsində öz elimizə, obamıza qayıdacağımıza, Azərbaycanda sülh, əmin-amanlıq, tərəqqi olacağına inanırıq". Bu fikirlərlə ilk dəfə səs verən 18 yaşlı Elvin Aslanov da razılaşaraq əlavə etdi ki, Azərbaycan gənclərinin seçimi artıq bütün ölkəyə məlumdur və o, İlham Əliyevə səs verməklə seçicilərin mütləq əksəriyyətinin arzusunu ifadə etmişdir.

Onu da deyək ki, bu məntəqə 45 saylı Abşeron dairə seçki komissiyasının nəzdindədir. Məntəqə seçki komissiyasının sədri Səməd Abdullayev bildirdi ki, məntəqə seçkiyə Seçki Məcəlləsində nəzərdə tutulduğu kimi yüksək səviyyədə hazırlanmışdır və burada 1169 seçici qeydə alınmışdır. Məntəqədə tibb personalı da vardır və ehtiyacı olanlara təcili tibbi xidmət göstərilir.

Saat 12-yə olan məlumata görə artıq 400-dən yuxarı seçici səs vermişdi. Məntəqənin kənarında adamların nə səbəbdən sıx toplaşdığı ilə maraqlandıqda komissiya sədri dedi: "Bilirsiniz, Masazır Abşeronun elə kəndlərindəndir ki, burada məskunlaşmaq istəyənlərin sayı həddindən artıq çoxdur. Onların əksəriyyəti pasport qeydiyyatına alınsalar da, rayon icra hakimiyyəti başçısının kənd üzrə nümayəndəliyində qeydiyyata düşməyibdir. Lakin onların hər biri özünün seçmək hüququndan istifadə etmək istəyir. Biz bu məsələni məhkəmə vasitəsilə təcili surətdə həll edirik ki, seçicilərin hamısı səs verə bilsin".





Məntəqədə müxtəlif siyasi partiyaların müşahidəçiləri seçkilərin gedişini izləyirdi. Onlar, xüsusən Müsavat Partiyasından olan müşahidəçilərdən Əli Kərimov və Fazil Məstəliyev bildirdilər ki, seçki prosesi normal gedir, komissiyanın bütün üzvləri, o cümlədən YAP-ı təmsil edən Əli Susayev, Liberal Partiyasının nümayəndəsi Cəbrayıl Nuriyev üzərlərinə düşən vəzifənin öhdəsindən ləyaqətlə gəlirlər. AXCP-ni (islahatçılar) təmsil edən komissiyanın katibi Fuad Zeynalov seçki prosesini uğurla başa vurmaq üçün çalışdıqlarını dedi. Onun sözlərinə görə, bu seçki daha yaxşı təşkil olunub. Seçicilərin fəallığının artması isə insanların dünyagörüşünün zənginləşməsi, ölkədə demokratiyanın inkişafı, həyatın, cəmiyyətin dəyişməsi ilə bağlıdır. Prezidentliyə namizədlərin hər birinin seçkiqabağı təbliğat, təşviqat işlərini ətraflı aparması da, vətəndaşların fəal mövqe nümayiş etdirməsinə səbəb olub. Məntəqədəki müşahidəçilər öz vəzifələrini yerinə yetirirlər və heç bir qanun pozuntusuna yol vermirlər.

Yeni Azərbaycan Partiyasının müşahidəçisi Qəzənfər Əliyev müxtəlif partiyaların nümayəndələrinin seçki prosesini sərbəst, bir-birinə mane olmadan izlədiklərini söylədi. Onun fikrincə, partiyaların təmsilçiləri seçkini axıradək müşahidə etmək, səslərin sayılması, protokolların hazırlanması və DSK-ya ötürülməsi prosesini izləmək arzusundadırlar. Bunun üçün lazımi imkanlar yaradılmışdır. Bu da onu göstərir ki, hakimiyyət seçkilərin açıq, şəffaf, demokratik keçirilməsi üçün beynəlxalq qurumların müsbət rəyini alan keçmiş sovet respublikalarında analoqu olmayan seçki qanunvericiliyi yaratmış və seçki prosesini bu qanunvericiliyə uyğun təşkili, keçirilməsi üçün əlindən gələni əsirgəməmişdir.

***

45 saylı Abşeron dairə seçki komissiyasının 4 saylı seçki məntəqəsində də bayram əhval-ruhiyyəsi hiss olunurdu. Burada seçici siyahıları ilə bağlı heç bir problem yox idi. Müxtəlif partiyalara məxsus müşahidəçilərə seç-

kı prosesini izləmək üçün normal şərait yaradılmışdı. Onların hər biri əhalinin fəallığını, seçkinin yüksək səviyyədə təşkil olunduğunu qeyd etdi.

Yeni Azərbaycan Partiyasının müşahidəçisi Səriyyə Hüseynova komissiya üzvlərinin peşəkarlığını, prosesin yüksək səviyyədə aparılmasını və çox seçkilərdə iştirak etsə də, indiki coşğun əhval-ruhiyyənin şahidi olmadığını nəzərə çatdırdı. ALP-nin təmsilçisi Məlahət Quliyeva da hər şeyin qayda-qanuna uyğun olduğunu dedi. Bitərəf Hafizə Qurbanova seçkinin demokratik, açıq, şəffaf şəraitdə keçirildiyini, bayram əhval-ruhiyyəsini xüsusi vurğulayaraq, 1971-ci ildən seçki kampaniyalarında bilavasitə iştirak etdiyini söylədi: "Dəfələrlə seçki komissiyalarının sədri, müavini, katibi, üzvü olmuşam, lakin indiki kütləviliyi və ruh yüksəkliyini görməmişəm. Bu seçkiyə adamlar çox gəlirlər və öz iradələrini ifadə edərək istədikləri namizədə səs verirlər".

Məntəqəyə daxil olan bir dəstə diqqəti cəlb etdi. Onlar bir ailə idi, səs verməyə gəlmişdilər. Ailənin başçısı Bayandur Bünyatovun yaşı 80-i keçib. Səhər tezdən həyat yoldaşı Züleyxa Alışovanı, ailə üzvlərindən Rəfiqəni, Vüsaləni, Rəşidi, Dilrubanı oyadıb ki, səs verməyə gedək. Bayandur kişidən seçki məsələsinə belə həssas yanaşmasının səbəbini soruşduqda o dedi: "İndi elə dövrdür ki, bu prosesə biganə yanaşmaq olmaz. Mən istəmirəm ki, kimsə mənim səsimi öz adına çıxsın. Axı, hər bir səs həlledicidir. Dünyagörmüş ağsaqqal kimi bilirəm ki, Azərbaycanı kim irəli aparar, kim Heydər Əliyevin 10 ildə qurduğu, möhkəmləndirdiyi dövləti daha da inkişaf etdirər. Xalqın bir nümayəndəsi kimi mən də Azərbaycanın həmişə Heydər Əliyev kimi qurucu rəhbərə malik olmasını istəyirəm. Mənim və ailəmin seçimi yalnız İlham Əliyevdir".

Məntəqə seçki komissiyasının sədri Nadir Ağayev seçici siyahısında 1297 seçicinin qeydə alındığını, günortaya yaxın artıq seçicilərin yarısının səs verdiyini dedi.

N. Ağayev sonda seçicilərin səsverməyə bayram əhval-ruhiyyəsi ilə gəlməsindən, xalqın Azərbaycanın gələcəyi üçün məsuliyyət daşımasından qürur duyduqlarını bildirdi.

***Əli Bayramlı***

Səhər saat 10 radələrində şəhərdə bir canlanma var idi. Adamlar dəstə-dəstə şəhərdəki müxtəlif ünvanlarda yerləşən məntəqələrə gedirdilər. Onların hər birinin üzündə sevinc hiss olunurdu. Axı, onlar növbəti 5 il müddətinə ölkə prezidentini seçirdilər. KİV nümayəndələri Əli Bayramlı şəhərindəki 46 saylı dairədə oldular. MDB müşahidəçilərindən Eduard Vorobyov və Georgi Orlonov 21, 22, 24, 29 saylı seçki məntəqələrini gəzdikdən sonra dairə seçki komissiyasına gəlmişdilər. E. Vorobyov söhbət zamanı bildirdi ki, məntəqələrdə seçki siyahılarının, qeydiyyat kabinələrinin, şəffaf qutuların təlimata uyğun olduğunu gördük. Müşahidəçilər üçün seçkinin gedişini izləməyə lazımi şərait yaradılmışdı. Şəffaf qutular məntəqə üzvlərinin hamısının iştirakı ilə möhürlənmişdi. Seçkilərin keçirildiyi yerlərdə heç bir polis işçisi yox idi. Bütün bu deyilənləri ATƏT-in müşahidəçisi Larisa Butina da təsdiq etdi.





46 saylı Əli Bayramlı şəhər dairə seçki komissiyasının sədri Akif Saqiyev məlumat verdi ki, prezident seçkilərində həmin dairə üzrə yaradılmış 30 məntəqədə 36 min 529 nəfər seçici iştirak edir.

29 saylı seçki məntəqəsinin həyətində böyük qələbəlik vardı. Qocalar, cavanlar böyük həvəslə öz layiqli namizədini seçmək üçün gəlirdilər. Adamlar binanın içərisindəki foyedə növbə ilə bir-bir qeydiyyat stoluna yaxınlaşırdılar. Seçicilər şəxsiyyəti təsdiq edən sənədi göstərərək müvafiq qeydiyyatdan keçdikdən sonra bülleteni və zərfi alıb gizli səsvermə üçün qurulmuş xüsusi kabinələrə daxil olurdular. 29 saylı seçki məntəqəsinin katibi, AXCP-nin təmsilçisi Bəxtəli Atakişiyevin və məntəqədə seçki komissiyasının üzvü - Müsavat Partiyasından olan Pəri Mustafayevanın seçkilərin gedişi barədə fikirləri öyrənildi. Onların hər ikisi seçkilərin normal keçdiyini, heç bir ciddi qanun pozuntusuna yol verilmədiyini bildirdilər. Vətəndaş Həmrəyliyi Partiyasından olan Sərvər Xudiyev də onların bu fikrini təsdiqlədi.

1270 nəfərin səs verəcəyi məntəqədə müxtəlif partiyaların, qeyri-hökumət təşkilatlarının nümayəndələri, jurnalistlər, müşahidəçilər üçün lazımi şərait yaradılmışdı.

3 saylı məntəqədə 1073 nəfər seçici bu mühüm kampaniyada iştirak etmişdi. ATƏT-dən olan müşahidəçilər Pietro Paoletti, Karol Qhatser və Avropa Şurasından Anatoli Raxonski məntəqədə olarkən burada seçkilərin qanuna müvafiq keçirildiyini qeyd etdilər.

AMİP-dən və VHP-dən olan məntəqə seçki komissiyasının üzvləri Vidadi Rəhimov və Gülağa Kərimov da seçkilərin ədalətli, şəffaf keçirildiyini bildirdilər.

***Salyan***

Rayonda 59 saylı Salyan və 60 saylı Salyan-Neftçala dairə seçki komissiyaları fəaliyyət göstərirdi. 59 saylı dairə üzrə 35, 60 saylı dairə üzrə 70 min 450 nəfər seçkilərdə iştirak etdi. Beynəlxalq müşahidəçilər, habelə müxalifət partiyalarının nümayəndələri seçkilərə hazırlığın yüksək səviyyədə başa çatdırıldığını və seçkilərin demokratik keçdiyini təsdiqlədilər. Məsələn, MDB müşahidəçiləri qrupunun üzvü Nikolay Lozovik dedi ki, 6, 13, 10, 11 saylı məntəqələrdə olub, onların hər birində seçicilərin böyük fəallığını görüb. Məntəqələrdə siyasi partiyaların kifayət qədər təmsil olunması N. Lozovikdə xoş təəssürat yaratmışdı. Saat 17.00-a olan məlumata görə artıq seçicilərin 60 faizə yaxını səsvermədə iştirak etmişdi.

3 saylı seçki məntəqəsində ATƏT-in müşahidəçisi Aleksey Svetkov seçkilərin gedişindən razı qaldığını bildirdi. Müsavat Partiyasının məntəqədə olan nümayəndəsi İsmayıl Dərbəndov seçkilər zamanı qanun pozuntusuna yol verilmədiyini bildirdi və onun bu fikri ilə VHP-nin təmsilçisi Zeynalabdin Abuşov da razılaşdı.

5 saylı seçki məntəqəsində də qanuna büsbütün əməl olunmuşdu. ATƏT-in müşahidəçisi bu məntəqəyə də baş çəkmiş, seçkilərin gedişi ilə yaxından tanış olmuşdu. Liberal Partiyasından olan məntəqə seçki komissiyasının üzvü Zeynəb Mehdiyeva və burada Müsavat Partiyasından məşvərətçi səslə iştirak edən Ramiz Xaspoladov seçkilərin normal keçdiyini söylədilər.

***Hacıqabul***

58 saylı Hacıqabul-Kürdəmir dairə seçki komissiyası üzrə 44 məntəqə yaradılmışdı. Burada 36 min 779 nəfər seçici iştirak etməli idi. Bu rayonda da ATƏT-in və MDB-nin müşahidəçiləri olmuşdular. Onlar Hacıqabul rayonunun Muğan qəsəbəsində və şəhər 5 saylı məntəqədə olmuş, seçkilərin gedişindən razılıq etmişdilər.

Jurnalistlər Hacıqabul şəhərindəki 4 saylı seçki məntəqəsində olub, bu mühüm kampaniyanın gedişi ilə maraqlandılar. Seçkilərin demokratik, şəffaf keçirilməsi üçün bütün şərait yaradılmışdı. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, burada da seçkilər yüksək fəallıq şəraitində keçirdi. Məntəqələrdə bütün qaydalara ciddi əməl olunurdu.

4 saylı məntəqə seçki komissiyasının üzvü, Müsavat Partiyasının təmsilçisi Əliş Mustafayev seçkilərin şəffaf keçdiyini bildirdi. AXCP-nin buradakı müşahidəçisi Şahin Məmmədov da bu fikrə şərik çıxdı.





***Siyəzən***

50 saylı Siyəzən-Qobustan-Xızı seçki dairəsində birləşən 23 seçki məntəqəsində 15908 nəfər seçicinin böyük əksəriyyəti seçki məntəqələrinə gəlib öz seçimlərini etdilər.

Media mənsubları məntəqələrin çoxunda oldular, seçicilərlə, müşahidəçilərlə söhbət etdilər. Heç yerdə köklü qanun pozuntusu barədə məlumat verən olmadı. Doğrudur, 31 saylı seçki məntəqəsində bildirdilər ki, AXCP-nin nümayəndəsi Sədyar Osmanov seçki məntəqələrini gəzərək komissiyaların işinə müdaxilə edir, onları işləməyə qoymur. Bununla bağlı 2 akt tərtib olundu, ona xəbərdarlıq edildi.

28 saylı seçki məntəqəsində də bu cür şikayət eşidildi.

***Qobustan***

50 saylı Siyəzən-Qobustan-Xızı seçki dairəsinin Qobustan rayonu ərazisindəki 27 seçki məntəqəsinin hər birində seçicilər yüksək fəallıq nümayiş etdirdilər. Dairə seçki komissiyasının sədri Ağamahmud İsmayılovun bildirdiyinə görə, 16427 nəfər seçicidən artıq saat 17.00-dək 10282 nəfəri seçki məntəqələrinə gələrək səs vermişdilər. Rayonun 3 saylı Cəyirli, 4 saylı Cəmcəmli, 11 saylı Göydərə, 12 saylı Hilmilli, 20 saylı Poladlı məntəqəsində seçicilər daha fəal idilər. 433 nəfər müşahidəçi də seçkilərin gedişini izləyirdi. A. İsmayılovun sözlərinə görə, seçkilər rayon ərazisində tam demokratik keçirildi və yerli müşahidəçilərlə bərabər məntəqələrə gələn ATƏT-dən və MDB dövlətlərindən olan müşahidəçilər də bunu təsdiq etdilər.

Ümumiyyətlə, rayon əhalisi əsl bayram əhval-ruhiyyəsi ilə seçki məntəqələrinə gələrək səsvermədə iştirak etdi. Əhalinin böyük əksəriyyəti mövcud ictimai-siyasi sabitliyin qorunub saxlanması, iqtisadi islahatların davam etdirilməsi, əhalinin sosial rifah halının yüksəlməsi, Azərbaycanın daha da inkişafı naminə ən layiqli namizədə - İlham Əliyevə səs verdiklərini bildirdi.

***Xaçmaz***

55 və 56 saylı seçki dairələrində 62 seçki məntəqəsi fəaliyyət göstərirdi. Burada 76 min nəfər seçicinin siyahısı asılmışdı. Hər iki dairədə prezident seçkisi baş tutdu. Saat 17-yə olan məlumata görə, 55 saylı dairədə 37 912 nəfər seçicidən 20 271 nəfəri, 56 saylı dairədə isə 38 033 seçicidən 20 631 nəfəri səs vermişdi.

Xudat konserv zavodunun binasında yerləşən 563 saylı, Xaçmaz şəhərindəki 566 saylı məntəqələrdə komissiya üzvləri və müşahidəçilərlə görüş zamanı aydın oldu ki, seçkilər tam şəffaf və demokratik şəraitdə keçirilib, seçkinin nəticələrinə təsir edə biləcək pozuntulara yol verilməyib. 556 saylı məntəqədə komissiya üzvləri Adilşah Abubəkirov (AMİP), Zemfira Səlimova (AKP), Vaqif Mərdanov (bitərəf) bildirdilər ki, seçkilərin gedişinə heç bir iradları yoxdur.

*Dəvəçi*

Jurnalistlər Dəvəçi şəhər orta məktəbinin həyətinə daxil olanda əsl bayram əhval-ruhiyyəsi ilə rastlaşdılar. Adamlar axın-axın 4 saylı seçki məntəqəsinə öz liderini seçməyə gəlirdi.

Dəvəçi Broyler ASC-nin əmək kollektivi xüsusi fəallıq göstərirdi: dəstə-dəstə gələn seçicilər istədikləri namizədə səs verib yenidən geri qayıdırdılar. Belə mütəşəkkillik və fəallıq təkcə müxalifətdən olan müşahidəçilərin ürəyincə deyildi. Bununla belə, onlar seçkinin nəticəsinə təsir göstərə bilən qanun pozuntusu barədə tutarlı bir fakt tapıb deyə bilmədilər.

Dəvəçidə seçkilər baş tutdu: 33527 nəfər seçicinin böyük əksəriyyəti saat 17-dək məntəqələrə gəlib səs verdi.

*Zərdab*

Rayonun ərazisini əhatə edən bütün seçki məntəqələrində müxtəlif siyasi partiyaların, ictimai təşkilatların nümayəndələri, beynəlxalq müşahidəçilər seçkilərin gedişini izləmişlər. İstər məntəqə seçki komissiyalarının tərkibində fəaliyyət göstərən müxalifət partiyalarının nümayəndələri, istərsə də onların müşahidəçiləri seçkilərin nəticəsinə təsir göstərə bilən nöqsanların aşkar olunmadığını etiraf etmişlər.

Seçki komissiyalarında yaradılmış şərait, demokratik ab-hava vətəndaşların öz iradəsini sərbəst ifadə etməsinə şərait yaratmışdır. Rayon Ağsaqqallar şurasının sədri Xələf Hacıyev demişdir:

- Uzun müddət təsərrüfat rəhbəri işləmişəm. Camaatı seçki məntəqələrinə aparmaq üçün nəqliyyat vasitəsi ayırırdıq. Seçicilər səsverməyə gətməyə o qədər də maraq göstərmirdilər. İndi hamı seçkiyə can atır, öz seçimini edir.

Zərdablılar demokratik şəraitdə öz seçimlərini etdilər. Rayon seçicilərinin böyük əksəriyyəti sabitliyimizin, əmin-amanlığın və inkişafımızın qaranti kimi İlham Əliyevə səs verdilər: Rayon üzrə 30785 nəfər seçici-





dən 25000 nəfəri səsvermədə iştirak etdi. İlkin məlumatlara əsasən, seçicilərin 80 faizdən çoxu İlham Əliyevin namizədliyini müdafiə etdi.

Rayonun Gəlmə, Körpükənd, Yarməmmədbağı və s. məntəqələrində səsvermə seçicilərin daha yüksək siyasi fəallığı şəraitində keçdi.

Seçkilərin gedişini beynəlxalq təşkilatların 10 nəfərədək müşahidəçisi izlədi.

***Şamaxı***

Şamaxıda prezident seçkisinə ciddi hazırlıq işləri görülmüşdü. Rayonda yerləşən 85 saylı dairənin 60 məntəqəsində bu mühüm siyasi kampaniyanın yüksək səviyyədə keçirilməsi üçün bütün texniki-təşkilatı tədbirlər vaxtında və keyfiyyətlə həyata keçirilmişdi.

Bütün Azərbaycan xalqı kimi, əksər şamaxılılar da seçkidə həmin gün Azərbaycan Respublikası prezidentliyinə ən layiqli namizəd İlham Əliyevin timsalında xoşbəxt gələcəyə, sabitliyə və əmin-amanlığa səs verdilər.

Seçki saatının ilk dəqiqələrindən 11 saylı Şəhriyar qəsəbə seçki məntəqəsində əsl qələbəlik vardı. Dəstə-dəstə gələn insan axını ara vermirdi. Məntəqə seçki komissiyasının sədri Rəsul Rzai seçiciləri növbəyə dəvət edərək qəsəbə sakinlərinin bu fəallığından razılıq edirdi.

*Yenicə səs verən şəhid anası, müəllim Güllü Babaşova dedi:*

- Bu gün böyük sevinc içərisindəyəm. Məntəqədə ilk səs verənlərdən biri də mən olmuşam. Böyük şəxsiyyət Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, işıqlı sabahımızın təminatçısı İlham Əliyevə səs verdim. Mən belə hesab edirəm ki, bu gün əksər Şamaxı seçicisi ona səs verəcəkdir. Çünki şamaxılılar İlham Əliyevə sonsuz məhəbbət və ehtiramlarını oktyabrın 3-də onunla görüş zamanı bildirmişdilər.

5 saylı Şamaxı şəhər seçki məntəqəsinin geniş salonu hər dəqiqə sıraları artan insan selinə darlıq edirdi. Məntəqənin sədri Fəqani Tapdıqov komissiyanın üzvləri ilə birlikdə böyük siyasi fəallıq nümayiş etdirən adamları siyahılara baxmağa dəvət etdikdən sonra ilk məlumatı verdi:

- Bu məntəqə Şamaxı şəhəri üzrə ən çox seçicisi olan məntəqədir. Seçkilərin demokratik, şəffaf və ədalətli keçirilməsi üçün hər cür şərait yaradılmışdır.

*Yaşı çoxdan səksəni adlamış Mirpaşa Süleymanovun ürək sözləri isə hamını təsirləndirdi:*

- Qeyd edəyin, mən də İlham Əliyevə - böyük şəxsiyyətin oğluna səs verdim. İnanıram ki, Heydər Əliyevdən dərs alan İlham Əliyev bizi əsl

xoşbəxt gələcəyə qovuşduracaq. Birdən başqa cür fikirləşənlər tapılar ki, bu qoca kişi nə istəyir... Mən özümü yox, balalarımı, nəvələrimi fikirləşib belə deyirəm.

3 saylı şəhər seçki məntəqəsində də seçicilər yüksək siyasi fəallıq nümayiş etdirirdilər. Onlar bir-bir xarici və yerli müşahidəçilərin gözü qarşısında qeydiyyatdan keçərək, bülleten götürüb kabinələrə girir və onu qutuya salırdılar. Bütün komissiya üzvləri, yerli və beynəlxalq müşahidəçilər bir nəfər kimi seçkilərin obyektiv gedişindən razılıq edirdilər. Müxalifət müşahidəçilərindən Şahpələng Bəkdəmirov dedi:

- Seçkinin gedişində heç bir qanun pozuntusu qeydə alınmayıb.

...Saat seçkilərin başa çatmasından xəbər verərkən Şamaxıda təşkil olunan 85 saylı dairə seçki komissiyasında seçkinin gedişini əks etdirən sənədlərin qəbulu başa çatdı. Dairədən bildirildi ki, rayon üzrə 27636 nəfər seçici seçkilərdə iştirak etmiş, ondan 85.5 faizi Azərbaycan Respublikası prezidentliyinə ən layiqli namizəd İlham Heydər oğlu Əliyevə səs vermişdir.





# XARİCİ ÖLKƏLƏRDƏ YAŞAYAN AZƏRBAYCANLILAR SEÇKİLƏRDƏ HƏVƏSLƏ İŞTİRAK ETDİLƏR

***Moskva***

... Oktyabrın 15-də - Azərbaycan üçün əlamətdar tarix olan prezident seçkiləri günündə Moskvada yaşayan azərbaycanlılar da adi qayğılardan uzaq, əsl fərəh, bayram əhval-ruhiyyəsi içərisində idilər. Bu sevinc ovqatı Moskvanın ən gur, mərkəzi guşələrindən olan Tver küçəsindən keçib Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyinin yerləşdiyi Leontyev döngəsinə tələsən insan axınının, azərbaycanlıların çöhrəsində aydın əks olunurdu.

"Azərbaycan" qəzetinin əməkdaşları səs verməyə gedən dəstələrdən birinə yaxınlaşıb tanışlıq verdilər. Ağsaçlı, nurani sifətli kişi ilə söhbət dərhal baş tutdu. Müsahib özünü təqdim etdi: Telman Səmədov. Yevlax şəhərindəndir. On ildən çoxdur Rusiya paytaxtına gəlib. Ticarətlə məşğuldur. Oğulları Çingiz və Fərman onun yaxın köməkçiləridir. T. Səmədov dedi:

- Neçə illərdir ki, Moskvada yaşasam da, gözüm həmişə vətənə dikilib. Azərbaycandan gələn hər xoş səda minlərlə həmvətənimiz kimi məni də ürəkdən sevindirir. Son illər müstəqil ölkəmizin iqtisadi həyatında qazanılan müvəffəqiyyətləri, cəmiyyətimizdə möhkəm bərqərar olmuş sabitliyi diqqətlə və tükənməz fərəh hissi ilə izləyirik. Yurdumuzun sabahına inamımız gündən-günə artır. Son aylar isə daha çox Azərbaycanda prezident seçkilərinə hazırlıq həmyerlilərimizin diqqət mərkəzində idi. Hərə öz dünyagörüşü, marağı səviyyəsində fikir yürüdür, bu mühüm siyasi hadisəyə öz münasibətini bildirirdi.

- Bir neçə dəqiqədən sonra seçki məntəqəsinə çatırıq. Siz kimə səs verəcəyinizi qərara almısınızmı? Yəni sizin fikrinizcə, özünüz dediyiniz kimi, vətənimizi daha işıqlı sabaha, xoş gələcəyə aparmağa prezidentliyə namizədlərdən hansı daha çox qadirdir?

- Əvvəla, onu deyim ki, burada əksəriyyətimiz Azərbaycan mətbuatını müntəzəm oxuyuruq. Prezidentliyə namizədlərin adları açıqlanan kimi mən də, ailə üzvlərimiz də yekdilliklə qət etdik ki, yenidən möhtərəm preziden-

tımız cənab Heydər Əliyevə səs verək. Səmimi deyirəm ki, Moskvada tanıdığım, münasibətdə olduğum həmyerlilərimizin demək olar ki, hamısı məhz bu fikirdə idi. Belə qərarı qəlbində qəbul edən hər kəsin buna çox ciddi əsası var. Bu yekdil fikrin yalnız bircə səbəbini deyəcəyəm. Cəmi bir neçə il əvvəl Moskvada azərbaycanlıları necə sıxışdırır, müxtəlif bəhanələrlə küçələrdə addımbaşı saxlayır, hər cür təzyiqlər göstərirdilər. Guya Rusiya paytaxtında bütün sosial-iqtisadi problemlərin səbəbkarı onlardır. Lakin Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Rusiya prezidenti və Moskva meri ilə keçirdiyi görüşlərin müsbət nəticələrini tezliklə öz gündəlik həyatımızda aydın surətdə gördük. Lakin möhtərəm Heydər Əliyevin səhhətinə görə öz namizədliyini baş nazir İlham Əliyevin xeyrinə geri götürməsi məndə heç bir tərəddüd yaratmadı. Çünki biz qəti inanırıq ki, İlham Əliyev Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısıdır. Biz əminik ki, İlham Əliyevin cənab Heydər Əliyevdən əxz etdiyi zəngin təcrübə onun gənclik qüdrəti ilə birləşib respublikamızı daha yüksək nailiyyətlərə aparacaqdır. Odur ki, mən cənab İlham Əliyevə səs verəcəyəm.

Rusiyada çalışan həmvətənlərimizin hər zaman özünə həyan bildiyi, inamla, ümidlə üz tutduğu, vətənimizin bir parçası bildiyi Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyində lap səhər tezdən qələbəlik idi. Səs verməyə gələnləri burada ilk növbədə rəngarəng, oynaq Azərbaycan təranələri qarşılayırdı. Şux musiqi, könül oxşayan mahnılar həmyerlilərimizi yad yerdə bir-birinə sanki daha da yaxınlaşdırır, doğmalaşdırırdı. Adamlar əziz bayramlarda olduğu kimi, mehribanlıqla görüşür, hal-əhval tutur, ayaqüstü səmimi zarafatlar etməyi də unutmurdular. Milli paltar geymiş qızlar seçki iştirakçılarına çay, kofe, mineral sular, sərinləşdirici içkilər təklif edirdilər.

Saat 11.00-dan sonra səfirliyə səs verməyə gələnlərin sayı daha da artdı. İlk baxışdan aşkar görünürdü ki, Rusiya paytaxtında da bu ümumxalq tədbirinin yüksək səviyyədə təşkili, hazırlıq mərhələsinin əsasnamədə nəzərdə tutulan formada həyata keçirilməsi üçün bütün imkanlardan səmərəli istifadə edilmişdir. Aparılan hazırlıq işləri barədə Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyinin nəzdində yaradılmış məntəqə seçki komissiyalarından birinin sədri, səfirliyin konsul şöbəsinin müdiri Əbülfət Quliyev dedi:

- Respublikamızın Rusiyadakı səfirliyinin ərazisində beş məntəqə seçki komissiyası təşkil olunmuşdur. Seçkilərə hazırlığın ilk günlərindən məntəqə seçki komissiyalarının bütün üzvləri seçkilərin keçirilməsi ilə əlaqədar normativ sənədlərlə ətraflı tanış olmuş, onları diqqətlə öyrənmişlər





Səfirliyimizin dəhlizində böyük stend hazırlanmışdı. Həmyerlilərimiz burada Azərbaycan prezidentliyinə namizədlərin tərcümeyi-halı, siyasi platformaları və onlar haqqında digər məlumatlarla tanış ola bilmişdilər. Seçki komissiyalarının üzvləri ilə yanaşı, Azərbaycanın Rusiyadakı diplomatik missiyasının əməkdaşlarının əksəriyyəti, həmçinin Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) fəalları vaxtaşırı minlərlə həmyerlimizin çalışdığı Moskvanın ticarət müəssisələrində olmuş, seçkilərin mütəşəkkil qaydada keçirilməsi üçün izahat işləri aparmış, seçiciləri maraqlandıran suallara cavab vermişdilər. Bundan əlavə, Moskvada və Rusiyanın müxtəlif guşələrində yaşayan azərbaycanlılarla bir sıra qəzetlər, "İnter-Azərbaycan" televiziyası, həmçinin səfirliyin və ÜAK-nın İnternet saytları vasitəsilə seçkilərlə bağlı ətraflı məlumat verilmişdi.

Səfirlikdəki seçki məntəqələrinin maddi-texniki bazasının müasir tələblər səviyyəsində təşkili də ön plana çəkilmişdi. Məntəqələr səsvermə üçün lazım olan bütün müvafiq avadanlıq və ləvazimatlarla təmin edilmişdilər. Rusiya paytaxtının səfirlikdən nisbətən uzaq guşələrində yaşayan seçiciləri gətirməkdən ötrü avtobuslar ayrılmışdı. Bir sözlə, seçkilərin mütəşəkkil keçməsi üçün təşkilatçılar əllərindən gələni etməyə çalışmışdılar.

Jurnalistlər səsvermənin gedişini izləyən müşahidəçilərdən birinə yaxınlaşdılar. Söhbət əsnasında aydın oldu ki, müstəqil müşahidəçi, texniki elmləri doktoru Pərviz Hacıyev Rusiyada tanınmış elm xadimlərindəndir. Pərviz müəllim dedi ki, ötən bir neçə saat ərzində seçkilərin gedişində heç bir qanun pozuntusu baş verməyib. Seçicilərə sərbəst səs verməkdən ötrü lazımi şərait yaradılıb.

Növbəti həmsöhbət Məzahir Rüstəmovdur. Gədəbəy rayonunun Arıxdam kəndindəndir, Çərkəz bazarında ticarətlə məşğuldur.

- Əgər sirr deyilsə, kimə səs vermisiniz?

- Niyə sirr olur? Hamıya deməyə hazıram ki, cənab İlham Əliyevə səs vermişəm. Çünki o, Heydər Əliyev kimi dünya şöhrətli bir insanın ailəsində böyüyüb. Hamı bilir ki, cənab İlham Əliyev Azərbaycanda necə böyük işlər görür. Əminik ki, siyasətdə də, quruculuq işlərində də cənab İlham Əliyev atasının yolunu davam etdirəcək.

Moskvada Azərbaycan Respublikası Prezidentinin seçkisinin belə mütəşəkkil və demokratik şəraitdə keçməsində Ümumrusiya Azərbaycan Konqresinin də əməyi böyükdür. Konqresin ərazi idarəetmə şöbəsinin rəhbəri İlqar İbrahimov dedi:

Ötən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq Rusiya Federasiyasında bir sıra Azərbaycan cəmiyyətləri yaransa da, bu nəhəng ölkədə respublikamızı təmsil edən işgüzar, güclü fəaliyyət mexanizminə malik bir ictimai qurumun yaradılması əsl zərurət kimi qarşıda dururdu. Belə mütəşəkkil ictimai təşkilatın yaradılması isə məhz Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin adı ilə bağlıdır. 2000-ci ilin yayında Ümumrusiya Azərbaycan Konqresinin təsis yığıncağında respublikamızın rəhbəri cənab Heydər Əliyevin iştirakı Azərbaycan dövlətinin bu məsələyə münasibətini, ona nə dərəcədə böyük əhəmiyyət verdiyini bir daha sübut edirdi. ÜAK-nın bu gün Rusiyada Azərbaycan diasporu ilə bağlı fəaliyyətinin səmərəsi göz önündədir. Son bir neçə ay ərzində isə görülən işlərin mühüm bir hissəsi seçkilərlə əlaqədardır. Konqresin hüquq mərkəzi bu sahədə xüsusi fəallıq göstərib. Rusiyadakı azərbaycanlılar arasında qanunvericiliyin müvafiq müddəalarının şərhi, izahı ilə bağlı böyük işlər görülüb. Həmvətənlərimizlə görüşlərdə prezident seçkiləri və vətəndaş hüquqları barədə ətraflı söhbətlər aparılıb.

Konqres müxtəlif mədəni-kütləvi tədbirlərdən, kütləvi informasiya vasitələrindən istifadə edərək Rusiyada yaşayan həmvətənləri Azərbaycanda keçirilən prezident seçkilərində fəal iştirak etməyə çağırmışdı. Təsadüfi deyil ki, Moskvada yaşayan azərbaycanlılardan başqa Voronej, Vladimir, Ryazan, Tula, İvanov və s. bölgələrdən gələn Azərbaycan vətəndaşları da səsvermədə iştirak edirdilər.

### *Ankara*

Türkiyədə yaşayan və işləyən, buraya müvəqqəti ezamiyyətə gələn, dost və qardaş ölkənin ali təhsil ocaqlarında oxuyan azərbaycanlılar oktyabrın 15-də Ankaradakı Azərbaycan Mədəniyyət Mərkəzinə və İstanbuldakı Baş Konsulluğa gələrək azad və demokratik şəraitdə prezident seçkilərində iştirak etdilər. AzərTAC-ın xüsusi müxbirinin verdiyi məlumata görə seçkilər bayram əhval-ruhiyyəsində, yüksək fəallıq şəraitində keçdi. Türkiyənin kütləvi informasiya vasitələri də seçkiyə böyük diqqət yetirdilər. Seçki məntəqələrinə gələn jurnalistlər səsvermə prosesi ilə maraqlandı. Bütün gün ərzində Türkiyənin televiziya kanallarında və İnternet saytlarında ölkə ictimaiyyətinə Azərbaycanda keçirilən prezident seçkilərinin gedişi barədə məlumat verildi, türk jurnalistləri Azərbaycandakı və Türkiyədəki seçki məntəqələrində azərilərdən müsahibələr aldılar.





Ankaradakı məntəqə seçki komissiyasının sədri, Azərbaycanın xalq artisti, tanınmış musiqiçi, professor Sərvər Qəniyev AzərTAc-ın müxbiri ilə söhbətində bildirdi ki, səsvermə zamanı heç bir pozuntuya yol verilmədi, seçkilər mütəşəkkil və şəffaf keçdi.

Ankarada seçici siyahılarına 554 nəfər daxil edilmiş, ezamiyyətə gəlmiş daha bir nəfər də əlavə olunmaqla 555 seçici səs vermişdi.

İstanbulda siyahılara daxil olunmuş 733 seçicidən 662 nəfəri səsvermədə iştirak etmişdi.

### *Kiyev*

Azərbaycan Respublikası Prezidenti seçkilərində Kiyevdəki azərbaycanlılar da yüksək fəallıq göstərdilər.

Azərbaycanın Ukraynadakı səfirliyində yaradılmış məntəqə seçki komissiyasının sədri Arif Quliyev AzərTAc-ın müxbirinə bildirdi ki, siyahılara daxil edilmiş 2853 seçicidən 2496 nəfəri Bakı vaxtı ilə saat 17-dək səs vermişdi. Xarkov və Dnepropetrovsk şəhərində də seçki məntəqəsi fəaliyyət göstərmişdi.

Azərbaycanın Ukraynadakı səlahiyyətli səfirinin Dnepropetrovsk şəhəri üzrə fəxri müşaviri Mərhəmət Bəşirov bildirdi ki, 16 saylı Yasamal ikinci seçki dairəsinin 3 saylı Dnepropetrovsk seçki məntəqəsində 652 vətəndaşa bildiriş verilmişdi. Onların böyük əksəriyyəti Dnepropetrovskın özündə, bir qismi isə qonşu Zaporojye, Kirovoqrad, Pavloqrad, Krivoy-Roq, Novomoskovsk, Melitopol və s. şəhərlərdə yaşayırlar. Ukraynadakı azərbaycanlılar böyük fəallıq göstərdi. Azərbaycanın müqəddəratında mühüm rol oynayacaq bu seçkilərdən kənarda qalmamaq üçün seçki günü seçki məntəqələrinə gəlib səsvermədə iştirak etdilər.

### *Minsk*

Oktyabrın 15-də Belarus Respublikasındakı azərbaycanlılar da öz vətəndaşlıq borcunu böyük ruh yüksəkliyi ilə yerinə yetirdilər. Bakı vaxtı ilə saat 17-dək Minskdə 305 seçicinin 270 nəfəri artıq səs vermişdi.

### *Paris*

Azərbaycanın Fransadakı səfirliyində təşkil olunmuş seçki məntəqəsi səhər tezdən seçiciləri qəbul etmişdi. Seçkilərin normal şəraitdə keçməsi üçün burada maksimum şərait yaradılmışdı. Seçki keçirilən otaqda ölkənin üçrəngli bayrağı qoyulmuş, seçkilərlə bağlı müxtəlif plakatlar asılmış-

di. Prezidentliyə namizədlərin siyahısı və onlar barədə qısa məlumatlar, seçki haqqında qanun və digər sənədlər vardı.

Səsverməyə hamıdan əvvəl səfirliyin əməkdaşları gəldilər. Fransada yaşayan, təhsil alan, ezamiyyətdə olan azərbaycanlılar səsvermədə böyük həvəslə iştirak etdilər.

*Tələbə Emin Qurbanov AzərTAc-ın müxbirinə dedi:*

– Mən Parisdən uzaqda, Kann şəhərində yaşamağıma baxmayaraq, öz vətəndaşlıq borcumu yerinə yetirmək üçün buraya gəlmişəm. Vətəndən uzaqda olsam da, ölkəmizdə baş verən hadisələri diqqətlə izləyirəm. Mən öz seçimimi əvvəldən etmişdim və bu gün Azərbaycanımızın daha yaxşı gələcəyinə səs verdim. Mən və tələbə dostlarım ölkəmizdə sabitliyin davam etməsini, Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun daha da yüksəlməsini, respublikamızın iqtisadi qüdrətinin artmasını, xalqın rifah halının yaxşılaşmasını istəyirik.

Parisdə seçici siyahısındakı 62 seçicidən 49-u, habelə Fransada ezamiyyətdə olan 28 azəri vətəndaşı səsvermədə iştirak etdi.

***Berlin***

Berlində Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı səfirliyində yaradılmış seçki məntəqəsində prezident seçkiləri demokratik, ədalətli və şəffaf şəraitdə keçirildi. Demək olar ki, bütün prezidentliyə namizədlərin mənsub olduqları partiyaların müşahidəçiləri səsvermənin gedişini əvvəldən sona qədər izlədilər. Şəffaf seçki qutusu açılarkən onların iştirakı ilə səsvermənin nəticələri hesablandı və elan olundu. Cəmi 3 səsvermə bülleteni etibarsız sayıldı.

Səsvermədə 138 Azərbaycan vətəndaşı iştirak etmişdir.

***Tbilisi***

Gürcüstanda müvəqqəti yaşayan Azərbaycan Respublikası vətəndaşları ölkənin Tbilisidəki səfirliyində təşkil olunmuş seçki məntəqəsində səs verdilər.

Məntəqə yerli vaxtla səhər saat 8-dən fəaliyyətə başladı. Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Hacan Hacıyev bildirdi ki, seçkilərin şəffaf və demokratik keçirilməsi üçün bütün tədbirlər görülmüşdür. Marneulidə təhsil alan tələbələrin səs verməsi üçün xüsusi nəqliyyat vasitələri ayrılmışdı.

Məntəqə seçki komissiyasının sədri Hamlet Qaralov dedi ki, Gürcüstanda olan bütün vətəndaşlarımızın səs vermələrinin təmin edilməsi üçün əvvəlcədən "Gürcüstan" və "Svobodnaya Qruziya" qəzetlərində səfirliyin bildirişi dərc olunmuş, habelə seçicilərə şəxsən və telefonla xəbər verilmişdir. Bütün bu tədbirlərin nəticəsində seçicilər yüksək fəallıq göstərmişlər.





Axşam saat 19.00-da səsvermə başa çatmış, seçki bülletenləri sayılmışdır. Seçkilərdə 511 nəfər iştirak etmişdir.

***Daşkənd***

17 nömrəli Yasamal üçüncü seçki dairəsinin Azərbaycanın Özbəkistandakı səfirliyində yaradılmış seçki məntəqəsində səsvermə mütəşəkkil başa çatdı. Səhər saat 8.00-dan axşam saat 19.00-dək Daşkənddə, Özbəkistanın digər şəhərlərində, habelə Cənubi Qazaxıstanda yaşayan Azərbaycan vətəndaşları səsvermədə iştirak edib, istədikləri namizədə səs verdilər.

İlk olaraq Azərbaycan Respublikasının Özbəkistandakı fövqəladə və səlahiyyətli səfiri Aydın Əzimbəyov səs verdi.

Seçicilər arasında Bakıdakı ADO-Q tikinti şirkətinin əməkdaşları da var idi. Onlar Azərbaycanın Özbəkistandakı səfirliyinin yeni binasının tikintisində iştirak edirdilər.

Məntəqə seçki komissiyasının məsul katibi Şahin Əhmədov AzərTAc-ın müxbirinə bildirdi ki, səsverməyə çox böyük maraq var idi. Seçicilər istədikləri namizədə səs verirdilər.

BMT-nin Mütəşəkkil Cinayətkarlıq və Narkotiklərə Nəzarət İdarəsinin Mərkəzi Asiyadakı regional nümayəndəliyinin müşaviri Tofiq Mürşüdlü dedi ki, seçkilər çox demokratik və şəffaf keçdi. Arzum budur ki, seçiləcək yeni prezident xalqımızın ən ağır problemi olan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etsin, ev-eşiyindən qovulmuş köçkünlər yurd-yuvalarına qayıtsınlar.

***Aşqabad***

17 nömrəli Yasamal üçüncü seçki dairəsinin Azərbaycanın Aşqabaddakı səfirliyində yaradılmış seçki məntəqəsində Türkmənistanda yaşayan və işləyən, habelə ezamiyyətdə olan Azərbaycan vətəndaşları səs verdi. Səsvermənin demokratik qaydada keçməsi üçün səfirlikdə hər cür şərait yaradılmışdı.

Səhər tezdən Azərbaycanın Türkmənistandakı səfiri Elxan Hüseynov, səfirliyin əməkdaşları və onların ailə üzvləri səs verdi.

Məntəqə seçki komissiyasının sədri Nizami Rüstəmov AzərTAc-ın müxbirinə bildirdi ki, apardığımız təşviqat işinin nəticəsidir ki, vətəndaşlarımız seçkiyə böyük maraq göstərmiş və istədikləri namizədə səs vermişlər.

Aşqabadda yaşayan Cəbrayıl qaçqını İradə Mehdiyeva dedi: - Mən torpaqlarımızı qaytara biləcək namizədə səs verdim və ümid edirəm ki, o, buna nail olacaqdır.

Təqaüdçü Zemfira Qafarova isə arzu etdi ki, Azərbaycan xalqı sülh və əmin-amanlıq şəraitində yaşasın, əhalinin güzəranı yaxşılaşsın. O, səs verdiyi namizədin bu arzuların həyata keçirilməsini təmin edə biləcəyinə ümid bəslədiyini bildirdi.

***Vaşinqton***

ABŞ-da yaşayan Azərbaycan vətəndaşları da oktyabrın 15-də prezident seçkilərində iştirak etdilər. Onlar Azərbaycanın Vaşinqtondakı səfirliyində və BMT-dəki daimi nümayəndəlikdə təşkil edilən 17 saylı Yasamal 3-cü seçki dairəsinin Vaşinqton və Nyu-York seçki məntəqələrinə gələrək səs verdilər.

AzərTAc-ın xüsusi müxbirinin məlumatına görə Vaşinqton seçki məntəqəsində seçicilər daha yüksək fəallıq göstərdilər. Məntəqə açıldıqdan 3 saat sonra seçicilərin təxminən 50 faizi artıq prezident seçkilərinə münasibətlərini bildirmişdilər.

Səsvermə prosesini gün ərzində Seçki Sistemləri üzrə Beynəlxalq Fondun müşahidəçiləri izlədilər. Müşahidəçilərin rəyi belə oldu ki, ABŞ-da təşkil edilən seçki məntəqələrində səsvermə şəffaf və demokratik şəraitdə keçdi, heç bir qanun pozuntusu qeydə alınmadı.

Yerli vaxtla saat 19-da bağlanan seçki məntəqələrində səslərin hesablanmasına dair protokola əsasən nəticələr belə oldu:

Vaşinqton seçki məntəqəsində İlham Əliyev 86,67 faiz, İsa Qəmbər 11,67 faiz, Etibar Məmmədov 1,67 faiz.

Nyu-York seçki məntəqəsində İlham Əliyev 45,94 faiz, İsa Qəmbər 37,83 faiz, Lalə-Şövkət Hacıyeva 8,1 faiz, İlyas İsmayılov 5,4 faiz, Etibar Məmmədov 2,7 faiz.





## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ SƏDRİ MƏZAHİR PƏNAHOVUN MƏTBUAT KONFRANSI

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov oktyabrın 16-da "Seçkilər" İnformasiya Mərkəzində mətbuat konfransı keçirdi.

MSK-nın sədri jurnalistlərə müraciətlə dedi:

- Ötən gün xalqımızın tarixində əlamətdar bir hadisə baş verdi. Azərbaycan Respublikası prezidentinin seçkiləri keçirildi. Xalqımız, Azərbaycan seçiciləri özünün, ölkəmizin tarixinin şərəfli bir səhifəsini yazdı. Azərbaycan seçiciləri 44 mindən çox yerli, mindən yuxarı beynəlxalq müşahidəçinin, yüzlərlə xarici və yerli kütləvi informasiya vasitələri nümayəndələrinin gözü qarşısında mütəşəkkil, azad, sərbəst şəkildə özlərinin istədikləri namizədə səs verdilər.

Səhər saat 8-dən axşam saat 19-dək seçicilərin 71 faizindən çoxu səs verdilər, sonra səsvermənin nəticələrinin hesablanması mərhələsi başlandı və müşahidəçilərin gözü qarşısında, bilavasitə onların iştirakı ilə səslərin sayılması prosesi həyata keçirilərək nəticələr arası kəsilmədən informasiya mərkəzinə daxil oldu və olmaqda davam etdi. Nəticələr operativ şəkildə Azərbaycan seçicilərinə, dünya ictimaiyyətinə mütəmadi olaraq çatdırıldı. Çünki məlumatlar daxil olan andan həm informasiya mərkəzinin, həm də Mərkəzi Seçki Komissiyasının İnternet saytına qoyuldu. Diqqətinizə çatdırmaq istəyirəm ki, indiyə qədər respublikamızdakı 5129 məntəqənin 4 min 673-ündən nəticələr daxil olmuşdur. Bu da ümumi məntəqələrin 91 faizindən artıqdır.

Seçkilərin, səsvermənin çox yüksək səviyyədə keçməsi ilə yanaşı, qeyd etmək istəyirəm ki, bu prosesdə müşahidəçilik missiyası həyata keçirən Avropa Şurası Parlament Assambleyasının, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının nümayəndə heyətlərinə, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun əməkdaşlarına, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələrinə, ümumiyyətlə, fərdi müşahidəçilik missiyasını həyata keçirən vətəndaşlarımıza Mərkəzi Seçki Komissiyası adından öz minnətdarlığımı bildirirəm ki, öz vəzifələrini əsasən qanuna müvafiq şəkildə yerinə yetirirlər.

Məntəqələrdə gün ərzində seçicilərin tam, azad və sərbəst şəkildə öz iradələrini ifadə etmələri üçün yaranmış şərait axıra qədər davam etmişdi. Ümumiyyətlə, nə dünən, nə də bu gün Mərkəzi Seçki Komissiyasına rəsmi müraciətlər daxil olmayıb. Hazırda əlimizdə olan nəticələr, yəni 4 min 673 məntəqədən daxil olmuş nəticələri "Seçkilər" İnformasiya Mərkəzindən sizə çatdırıblar. Mən həmin nəticələri bir daha elan etmək istəyirəm. Səslər aşağıdakı kimidir:

ƏLİYEV İlham Heydər oğluna 2 milyon 283 min 820 seçici səs vermişdir. Bu, səsvermədə iştirak edən seçicilərin 79,5 faizidir.

HACIYEV Hafiz Ələmdar oğluna 9 min 615 seçici səs vermişdir. Bu, seçicilərin 0,33 faizidir.

HACIYEVA Lalə-Şövkətə 95 min 295 seçici səs vermişdir. Bu, seçicilərin 3,32 faizidir.

HƏSƏNQULİYEV Qüdrət Müzəffər oğluna 13 min 226 seçici səs vermişdir. Bu, seçicilərin 0,46 faizidir.

İSMAYILOV İlyas Abbas oğluna 23 min 579 seçici səs vermişdir. Bu, seçicilərin 0,82 faizidir.

QƏMBƏR İsa Yunis oğluna 346 min 566 seçici səs vermişdir. Bu, seçicilərin 12,06 faizidir.

MƏMMƏDOV Etibar Səlidar oğlu 78 min 169 seçicinin səsini qazanmışdır. Bu, seçicilərin 2,72 faizidir.

RÜSTƏMXANLI Sabir Xudu oğluna 22 min 261 seçici səs vermişdir. Bu, seçicilərin 0,78 faizidir.

Bir daha diqqətinizə çatdırıram ki, bu, ilkin məlumatlardır. Məntəqələrin 91 faizindən daxil olan məlumatlardır. Məlumatlar daxil olmaqda davam edir. Yaxın saatlarda biz sizə bütün 5129 məntəqədən və xarici ölkələrdə fəaliyyət göstərmiş məntəqələrdən daxil olan nəticələrin hamısını çatdıracağıq.

İlkin nəticələrə görə, Əliyev İlham Heydər oğlu böyük səs çoxluğu ilə Azərbaycan seçicilərinin səsini qazanmışdır və hazırda prezidentliyə namizədlər arasında liderlik edir. Yaxın günlərdə Mərkəzi Seçki Komissiyası məntəqələrdən daxil olan protokolları diqqətlə təhlil edəcək. Eyni zamanda komissiyaya daxil olan şikayətləri ciddi şəkildə araşdıracağıq. Mən xalqımızın qarşısında söz verirəm ki, bu araşdırmalar çox şəffaf şəkildə həyata keçiriləcəkdir. Kütləvi informasiya vasitələrinin nümayəndələri də bunu izləyə biləcəklər. Hər hansı bir məntəqədə səsvermənin nəticələrinə təsir etmək gücündə olan qanun pozuntusu halları meydana





çıxacaqsa, biz həmin məntəqədəki nəticələri ləğv edəcəyik. Sizə indidən bildirirəm ki, qarşıdakı iki gün müddətində biz dairə seçki komissiyalarının protokollarını MSK-da araşdırarkən maraqlı tərəflərin hamısının, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakını təmin edəcəyik.

Yeri gəlmişkən, mən 15 oktyabrdakı səsverməni Azərbaycan, eləcə də dünya ictimaiyyətinə çox operativ çatdırdığınıza görə sizə öz minnətdarlığımı bildirirəm. Eyni zamanda mən bizim yaratdığımız Müstəqil Mətbuat Mərkəzinin də müsbət fəaliyyətini qeyd edirəm. Onlara da öz minnətdarlığımı bildirirəm. Hesab edirəm ki, biz yaxın vaxtda rəsmi olaraq Azərbaycan prezidentinin seçilməsini sizin iştirakınızla böyük ruh yüksəkliyi ilə elan edəcəyik. Heç şübhəm yoxdur ki, xalqımızın seçdiyi şəxs ölkəmizin növbəti beş illik həyatında çox müstəsna rol oynaya biləcəkdir.

# SEÇKİNİN RƏSMİ YEKUNLARI ELAN OLUNDU

**Azərbaycan Respublikası Prezidentinin 15 oktyabr 2003-cü ildə keçirilmiş seçkilərində etibarlı hesab edilmiş 2 421 061 səsin prezidentliyə namizədlər arasında bölünməsi haqqında**

**m ə l u m a t**

| Seçki bülleteninə daxil edilmiş prezidentliyə namizədlərin soyadı, adı, atasının adı (əlifba sırası ilə) | Hər bir namizədin lehinə verilmiş səslərin sayı | | |
|---|---|---|---|
| | rəqəmlə | sözlə | faizlə |
| ƏLİYEV İlham Heydər oğlu | 1 860 346 | Bir milyon səkkiz yüz altmış min üç yüz qırx altı | 76.8401 = 76.84 |
| HACIYEV Hafiz Ələmdar oğlu | 8 267 | Səkkiz min iki yüz altmış yeddi | 0.3415 = 0.34 |
| HACIYEVA Lalə-Şövkət | 87 523 | Səksən yeddi min beş yüz iyirmi üç | 3.6151 = 3.62 |
| HƏSƏNQULİYEV Qüdrət Müzəffər oğlu | 12 071 | On iki min yetmiş bir | 0.4986 = 0.50 |
| İSMAYILOV İlyas Abbas oğlu | 24 098 | İyirmi dörd min doxsan səkkiz | 0.9953 = 1.00 |
| QƏMBƏR İsa Yunis oğlu | 338 145 | Üç yüz otuz səkkiz min yüz qırx beş | 13.9668 = 13.97 |
| MƏMMƏDOV Etibar Salidar oğlu | 70 638 | Yetmiş min altı yüz otuz səkkiz | 2.9176 = 2.92 |
| RÜSTƏMXANLI Sabir Xudu oğlu | 19 973 | On doqquz min doqquz yüz yetmiş üç | 0.8250 = 0.82 |
| Cəmi | 2 421 061 | İki milyon dörd yüz iyirmi bir min | 100.0000 100.0 |





# XARİCİ ÖLKƏLƏRDƏKİ SƏFİRLİKLƏRDƏ KEÇİRİLMİŞ SEÇKİLƏRDƏ DƏ İLHAM ƏLİYEV QƏLƏBƏ QAZANDI

Oktyabrın 15-də ölkənin hüdudlarından kənarda yaşayan Azərbaycan vətəndaşlarının prezident seçkilərində səsvermələrinin nəticələri elan olundu.

Prezidentliyə namizəd İlham Əliyevə Avstriyada səsvermədə iştirak etmiş 62 seçicinin 34-ü, Birləşmiş Ərəb Əmirliklərində 86-dan 70-i, Belçikada 60-dan 44-ü, Çin Xalq Respublikasında 59-dan 56-sı, İran İslam Respublikasında 104-dən 82-si, Misir Ərəb Respublikasında 117-dən 83-ü, Pakistan İslam Respublikasında 41-dən 27-si, Rumıniyada 35-dən 33-ü, Səudiyyə Ərəbistanında 52-dən 45-i səs vermişdir.

Azərbaycanın beynəlxalq təşkilatlardakı missiyalarında da vətəndaşlar öz səsvermə hüquqlarından istifadə etmişlər. Burada da İlham Əliyev inamlı qələbə qazanmışdır. Belə ki, Avropa Şurasında 21 seçicinin 20-si, BMT-nin İsveçrədəki bölməsində 59-seçicidən 55-i baş naziri dəstəkləmişdir.

## AZƏRBAYCANIN YENİ PREZİDENTİ

İlham Heydər oğlu ƏLİYEV 24 dekabr 1961-ci ildə Bakı şəhərində anadan olub. Orta təhsilini 1967-77-ci illərdə Bakı şəhərində alıb. Məktəbi bitirdikdən sonra 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna (MDBMİ) qəbul olub. MDBMİ-ni bitirdikdən sonra, 1982-ci ildə Beynəlxalq Münasibətlər kafedrasının aspiranturasına daxil olub. 1985-ci ildə Tarix və Beynəlxalq Münasibətlər üzrə magistr dərəcəsini alıb. 1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Beynəlxalq Münasibətlər kafedrasında müəllim işləyib... 1991-94-cü illərdə Moskva və İstanbulda kommersiya fəaliyyəti ilə məşğul olub. 1994-cü ilin may ayından etibarən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin 1-ci vitse-prezidentidir. 1995 və 2000-ci il parlament seçkilərində Azərbaycan Respublikası Milli Məclisinə millət vəkili seçilib. 1999-cu ilin dekabr ayında Yeni Azərbaycan Partiyasının sədr müavini, 2001-ci ildə isə sədrin 1-ci müavini seçilib. 1997-ci ildən etibarən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. 2003-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və Büro üzvü seçilib. 2003-cü il 4 avqust tarixində Milli Məclisin qərarı ilə Azərbaycan Respublikasının baş naziri vəzifəsinə təyin edilib. 2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə Azərbaycan Respublikasının Prezidenti seçilib.

Azərbaycan, rus, ingilis və fransız dillərini mükəmməl bilir.

Evlidir. İki qızı və bir oğlu var.





## SEÇKİLƏR BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏRİN GÖZÜ İLƏ

2003-cü ilin 15 oktyabr prezident seçkisi həm də onunla fərqləndi ki, bu dəfəki seçki kampaniyasına beynəlxalq maraq yüksək idi. Hər bir dairə və məntəqədə müxtəlif beynəlxalq təşkilatların, demokratiya institutlarının müşahidəçi missiyalarını və müxbirləri, telereportyorları görmək olurdu. Qeyd edək ki, bu seçkilərdə mindən çox xarici müşahidəçi qeydə alınmışdı. Onlardan 163 nəfəri Müstəqil Dövlətlər Birliyinin, 660-ı ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun, 180-i ABŞ-ın, 32-si Avropa Şurası Parlament Assambleyasının, 24-ü ATƏT-in Parlament Assambleyasının, 10-u İFES-in və digər nüfuzlu beynəlxalq təşkilatların müşahidəçiləri idi. Bundan başqa, Mərkəzi Seçki Komissiyasında və hər bir seçki dairəsində səsvermənin gedişini ABŞ-ın nümayəndələri izləyirdi. Onların missiyası məntəqələrin protokollarını beynəlxalq şəbəkəyə ötürməkdən ibarət idi.

Seçki günü saat 7.00-dan başlayaraq Azərbaycan vətəndaşları ilə bərabər beynəlxalq müşahidəçilər, xarici jurnalistlər və telereportyorlar da seçki məntəqələrinə daxil olurdular. 16 saylı Yasamal seçki dairəsinin 7 saylı seçki məntəqəsində səs vermək üçün böyük növbə yaranmışdı. Çəkilişə gəlmiş xarici telekompaniyaların təmsilçiləri və Türkiyə Mərmərə Qrupu Vəqfinin üzvləri heyrətlərini gizlətmədilər. Vəqfin prezidenti Akkan Suver "seçkilərdə belə qələbəlik görməmişdim, hər kəs öz səsinin müdafiəsinə qalxıb" - dedi. "Azərbaycan" qəzetinin müxbirləri onun fikrini öyrəndilər:

- Seçicilərlə sorğu apardınızmı?

- Bu qələbəlikdən istifadə edib bir neçəsinə yanaşdım, onlar da mənə çox isti münasibət göstərdilər. Səmimi etiraf etdilər ki, heç kəs onlara mane olmur. Seçicilər azad və sərbəst şəkildə səs verirlər.

16 saylı Yasamal 2-ci seçki dairəsi üzrə 6 saylı seçki məntəqəsində ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun nümayəndəsi Cek Est, Plak və Allik seçkilərin gedişini müşahidə edirdilər. Onlar indiyədək seçki prosesinin normal qaydada getməsi və heç bir pozuntuya yol verilməməsi barədə məlumat verdilər.

Jurnalistlər ATƏT-in nümayəndələri ilə seçki məntəqələrini bərabər gəzərkən bolqarıstanlı müşahidəçi Aleksandr Petrovla rastlaşdılar. Beynəlxalq müşahidəçilərin güclü marağını gizlətməyən cənab A. Petrov bildirdi ki, bir sıra ölkələrin seçki proseslərində iştirak etsə də, seçki aksiyasına belə marağı ilk dəfədir görür.

- Seçkilərin gedişindən razısınızmı? - sualına o, belə cavab verdi:

- Vəziyyət həqiqətən, qənaətbəxşdir. Küçədə insanlarla söhbət etmişəm. Hamı seçkidən razılıq edir.

Bolqarıstan Respublikasının Azad və Demokratik Seçkilər Uğrunda Vətəndaş Təşəbbüsləri Təşkilatının üzvləri İlya Bojimov və Plan Nikoliv bildirdilər ki, şəhərdən 20-dək seçki məntəqəsini gəziblər: "Vəziyyət yaxşıdır. Seçici fəallığına söz ola bilməz. Lakin elə vətəndaşlarla da rastlaşdıq ki, səs verə bilmirlər. Deyirlər ki, adları seçki siyahılarına düşməyib, ancaq həmin ərazidə qeydiyyatdadırlar. Bu problemlə biz də maraqlandıq. Təkcə onu öyrənə bildik ki, bunlar hamısı texniki qüsurlardır. Bizə qalarsa, hələlik hər şey qaydasındadır."

Nəsimi və Səbail rayonlarının seçki məntəqələrini gəzərkən jurnalistlər Azərbaycanın ombudsmanı Elmira Süleymanova ilə rastlaşdılar. Bir neçə xarici ekspertlərlə seçkini müşahidə edən ombudsmanın seçkilərin gedişi haqqında rəyini öyrənmək istədilər. Elmira xanım bildirdi ki, o və xarici müşahidəçilər hər hansı bir pozuntu ilə rastlaşmayıblar. Vətəndaşlar azad və sərbəst şəkildə öz seçici hüquqlarından istifadə edirlər.

ATƏT-in nümayəndələri 16 saylı Yasamal 2-ci seçki dairəsində də seçkilərin gedişini izlədilər. Paytaxtın demək olar ki, əksər seçki məntəqələrini gəzən beynəlxalq müşahidəçilər seçkilərin gedişindən razı idilər.





## AVROPA ŞURASI VƏ ATƏT MÜŞAHİDƏÇİLƏRİNİN MƏTBUAT KONFRANSI

Azərbaycanda keçirilən 15 oktyabr prezident seçkilərini müşahidə edən Avropa Şurası və ATƏT Parlament Assambleyasının, ATƏT-in Demokratik Təsisatlar və İnsan haqları Bürosunun (ATƏTDTİHB) müşahidəçiləri mətbuat konfransı ilə seçkiyə münasibətlərini bildirdilər.

ATƏT-in Qısamüddətli Müşahidə Missiyası üzrə ATƏT sədrinin xüsusi əlaqələndiricisi Covanni Kessler dedi ki, seçicilərə 8 namizəd arasında əlverişli seçim imkanı verilmişdir. Müxalifətdən olan namizədlər hakimiyyət orqanlarını istədikləri qədər tənqid edə bilmişlər. Yeni Seçki Məcəlləsi seçkiləri misli görünməmiş şəffaflıq səviyyəsinə qaldırmışdır. Bu seçkilər Azərbaycanın demokratiya və beynəlxalq normalara doğru sürətlə irəlilədiyini sübut etdi.

Avropa Şurası nümayəndə heyətinin rəhbəri Gilyermo Martınes Kassan dedi ki, bu seçkilər Azərbaycanda tərəqqi, ölkədəki bütün demokratik qüvvələr arasında əməkdaşlığın və inamın bərqərar olması yolu ilə irəliləməsi istiqamətində yeni mərhələnin başlanğıcı kimi qəbul edilə bilər.

ATƏTDTİHB-nun seçkiləri müşahidə missiyasına rəhbərlik edən Piter Ayker də öz avropalı həmkarlarının fikirləri ilə razı olduğunu vurğuladı.

Seçki prosesi zamanı bəzi qanun pozuntularının da qeydə alındığını vurğulayan müşahidəçilər həmin problemlərin həll edilməsi məqsədilə Azərbaycanın hakimiyyət orqanları və vətəndaş cəmiyyəti ilə öz dialoqlarını davam etdirməyə hazır olduqlarını bəyan etdilər.

Sonra müşahidə missiyasının rəhbərləri jurnalistləri maraqlandıran suallara cavab verdilər. Onlar bəzi müxalifət liderlərinin səsvermənin nəticələrinin elan olunmasından qabaq öz qələbələri barədə bəyanatlar verməlırinin və xalqı zorakılığa səsləmələrinin, jurnalistlərin döyülməsinin yolverilməz olduğunu bildirdilər.

Azərbaycan xalqına və hökumətinə müşahidəçilərə göstərilən qayğıya, qonaqpərvərliyə və müşahidə üçün yaradılmış şəraitə görə dərin minnətdarlıqlarını bildirən beynəlxalq ekspertlər ayrı-ayrı təbəqələri, siyasi qüvvələri birliyə, ölkənin inkişafına birgə nail olmağa çağırdılar.

# MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNDƏN OLAN BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏRİN BƏYANATI

Biz, Müstəqil Dövlətlər Birliyindən olan beynəlxalq müşahidəçilər Azərbaycanda prezident seçkilərinin hazırlanması və keçirilməsinin müşahidə olunmasında iştirak etdik. Biz seçki kampaniyasının monitorinqini Azərbaycan Respublikasının dəvəti ilə və Azərbaycan Respublikası Prezidentinin seçkilərinə MDB-dən müşahidəçilər göndərilməsi haqqında Birliyin Dövlət Başçıları Şurasının 2003-cü il 30 may tarixli qərarına uyğun olaraq həyata keçirdik.

Prezident seçkilərinin hazırlanması və keçirilməsi prosesinin müşahidə olunmasında Birlik ölkələrindən 150-dən artıq adam iştirak etmişdir. Biz öz fəaliyyətimizdə Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycanın Seçki Məcəlləsini, Azərbaycan Respublikası Prezidentinin seçkilərində beynəlxalq (xarici) müşahidəçilərin fəaliyyəti qaydaları barədə Azərbaycan Mərkəzi Seçki Komissiyasının qərarı ilə təsdiqlənmiş Təlimatı, MDB-nin üzvü olan dövlətlərdə demokratik seçkilərin, seçki hüquqları və azadlıqlarının standartları haqqında Birliyin Dövlət Başçıları Şurası tərəfindən qəbul edilmiş Konvensiyanı əsas tutmuşuq. Müstəqil Dövlətlər Birliyinin seçkiləri müşahidə üzrə beynəlxalq müşahidəçiləri üçün MDB-nin üzvü olan dövlətlərin Parlamentlərarası Assambleyasının qəbul etdiyi tövsiyələri nəzərə almışıq.

Prezident seçkilərini müşahidə funksiyalarını həyata keçirərkən bizə seçki prosesini tənzimləyən sənədləri öyrənməyə, seçki orqanlarından lazımi informasiya almağa, siyasi partiyalarla, Azərbaycanın ali dövlət vəzifəsinə namizədlərlə əlaqə saxlamağa, seçki məntəqələrinə və səsvermə otaqlarına sərbəst gedib-gəlməyə imkan verilmişdir.

Biz öz fəaliyyətimizi aşkar, müstəqil və azad surətdə həyata keçirmiş, bu zaman Azərbaycanın qanunlarına riayət etmiş, siyasi bitərəflik, qərəzsizlik, seçki prosesinə qarışmamaq, seçki kampaniyasında iştirak edən siyasi partiyalar, bloklar və prezidentliyə namizədlər barəsində kiməsə üstünlük verməklə və kimisə qiymətləndirmək haqqında hər hansı fikrin ifadə olunmasından imtina etmək prinsiplərini əsas tutmuşuq.





Biz prezident seçkilərinin təşkili və keçirilməsi üçün Azərbaycan Mərkəzi Seçki Komissiyası və aşağı seçki komissiyaları tərəfindən böyük hazırlıq işi görüldüyünün şahidi olduq.

2003-cü il oktyabrın 15-də seçkilər günü biz 1103 məntəqədə olduq, seçki məntəqələrində və dairə seçki komissiyalarında səsvermənin gedişini, səslərin hesablanmasını və onların nəticələrinin müəyyənləşdirilməsini bilavasitə müşahidə etdik. Zənnimizcə, bütün seçki bülletenlərinin nömrələnməsinin nəzərdə tutulması, onların xüsusi zərflərə qoyulması, səsvermə üçün şəffaf qutulardan istifadə edilməsi, çoxlu sayda yerli və beynəlxalq müşahidəçilərin olması, onlara bülletenlərin hesablanması prosedurunun müşahidəsini təmin edən şərait yaradılması - bütün bunlar seçki prosesinin şəffaflığına kömək etmişdir.

Biz öz ilkin rəylərimizi apardığımız müşahidə və topladığımız faktik materialın təhlili, digər beynəlxalq təşkilatlardan olan müşahidəçilərlə konstruktiv qarşılıqlı fəaliyyət nəticəsində alınmış informasiyanı ümumiləşdirmək əsasında bildiririk.

Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanması və keçirilməsi prosesini müşahidəmizin yekunlarının təhlili aşağıdakı nəticələri çıxarmağa imkan verir:

Azərbaycan Respublikasının seçki qanunvericiliyi demokratik seçkilərin təşkilinə və keçirilməsinə hamılıqla qəbul edilmiş yanaşmalara ümumən uyğundur. Azərbaycanın bir sıra beynəlxalq təşkilatların ekspertizasından keçən yeni Seçki Məcəlləsi ədalətli, şəffaf və demokratik seçkilər üçün qanunvericilik əsasını təmin edir və ölkənin vətəndaşlarına Konstitusiyada nəzərdə tutulan azad surətdə seçmək və seçilmək hüququnu həyata keçirməyə imkan verir.

Seçkilər alternativlik prinsipləri əsasında və iddiaçıların kəskin rəqabəti şəraitində keçirdi. Azərbaycan Prezidenti vəzifəsinə irəli sürülmüş və imzalar toplanması yolu ilə seçicilərin dəstəyini almış namizədlər sırasından 12 nəfər Mərkəzi Seçki Komissiyası tərəfindən qeydiyyatdan keçirilmişdir. Onların dördü namizədliyini geri götürmək, o cümlədən üçü digər namizədlərin xeyrinə geri götürmək hüququndan istifadə etmişdir. Seçki prosesinin yekun mərhələsində səkkiz nəfər iştirak etmişdir.

Seçki kampaniyasının aparılmasının forma və metodları qanunvericilik və etika çərçivəsinə əsasən uyğun gəlirdi. Bununla yanaşı, biz seçkiqabağı təbliğat aparılarkən, səs verilərkən və səsvermənin nəticələri müəyyən edilərkən bəzi seçki komissiyaları, ayrı-ayrı partiyaların nümayəndələri

tərəfindən mövcud qanunvericiliyin ayrı-ayrı pozuntularına yol verildiyini də aşkara çıxardıq.

Namizədlərin heç də bütün təbliğat materiallarında (plakatlar, vərəqələri Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə müəyyən edilmiş buraxılış məlumatı yox idi. Seçki məntəqələrində seçici siyahılarının keyfiyyətsiz tərtibi faktları var idi, bununla əlaqədar səsvermə günü vətəndaşların bir qismi onların yaşayış yeri üzrə seçici siyahılarına daxil edilməsi üçün məhkəmələrə müraciət etməli olurdu. Ayrı-ayrı məhkəmələrə (məsələn, Sumqayıt şəhərində) bir neçə yüz nəfərədək seçici belə ərizələrlə müraciət etmişdir.

Bir sıra məntəqələrdə səs vermək istəyən şəxslərin növbələrə durduğu müşahidə olunurdu ki, bu da seçki prosesini çətinləşdirirdi.

Lakin qeydə aldığımız pozuntular kütləvi xarakter daşımırdı və son nəticədə seçicilərin öz iradəsini azad ifadə etməsinə ciddi təsir göstərməmişdir.

Biz, Müstəqil Dövlətlər Birliyindən olan beynəlxalq müşahidəçilər hesab edirik ki, seçki komissiyaları 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikası Prezidentinin seçkilərini milli seçki qanunvericiliyinə müvafiq surətdə keçirmişlər, bu seçkiləri azad, demokratik və açıq seçkilər kimi qiymətləndiririk. Biz Azərbaycanda prezident seçkilərinin monitorinqinin gedişində siyasi partiyalarla, milli hakimiyyət və idarəetmə orqanları, beynəlxalq təşkilatlar ilə konstruktiv qarşılıqlı fəaliyyəti qeyd edirik. Bizə seçkilərin hazırlanması və keçirilməsi haqqında öz rəyimizi açıq şərh etməyə şərait yaradılmışdı.

Bizim bəyanatımızın müddəalarına şərik olan bütün digər beynəlxalq təşkilatları ona qoşulmağa çağırırıq. MDB nümayəndə heyətinin Azərbaycan Prezidentinin seçkilərinin hazırlanmasını və keçirilməsini müşahidə etməsinə dair işi haqqında ətraflı hesabat Müstəqil Dövlətlər Birliyində qəbul olunmuş prosedurun qaydalarına müvafiq surətdə Birliyin Dövlət Başçıları Şurasına təqdim ediləcəkdir.

## MDB-dən OLAN BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏRİN MƏTBUAT KONFRANSI

MDB-dən olan beynəlxalq müşahidəçilər mətbuat konfransı keçirərək öncə yuxarıda dərc edilən bəyanatı səsləndirdilər.

Sonra nümayəndə heyətinin rəhbəri Konstantin Markelov çıxış edərək dedi ki, onun qrupunun tərkibinə MDB-nin doqquz ölkəsinin - Rusiya,





Ukrayna, Belarus, Qazaxıstan, Özbəkistan, Tacikistan, Moldova, Gürcüstan və Qırğızıstan parlamentlərinin nümayəndələri daxil idi. Parlamentlərin deputatları AŞPA-nın, ATƏT-in missiyaları tərkibində işləyir, onlarla daim məsləhətləşmələr aparırdılar. Qrupun üzvləri seçkilər və seçki kampaniyası zamanı əsas namizədlərlə görüşmüş, seçki məntəqələrində vətəndaşlarla görüşlər keçirmişlər. Oktyabrın 15-də onlar 8 dairədə, təxminən 50 seçki məntəqəsində olmuş, məntəqələrin açılışında və səslərin hesablanmasında iştirak etmişlər.

Konstantin Markelov dedi: Biz bəyanatda göstərilən müddəalarla tam razıyıq və hesab edirik ki, Mərkəzi Seçki Komissiyası seçkilərə kifayət qədər ciddi hazırlaşmış və onların keçirilməsi üçün maksimum şərait yaratmışdır. Parlamentlərarası Assambleyadan olan bir çox müşahidəçilər qeyd etmişlər ki, Azərbaycan öz seçki qanunvericiliyini xeyli demokratikləşdirmişdir. Səs vermək üçün şəffaf qutular, zərflər, nömrələnmiş seçki bülletenləri, bu prosesin bütün iştirakçılarına səsvermədə və səslərin hesablanmasında iştirak etmək imkanı verilməsi - bütün bunlar göstərir ki, Azərbaycanda kifayət qədər demokratik seçki sistemi yaradılmışdır.

K.Markelov sözünü tamamlayaraq dedi: "Hesab edirik ki, Azərbaycanda keçirilmiş seçkilər ölkənin qanunvericiliyinə və demokratik seçkilər, vətəndaş hüquqları və azadlıqları haqqında MDB ölkələri Parlamentlərarası Assambleyası tərəfindən qəbul olunmuş konsepsiyaya uyğundur".

Sonra çıxış edən Vladimir Butayevin sözlərinə görə, onların missiyasına MDB ölkələri mərkəzi seçki komissiyalarının nümayəndələri daxil idi. Bu qrup 10 dairədə işləmiş, müxalifət partiyalarının nümayəndələri ilə görüşlər keçirmişdir. V. Butayev bu seçkiləri digər dövlətlərdə səsvermənin gedişi ilə müqayisə edərək dedi: "Oktyabrın 15-də olduğumuz bütün məntəqələrdə bayram əhval-ruhiyyəsi hökm sürürdü, musiqi səslənirdi, gül-çiçək vardı. Bu, çox xoş idi, çünki məntəqələrdə hökm sürən belə mühit bu ölkənin vətəndaşlarına böyük hörmət doğurur. Xüsusi qeyd etmək lazımdır ki, digər ölkələrdən fərqli olaraq, Azərbaycanda seçki məntəqələrində seçkilərə dair metodik ədəbiyyat vardı".

Birlik dövlətlərindən olan müşahidəçilər qrupunun başçısı Georgi Tixonov mətbuat konfransında dedi ki, seçki məntəqələrində olarkən namizədlərin nümayəndələrinin hamısının səsvermənin demokratik və şəffaf keçməsi barədə yekdil fikirdə olduqlarını gördük. Azərbaycan çoxmillətli dövlətdir və səsvermədə müxtəlif millətlərin nümayəndələri iştirak

edirdi, lakin müşahidəçilər bu vətəndaşların hüquqlarının pozulması ilə bağlı heç bir fakt qeydə almamışlar.

Yuri Yarov bəzi müxalifət partiyalarının səsvermə və səslərin hesablanması zamanı guya saxtakarlığa yol verilməsi barədə bəyanatlarına dair suala cavabında bildirdi ki, MDB müşahidəçilərinin olduğu bütün seçki məntəqələrində tamamilə düzgün hesablama müşahidə edilmişdir. Biz məntəqələrin birində Müsavat Partiyasının nümayəndəsinə müraciət etdik və o dedi ki, narazılığı yoxdur.

O vurğuladı ki, müxalifət obyektiv olmalı və qanun çərçivəsində fəaliyyət göstərməlidir. Onlar namizədlərdən birinin seçkilərdə zəruri Konstitusiya və hüquq üstünlüyü qazandığını qəbul etməlidirlər. Xalqın iradəsi belədir.









İlham Əliyevin seçkiqabağı təbliğat kampaniyası.











Hamı prezidentliyə ən layiqli namizədlə görüşə can atırdı.













Seçki məntəqələrində izdiham.









İlham Əliyev öz ailə üzvləri ilə səs verməyə gəlib.



Səs verməyə gələn İlham Əliyev
jurnalistlərin diqqət mərkəzindədir.



Səslər aşkarlıq şəraitində hesablanır.



Prezident İlham Əliyevin andiçmə mərasimi.





Konstitusiya məhkəməsinin sədri və hakimləri
Prezident seçkilərinin rəsmi nəticələrini təsdiq edirlər.



Azərbaycan Respublikasının Prezidentinin
vəsiqəsi təqdim edilir.



Yeni prezident fəaliyyətdədir



# AZƏRBAYCANDA 15 OKTYABR SEÇKİLƏRİNİN GEDİŞİ VƏ İLKİN NƏTİCƏLƏRİ BEYNƏLXALQ ALƏMDƏ MÜSBƏT QARŞILANMALIDIR

Bu fikri Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycanda keçirilən prezident seçkiləri üzrə məruzəçiləri, fransalı senatorlar Daniel Qule və Natali Milştayn oktyabrın 17-də Beynəlxalq Mətbuat Mərkəzində keçirdikləri mətbuat konfransında bildirdilər.

Onlar dedilər ki, Fransanı Avropa Şurasında təmsil edən şəxslər kimi, biz Azərbaycanda keçirilmiş prezident seçkiləri ilə bağlı AŞPA üçün məruzə hazırlamaq məqsədilə 8 gündür Bakıdayıq və Azərbaycanın cənub bölgəsində iki qrup üzrə 30-dan çox məntəqədə müşahidə aparmışıq. Bu, bizə Azərbaycanda gedən siyasi prosesləri və keçirilən seçkini dərindən dərk etməyə imkan verib.

Vaxtilə Azərbaycanın təmsil olunduqları təşkilata üzv qəbul edilməsinə yardımçı olduqlarını vurğulayan natiqlər bildirdilər ki, biz seçki zamanı istər müsbət, istərsə də bəzi mənfi halların qeydiyyatını aparmışıq. Ümumiyyətlə, bu seçkilər bizə xoş təsir bağışladı. Azərbaycanda demokratiyanın sürətlə inkişaf etdiyini və azərbaycanlıların intellektual xalq olduğunu bir daha sübut etdi. Bütün bunlar seçkilərin normal göstəriciləridir.

Senatorlar Masallı, Lənkəran və Astara rayonlarındakı seçki məntəqələrində seçkilərin yüksək səviyyədə keçdiyini, komissiya üzvlərinin seçki məsələsində böyük təcrübəyə malik olduqlarını diqqətə çatdırdılar. Onlar geniş hesabatın bir müddətdən sonra Bakıya gələcək Avropa Şurasının monitorinq qrupu tərəfindən veriləcəyini söylədilər, seçicilərin fəallığını yüksək qiymətləndirdilər, seçkilərin demokratik, şəffaf və ədalətli keçirilməsi üçün yaradılmış şəraitdən razı qaldıqlarını vurğuladılar.

Cənab Daniel Qule seçkilər zamanı müxalifət qüvvələri tərəfindən törədilən bəzi qanun pozuntularına da toxundu, müşahidəçi olduqları yerlərdə Müsavat Partiyasının Seçki Məcəlləsinin tələblərini pozaraq, seçki məntəqələrinə gələn seçicilər arasında təşviqat apardığını və bunların hamısının məruzədə nəzərə alınacağını açıqladı.

O. oktyabrın 16-da baş vermiş iğtişaşlara da münasibətini bildirdi və dedi ki, biz belə halların baş verməsinə təəssüflənirik. Həmin hadisələri biz də izləmişik. Hər bir namizəd gərək məğlubiyyətini qəbul etsin və qalib gələni təbrik etməyi bacarsın. Şəxsən mən seçkilərdən əvvəl hər bir namizədlə görüşmüşdüm. Onlara sual vermişdim ki, əgər siz bu seçkilərdə məğlub olsanız, nə edəcəksiniz? Demək olar ki, onların hamısı bildirmişdi ki, qalibi təbrik edəcəyik. Yalnız İsa Qəmbər bununla razılaşmayacağını və mübarizə aparacağını söyləmişdi. Biz onun necə "mübarizə" apardığının canlı şahidi olduq.

Nitqinin bu yerində müxalifət mətbuatını təmsil edən jurnalistlərin müşahidəçilərin ünvanına "siz rüşvətxorsunuz", "satqınsınız" və sair kimi nalayiq sözlər söyləyərək mətbuat konfransını tərk etmələrinə münasibətini bildirən cənab Daniel Qule dedi ki, onların bu hərəkəti demokratiyaya ziddir və əgər belə hallar Fransada baş verərsə, bu cür insanlar məhkəmə qarşısında dayanmalı olurlar. Demokratiyadan danışanlar etik normaları gözləməlidirlər.

Fransalı müşahidəçilər seçkilərin nəticələrinin zorla dəyişdirilməsinə cəhdlərin, qarşıdurma yaratmağın mənasız olduğunu söylədilər, qeydə alınmış bəzi xırda qüsurların seçkilərin ümumi nəticələrinə ciddi təsir etməyən faktlar olduğunu bildirdilər.





# İSLAM KONFRANSI TƏŞKİLATININ BƏYANATI

Azərbaycan Respublikasında 15 oktyabr 2003-cü il seçkiləri Azərbaycan Respublikasının Konstitusiyasına və Seçki Məcəlləsinə uyğun olaraq, seçicilərin fəallığı şəraitində, yerli və beynəlxalq müşahidəçilərin geniş müşahidəsi altında keçirilmişdir. Öz müşahidələri zamanı İKT-nin nümayəndəsi heç bir ciddi qanun pozuntusu ilə rastlaşmamışdır. Azərbaycan Respublikası prezidentinin 15 oktyabr seçkiləri beynəlxalq hüquq normalarına cavab verir.

İslam Konfransı Təşkilatının nümayəndəsi Hamdı İrmak Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin dəvətinə əsasən 14 oktyabr 2003-cü ildə Bakıya gəlmiş, Azərbaycan Respublikasının Seçki Məcəlləsini və lazımi təlimatları əldə edib, onlarla tanış olmuşdur. Seçki Məcəlləsində seçkinin şəffaf və ədalətli olması üçün bir sıra müddəalar nəzərdə tutulmuşdur: məsələn, şəffaf seçki qutuları, bülletenlərin zərfə qoyulması və nömrələnməsi, azad və demokratik seçki keçirilməsi üçün kifayət qədər müddəa vardır.

H.İrmak səfərin birinci günü Bakı şəhərində bir neçə dairə və məntəqə seçki komissiyasında olmuş, komissiyaların işinin yaxşı təşkil olunduğunu müşahidə etmişdir.

Səsvermə günü - 15 oktyabrda H.İrmak Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunun ərazisində yerləşən 16 məntəqədə səsverməni sərbəst müşahidə etmişdir. Səsvermə zamanı əsas nəzərə çarpan məsələlərdən biri komissiya üzvlərinin öz işlərini yaxşı bilmələri idi. Yerli müşahidəçilər də bütün prosesləri maneəsiz müşahidə edirdilər. Seçicilər heç bir müdaxilə olmadan sərbəst şəkildə səs verirdilər.

Səsvermə başa çatdıqdan sonra H.İrmak 8 saylı Binəqədi birinci seçki dairəsinin 10 saylı seçki məntəqəsində məntəqənin bağlanması və səslərin sayılması prosesini də müşahidə etmişdir. Sayılma prosedurunu müvafiq qaydada aparan məntəqə seçki komissiyası müşahidəçilərin də bunu izləməsinə şərait yaratmışdır.

Bəzi məntəqələrdə xırda pozuntular müşahidə olunsa da, bunlar seçkilərin nəticələrinə təsir edəcək məsələlər deyildi.

İKT seçkilərdə müşahidəçi qismində iştirak etmək üçün dəvət olunduğuna görə Azərbycan hökumətinə öz ehtiramını bildirir.

# İRAN İSLAM RESPUBLİKASI MÜŞAHİDƏÇİLƏR QRUPUNUN BƏYANATI

Azərbaycan dövlətinin rəsmi dəvətinə əsasən prezident seçkilərinin gedişinə nəzarət məqsədilə Azərbaycan Respublikasına səfər etmiş İran İslam Respublikasının müşahidəçilər qrupu seçki məntəqələrində apardığı müşahidələrlə əlaqədar aşağıdakıları bildirir:

1. Müşahidə aparılan bir neçə seçki məntəqəsində seçki işlərinin icra heyətləri səsvermə bölgələrində nizam-intizama riayət olunmasına böyük səy göstərmişdir.

2. Müxalifət partiyalarının əksər nümayəndələri və bəzi namizədlər səsvermə məntəqələrində olmuşlar və onlara aparılan söhbətlərimizdə yaradılmış şəraitdən və seçkinin keçirilmə formasından razılıq etmişlər.

3. İran müşahidəçilər qrupunun iştirakı ilə ATƏT-in nümayəndəsinin də olduğu bir səsvermə məntəqəsində səslərin hesablanmasına və nəticələrin elan olunmasına lazımi diqqət yetirilmiş və bu proses tam şəffaf, məqbul səviyyədə həyata keçirilmişdir.

Prezident seçilmiş cənab İlham Əliyevi, Azərbaycan hökuməti və xalqını təbrik etməklə, ümumilikdə seçkiləri şəffaf, bərabər, sağlam və demokratik seçkilər kimi qiymətləndirir və demokratiya yolunda müsbət addım hesab edirik.

Ümid olunur ki, seçkinin nəticələri dost, qardaş Azərbaycan xalqının asayişi, rifahı və tərəqqisinə, regionda sülhə, sabitliyə xidmət edəcəkdir.

***Həsən ALMASİ,***
***İslam Şurası Məclisinin üzvü***
***və Parlament Dostluq Qrupu***
***sədrinin müavini,***

***Məhəmmədəli MOŞTEĞ,***
***DİN Seçki Baş İdarəsinin rəisi,***

***Ələkbər CANKAR,***
***XİN MDR İdarəsi sədrinin müavini.***





# PREZİDENT SEÇKİLƏRİNİN ƏKS-SƏDASI

**Azərbaycanda prezident seçkiləri Türkiyənin kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olmuşdur**

Oktyabrın 15-də Azərbaycanda keçirilən prezident seçkiləri Türkiyənin kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılmışdır. Ölkənin TRT-1, TRT-2, TRT, "Avrasiya" və NTV, "CNN-Türk", "Xəbər-Türk", "Kanal-7", TQRT, "Samanyolu-TV", "Kanal-D", "Kanal-8", ATV özəl televiziya kanalları, "Hürriyyət", "Zaman", "Türkiyə", "Türkiş Deyli Nyus", "Vətən", "Tərcüman", "Yeni Şəfəq", "Axşam", "Milliyyət", "Sabah", "Cümhuriyyət", "Posta" qəzetləri Azərbaycanda və xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizdə keçirilən seçkilər barədə ətraflı məlumatlar yaymışlar. Anadolu Ajansı, "İhlas" və "Cihan" informasiya agentlikləri də həm seçkilərin gedişini, həm də nəticələrini hər saat təzələnən xəbərlərlə ölkə ictimaiyyətinə çatdırmışlar. Seçkilər haqqında məlumatlar Türkiyənin populyar informasiya saytları olan "İnternet-Xəzər", "Xəbər-jet", "Xəbərtürk", "TNN-xəbər", "May-net", "İ-media" saytlarında yayımlanmışdır.

Türkiyənin kütləvi informasiya vasitələri Azərbaycan xalqını seçkilərdə çox mütəşəkkil və böyük ruh yüksəkliyi ilə iştirak etdiyini xüsusilə vurğulamışlar. Türk jurnalistləri və siyasi şərhçiləri seçkilərin rəsmi nəticələri hələ elan olunmamış öz müşahidələri əsasında baş nazir İlham Əliyevin böyük fərqlə səslərin əksəriyyətini qazandığını nəzərə çarpdırırdılar.

Dost və qardaş ölkənin politoloqları Azərbaycan seçicilərinin vədlərə deyil, real siyasət xəttinə və sabitliyin davam etdirilməsinə səs verdiklərinə diqqəti çəkdilər. Oktyabrın 16-da Türkiyənin nüfuzlu və yüksək tirajlı qəzetlərinin Azərbaycandakı prezident seçkiləri ilə əlaqədar çap etdikləri xəbər və məqalələr "İlham Əliyevin zəfəri", "Qələbə İlham Əliyevindir", "Heydər Əliyev: Mən onu seçdim! Bəs siz?", "Azərbaycan xalqı səs verdi", "Azərbaycan xalqının səsi Əliyevə", "Əliyev öndə gedir" sərlövhələri altında verilmişdir. Qəzet səhifələrində baş nazirin tərcümeyi-halı və şəkilləri də verilmişdir.

Türkiyənin kütləvi informasiya vasitələri seçkiləri çoxsaylı xarici, o cümlədən türk müşahidəçilərinin izlədiklərini, seçkilər zamanı ciddi pozuntulara yol verilmədiyini vurğulamışlar.

## Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədr müavini Salih Kapusuz: "Seçkilər demokratik şəraitdə keçirilmişdir"

Türkiyənin hakimiyyətdə olan Ədalət və inkişaf Partiyası sədrinin müavini, millət vəkili Salih Kapusuz TRT televiziya kanalına müsahibəsində oktyabrın 15-də Azərbaycanda keçirilən prezident seçkilərini müşahidəçi kimi izlədiyini, seçkilərin mütəşəkkil və şəffaf şəraitdə aparıldığını nəzərə çarpdırmışdır. O, Azərbaycanda daha öncə keçirilən seçkilərə də müşahidəçi kimi gəldiyini və indiki seçkilərdə mühüm müsbət dəyişikliklər olduğunu bildirmişdir. Seçki prosesində şəxsən heç bir ciddi pozuntu ilə qarşılaşmadığını vurğulayan Salih Kapusuz dost və qardaş Azərbaycanın demokratiya yolunda müsbət addımlar atdığını söyləmişdir. O demişdir ki, Azərbaycan xalqı azad şəkildə iradəsini ifadə etmişdir. Hətta bəzi yerlərdə pozuntular haqqında iddialar düz olsa belə, namizədlər arasında süni yolla bu qədər fərq yaratmaq imkansızdır. Azərbaycan xalqı qərarını vermişdir. Hər kəs dost və qardaş xalqın bu qərarını tanımalı və hörmətlə yanaşmalıdır.

## Gürcüstan parlamentinin üzvü Azərbaycanda prezident seçkilərinin yüksək səviyyədə keçdiyini bildirmişdir

Gürcüstan parlamentinin deputatı Hidayət Vəli oğlu Hüseynov 15 oktyabr 2003-cü il Azərbaycan Respublikası Prezidentinin seçkilərini müşahidə etmək üçün Azərbaycanda olmuşdur. Beynəlxalq müşahidəçi Siyəzən, Dəvəçi, Xaçmaz, Quba və Bakı şəhərinin Yasamal və Səbail rayonlarında məntəqələri gəzərək seçkilərin gedişini müşahidə etmişdir. O, oktyabrın 16-da Mərkəzi Seçki Komissiyasına təqdim etdiyi rəydə bildirib ki, seçkilər Azərbaycan Respublikasının Konstitusiyasına və Seçki Məcəlləsinə uyğun keçirilib. 15 oktyabr prezident seçkilərinin demokratik şəraitdə və beynəlxalq standartlara uyğun keçdiyini vurğulayan müşahidəçi seçkilərin gedişində heç bir qanun pozuntusuna rast gəlmədiyini qeyd edib.

## Ukrayna və Belarusda seçkiyə maraq

Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev bildirmişdir ki, seçkilərin azad, demokratik şəraitdə keçdiyi üçün Ukrayna və Belarusun kütləvi informasiya vasitələrində böyük maraq doğurmuşdur.

GÜÖAM-ın üzvü olan ölkələrdən ilk dəfə məhz Azərbaycanda seçkilərdə şəffaf qutulardan istifadə edilməsi KİV-də xüsusilə vurğulanmışdır.





## Qeyri-hökumət təşkilatlarının təmsilçiləri də seçkilərin gedişindən razı qaldılar

Azərbaycan Respublikasının Prezidenti seçkilərini müşahidə edən 5 qeyri-hökumət təşkilatının (QHT) - Müstəqil Araşdırmaçı Jurnalistlər Liqası, Gənc Türk Yazarlar Birliyi, Türkiyə Universitetləri Məzunları İctimai Birliyi, Gənc Anavətənçilər Assambleyası və İnsan Hüquqları Təbliği və İnformasiya Mərkəzinin nümayəndələri Beynəlxalq Mətbuat Mərkəzində mətbuat konfransı keçirdilər. Onlar bildirdilər ki, oktyabrın 15-də Bakı şəhərində və Abşeron rayonunda 50-dən çox məntəqədə, 13 dairə üzrə səsvermə müddətində və 18 məntəqədə səslərin sayılması prosesində bilavasitə müşahidələr aparmış, əhalinin bu seçkilərdə fəal iştirak etdiklərinin real şahidi olmuşlar.

Seçkilərin tam demokratik və şəffaf keçdiyini diqqətə çatdıran QHT təmsilçiləri müşahidə etdikləri məntəqədə heç bir qanun pozuntusuna yol verilmədiyini vurğuladılar.

## ABŞ dövlət katibinin birinci müavini Riçard Armitac ilə Azərbaycanın baş naziri İlham Əliyev arasında telefon danışığı oldu

AzərTAc-a daxil olmuş məlumata görə oktyabrın 17-də Amerika Birləşmiş Ştatları dövlət katibinin birinci müavini Riçard Armitac Azərbaycan Respublikasının baş naziri İlham Əliyevə telefonla zəng etmişdir.

Cənab Armitac Azərbaycanda keçirilmiş prezident seçkilərinin ilkin nəticələrinə istinad edərək böyük üstünlüklə qazandığı qələbə münasibətilə baş nazir İlham Əliyevə səmimi təbriklərini çatdırmışdır. O, eyni zamanda ABŞ-dan olan müşahidəçilərin ümumi müsbət rəylərinə əsasən, seçkilərin uğurla keçməsindən məmnun qaldığını vurğulamışdır.

Təbrikə görə təşəkkürünü bildirən baş nazir İlham Əliyev sentyabrın axırında Vaşinqtonda cənab Armitacla keçirdiyi müzakirələri xatırlatmışdır. O, Azərbaycanda prezident seçkilərinin şəffaf keçirilməsinin ölkəmizdə demokratiyanın inkişafı üçün çox əhəmiyyətli olacağını söyləmişdir.

Tərəflər prezident seçkilərindən sonra baş vermiş zorakılıq hallarından təəssüfləndiyini bildirmişlər. Onlar vəziyyətin tezliklə normallaşdırılması və sabitliyin bərqərar edilməsi üçün hökumət tərəfindən görülən tədbirlər zamanı hüquq normalarının gözlənilməsinin vacibliyini vurğulamışlar.

# DÜNYANIN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ, TANINMIŞ SİYASİ XADİMLƏRİN TƏBRİKLƏRİ

***İlham Əliyevin Azərbaycan Respublikasının prezidenti seçilməsi beynəlxalq aləmdə böyük maraq doğurdu. Rəsmi nəticələr elan edilən kimi dünyanın bütün siyasi liderləri telefon açmaqla, yaxud teleqram göndərməklə onu təbrik etdilər.***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti kimi and içməyiniz münasibətilə Sizi məmnuniyyətlə təbrik edirəm.

İcazə verin, Sizə mühüm vəzifənin yerinə yetirilməsi işində uğurlar arzulayım. Mən ümid edirəm ki, Azərbaycan və Birləşmiş Millətlər Təşkilatı üçün qarşılıqlı əhəmiyyət kəsb edən məsələlər üzrə Sizin hökumətlə sıx işləyəcəyik.

Zati-aliləri!

Xahiş edirəm, Sizə olan yüksək ehtiram hisslərimə əmin olasınız.

***Kofi ANNAN,***
***BMT-nin baş katibi***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli Prezident!

Prezident seçilməyiniz münasibətilə yeni mühüm vəzifənizdə Sizə hər cür müvəffəqiyyətlər arzulayıram. Mən bizim uzunmüddətli əməkdaşlığımıza istinad etmək, demokratiyaya və qanunun aliliyinə, insan hüquqlarına tam hörmətin bərqərar olmasına keçid prosesində Avropa Şurasının Sizin ölkənizi dəstəkləmək öhdəliyini bir daha vurğulamaq istərdim.





Yeni yüksək vəzifəniz Sizə ölkənizdə demokratik dəyərləri bölüşdürən bütün siyasi qüvvələrlə fəal surətdə dialoq qurmaq imkanı verir. Hazırda müxalifət və media təmsilçilərinə qarşı həyata keçirilən sıxışdırma tədbirlərinə son qoymaq məqsədilə öz rolunuzdan dərhal istifadə edəcəyinizə ümid edirəm.

Siyasi adlandırılan məhbuslara dair hələ də açıq olan məsələlər Parlament Assambleyasında, Nazirlər Komitəsində və mənim özümdə narahatlığa səbəb olur. Bu problemə qənaətbəxş və davamlı bir həllin tapılması Azərbaycanın Avropa standartlarına daha da yaxınlaşdırılmasına yönəlmiş siyasi məramınızın nümayişi olardı.

Hörmətlə,

***Valter ŞVİMMER,***
***Avropa Şurasının baş katibi***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Avropa Şurası Parlament Assambleyası üzvünün belə yüksək məsuliyyətli bir vəzifəyə seçilməsi hər zaman məmnuniyyət doğurur.

Assambleya sədrinin müavini, onun bürosunun və çoxsaylı komitələrinin üzvü qismində təcrübəniz, şübhəsiz, Sizdə Avropa Şurasının və onun üzvü olan dövlətlərin tərənnüm etdiyi fundamental dəyərlərə dərin bağlılığı möhkəmləndirəcəkdir.

Mən əminəm ki, bu dəyərlər, - insan hüquqlarına hörmət, demokratiya və qanunun aliliyi, - yüksək vəzifənizdə Sizi ruhlandıracaq və Sizə bələdçilik edəcək və Siz şəxsən bu dəyərlərin Azərbaycanda qorunması, təşviq edilməsi və gündəlik tətbiqini təmin edəcəksiniz.

Assambleyanın Monitorinq Komitəsi tərəfindən ifadə olunan davamlı narahatlıqlar, siyasi məhbuslar məsələsi, eləcə də seçkilər ətrafında və mətbuata münasibətdə son hadisələr göstərir ki, bu istiqamətdə çox şeyin həyata keçirilməsinə ehtiyac vardır. Bazar ertəsi verdiyim bəyanatda dediyim kimi, "prezident seçkilərindən sonrakı hadisələr Azərbaycanın Avropa Şurası standartlarına riayət etmək iradəsinə dair narahatlığımızı do-

rinləşdirmişdir. Noyabrın 6-da keçiriləcək iclas zamanı Assambleyanın bürosu Azərbaycan üzrə Seçki Missiyasının məruzəsi və ona veriləcək davama baxacaqdır".

Bu kontekstdə mənim üçün aydındır ki, biz "Hesablaşmalar dostluğa mane olmur" zərb-məsəlini rəhbər tutmalıyıq. Mən əminəm ki, Azərbaycanın Prezidenti kimi Siz mümkün qədər ən qısa zamanda ölkənizi Azərbaycan hökumətinin 2001-ci ildə Avropa Şurasına qoşulan zaman üzərinə götürdüyü öhdəliklərə tam riayət olunmasına doğru aparacaqsınız.

Hörmətlə,

*Piter ŞİDER,*
*Avropa Şurası Parlament Assambleyasının sədri*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə öz təbriklərimi yetirmək istərdim.

Prezidentliyin birinci müddətinə başlamağınızla bağlı sülhsevər, firavan və demokratik Azərbaycan Respublikasının gələcək inkişafı naminə Sizə hər cür uğurlar arzulayıram.

Hörmətlə, Sizin

*Havyer SOLANA,*
*Avropa İttifaqı Şurasının baş katibi*

## CORC BUŞ AZƏRBAYCANIN YENİ PREZİDENTİ İLHAM ƏLİYEVƏ GÖNDƏRDİYİ MƏKTUBDA AZƏRBAYCAN PREZİDENTİ VƏ XALQI İLƏ ƏMƏKDAŞLIĞI DAHA DA GENİŞLƏNDİRƏCƏYİNİ VƏD ETDİ

ABŞ prezidenti Corc Buşun şəffaf və demokratik şəraitdə keçmiş prezident seçkilərində parlaq qələbə qazanması münasibətilə prezident İlham Əliyevi səmimi təbrik etməsi ölkələr arasında münasibətlərin strateji səviyyədə inkişafını təsdiqləyən mühüm hadisə kimi diqqəti cəlb edir.





Təbrik məktubunda prezident İlham Əliyevə xüsusi rəğbətini ifadə edən Corc Buş prezident seçkilərinin nəticələrinin ABŞ-Azərbaycan münasibətlərinin dinamik inkişafına təkan verəcəyinə, müxtəlif sahələrdə mövcud əlaqələrin bundan sonra daha da genişlənəcəyinə ümidvar olduğunu bildirib. Məktubda diqqəti çəkən başlıca məqam Corc Buşun Azərbaycanda seçkilərin şəffaf şəraitdə keçməsindən, demokratik inkişaf tempindən, eləcə də real iqtisadi-siyasi əsaslara söykənən siyasi sabitlikdən məxsusi məmnunluq ifadə etməsidir. "Andiçmə mərasimi ilə Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərinə başladığınız bir vaxtda mən demokratik, sabit, suveren və firavan Azərbaycanla strateji tərəfdaşlığın inkişafının davam etdirilməsinə Birləşmiş Ştatların sadiqliyini bir daha təsdiq edirəm. Bizim məqsədimiz demokratik prinsiplərə söykənən Azərbaycanla möhkəm və çoxşaxəli tərəfdaşlıqdır. Mən Sizinlə - Azərbaycan Prezidenti və Azərbaycan xalqı ilə əməkdaşlığımızın dərinləşməsinə çalışacağam" - deyə məktubda vurğulanır. Həmçinin qeyd olunur ki, rəsmi Vaşinqton Azərbaycanın demokratiya, siyasi plüralizm və insan hüquqlarına hörmət edən yolla öz inkişafını davam etdirəcəyinə böyük inam bəsləyir.

Şübhəsiz, bu inam təkcə Azərbaycanın malik olduğu strateji, coğrafi mövqe və zəngin karbohidrogen ehtiyatları ilə deyil, eyni zamanda möhkəm siyasi sabitliyə və beynəlxalq birliklə inteqrasiyaya dayanan dövlətçilik kursunun dönməzliyi ilə şərtlənir. ABŞ prezidenti seçkilərin yekunlarına əsaslanaraq ikitərəfli münasibətlərin daha da inkişaf edəcəyini ön plana çəkib. Bu isə inkarçı və nihilist psixologiyanın daşıyıcısı olan aqressiv müxalifəti məyus edib. Corc Buş faktiki olaraq Azərbaycana sırf iqtisadi maraqlar prizmasından yanaşmadığına işarə etməklə yanaşı, ölkəmizin demokratiya yoluna sadiqliyini dəstəkləyib. Müqayisə üçün bildirək ki, bu ilin aprel ayında Ermənistanda prezident seçkilərini total şəkildə saxtalaşdıran və hakimiyyəti qəsb edən Robert Koçaryan ABŞ-ın çox sərt ittihamlarına məruz qalmışdı. ABŞ prezidenti Koçaryana göndərdiyi məktubda seçkilərin saxtalaşdırılmasına görə aşkar təəssüfünü bildirmişdi.

Corc Buşun məktubunun ümumi mahiyyətindən hiss olunur ki, rəsmi Vaşinqton cənab İlham Əliyevin böyük səs çoxluğu ilə prezident seçilməsini təbii və qanunauyğun hadisə kimi dəyərləndirir.

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Seçkilərdə inandırıcı qələbəniz göstərdi ki, Azərbaycan xalqı ölkənin inkişafı üçün Sizin təklif etdiyiniz, ölçülüb-biçilmiş proqramı və Azərbaycanın xarici siyasət xəttini dəstəkləyir.

Dövlətlərimizin mənafelərinin strateji uyğunluğunu, Rusiya ilə Azərbaycan arasında dostluğun və ənənəvi tərəfdaşlığın daha da möhkəmləndirilməsi üçün əlverişli imkanlar olduğunu, bu yaxınlarda Yaltada keçirilən görüşdəki kimi, bir daha vurğulamaq istərdim. Bütün bunlar xalqlarımızın mənafelərinə cavab verir və Qafqaz regionunun təhlükəsizliyi və inkişafının vacib amilidir.

Fəal əməkdaşlığımıza və Heydər Əliirza oğlu ilə intensiv və səmərəli şəkildə apardığımız məzmunlu dialoqun davam etdiriləcəyinə ümid bəsləyirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə dövlət başçısı vəzifəsində məsul fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə xoşbəxtlik və tərəqqi arzulayıram.

Hörmətlə,

*Vladimir PUTİN,*
*Rusiya Federasiyasının Prezidenti*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVƏ

Möhtərəm cənab Prezident!

Əziz dost!

Prezident seçkilərinin ilkin nəticələrinin geniş çoxluqla qələbə qazanmağınıza ümid verə bildiyi bir vaxtda, Sizə ən səmimi təbriklərimi çatdırıram.

Atanızın başladığı nümunəvi fəaliyyətin davamı olaraq ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin gücləndirilməsi naminə gələcəkdə Sizinlə əməkdaşlıq etməkdən sevinc duyuram. Keçən yazda Sizi Parisdə qəbul etdikdən sonra, təqviminizin imkan verdiyi ən qısa zamanda Sizi rəsmi səfərlə Parisdə qəbul etməyə şad olaram.

Bundan sonra, Azərbaycan xalqının Sizə göstərmiş olduğu etimadla ölkənizin qarşılaşdığı problemləri aradan qaldıra, xüsusilə də sülhə nail ola biləcəksiniz. Fransanın Minsk Qrupu çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və davamlı həlli uğrundakı öhdəliyi Sizə məlumdur. Fransız həmsədr, rus və amerikalı həmkarları ilə birgə öz vasitəçilik missiyalarını davam etdirmək üçün mümkün bildiyiniz bir vaxtda Sizinlə görüşməyə hazırdırlar.

Bakıda baş vermiş faciəli hadisələr ölkənizin ATƏT və Avropa Şurası çərçivəsində götürdüyü öhdəliklərə uyğun olaraq, demokratik islahatlar və Azərbaycanda hüquqi dövlətin gücləndirilməsində qətiyyətinizi davam etdirməyə əsas verir. Bu fəaliyyətinizdə bizim tam dəstəyimizə və əməkdaşlığımıza əmin ola bilərsiniz.

Cənab Prezident!

Sizi bir daha təbrik edir, ən yüksək ehtiramlarımı qəbul etməyinizi xahiş edirəm.

Ən səmimi dostluq hisslərimlə,

*Jak ŞİRAK,*
*Fransa Respublikasının Prezidenti*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ CƏNAB İLHAM ƏLİYEVƏ

2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə qələbə qazanaraq, Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə zati-alinizi türk milləti və şəxsən öz adımdan səmimi təbrik edirəm.

Sizin liderliyiniz altında dost və qardaş Azərbaycanın tərəqqi və müasirləşmə yolunda sürətlə irəliləyərək, beynəlxalq səviyyədə örnək göstərilən uğurlara imza atacağına, ölkələrimiz arasında olan yaxın münasibətlərin bütün sahələrdə güclənərək inkişaf edəcəyinə ürəkdən inanıram.

Türkiyə və Azərbaycan regionumuzun yüksəlişində ortaq siyasət yürüdür. Şərqlə Qərb arasındakı qovuşma yolunda üzərimizə götürdüyümüz

ortaq öhdəliklərin yeni vəzifəniz dövründə aramızdakı əməkdaşlığı daha da möhkəmləndirəcəyinə əminəm.

Bu fürsətdən istifadə edərək zati-alinizə cansağlığı və xoşbəxtlik arzu edir, dost və qardaş Azərbaycan xalqının yüksəliş və əmin-amanlığı üçün ən səmimi arzularımı bildirirəm.

*Əhməd Necdət SEZƏR,*
*Türkiyə Respublikasının Prezidenti*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Layiqli şəkildə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ölkənizin hökumətini və xalqını səmimiyyətlə təbrik edirəm. İran İslam Respublikası özünün qonşu ölkələrlə dinc yanaşı yaşamağa əsaslanan prinsipial siyasətində İran xalqı ilə mədəni, dini və tarixi ortaqlıqları olan Azərbaycan Respublikasına xüsusi yer verir. Ümidvaram ki, cənabınızın məsuliyyətli və əhəmiyyətli rəhbərliyi dövründə müstəqil Azərbaycan Respublikasını günbəgün artan inkişafa, tərəqqiyə çatdıracaq və iki qonşu, qardaş ölkənin bütün sahələrdə dostluq əlaqələrinin daha da dərinləşməsinin şahidi olacağıq.

Əminəm ki, iki ölkənin yeni hərtərəfli və dostluq münasibətləri cənab Heydər Əliyevin prezidentliyi dövründə bünövrəsi qoyulduğu kimi, daha dinamik və yüksələn xətlə inkişaf edəcəkdir. İran İslam Respublikası - Azərbaycan Respublikası əlaqələrinin üfüqlərində ikitərəfli, regional və beynəlxalq əməkdaşlığın inkişafı üçün böyük potensial imkanlar açılacaqdır. Təbii ki, cənabınızın verəcəyi dəstək sayəsində yeni dövr münasibətlərimiz daha dinamik və güclü olacaqdır.

Sonda cənabınızı İran İslam Respublikasına səfərə dəvət etməklə, böyük Allahdan Sizə cansağlığı və günbəgün artan uğurlar, şərafətli Azərbaycan xalqına isə səadət və başucalığı diləyirəm.

*Seyid Məhəmməd XATƏMİ,*
*İran İslam Respublikasının Prezidenti*





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti kimi yüksək vəzifəyə seçilməyiniz münasibətilə Sizi Qazaxıstan xalqı adından və şəxsən öz adımdan təbrik edirəm.

Seçkilərdə Sizin inamlı qələbəniz ölkənin dəyişikliklər xəttinə, atanız möhtərəm Heydər Əlirza oğlunun qətiyyətlə və ardıcıllıqla apardığı dövlətçiliyin və inteqrasiyaların möhkəmləndirilməsi siyasətinə sadiqliyinə sübutdur. Siz xalqın nüfuz və hörmətini qazanaraq, yüksək etimad əldə etmisiniz və şübhəsiz, bu etimadı şərəflə doğruldacaqsınız.

Əmin olduğumu bildirirəm ki, dövlətlərimizin dostluq münasibətlərinin inkişafı yeni təkan alacaq, qarşılıqlı surətdə faydalı əməkdaşlığımız isə xalqlarımızın rifahı naminə möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizə uğurlar, Azərbaycan xalqına sülh və tərəqqi arzulayıram!

Hörmətlə,

*Nursultan NAZARBAYEV,*
*Qazaxıstan Respublikasının Prezidenti*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz İlham Heydər oğlu!

Sizi belə inandırıcı qələbə münasibətilə təbrik etməyə tələsirəm.

Qardaş Azərbaycan xalqı öz seçimini etdi. Azərbaycan hökumətinin başçısı vəzifəsində göstərdiyiniz yüksək peşəkarlıq və dərin bilik, habelə Azərbaycan dövlətçiliyinin qurulması və möhkəmlənməsi naminə Heydər Əlirza oğlunun başladığı işi davam etdirmək enerjisi və əzmkarlığı Sizə həmvətənləriniz arasında yekdil dəstək, etimad və yüksək hörmət qazandırmışdır.

Gürcüstanda Sizi sədaqətli dost və xalqlarımızın dostluq və qardaşlığının daha da möhkəmlənməsinin tərəfdarı kimi tanıyırlar.

Əminəm ki, Heydər Əlirza oğlu kimi, Siz də Azərbaycanın və Gürcüstanın səmərəli və qarşılıqlı surətdə faydalı əməkdaşlığının dərinləşməsinə kömək edəcəksiniz.

Sonda Sizə Vətənə xidmətinizdə uğurlar arzulamaq və ən xoş diləklərimi yetirmək istəyirəm.

Səmimiyyətlə, Sizin

*Eduard ŞEVARDNADZE,*
*Gürcüstanın Prezidenti*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Ukrayna xalqı adından və şəxsən öz adımdan ən səmimi təbrikləri qəbul edin.

Mən həmişə əmin idim ki, Azərbaycan xalqı yeni nəslin istedadlı və təşəbbüskar dövlət xadimi kimi Sizi seçkilərdə dəstəkləyəcəkdir. İnanıram ki, Sizin fəal rəhbərliyinizlə Azərbaycan müasir, demokratik, iqtisadi baxımdan qüdrətli və siyasi cəhətdən müstəqil dövlət quruculuğu yolu ilə bundan sonra da uğurla irəliləyəcək və bunu dünya birliyi də lazımınca qiymətləndirəcəkdir.

Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərinə Ukraynanın sadiqliyini təsdiqləyərək ümidvaram ki, dövlətlərimizin qarşılıqlı fəaliyyətinin perspektivlərini Sizinlə yaxın vaxtlarda müzakirə etməyə imkanım olacaqdır. Azərbaycan Respublikasının Prezidenti kimi Sizi Ukraynaya rəsmi səfərə dəvət edirəm.

Çox hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, məsul dövləti fəaliyyətinizdə Azərbaycan xalqının rifahı naminə hər cür uğurlar arzulayıram.

Dərin hörmətlə,

*Leonid KUÇMA,*
*Ukraynanın Prezidenti*





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi hərarətlə və ürəkdən təbrik edirəm.

Prezident seçkilərində Sizin qələbəniz güzəştsiz mübarizədə, kəskin rəqabət şəraitində qazanılmışdır. Sizin Azərbaycan Prezidenti seçilməyiniz prezident Heydər Əlirza oğlu Əliyevin apardığı siyasi xəttin Azərbaycan xalqı tərəfindən dəstəklənməsinin parlaq nümayişidir. Azərbaycan Respublikasına sabitliyi, inkişafı, əmin-amanlığı məhz onun siyasəti gətirmişdir. Onun təşəbbüsü ilə aparılmış islahatlar nəticəsində Azərbaycan demokratik quruculuq yoluna qətiyyətlə qədəm qoymuşdur, iqtisadiyyat yüksək sürətlə inkişaf edir. Azərbaycan Respublikası beynəlxalq aləmdə layiqli yerini tutmuşdur.

Azərbaycan xalqı Sizə bu xəttin layiqli davamçısı kimi səs vermişdir. Mən Heydər Əlirza oğlunun belə bir fikrinə tam və bütünlüklə şərikəm və dəstəkləyirəm ki, Siz yüksək intellektuallı, praqmatik təfəkkürlü, enerjili və təşəbbüskar şəxsiyyətsiniz, müasir dünya siyasətinə və iqtisadiyyatına yaxşı bələdsiniz. Əminəm ki, prezident vəzifəsində fəaliyyətiniz Azərbaycan Respublikasına siyasi və sosial-iqtisadi inkişafda, Müstəqil Dövlətlər Birliyi çərçivəsində qarşılıqlı surətdə faydalı dövlətlərarası əlaqələrin daha da genişləndirilməsi və dərinləşdirilməsində yeni uğurlar qazanmağa imkan verəcəkdir.

Prezident seçkilərində qələbə münasibətilə təbrik sözlərimə bütün işlərinizdə Sizə səmimiyyətlə uğurlar, möhkəm cansağlığı və firavanlıq arzuladığımı da əlavə edirəm. Əminəm ki, Sizin əsas nailiyyətləriniz hələ irəlidədir.

Sıx əməkdaşlıq edəcəyimizə və aramızda tam qarşılıqlı anlaşma olacağına ümid bəslədiyimi bildirirəm.

Səmimi hörmətlə,

*Yuri YAROV,*
*MDB İcraiyyə Komitəsinin sədri - icraçı katibi*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Əminəm ki, Özbəkistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı ənənəvi dostluq münasibətləri və qarşılıqlı surətdə faydalı əməkdaşlıq ölkələrimizin xalqlarının mənafeləri naminə bundan sonra da dinamik inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu!

Sizə möhkəm cansağlığı, ailə səadəti və məsul fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

*İslam KƏRİMOV,*
*Özbəkistan Respublikasının Prezidenti*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Mən istərdim ki, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə sevinc dolu təbriklərimi Sizə yetirim. Sizin seçilməyiniz Azərbaycan xalqının Sizin liderlik keyfiyyətlərinizə verdiyi qiymətin və Sizə olan yüksək inamının ifadəsidir.

Böyük məmnuniyyət hissi ilə vurğulayıram ki, ölkələrimiz ənənəvi olaraq yaxın və səmimi münasibətlər çərçivəsində əməkdaşlıq etmişlər. Bizim həqiqi arzumuzdur ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq telləri gələcəkdə qarşılıqlı maraqlarımıza uyğun olaraq daha da möhkəmlənsin.

Mən istərdim ki, səmimi və ən xoş arzularımı zati-alinizə yetirim, Azərbaycan xalqına xoşbəxtlik və davamlı tərəqqi arzulayım.

Zati-aliləri, xahiş edirəm, Sizə olan yüksək ehtiram hisslərimi qəbul edəsiniz.

*General Pərviz MÜŞƏRRƏF,*
*Pakistan İslam Respublikasının Prezidenti*





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Sizin Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz barədə xəbəri sevinclə qarşıladım. Zati-aliləri, Sizə səmimi təbriklərimi və xoş arzularımı yetirirəm. Əminəm ki, Sizin rəhbərliyinizlə ölkənizin dövlət quruculuğu işlərində böyük uğurlar qazanılacaqdır.

Çin ilə Azərbaycan arasında diplomatik münasibətlər yaradıldıqdan sonra ölkələrimizin əlaqələri inamla inkişaf edir, siyasi qarşılıqlı münasibətlər daim möhkəmlənir, bütün sahələrdə əməkdaşlıq gündən-günə dərinləşir. Çinin yeni rəhbərliyi Azərbaycanla dostluğu və qarşılıqlı surətdə faydalı əməkdaşlığı davamlı şəkildə və ardıcıl olaraq inkişaf etdirməyə hazırdır. Ölkələrimizin xalqlarının rifahı naminə Çin-Azərbaycan münasibətlərini hərtərəfli inkişaf etdirib irəlilətməkdə Sizinlə birgə səylər göstərəcəyimizə ümid bəsləyirəm.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və işinizdə uğurlar arzulayıram.

Azərbaycana tərəqqi və qüdrət, onun xalqına isə xoşbəxtlik və firavanlıq diləyirəm.

Hörmətlə,

*Xu SZİNTAO,*
*Çin Xalq Respublikasının sədri*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin. Əminəm ki, ölkələrimiz və xalqlarımız arasındakı ənənəvi dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq münasibətlərinə birgə səylərimizlə əlavə təkan verəcəyik. Dost Azərbaycanın başçısı kimi yüksək vəzifənizdə ölkənin tərəqqisi və xalqınızın firavanlığı naminə Sizə səmimi qəlbdən uğurlar arzulayıram.

Səmimiyyətlə,

*Emoməli RƏHMONOV,*
*Tacikistan Respublikasının Prezidenti*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan və Yaponiya arasında xoş dostluq münasibətləri mövcuddur. İnanıram ki, Siz prezident olduğunuz müddətdə ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsində və inkişaf etməsində böyük rol oynayacaqsınız.

Sizə möhkəm cansağlığı və Azərbaycan xalqına xoşbəxtlik arzulayıram.

Hörmətlə,

***Dzünitiro KOİDZUMİ,***
***Yaponiyanın baş naziri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Yüksək vəzifəyə - Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi Qırğızıstan xalqı adından və şəxsən öz adımdan səmimiyyətlə təbrik edirəm.

Əminəm ki, məsul dövlət başçısı vəzifəsində məqsədyönlü səmərəli fəaliyyətiniz və həyat enerjiniz Azərbaycanın əvvəlki prezidenti, hörmətli Heydər Əlirza oğlu Əliyev tərəfindən başlanmış islahatlar xəttini uğurla davam etdirməyə imkan verəcək, Azərbaycan Respublikasının müstəqilliyinin, beynəlxalq aləmdə yüksək nüfuzunun möhkəmlənməsinə və Azərbaycan xalqının rifahının yaxşılaşmasına xidmət edəcəkdir. İnanıram ki, Qırğızıstan Respublikası ilə Azərbaycan Respublikası arasında yaranmış dostluq münasibətləri Dostluq və əməkdaşlıq haqqında müqavilə ruhunda xalqlarımızın rifahı naminə bundan sonra da daim inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə yüksək dövlət vəzifəsində işlərinizdə böyük uğurlar, dost Azərbaycan Respublikasının xalqına isə sülh, tərəqqi və firavanlıq arzulamaq istərdim.

Hörmətlə,

***Əsgər AKAYEV,***
***Qırğızıstan Respublikasının Prezidenti***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə həm Braziliya xalqı adından, həm də öz adımdan Sizi ürəkdən təbrik edim və prezidentlik müddətinin uğurlu olması üçün ən səmimi arzularımı yetirim.

Mən inanıram ki, Sizin liderliyinizlə ölkələrimiz və xalqlarımız arasındakı dostluq əlaqələri daha da inkişaf edib güclənəcəkdir.

İcazə verin, Sizə həm də möhkəm cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və firavanlıq diləyi ilə ən xoş arzularımı çatdırım.

***Luis İnasiu Lula da SİLVA,***
***Braziliya Federativ Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Cənab baş nazir!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə şəxsən öz adımdan və Yunanıstan xalqı adından Zati-alinizə ən hərarətli təbrikləri çatdırır və ən səmimi arzularla bu ali missiyanızda uğurlar, Azərbaycan xalqına isə davamlı tərəqqi diləyirəm.

Əminəm ki, son illərdə ölkələrimiz arasındakı ikitərəfli münasibətlərdə əldə olunmuş irəliləyiş mandatınız ərzində artan xətlə güclənəcək və ölkənizə nəzərdə tutulan səfərim bu istiqamətdə öz töhfəsini verəcəkdir.

***Konstantinos STEFANOPULOS,***
***Yunanıstan Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikası Prezidentinin seçkilərində qələbəniz münasibətilə təbriklərimi qəbul edin. Sizin inamlı qələbəniz ölkənin sosial-iqtisadi inkişafına dair təklif etdiyiniz proqramı dəstəkləməyə hazır olduğunu bildirmiş seçicilərin Sizə yüksək etimad bəslədiyinə sübutdur. Bu gün respublikanın xalqı ölkənin son illərdə qazandığı bütün nailiyyətlərin qorunub saxlanmasında Sizə ümid bəsləyir.

Əminəm ki, Siz çox hörmətli Heydər Əlirza oğlunun xəttini davam etdirəcək və ölkənizin inkişafı və tərəqqisi üçün bütün işləri görəcəksiniz.

İcazə verin, Rusiya və Azərbaycan xalqlarının rifahı naminə Azərbaycan Respublikası ilə Tatarıstan Respublikası arasında hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsi işində Sizin dəstəyinizə ümid bəslədiyimi də bildirim.

Sizə dövləti fəaliyyətinizdə uğurlar, cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə sabitlik, tərəqqi və firavanlıq arzulayıram.

Hörmətlə,

***Mintimer ŞAYMİYEV,***
***Tatarıstan Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Yüksək vəzifəyə - Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə və Sizin simanızda bütün Azərbaycan xalqına ən səmimi və ürəkdən gələn təbriklərimi göndərməyə şadam.

Atanızın - zəmanəmizin görkəmli dövlət və siyasi xadimi Heydər Əliyevin sınaqlardan çıxmış və ölçülüb-biçilmiş siyasi xəttinin varisi olaraq məhz Sizin namizədliyinizin xalq tərəfindən geniş dəstəkləndiyini nümayiş etdirən seçkilərin yekunlarından Dağıstanda xüsusi məmnunluq duyurlar.





İcazə verin, əmin olduğumu bildirim ki, Dağıstan (Rusiya) və Azərbaycan xalqlarını əsrlər boyu birləşdirmiş və birləşdirən əsl dostluq, sıx mehriban qonşuluq və qarşılıqlı etimad ənənələri Qafqazda sülh, sabitlik və təhlükəsizlik naminə bundan sonra da hər vasitə ilə möhkəmləndiriləcəkdir.

Cənab baş nazir, Sizə yeni məsul vəzifənizdə səmərəli iş, Azərbaycan xalqına isə tərəqqi və inkişaf arzulayıram.

Ən yüksək hörmətlə,

***Xizri ŞIXSƏİDOV,***
***Dağıstan hökumətinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə hədsiz məmnuniyyət hissi ilə Zati-alinizə ürəkdən gələn təbriklərimi yetirirəm.

Mən bu imkandan istifadə edib, dost xalqın bundan da artıq firavanlığa və tərəqqiyə nail olmaq istəyinin həyata keçirilməsi, eləcə də iki dost ölkə və xalqlar arasındakı münasibətlərin daha da inkişaf etdirilməsi işində Sizə uğurlar diləyi ilə ən xoş arzularımı bildirirəm.

Ən yüksək ehtiram və hörmətlə,

***Məhəmməd Hüsni MÜBARƏK,***
***Misir Ərəb Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikası Prezidentinin seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimiyyətlə və ürəkdən təbrik edirəm. Sizin ölkədə ali dövlət vəzifəsinə seçilməyiniz Azərbaycan xalqı arasında yüksək nüfuza malik olmağınızın təsdiqidir.

Azərbaycan Respublikası öz taleyini Sizə etibar etməklə, ölkədə aparılan demokratik dəyişikliklərə və iqtisadi islahatlara, cəmiyyətdə sülhə, həmrəyliyə və sabitliyə sadiqliyini təsdiqləmişdir.

Qəti əminəm ki, Siz Moldova və Azərbaycan xalqlarının firavanlığı və tərəqqisi naminə dövlətlərimiz arasında dostluq, əməkdaşlıq və qarşılıqlı anlaşma münasibətlərinin daha da inkişafına və möhkəmlənməsinə kömək edəcəksiniz.

Çox hörmətli İlham Heydər oğlu, səmimi qəlbdən Sizə möhkəm cansağlığı, ölkənizin və xalqınızın rifahı naminə bütün nəcib niyyətlərinizin həyata keçirilməsində böyük uğurlar arzulayıram.

Dərin hörmətlə,

***Vladimir VORONİN,***
***Moldova Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Belarus xalqı adından və şəxsən öz adımdan səmimiyyətlə təbrik edirəm.

Əminəm ki, ali dövlət vəzifəsində fəaliyyətiniz Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında ənənəvi dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq münasibətlərinin xalqlarımızın rifahı naminə inkişafına kömək edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, səmimi qəlbdən Sizə möhkəm cansağlığı, xoşbəxtlik, tükənməz enerji, bütün planlarınızın həyata keçməsini, dost Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Rumıniya xalqı adından və öz adımdan təbrikləri yetirir, Sizə uğur, yaxşı səhhət və şəxsi xoşbəxtlik arzularımı çatdırıram.

İnanıram ki, Sizin yüksək mandatınız Rumıniya və Azərbaycan Respublikası arasındakı əla dostluq əlaqələrinin yeni tərəqqisi və xalqlarımızın firavanlığı ilə əlamətdar olacaqdır.

İmkandan istifadə edib, zati-alinizə dərin ehtiramımı bildirirəm.

***İon İLİYESKU,***
***Rumıniyanın Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Prezidenti kimi yüksək vəzifəyə seçilməyiniz münasibətilə zati-alinizi məmnuniyyətlə öz adımdan və İsrail xalqı adından təbrik edir, zati-alinizin və xalqınızın qarşısında duran bütün çətinliklərin dəf edilməsi işində Sizə uğurlar diləyirəm.

Bizim xalqlarımız tarixən dost münasibətdə olmuşlar və mən əminəm ki, xalqlarımız arasındakı səmimi əlaqələr ölkələrimizin və insanlarımızın mənafeyi naminə genişlənməkdə davam edəcəkdir.

Mən Sizə və Azərbaycan Respublikasının xalqına uğur və firavanlıq arzulayıram.

Səmimiyyətlə, sizin

***Moşe KATSAV,***
***İsrail dövlətinin Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti kimi yüksək vəzifəyə seçilməyiniz münasibətilə Sizi Başqırdıstan Respublikasının çoxmillətli xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. Seçkilərdə inamlı qələbəniz fəaliyyətinizi seçicilərin geniş dəstəklədiyinə və respublikanın həyatının bütün sahələrinin ardıcıl inkişafının davam etdiriləcəyi ilə əlaqədar Sizə böyük ümidlər bəslədiyinə sübutdur. Başqırdıstanla Azərbaycan arasında çoxşaxəli sosial-iqtisadı və mənəvi-mədəni əlaqələr yaranmışdır. Əminəm ki, bu əməkdaşlıq xalqlarımızın mənafeləri naminə gələcəkdə də fəal surətdə möhkəmləndiriləcəkdir.

Sizə və yaxın adamlarınıza möhkəm cansağlığı, firavanlıq, çətin və məsul işinizdə Azərbaycan Respublikasının rifahı naminə uğurlar arzulayıram.

Hörmətlə,

***Murtaza RƏHİMOV,***
***Başqırdıstan Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ötən illər ərzində dövlətlərimiz arasında dostluq münasibətləri və qarşılıqlı surətdə faydalı əlaqələr yaranmışdır ki, bu da bütün sahələrdə ikitərəfli əməli əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün sanballı zəmindir.

Əminəm ki, bu vəzifəyə seçilməyiniz Azərbaycanın inkişafına və onun Qafqaz regionunda sabitliyin amili kimi təsbitinə təkan verəcəkdir.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə yüksək ehtiram bəslədiyimi bildirir, möhkəm cansağlığı, xoşbəxtlik və yüksək məsul fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Hörmətlə,

***Georgi PIRVANOV,***
***Bolqarıstan Respublikasının Prezidenti***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab baş nazir!

Sizi Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edirəm.

Sizin ölkənizin qarşısında demokratiya və bazar iqtisadiyyatı quruculuğu sahəsində böyük işlər durur. Bu vəzifələrin öhdəsindən gəlmək üçün Sizə uğurlar arzu edirəm.

Eləcə də ümid edirəm ki, ölkələrimiz arasındakı səmimi dostluq münasibətləri bundan sonra daha da inkişaf edəcəkdir.

Səmimi salamlarla,

***Gerhard ŞRÖDER,***
***Almaniya Federativ Respublikasının federal kansleri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz və çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Şimali Osetiya rəhbərliyi adından hərarətlə və ürəkdən təbrik edirəm. Respublikamızın çoxmillətli xalqı bu xoş xəbəri böyük sevinclə qarşıladı. Xüsusilə xoşdur ki, Siz Heydər Əlirza oğlunun yaradıcı xəttinin ardıcıl tərəfdarısınız, Rusiya ilə strateji əməkdaşlığa və Qafqazda sülhün təmin olunmasına böyük töhfə verəcəksiniz.

Osetin və Azərbaycan xalqlarını bir-birinə dərin dostluq telləri bağlayır. Bu məsul tarixi günlərdə xalqımızın adından təsdiq edirəm ki, biz sülh və xalqlarımızın tərəqqisi naminə ən sıx əməkdaşlığa hazırıq.

Hörmətlə,

***Aleksandr DZASOXOV,***
***Şimali Osetiya - Alaniya Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Bu məktubum vasitəsilə Sizi Azərbaycanın Prezidenti seçilməyiniz münasibətilə təbrik edirəm.

Ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq artıq möhkəmdir. Qarşıdakı illərdə Sizinlə bir sıra məsələlərdə əməkdaşlıq etməyə və münasibətlərimizi daha da möhkəmləndirməyə ümid bəsləyirəm. Eləcə də, çox ümidvaram ki, atanızın səhhəti tezliklə yaxşılaşacaqdır.

Seçki və onun nəticələri Azərbaycanın uğurlu inkişafını davam etdirmək üçün zəruri olan sabitliyə təminat verilməsindən ötrü Azərbaycanın inkişafı naminə mümkün qədər mükəmməl bir hökumət sisteminin nə qədər vacib olduğunu göstərdi.

Sizə bu mühüm vəzifənizdə uğurlar arzulayıram.

***Toni BLEYER,***
***Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikası Prezidentinin seçkilərində qələbəniz münasibətilə zati-alilərinizi səmimi qəlbdən təbrik etməkdən şərəf duyuram.

Sizə xoşbəxtlik, ailənizə müvəffəqiyyətlər və ölkələrimiz arasında mövcud olan əlaqələrin xalqlarımızın müştərək maraqları və əmin-amanlığı naminə daha da inkişaf etməsini arzu edirəm.

Böyük hörmət və etibarla,

***Zayid bin Sultan Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi İtaliya xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edir və ali vəzifənizdə Sizə ən yüksək nailiyyətlər arzulayıram.

İnanıram ki, prezidentliyiniz zamanı həllini hələ də tapmayan Dağlıq Qarabağ münaqişəsi bütün tərəflərin maraqlarına cavab verən sülh yolu ilə aradan qaldırılacaqdır.

Azərbaycanda demokratiya və islahatların müvəffəqiyyətlə həyata keçirilməsi sahəsində Sizə uğurlar arzulayıram.

Ölkələrimiz arasındakı münasibətlərin bundan sonra daha da genişlənəcəyinə əmin olduğumu bildirərək, şəxsən Sizə xoşbəxtlik və Azərbaycan xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

***Karlo Adzelyo ÇAMPİ,***
***İtaliya Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətləri xalqlarımızın mənafeləri naminə bundan sonra da yaxşı inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə ölkənin tərəqqisinə yönəldilmiş məsul işinizdə böyük uğurlar arzulayıram.

Hörmətlə,

***Kim Yen NAM,***
***Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisi Rəyasət Heyətinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Cənab baş nazir, Sizi salamlayıram!

Qardaş Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə Sizi və Sizin simanızda hörmətli hökuməti və Azərbaycan xalqını Fələstin xalqı və rəhbərliyi adından, şəxsən öz adımdan ürəkdən təbrik etməkdən, səmimiyyətlə firavanlıq və məsul fəaliyyətinizdə uğurlar diləməkdən böyük məmnunluq duyuruq.

Xalqınızın Sizi alicənab şəxsiyyət kimi qiymətləndirərək və ülvi, nəcib məqsədlərə xidmət edəcəyinizə, milləti tərəqqiyə, inkişafa və firavanlığa qovuşduracağınıza ümid bəsləyərək, Sizə göstərdiyi qəti və danılmaz etimada heyran qaldığımızı bildiririk.

Bu əlamətdar gün münasibətilə biz ölkələrimizi və qardaş xalqlarımızı birləşdirən tarixi əlaqələrə və möhkəm həmrəyliyə görə Sizə minnətdarlığımızı bir daha ifadə etmək istəyirik və zati-alinizi əmin edirik ki, məqsədlərimizə və qarşılıqlı mənafelərimizə xidmət edən bu əlaqələrin və həmrəyliyin inkişafına və möhkəmlənməsinə daim çalışacağıq. Sizə xoşbəxtlik və uğurlar, qardaş xalqınıza və ölkənizə isə daimi tərəqqi, əmin-amanlıq və firavanlıq arzulayırıq.

Hörmətlə,

***Yasir ƏRƏFAT,***
***Fələstin dövlətinin Prezidenti,***
***Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri, Fələstin Milli Muxtariyyətinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Koreya Respublikasının xalqı və hökuməti adından Sizə ən səmimi arzularımı bildirmək istərdim.

Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası bundan sonra da inkişaf və tərəqqi edəcəkdir. Ölkələrimiz arasındakı dostluq münasibətlərinin möhkəmlənməsinin davam edəcəyini əminliklə gözləyirəm.





Zati-aliləri, Sizə möhkəm cansağlığı, böyük ölkənizə isə əbədi tərəqqi arzulayıram.

Hörmətlə,

***No Mu HYUN,***
***Koreya Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə başlamağınız münasibətilə Sizi Kabarda-Balkar Respublikasının parlamenti və hökuməti, xalqı adından səmimiyyətlə təbrik edirəm. Xalqın bu çox yüksək etimadı Sizə olan böyük nurlu ümidlərdir.

Qoy respublikaya uğurla rəhbərlik edəcəyiniz illər Azərbaycan xalqının nurlu ümidlərinin doğrulduğu, müdrik sələfinizin gözəl nailiyyətlərinin layiqincə davam etdirildiyi illərə çevrilsin.

Sizə və Sizin simanızda qardaş respublikanın bütün xalqına cansağlığı, uğurlar, sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

***Valeri KOKOV,***
***Kabarda-Balkar Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə başlamağınız münasibətilə səmimi təbriklərimi qəbul edin. Belə məsul vəzifəyə seçilməyiniz Sizin yüksək nüfuza malik olduğunuza və vətənpərvərliyinizin, məsuliyyət hissinizin və yüksək peşəkarlığınızın Azərbaycan xalqı tərəfindən qiymətləndirildiyinə sübutdur.

Azərbaycan xalqı sülhə və firavanlığa, sosial-iqtisadi və demokratik dəyişikliklər xəttinin davam etdirilməsinə olan ümidlərini Sizin adınızla bağlayır. Şübhə etmirəm ki, qardaş xalqlarımızı əzəldən birləşdirən dostluq münasibətlərinin daha da möhkəmləndirilməsinə xüsusi diqqət yetirəcəksiniz.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycan xalqının rifahı naminə nəzərdə tutulan məqsədlərin həyata keçirilməsində böyük uğurlar arzulayıram.

Hörmətlə,

***Murad ZYAZİKOV,***
***İnquşetiya Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri cənab prezident!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi ifadə edim.

Fürsətdən istifadə edərək əmin olduğumu bildirmək istərdim ki, Sizin şəxsiyyətiniz bir-birindən uzaq, lakin dost olan xalqlarımızı birləşdirən möhkəm körpü olacaqdır. Eyni zamanda Sizi əmin etmək istərdim ki, Slovakiya Respublikası keçmişdə olduğu kimi, bundan sonra da hərtərəfli münasibətlərin və qarşılıqlı surətdə faydalı əməkdaşlığın fəal inkişaf etdirilməsinə maraq göstərəcəkdir.

Sizə və dövlətinizin vətəndaşlarına daim inkişafda olan və demokratik cəmiyyət quruculuğunda böyük uğurlar arzulayıram.

Zati-aliləri, Sizə dərin hörmət bəslədiyimə əmin olmağınızı xahiş edirəm.

***Rudolf ŞUSTER,***
***Slovakiya Respublikasının Prezidenti***





## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab prezident!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik etmək istəyir, məsuliyyətli vəzifənizin həyata keçirilməsində sizə müvəffəqiyyət və əzm diləyirəm.

Litva Respublikası Azərbaycan və Cənubi Qafqaz regionunun digər dövlətləri ilə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığı yüksək qiymətləndirir. Litvanın Avropa İttifaqına və NATO-ya qarşıdakı üzvlüyü onun inkişafı üçün yeni imkanlar açır.

Dövlətlərimizin münasibətlərinin dostluq və qarşılıqlı anlaşma ruhunda inkişafını davam etdirəcəklərinə şübhə etmirəm. Mən yaxın gələcəkdə Sizinlə görüşmək və dövlətlərimiz üçün maraq doğuran bütün məsələləri müzakirə etmək imkanına ümid bəsləyirəm.

Cənab prezident, fürsətdən istifadə edərək, ən səmimi arzularımı ifadə edir, Sizə və bütün Azərbaycan xalqına yüksək müvəffəqiyyətlərlə dolu arzularımı çatdırmaq istəyirəm.

Hörmətlə,

***Rolandas PAKSAS,***
***Litva Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Prezidenti kimi vəzifənizi yerinə yetirməyə başlamağınız münasibətilə Sizi öz adımdan və Livan xalqı adından səmimi qəlbdən təbrik edir, Sizə cansağlığı, xoşbəxtlik və uğur, dost Azərbaycan xalqına firavanlıq arzulayıram.

***General Emil LAHUD,***
***Livan Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Dost Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaq mənim üçün çox xoşdur. Dost ölkənizin inkişafı naminə vəzifənizdə Sizə uğurlar diləyirəm.

Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə böyük tərəqqi arzulayıram.

***Polkovnik Müəmmər QƏZZAFİ,***
***Liviya inqilabının rəhbəri,***
***Liviya Ərəb Sosialist***
***Xalq Cəmahiriyyəsinin başçısı***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Qəti əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan sabit inkişaf edəcək, regionda təhlükəsizliyin və əməkdaşlığın möhkəmlənməsi işinə öz töhfəsini verəcəkdir.

Əmin olduğumu bildirirəm ki, Vyetnamla Azərbaycan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə dönmədən möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı və çox məsul vəzifənizdə böyük uğurlar arzulayıram.

Hörmətlə,

***Çan Dik LİONQ,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***





## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli prezident!

Azərbaycan Respublikasının Prezidenti kimi vəzifənizə başlamağınız münasibətilə İspaniya hökuməti və xalqı adından Sizə ən səmimi təbriklərimi bildirirəm.

Dost Azərbaycan xalqının rifah, sülh və firavanlıq istəklərinə nail olmaq yolunda hörmətli prezidentin öz vəzifələrini bacarıqla həyata keçirməsini arzu edirəm.

Böyük hörmətlə,

***I Xuan KARLOS,***
***İspaniyanın kralı***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Bəhreyn Krallığının hökuməti mənə qoşularaq, zati-alinizə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ürəkdən gələn təbriklərini çatdırır.

İcazə verin, bu imkandan istifadə edib, Sizə vəzifənizi yerinə yetirməkdə, xalqınızın tərəqqi və inkişafa nail olmaq istəklərinin həyata keçirilməsi işində uğur arzu edim.

Zati-aliləri, xahiş edirəm, mənim ən yüksək ehtiram hisslərimi, Sizə şəxsi möhkəm cansağlığı, ölkənizin xalqına isə xoşbəxtlik və daha çox tərəqqi diləyi ilə ən səmimi arzularımı qəbul edəsiniz.

Hörmətlə,

***Şeyx Həməd bin İsa AL XƏLİFƏ,***
***Bəhreyn kralı***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Prezident seçkilərində qələbəniz münasibətilə təbriklərimi qəbul edin. Əminəm ki, Türkmənistanla Azərbaycan arasında münasibətlər ölkələrimizin dost xalqlarının rifahı naminə qarşılıqlı anlaşma və hörmət ruhunda inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, firavanlıq və ali dövlət vəzifəsində uğurlar arzulayıram.

Hörmətlə,

***Saparmurad NİYAZOV,***
***Türkmənistanın Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Allahın salamı, rəhməti və bərəkətləri üzərinizdə olsun!

Azərbaycan Respublikasının Prezidenti kimi and içərək vəzifənizə başlamağınız münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Zati-alinizə bu vəzifədə cansağlığı, səadət, məsul vəzifənizdə uğurlar diləyirəm.

Əminəm ki, ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələri daha da inkişaf edəcəkdir.

Ən yüksək təqdirlərimlə,

***Bəşşar əl-ƏSƏD,***
***Suriya Ərəb Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə öz adımdan, Tunis hökuməti və xalqı adından hərarətli təbriklər göndərməyi özümə şərəf sayıram. Sizə yeni məsuliyyətli işinizdə cansağlığı, səadət və uğurlar diləyirəm.

Bu xoş fürsətdən istifadə edərək, ümidvar olduğumu bildirmək istəyirəm ki, qardaş xalqlarımızın mənafeyi naminə ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsində birgə səylərimizi əsirgəməyəcəyik.

***Zeynulabidin bin ƏLİ,***
***Tunis Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab prezident!

Azərbaycan Respublikasının Prezidenti seçilməyinizlə bağlı Sizə Bosniya və Herseqovinanın dövlət təsisatları adından və şəxsən öz adımdan məmnuniyyətlə ürəkdən gələn təbriklərimi ifadə edir, səmimiyyətlə ölkənizə sülh və firavanlıq arzulayıram.

Mən ürəkdən inanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın xoşbəxtliyi naminə inkişaf edəcəkdir.

Cənab prezident, xahiş edirəm, mənim ən dərin ehtiram hisslərimi qəbul edəsiniz.

***Doktor Draqan ÇOVİÇ,***
***Bosniya və Herseqovina***
***Rəyasət Heyətinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının yeni Prezidenti kimi andiçmə mərasimi münasibətilə ən xoş təbriklərimi Sizə çatdırmaq istəyirəm.

Əminəm ki, ölkələrimiz arasında mövcud olan dostluq münasibətləri Sizin prezidentliyiniz dövründə davam edəcəkdir.

Zati-alilərinizə ən xoş arzularla bütün işlərinizdə uğurlar diləyir və ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Hacı Həssənal BOLKİAH,***
***Bruney sultanı***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə öz şəxsi təbriklərimi və Xorvatiya Respublikası vətəndaşlarının təbrikini yetirim.

Mən ümid edirəm ki, artıq gələn il ya Bakıda, ya da Zaqrebdə Sizinlə görüşmək imkanı olacaqdır.

Zati-aliləri, Sizə olan rəğbət hisslərimə əmin olmağınızı xahiş edirəm.

***Styepan MESİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Biz məmnuniyyətlə zati-alinizə Azərbaycanın Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimizi yetirir, dost Azərbaycan xalqını tərəqqi və firavanlığa aparmaqda Sizə uğur arzu edirik.

***Qabus bin SƏİD,***
***Omanın sultanı***





## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Şəxsən öz adımdan və Əlcəzair xalqı adından Sizə vaxtında təbrik məktubu göndərmək üçün əlimə xoş imkan düşmüşdür.

Səmimi təbriklərimizi qəbul edin. Sizə gələcək nəcib işinizdə böyük uğurlar arzulayırıq.

Sizi əmin etmək istəyirik ki, ikitərəfli münasibətlərimizi genişləndirməyi və gücləndirməyi, ictimai maraq məsələlərində ölkələrimiz arasında dialoqa və razılığa təkan verməyi çox istəyirik.

Sizi bir daha təbrik edirəm, qardaş Azərbaycan xalqının rifahı naminə işinizdə Sizə uğurlar arzulayıram.

Əminəm ki, Sizin rəhbərliyiniz sayəsində Azərbaycan yaxın gələcəkdə böyük nəticələrə nail olacaqdır.

Fürsətdən istifadə edərək, Sizə böyük hörmət bəslədiyimə əmin etmək istəyirəm.

***Əbdüləziz BUTEFLİKA,***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab prezident!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, Sizin Azərbaycan Respublikasının dövlət başçısı olmağınız ölkələrimizin səmərəli iqtisadi, siyasi əməkdaşlığının və xalqlarımız arasında ənənəvi olan hörmət və rəğbət münasibətlərinin inkişafına xidmət edəcəkdir.

Dövlət suverenliyinin möhkəmlənməsində bütün Azərbaycan xalqına firavanlıq və inkişaf arzulayıram.

Əminəm ki, Sizin prezident olduğunuz müddət ərzində Azərbaycan demokratiyanın inkişafında yeni uğurlar əldə edəcəkdir.

Hörmətlə,

***Aleksandr KVASNEVSKİ,***
***Polşa Respublikasının Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

2003-cü il oktyabrın 15-də keçirilən Azərbaycan Respublikası Prezidentinin seçkilərində qələbə çalmağınız münasibətilə hökumətin adından və şəxsən öz adımdan Sizi səmimi qəlbdən təbrik edirəm.

Türkiyə ilə Azərbaycan arasında həmişə mövcud olan, təməlli, güclü, tarixi və mədəni bağlara əsaslanan dostluq, qardaşlıq və əməkdaşlığın zati-alinizin prezidentliyi dövründə daha da inkişaf edəcəyinə şübhəm yoxdur.

Ölkələrimiz Şərqlə Qərbin qucaqlaşdığı, müxtəlif sivilizasiyaların bir-birini zənginləşdirdiyi önəmli bir qovşaq nöqtəsində yerləşir. Bizi bir-birimizə güclü şəkildə bağlayan ortaq tariximizdən və mədəni birliyimizdən aldığımız qüdrət, ölkələrimizin bundan irəli gələn ortaq öhdəliklərinin də birgə yerinə yetirilməsi üçün mühüm təminatdır. Qarşıdakı mərhələdə də Türkiyə və Azərbaycan arasındakı qardaşlıq münasibətlərinin və yaxın işbirliyinin bu təməl üzərində güclənərək inkişaf edəcəyinə inanıram.

Zati-alinizə yeni vəzifənizdə uğurlar diləyir, bu fürsətdən istifadə edərək, dost və qardaş Azərbaycan xalqının xoşbəxtliyi və firavanlığı üçün ən səmimi arzularımı yetirirəm.

*Rəcəb Tayyib ƏRDOĞAN,*
*Türkiyə Respublikasının baş naziri*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırıram. Sizə Azərbaycanda demokratiyanın getdikcə möhkəmlənməsi işində vacib məsələlərin yerinə yetirilməsində çoxlu müvəffəqiyyətlər arzulayıram. Qoy Azərbaycan xalqı sülh və firavan həyatla dolu gələcəkdən zövq alsın.

*Tomas KLESTİL,*
*Avstriya Respublikasının federal Prezidenti*





# AZƏRBAYCANIN YENİ PREZİDENTİNİN POÇTUNDAN

***Bu arada dünyanın bütün bölgələrindən cənab İlham Əliyevi təbrik etmək üçün göndərilən teleqramların ardı-arası kəsilmirdi. Beynəlxalq aləmdə kifayət qədər tanınan siyasi xadimlərin, böyük təşkilatların və qurumların rəhbərlərinin, mədəniyyət və idman xadimlərinin təbriklərinin sayı-hesabı yox idi...***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli Prezident İlham Əliyev!

Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə direktorlar heyəti və bütün Nobel ailəsi adından bir daha ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirik. Avropa xalqlarının qəlbində Sizin yeni vəzifəniz ölkənizə daha geniş miqyasda düzgün, müsbət istiqamətdə addımlamağa imkan yaradacaqdır.

Mənim bu yaxınlarda Bakıya səfərim və görüşlərimiz Bakıda yüksək rəhbərliyin iştirakı ilə enerji konfransının keçirilməsi, Nobel Enerji Mükafatının təsis olunması, ailənin gələcəkdə yenidən birləşməsi və Villa Petroleanın bərpası kimi layihələr üzərində işə başlamağa sövq etdi. Belə bir layihə Sizin xeyir-duanız, mütərəqqi baxışlarınız və dəstəyiniz olmadan həyata keçirilə bilməz.

Mən gözəl ölkənizə yenidən gəlməyi səbirsizliklə gözləyir, Sizinlə yenidən görüşməyi arzulayıram və hörmətli baş nazir Əliyev, ən xoş şəxsi arzularla Sizinlə qalıram.

Dərin hörmətlə

*Maykl NOBEL,*
*Nobel Ailəsi Cəmiyyətinin sədri,*
*filologiya və iqtisad elmləri doktoru*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab prezident!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti kimi andiçmə mərasimi münasibətilə BP şirkətində çalışan bütün işçilər adından Sizə ən səmimi təbriklərimi çatdırım. Bu gün ancaq Azərbaycanın tarixi üçün deyil, həm də ölkənin gələcəyi üçün də çox əhəmiyyətli bir gündür. Çünki mən bilirəm, Azərbaycan xalqı o ümidlə yaşayır ki, Siz atanızın böyük bacarıqla başladığı dövlət quruculuğu işini davam etdirəcəksiniz.

Bir daha bu əlamətdar gündə bizim təbriklərimizi qəbul etməyinizi xahiş edirik.

Səmimiyyətlə,

***Dik OLİVER,***
***BP şirkətinin icraçı direktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli baş nazir!

2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Zati-alinizin yetkin və mütərəqqi liderliyinin qardaş Azərbaycanın inkişafına və çiçəklənməsinə böyük töhfə verəcəyinə əminəm.

Türkiyə ilə Azərbaycan arasında yaranmış yaxın işbirliyi, xalqlarımızın rifahına dəyərli töhfələr verməklə yanaşı, regionumuzda sülhün və əmin-amanlığın qorunmasına xidmət etməkdədir. Ölkələrimiz arasında mövcud olan köklü dostluqdan və qarşılıqlı etimaddan güc alan əməkdaşlığımızın zati-alinizin liderliyi altında daha da güclənərək hərtərəfli inkişaf edəcəyinə tamamilə əmin olduğumu bir daha təkrarlamaq istərdim.

Bu münasibətlə zati-alinizə cansağlığı və xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqına tərəqqi və nailiyyətlər arzulayıram.

***Abdullah GÜL,***
***Türkiyə Respublikasının xarici işlər naziri və baş nazirin müavini***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Əminəm ki, bütün son illər ərzində ardıcıl dinamika, strateji tərəfdaşlığın inkişafı ilə səciyyələnən Rusiya-Azərbaycan münasibətləri dostluq, qarşılıqlı anlaşma və sıx əməkdaşlıq şəraitində möhkəmlənəcəkdir. Bu, xalqlarımızın mənafelərinə uyğundur, Qafqazda təhlükəsizlik və sabitlik işinə xidmət edir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövlət başçısı vəzifəsində uğurlar arzulayıram.

Hörmətlə,

***İqor İVANOV,***
***Rusiya Federasiyasının xarici işlər naziri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Yüksək dövlət vəzifəsinə - Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Moskva hökuməti adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm. Ümidvaram ki, hərtərəfli, qarşılıqlı surətdə faydalı əlaqələrin inkişaf etdirilməsi haqqında bundan əvvəl əldə olunmuş razılaşmaların həyata keçirilməsi sahəsində birgə səylərimiz insanların həyatını yaxşılaşdırmaq və rifahını yüksəltmək üçün dəyişikliklər və islahatlar yolu ilə irəliləyişə yeni təkan verəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və məsul işinizdə uğurlar, Azərbaycanın sakinlərinə isə xoşbəxtlik, sülh və tərəqqi arzulayıram.

Hörmətlə,

***Yuri LUJKOV,***
***Moskvanın meri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Sizin qardaş Azərbaycanın Prezidenti seçilməyiniz Azərbaycan xalqının və dövlətinin xoşbəxtliyi baxımından bizi çox bəxtiyar etmişdir.

Ailəmizə çox əziz və yaxın dost olan Şəxsinizin Azərbaycan xalqının böyük əksəriyyəti tərəfindən Azərbaycanın Prezidenti kimi yüksək vəzifəyə seçilməyiniz ailəmizi çox şad etmişdir.

Sizə Uca Tanrıdan xeyirlər və böyük uğurlar diləyirəm.

Hörmətlə,

*professor İhsan DOĞRAMAÇI,*
*Bilkənd Universitetinin təsisçisi*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Prezident seçkilərində parlaq qələbəniz münasibətilə Sizi ürəkdən, səmimiyyətlə və böyük sevinclə təbrik edirəm. Biz, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun kollektivi fəxr edirik ki, Siz, universitetimizin yetirməsi dövlət başçısı olmaq və Azərbaycanı möhkəmlətmək və inkişaf etdirmək işini - Azərbaycanın çoxillik rəhbəri, MDBMİ-nin fəxri doktoru prezident Heydər Əlirza oğlu Əliyevin qətiyyətlə və inamla apardığı işi davam etdirmək üçün Azərbaycan xalqının şərəf və etimadına layiq görülmüsünüz. Mənə xüsusilə xoşdur ki, prezident seçilməyiniz barədə xəbər Sizin doğma beynəlxalq münasibətlər fakültənizin 60 illiyini qeyd etdiyimiz gündə gəlmişdir.

Sizə uğurlar, səmərəli iş və möhkəm cansağlığı arzulayırıq.

Dərin hörmətlə,

*Anatoli TORKUNOV,*
*Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü*





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz İlham Heydər oğlu!

Sizi böyük müvəffəqiyyət münasibətilə təbrik edirəm!

Qoy Sizin bu qələbəniz sevimli Azərbaycanın qələbəsinə və səadətinə çevrilsin!

Müəllimimizə — Heydər Əlirza oğluna cansağlığı və uzun ömür diləyirəm!

Sizi bərk-bərk bağrıma basıram.

Sizin

*Oljas SÜLEYMENOV,*
*Qazaxıstan Respublikasının YUNESKO-da daimi nümayəndəsi*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Mən Azərbaycanda son seçkiqabağı hadisələri xüsusi həyəcanla izləyir və səsvermənin nəticələrini səbirsizliklə gözləyirdim. Seçkilərin 2003-cü il oktyabrın 16-da elan edilmiş ilkin nəticələri qanunauyğun və ədalətli olmuşdur.

Şübhəsiz ki, seçkilərdə qələbəniz Sizin həyat və peşə yolunuz üçün səciyyəvi olan yüksək xidmətlərinizin təsdiqlənməsi deməkdir.

"LUKoyl" neft şirkətinin rəhbərliyi və şəxsən mən ümidvarıq ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası əvvəlki tək islahatlar yolu ilə gedəcək və ölkənin bütün nailiyyətlərini artıracaqdır.

Əmin olduğumu bildirirəm ki, ölkələrimizin neftçiləri arasında həmişə mövcud olmuş ənənəvi dostluq və qarşılıqlı surətdə faydalı tərəfdaşlıq əlaqələri xalqlarımızın tərəqqisi naminə qorunub saxlanacaq və genişləndiriləcəkdir.

Hörmətli İlham Heydər oğlu, ali dövlət vəzifəsində fəaliyyətinizdə böyük uğurlar, Sizə və yaxın adamlarınıza cansağlığı və səadət arzulayıram.
Səmimi hörmətlə,

***Vahid ƏLƏKBƏROV,***
***"LUKoyl" neft şirkətinin prezidenti***

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ**
**CƏNAB İLHAM ƏLİYEVƏ**

Çox hörmətli İlham Heydər oğlu!
İcazə verin, seçkilərdə inamlı qələbəniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirim.
Əminəm ki, yüksək peşəkarlıq, insani keyfiyyətləriniz, siyasi təcrübəniz layiqli həyat quruculuğunda Azərbaycan xalqına yeni uğurlar gətirəcəkdir.
Əziz İlham Heydər oğlu, səmimi qəlbdən Sizə yeni vəzifənizdə səmərəli əmək, möhkəm cansağlığı, səadət və firavanlıq, uğurlar arzulayıram.
Səmimi və daim hörmətlə,

***Valeri SEROV,***
***"İtera Holdinq"in idarə heyətinin sədri***

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ**
**CƏNAB İLHAM ƏLİYEVƏ**

Hörmətli İlham Heydər oğlu!
Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Rusiyanın olimpiya ailəsi adından ürəkdən təbrik edirəm. Biz, hamımız Sizin tərəfinizdə idik və Siz seçkilərdə inamlı qələbə qazandınız. Bu qələbəni, haqlı olaraq, bütün Azərbaycan xalqının və Azərbaycanla əməkdaşlıqda, sülh və həmrəylik siyasətində maraqlı olanların hamısının qələbəsi hesab etmək olar.
Sizə bu məsul vəzifədə xalqınızın rifahı naminə səmərəli fəaliyyət arzulayıram. Öz həmkarım, Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti kimi Sizə və ölkənizin olimpiyaçılarına isə bir-birimizə qardaşlıq dəstəyi göstərəcəyimiz Afinada XXVIII Olimpiya oyunlarında uğurlu çıxışlar diləyirəm.
Sizi bərk-bərk bağrıma basıram.
Hörmətlə,

***Leonid TYAQAÇEV,***
***Rusiya Olimpiya Komitəsinin prezidenti***

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ**
**CƏNAB İLHAM ƏLİYEVƏ**

Hörmətli İlham Heydər oğlu!
Seçkilərdə inamlı qələbəniz və Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Beynəlxalq İdman Təşkilatları Konfederasiyasının tapşırığı ilə səmimiyyətlə təbrik edirəm.
MDB ölkələrinin idman ictimaiyyəti bu hadisəni nəinki xalqın etimadı kimi dəyərləndirir, həm də respublikada, Birlik ölkələrinin bütün məkanında idmanın inkişafına şəxsi töhfənizin qiymətləndirilməsi hesab edir.
Əminik ki, yüksək vəzifəniz Sizə 2005-ci ildə respublikanın paytaxtı Bakı şəhərində MDB ölkələrinin beynəlxalq idman oyunlarının uğurla keçirilməsində idman təşkilatlarına kömək etməyə imkan verəcəkdir. Bu oyunların uğurla keçirilməsi millətin sağlamlaşdırılması və MDB ölkələri xalqlarının dostluğunun qorunub saxlanması ilə bağlı niyyətlərinizin real təcəssümü olacaqdır.
Sizə uğurlar diləyir və belə layiqli rəhbər seçmiş Azərbaycan xalqına ən xoş arzularımızı yetiririk.
Hörmətlə,

***Boris ROQATİN,***
***Beynəlxalq İdman Təşkilatları***
***Konfederasiyasının prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli baş nazır!

Dost və qardaş Azərbaycana rəhbər seçilərək, türk dünyasına böyük töhfələr verəcəyinizə əminəm. Allahın köməyi ilə ölkələrimizin, Azərbaycan və Türkiyə xalqlarının qardaşlığı, dostluğu üçün fəaliyyətinizdə uğurlar diləyirəm.

Sizə hörmət və ehtiramımı bildirirəm.

***Caner DOĞANELİ,***
***Beynəlxalq Həvəskar Boks Assosiasiyasının baş katibi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçkilərdə qələbəniz münasibətilə Sizi Gürcüstan Dövlət İdman Departamenti, ölkənin idman ictimaiyyəti, idman veteranları, olimpiya oyunları, dünya, Avropa çempionları adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Sizə və Sizin simanızda bütün dostlarınıza və yaxın adamlarınıza, xeyirxahlarınıza və silahdaşlarınıza səmimi qəlbdən möhkəm cansağlığı, firavanlıq və novatorluq planlarınızın həyata keçirilməsində uğurlar arzulayıram.

Mən ürəkdən əminəm və inanıram ki, ölkələrimizin xalqlarını bir-birinə bağlayan çoxəsrlik dostluq daha da möhkəmlənəcək, işgüzar əlaqələr və qardaşcasına əməkdaşlıq isə genişlənəcək və inkişaf edəcəkdir.

İdman və olimpiya hərəkatı sahəsində əlaqələrimizin genişlənəcəyinə ümid bəslədiyimi xüsusi qeyd etmək istəyirəm.

Sizi bir daha təbrik edirəm, Sizə və Azərbaycan xalqına hər cür firavanlıq və buludsuz səma arzulayıram.

Hörmətlə və səmimiyyətlə sizin

***İrakli MEDZMARİAŞVİLİ,***
***Gürcüstan Dövlət İdman Departamentinin sədri***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox möhtərəm və dəyərli baş nazir!

Prezidentliyə böyük səs çoxluğu ilə seçilməyiniz hamımızı çox məmnun etmişdir. Sizi ən dərin duyğularla təbrik edir, uğurlarınızın davam etməsi arzusu ilə ən səmimi sayqılarımı diləyirəm.

***Professor Yüksel BOZƏR,***
***Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin baş katibi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Xahiş edirəm, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə mənim ürəkdən gələn təbriklərimi qəbul edəsiniz. Prezident seçilməyiniz Sizin liderlik keyfiyyətlərinizə xalq tərəfindən verilən yüksək qiymətdir.

Biz Azərbaycanla münasibətlərə böyük əhəmiyyət veririk. Sizi əmin etmək istəyirəm ki, qarşıdakı illərdə ölkələrimiz arasında əlaqələrin daha da gücləndirilməsi bizim başlıca maraqlarımızdan olacaqdır.

Mən istərdim ki, öz səmimi və xoş arzularımı zati-alinizə yetirim, Azərbaycan xalqına xoşbəxtlik və davamlı tərəqqi arzulayım.

Zati-aliləri, xahiş edirəm, Sizə olan yüksək ehtiram hisslərimi qəbul edəsiniz.

***Mir Zəfərulla Xan CAMALİ,***
***Pakistan İslam Respublikasının baş naziri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. İnamlı qələbəniz ölkə vətəndaşlarının Sizə böyük etimad göstərdiyinə və yüksək hörmət bəslədiyinə sübutdur.

Şübhə yoxdur ki, bu yüksək vəzifədəki fəaliyyətiniz cəmiyyətdə sülhün, qarşılıqlı anlaşmanın, həmrəyliyin möhkəmlənməsinə, Azərbaycan Respublikasının gələcək sosial-iqtisadi və mənəvi inkişafına xidmət edəcəkdir.

Əmin olduğumu bildirirəm ki, uzun illərdən bəri Dağıstan və Azərbaycan xalqlarını birləşdirən ənənəvi dostluq münasibətləri bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu!

Sizə möhkəm cansağlığı və xoş həyat, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

***Məhəmmədəli MƏHƏMMƏDOV,***
***Dağıstan Respublikası Dövlət Şurasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik etməyimə şadam.

Əminəm ki, strateji tərəfdaşlığımızın daha da gücləndirilməsi Rusiya və Azərbaycan xalqlarının həyati əhəmiyyətli mənafelərinə uyğundur.

Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası ikitərəfli münasibətlərin genişlənməsinə, Qafqazda sülhün və sabitliyin möhkəmlənməsinə, Rusiya və Azərbaycan xalqları arasında ənənəvi dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına bundan sonra da kömək edəcəkdir.

Sizə möhkəm cansağlığı və uğurlar, qardaş Azərbaycan xalqına isə firavanlıq və tərəqqi arzulayıram.

***Sergey MİRONOV,***
***Rusiya Federasiyası Federal Məclisi***
***Federasiya Şurasının sədri***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Sizin bu yüksək vəzifəyə seçilməyiniz seçicilərin iradəsinin ifadəsi, nüfuzunuzun etirafı deməkdir.

Şübhə etmirəm ki, Sizin əmək fəaliyyətiniz Azərbaycan və Dağıstan xalqları arasındakı ənənəvi dostluq münasibətlərinin möhkəmlənməsinə kömək edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoş həyat, dövlət başçısı vəzifəsində səmərəli iş arzulayıram.

Hörmətlə,

***Muxu ƏLİYEV,***
***Dağıstan Respublikası Xalq Məclisinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Əminik ki, son illər fəal inkişaf edən Rusiya-Azərbaycan münasibətləri milli, regional və qlobal səviyyədə təhlükəsizliyin təmin edilməsi sahəsində qarşılıqlı fəaliyyət də daxil olmaqla, bütün istiqamətlərdə əlaqələrin dərinləşməsi üçün yeni təkan alacaqdır.

Bu istiqamətdə dövlətlərimizin siyasətində mövcud olan müsbət dinamikanın və varisliyin qorunub saxlanması xalqlarımız arasındakı ənənəvi dostluq münasibətlərinin daha da möhkəmlənməsinə, dinc və yaradıcı əmək üçün şəraitin formalaşmasına kömək edəcəkdir.

Möhtərəm İlham Heydər oğlu, fürsətdən istifadə edərək Sizə və bütün Azərbaycan xalqına xoşbəxtlik, firavanlıq və tərəqqi arzulayırıq.

Hörmətlə,

***Vladimir RUŞAYLO,***
***Rusiya Federasiyası***
***Təhlükəsizlik Şurasının katibi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm! Seçkilərdə inamlı qələbə ölkənizdə necə yüksək nüfuza malik olduğunuza parlaq sübutdur.

Azərbaycan xalqı Prezident Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi xəttin varisliyinə səs vermişdir. Ürəkdən ümidvaram ki, Sizin prezident seçilməyiniz sayəsində Rusiya-Azərbaycan münasibətləri ölkələrimizin xalqlarının rifahı naminə bütün sahələrdə daha güclü inkişaf üçün yeni təkan alacaqdır.

İcazə verin, əmin olduğumu bildirim ki, ali maliyyə nəzarəti orqanlarının - Rusiya Federasiyasının Hesablama Palatası və Azərbaycan Respublikasının Hesablama Palatası arasında səmərəli qarşılıqlı əlaqə bundan sonra da inkişaf edəcəkdir.

İlham Heydər oğlu, Sizə ali dövlət vəzifəsində səmərəli və uğurlu iş, bütün niyyətlərinizin həyata keçməsini, Azərbaycan xalqına isə tərəqqi arzulayıram! Xahiş edirəm, Sizə hörmət bəslədiyimə əmin olasınız və tezliklə sağalması barədə arzumu Heydər Əlirza oğluna yetirəsiniz.

Hörmətlə,

***Sergey STEPAŞİN,***
***Rusiya Federasiyası***
***Hesablama Palatasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Rusiya Federasiyasının Mədəniyyət Nazirliyindən ən səmimi, ən xoş təbrikləri qəbul edin. Dinc yanaşı yaşamaq və mehriban qonşuluq prinsipi Azərbaycanın həmişə dövlət siyasəti olmuşdur və bu, dostluq, əməkdaşlıq və mədəni mübadilə üçün açıq olan sülhsevər Azərbaycan xalqının





ruhuna və ənənələrinə tam dolğunluğu ilə uyğun olmuşdur və uyğundur.

Ümidvaram ki, Rusiya ilə Azərbaycan arasındakı siyasi, iqtisadi və mədəni münasibətlər təcrübəsi Sizin fəal, səmərəli və daimi iştirakınız sayəsində genişlənəcəkdir. İcazə verin, Sizə bütün işlərinizdə yeni-yeni yaradıcılıq uğurları və özünüzə, böyük, mehriban ailənizə cansağlığı arzulayım.

Gələcək səmərəli əməkdaşlıq ümidi ilə.

***Mixail ŞVİDKOY,***
***Rusiya Federasiyasının mədəniyyət naziri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ümummilli seçkilərdə Sizin inamlı qələbəniz Azərbaycan xalqının dövlətçiliyin möhkəmləndirilməsi və cəmiyyət həyatının bütün sahələrində genişmiqyaslı dəyişikliklərin həyata keçirilməsi yolu ilə irəliləyişi davam etdirmək əzmində olduğunu təsdiqləmişdir.

Əminəm ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluğun, mehriban qonşuluğun və hərtərəfli əməkdaşlığın dərinləşdirilməsi Rusiyanın və Azərbaycanın xarici siyasət fəaliyyətində öncül istiqamət olaraq qalacaqdır.

Hörmətli İlham Heydər oğlu!

Sizə möhkəm cansağlığı, səadət və yüksək vəzifənizdə böyük uğurlar arzulayıram.

Hörmətlə,

***Vyaçeslav TRUBNİKOV,***
***Rusiya Federasiyası***
***xarici işlər***
***nazirinin***
***birinci müavini***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə ən səmimi və ürəkdən gələn təbriklərimi qəbul edin. Əmin olduğumu bildirirəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan regionda sabitliyin dayağına çevriləcəkdir ki, bu da qonşu ölkələr üçün olduqca vacibdir. Dövlət xadimi və uzaqgörən siyasətçi keyfiyyətləriniz Sizə həm Azərbaycanda, həm də onun hüdudlarından uzaqlarda böyük hörmət qazandırmışdır. Sizin böyük həyat təcrübəniz, təşkilatçılıq istedadınız, yüksək insani keyfiyyətləriniz və həmfikirləri öz ətrafında birləşdirmək bacarığınız Sizə istənilən şəraitdə düzgün qərarlar tapmağa və istənilən vəzifənin öhdəsindən gəlməyə imkan verir.

Hörmətli İlham Heydər oğlu!

Bu əlamətdar gündə Sizə fəaliyyətinizdə səmimi qəlbdən yeni uğurlar arzulayıram.

Hörmətlə,

***Viktor KALYUJNİ,***
***Rusiya Federasiyası xarici işlər nazirinin müavini,***
***Rusiya Federasiyası Prezidentinin Xəzər dənizinin statusunun tənzimlənməsi məsələləri üzrə xüsusi nümayəndəsi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Xahiş edirəm, Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə səmimi və ürəkdən gələn təbriklərimi qəbul edin.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, yüksək vəzifənizdə uğurlu və səmərəli fəaliyyət, habelə Azərbaycan xalqına firavanlıq və tərəqqi arzulayıram.

Səmimi hörmətlə,

***Boris QROMOV,***
***Moskva vilayətinin qubernatoru,***
***Sovet İttifaqı Qəhrəmanı***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin. Qarşınıza qoyduğunuz məqsədə çatmaqda göstərdiyiniz enerji və iradə həmyerlilərimiz - respublikanın sakinləri tərəfindən layiqincə qiymətləndirildi və bu, seçkilərdə müvəffəqiyyətinizin möhkəm təməli oldu.

Əminəm ki, siyasətçi istedadı və yüksək iş qabiliyyəti Sizə doğma Azərbaycanın sosial-iqtisadi inkişafı məsələlərini uğurla həll etməyə imkan verəcəkdir.

Səmimi qəlbdən Sizə möhkəm cansağlığı, tükənməz enerji, səmərəli iş uğurları və firavanlıq arzulayıram.

Hörmətlə,

***Dmitri AYATSKOV,***
***Saratov vilayətinin qubernatoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Kemerovo vilayətinin icra hakimiyyəti və Xalq Deputatları Şurası, bütün sakinləri adından və şəxsən öz adımdan səmimiyyətlə və ürəkdən təbrik edirəm. Prezident seçkilərində Sizə göstərilən ümumxalq dəstəyi sabitliyin və varisliyin, ölkənin dinamik və ardıcıl inkişafının, demokratik, hüquqi dövlətçiliyi möhkəmlətmək yolu ilə irəliləməyin xeyrinə seçim edən qardaş Azərbaycan xalqının dərin müdrikliyindən və məsuliyyətindən xəbər verir.

Rusiya Federasiyasının qabaqcıl və sənayecə ən inkişaf etmiş regionlarından biri olan Kemerovo vilayətini Azərbaycan Respublikası ilə daim möhkəmlənən iqtisadi və mədəni qarşılıqlı fəaliyyət, habelə sıx insani əlaqələr bağlayır.

Hörmətli İlham Heydər oğlu, Azərbaycan xalqına xidmət etmək kimi nəcib işdə Sizə səmimi qəlbdən yeni-yeni uğurlar, habelə özünüzə, yaxın

və doğma adamlarınıza möhkəm cansağlığı və xoşbəxtlik, bütün Azərbaycan xalqına isə nailiyyətlər, firavanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

***Aman TULEYEV,***
***Kemerovo vilayətinin qubernatoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycanın Prezidenti kimi yüksək vəzifəyə seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin. Respublikanızın sakinləri Sizə səs verməklə sabitliyə, sabahkı günə inama və firavan həyata səs vermişlər və bütün bunları, xeyli dərəcədə Sizin adınızla və işinizlə bağlayırlar.

Səmimi qəlbdən Sizə möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycanın tərəqqisi naminə yeni real nailiyyətlər arzulayıram.

Hörmətlə,

***Yuri YEVDOKİMOV,***
***Murmansk vilayətinin qubernatoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasında prezident seçkilərində qələbəniz münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm. Mən bu qələbəyə lap əvvəldən əsla şübhə etmirdim. Bu, son dərəcə layiqli qələbədir və Azərbaycan xalqının siyasi sabitliyə, iqtisadi tərəqqiyə və Azərbaycanın ənənəvi tərəfdaşları ilə, o cümlədən də Rusiya ilə beynəlxalq əməkdaşlığı inkişaf etdirməyə çalışdığına sübut olmuşdur.

Sizə möhkəm cansağlığı və bütün işlərinizdə uğurlar, özünüzə və yaxın adamlarınıza xoşbəxtlik arzulayıram.

Hörmətlə,

***Mixail MARGELOV,***
***Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Beynəlxalq işlər Komitəsinin sədri***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizə və Sizin simanızda bütün Azərbaycan xalqına sosial-iqtisadi və mədəni inkişafda, xalqlarımız arasında dostluğun və mehriban qonşuluğun inkişaf etdirilməsində uğurlar arzulayıram.

Hörmətlə,

***Hacımət SƏFƏRƏLİYEV,***
***Rusiya Dövlət Dumasının Azərbaycan Respublikasının Milli Məclisi ilə əlaqələr üzrə parlamentlərarası qrupunun rəhbəri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikası Prezidentinin seçkilərində inamlı qələbəniz münasibətilə Sizi təbrik edirik. Sizə Azərbaycan xalqının rifahı naminə səmərəli iş, xalqlarımız arasında sabit dostluq əlaqələrinin inkişafında uğurlar arzulayırıq.

Hörmətlə,

***Mixail ZALİXANOV,***
***Rusiya Federasiyası Dövlət Dumasının sabit inkişaf problemləri komissiyasının sədri, akademik,***

***Aleksandr ŞELEXOV,***
***komissiya sədrinin müavini, professor,***

***Hacımət SƏFƏRƏLİYEV,***
***Rusiya Federasiyası Dövlət Dumasının təhsil və elm komitəsi sədrinin müavini, professor.***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi MDB-nin üzvü olan dövlətlərin Parlamentlərarası Assambleya Şurası adından ürəkdən təbrik edirəm. Əlamətdar haldır ki, xalq Sizə öz etimadını Azərbaycanın milli bayramı - Dövlət Müstəqilliyi günü ərəfəsində göstərmişdir.

Cənab baş nazir. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycan Respublikası xalqının daha yüksək tərəqqisi və rifahına yönəldilmiş xəttin - görkəmli dövlət xadimi və siyasi xadim Heydər Əliyev tərəfindən əsası qoyulmuş xəttin davam etdirilməsində böyük uğurlar arzulayıram.

Dərin hörmətlə,

***Mixail KROTOV,***
***MDB Parlamentlərarası***
***Assambleya Şurasının baş katibi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm. Sizə və Sizin simanızda bütün Azərbaycan xalqına sülh və tərəqqi, sosial-iqtisadi, siyasi və mədəni inkişafda uğurlar arzulayıram.

Əminəm ki, respublikanın prezidenti vəzifəsində fəaliyyətiniz xalqlarımız arasında mehriban qonşuluq münasibətlərinin daha da inkişafına kömək edəcəkdir.

Sizə ən xoş arzularımı yetirirəm.

Hörmətlə,

***Viktor KAZANTSEV,***
***Rusiya Federasiyası Prezidentinin***
***Cənub federal dairəsində səlahiyyətli nümayəndəsi***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz baş nazir!

Azərbaycanlı qardaşlarımızın böyük sevgisi nəticəsində qazandığınız prezident seçkisi zəfərini yalnız demokratiyanın və ölkənizin xeyrinə yozmaq düzgün deyildir. Çünki zati-alinizi böyük səs çoxluğu ilə seçən azərbaycanlı qardaşlarımız atanız, zati-aliləri möhtərəm prezident Heydər Əliyevin qoyduğu işıqlı yolu davam etdirməkdə qərarlı olduqlarını göstərmişlər. Sizi təbrik edirik. Azərbaycanlı qardaşlarımızı təbrik edirik.

Böyük Atatürk Cümhuriyyətimizin 10-cu ildönümündə, yəni vəfatından 5 il qabaq Türkiyə Böyük Millət Məclisində etdiyi çıxışında demişdi: "Mənim fani vücudum, əlbəttə ki, bir gün torpaq olacaqdır. Amma Türkiyə Cümhuriyyəti əbədiyyətə qədər mövcud olacaqdır".

Türk milləti böyük Atatürkdən sonra onun qurduğu cümhuriyyəti və yaratdığı əsərləri necə yaşatmışsa, bu seçkilərdə azərbaycanlı qardaşlarımız da zati-alinizi seçməklə Heydər Əliyevi və əsərlərini yaşatmağa qərarlılığını ortaya qoymuş və bir bayram əhval-ruhiyyəsi içində seçimlərini etmişlər.

Böyük bayramınızı təbrik edir, Azərbaycan Respublikasının Prezidenti və Mərmərə Qrupu Vəqfinin fəxri sədri zati-aliləri Heydər Əliyevə də şəfa diləyir, bu bayram günündə ona ən səmimi arzularımızı yetiririk.

Təbriklərimizi ərz edərkən ailənizə xoşbəxtlik, azərbaycanlı qardaşlarımıza səadət arzulayıram.

Ən dərin hörmətlə,

***Doktor Akkan SUVƏR,***
***Mərmərə Qrupu Strateji və Sosial***
***Araşdırmalar Vəqfinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri cənab İlham Əliyev!

Ölkənizin xalqının dəstəyi ilə rəqiblərinizi siyasi səhnədən süpürüb ataraq, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz haqqında xəbəri eşitməkdən çox şad oldum. Mən istərdim ki, bu münasibətlə ən səmimi təbriklərimi Sizə yetirim.

Həm də istərdim ki, Bakıya bu yaxınlardakı səfərim zamanı mənə göstərdiyiniz qayğı və qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirim.

Sizin liderliyiniz altında ölkənizə davamlı inkişaf və firavanlıq dolu xoş arzularımı yetirirəm.

Səmimiyyətlə,

***Un Yonq KİM,***
***Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti,***
***Dünya Taekvondo Federasiyasının prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri cənab İlham Əliyev!

Ölkənizin xalqının dəstəyi ilə rəqiblərinizi siyasi səhnədən süpürüb ataraq, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz haqqında xəbəri eşitməkdən çox şad oldum. Mən istərdim ki, prezident seçilməyiniz münasibətilə Sizə ürəkdən gələn təbriklərimi ifadə edim.

Sizin uğurlu liderliyinizlə ölkənizə firavanlıq və nailiyyətlər dolu ən xoş arzularımı qəbul edin.

Səmimiyyətlə,

***Kum Honq LİI,***
***Dünya Taekvondo Federasiyasının***
***baş katibi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli cənab Əliyev!

Azərbaycan Respublikası Prezidentinin seçkilərində heyrətamiz qələbəniz münasibətilə "İTERA" Beynəlxalq şirkətlər qrupu rəhbərliyinin və çoxminli əməkdaşlar kollektivinin ən səmimi təbriklərini qəbul edin.

Ümumxalq səsvermənin nəticələri inandırıcı şəkildə göstərdi ki, Azərbaycan xalqı ölkənin iqtisadi və sosial tərəqqi yolu ilə daha da inkişaf etməsinə, dövlətçiliyin möhkəmlənməsinə və cəmiyyətin demokratikləşməsi prosesinin dərinləşməsinə olan ümidlərini Sizin adınızla bağlayır.





Bu gün Azərbaycan Respublikasında və onun hüdudlarından uzaqlarda Siz insanların ehtiyaclarına bələd olan, hərtərəfli biliyə və təşkilatçılıq istedadına malik, ölçülüb-biçilmiş qərarlar qəbul etməyə və onları ardıcıl surətdə həyata keçirməyə qadir fəal siyasətçi və ictimai xadim kimi tanınmısınız. Əminik ki, Sizin bu və bir çox digər gözəl işgüzar və insani keyfiyyətləriniz qarşınızda duran genişmiqyaslı və mürəkkəb vəzifələrin həyata keçirilməsində Sizə kömək edəcəkdir.

Biz hamımız xüsusilə şadıq ki, Sizin gözəl ölkənizdə ali dövlət vəzifəsinə yanacaq-energetika sahəsinin problemlərini yaxşı bilən və ölkənin ən iri neft-qaz şirkəti rəhbərliyinin tərkibində sanballı məktəb keçən insan seçilmişdir.

Sizi əmin edirik ki, "İTERA" Beynəlxalq şirkətlər qrupu bundan sonra da azərbaycanlı tərəfdaşları ilə səmərəli əməkdaşlığın inkişaf etdirilməsinə və Azərbaycan Respublikası rəhbərliyinin yanacaq-energetika sahəsində həyata keçirdiyi sosial-iqtisadi proqramların gerçəkləşdirilməsinə əlindən gələn töhfəni verməyə çalışacaqdır.

Sizə möhkəm cansağlığı, günəşli Azərbaycanın və onun əməksevər xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayırıq!

Səmimi hörmətlə,

***İqor MAKAROV,***
***"İTERA" Beynəlxalq şirkətlər***
***qrupunun prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli cənab Əliyev!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bu hadisə zamanın sınaqlarından çıxmış iqtisadi və sosial dəyişikliklər xəttinin - Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanı son illər ərzində inamla irəlilədən xəttin xalq tərəfindən dəstəklənməsi deməkdir. Eyni zamanda bu hadisə inandırıcı şəkildə göstərir ki, Azərbaycan cəmiy-

yəti sabit inkişaf siyasətinin davam etdirilməsinin uğurlarını Sizin adınızla bağlayır.

Sizə yeni Azərbaycanın qarşısında duran əzəmətli vəzifələrin həyata keçirilməsində uğurlar, o cümlədən Qarabağ probleminin ədalətli həlli sahəsində fəaliyyətinizdə böyük qüvvə və enerji arzulayıram. Sizin atanızla münasibətlərimizdə yaranmış və bu nizamasalma ilə bağlı işimdə mənə daim kömək etmiş möhkəm əlaqələrin davam etdiriləcəyinə də ürəkdən ümid bəsləyirəm.

Ən yüksək hörmətlə,

***Andjey KASPŞİK,***
***Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının hazırkı sədrinin şəxsi nümayəndəsi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz İlham Heydər oğlu!

Adama yalnız ilk baxışdan elə gəlir ki, ölkənin liderini insanlar seçirlər və məsələ səslərin, sadəcə, hesablanması ilə həll edilir.

Yox, hər şey heç də belə sadə deyildir. Səs verməyinə insanlar səs verirlər, amma seçimi zaman edir. Odur ki, bu sərt seçimdən qaçıb heç yanda gizlənə bilməzsən, bu ağır yükdən yaxa qurtara bilməzsən, çünki artıq püşk atılmış və Sizə belə tale qismət olmuşdur.

Lakin Siz güclü və cəsur insansınız. Siz atanızın, öz xalqınızın oğlusunuz. Siz bu sınaqdan mütləq çıxacaqsınız. Qoy uğur Sizə yar olsun, qoy Azərbaycan adlı gözəl məmləkətdə sülh və firavanlıq bərqərar olsun!

Əziz İlham Heydər oğlu, zaman Sizi seçdi, o isə heç vaxt səhv etmir.

Müdrik və mərhəmətli olun. Qoy Ulu Tanrı Sizə yar olsun!

***Dariqa NAZARBAYEVA,***
***"Xabar" Agentliyi Səhmdar Cəmiyyəti Direktorlar Şurasının sədri***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

AŞ PA üzrə həmkarım, görkəmli siyasətçi və dövlət xadimi kimi Sizi prezident seçkilərində inamlı qələbəniz münasibətilə ürəkdən təbrik edirəm.

Qoy məsul prezident vəzifəsində fəaliyyətiniz iqtisadi inkişafın daha da artmasına, dövlətin demokratik təsisatlarının möhkəmlənməsinə xidmət etsin, Azərbaycan xalqına sülh, həmrəylik və firavanlıq gətirsin.

Hörmətlə,

***Anatoli RAXANSKİ,***
***AŞ PA-nın üzvü, Azərbaycan Respublikası ilə parlamentlərarası əlaqələr üzrə deputat qrupunun sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab baş nazir!

Yeni vəzifənizin xeyirli olmasını arzu edir, başda zati-aliniz olmaqla bütün Azərbaycan xalqına hörmət və ehtiramımı ərz edirəm.

***Nurəddin ARAS,***
***İqdır bələdiyyə başqanı***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

"İnterfaks" İnformasiya Agentliyi Sizi Azərbaycan Respublikası Prezidentinin seçkilərində qələbə münasibətilə təbrik edir. Seçkilərin nəticələri göstərir ki, hüquqi, demokratik dövlət, iqtisadi cəhətdən inkişaf etmiş və sosial yönümlü dövlət kimi Azərbaycanın daha da inkişafına yönəldil-

mış əvvəlki xətti davam etdirmək əzminizi ölkənizin seçicilərinin böyük əksəriyyəti dəstəkləmişdir. "İnterfaks"ın jurnalistləri əmindirlər ki, son illər ölkənizdə aparılan açıq dövlət informasiya siyasəti Azərbaycana MDB-nin vahid informasiya məkanının yaradılmasına mühüm kömək göstərməyə imkan verəcəkdir. Bu il "İnterfaks-Azərbaycan" agentliyinin yaradılması buna parlaq sübutdur.

İlham Heydər oğlu, Sizə Azərbaycan Respublikasının Prezidenti vəzifəsində, çətin və məsul işinizdə böyük uğurlar arzulayırıq.

Dərin hörmətlə,

***M.KOMİSSAR,***
***"İnterfaks" İnformasiya Agentliyinin baş direktoru***
***Q. QULİA,***
***"İnterfaks-Azərbaycan" İnformasiya Agentliyinin baş direktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi günü münasibətilə "Mir" Dövlətlərarası Teleradio Şirkətinin çoxmillətli kollektivinin səmimi təbriklərini qəbul edin.

Biz işlərimizə və problemlərimizə daim xeyirxah münasibət göstərdiyinə görə respublika rəhbərliyinə dərindən minnətdarıq. Bu, bütün "Mir" teleradio şirkətinə və əlbəttə, onun Azərbaycandakı milli nümayəndəliyinə çətin təşəkkül yolunu keçib getməyə və öz fəaliyyətində yeni mərhələyə qədəm qoymağa imkan vermişdir.

İcazə verin, bu gözəl fürsətdən istifadə edərək Sizə bildirim ki, oktyabrın 1-dən etibarən biz təsisçi dövlətlərin hökumətləri tərəfindən "Mir"ə verilmiş tezliklərdə hər gün 10 saatlıq televiziya yayımına başlamışıq. Ümidvarıq ki, yaxın vaxtlarda "Mir" Azərbaycanda da tezlik alacaq və bu, bizə Azərbaycan xalqının həyatını Birlik ölkələrində, Baltıkyanı ölkələrdə və Azərbaycanın özündə televiziya ekranlarında daha geniş göstərməyə imkan verəcəkdir. Qəti əminik ki, dövlətlərarası yayıma Sizin diqqətiniz onun gələcək inkişafına çox müsbət təsir göstərəcəkdir.





Sizə möhkəm cansağlığı, yüksək və çox çətin vəzifənizdə uğurlar, böyük Azərbaycan xalqına sülh, tərəqqi və həmrəylik arzulayıram.

Səmimi ehtiramla,

***Viktor SENİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli baş nazir!

Sizi 2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edirəm.

Qardaş, dost və qonşu Azərbaycan ilə Türkiyənin münasibətləri əbədidir. Türkiyə və Azərbaycan bir millətin iki dövlətidir.

Atanız möhtərəm Heydər Əliyevin böyük səyləri ilə ölkələrimiz arasında yaranmış münasibətlərin Sizin prezidentliyiniz müddətində də davam edəcəyinə əminəm.

Azərbaycan xalqının etimad göstərərək seçdiyi bu ali vəzifənizdə Sizə böyük uğurlar diləyirəm.

Hörmətlə,

***Süleyman DƏMİRƏL,***
***Türkiyə Respublikasının 9-cu Prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli baş nazir!

2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə Azərbaycan prezidentliyinə böyük səs çoxluğu ilə seçilməyinizdən xoşbəxtlik və qürur duyuram. Hörmətli atanız Heydər Əliyevin yolunu davam etdirəcəyinizə şübhəmiz yoxdur.

Prezidentimizi bütün qəlbimlə təbrik edir, seçkinin nəticələrinin Sizə, hörmətli ailənizə, Azərbaycan xalqına, dövlətinə və bütün türk dünyasına xeyirli olmasını arzu edirəm.

Hörmətli atanıza Allahdan cansağlığı arzulayır və inanıram ki, əziz atanız da bu nəticələrdən qürur duymuşdur. Siz atanıza və Azərbaycana layiq uca bir şəxsiyyətsiniz.

***Doktor Əlaəddin BÖYÜKQAYA,***
***İstanbul millət vəkili***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikası Prezidentinin seçkilərində inamlı qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin. Ümidvar olduğumu bildirirəm ki, Heydər Əlirza oğlu ilə bizim aramızda yaranmış səmimi münasibətlər və Rusiya Federasiyasının Sverdlovsk vilayəti ilə Azərbaycan Respublikası arasında dinamik inkişaf edən ticarət-iqtisadi əlaqələr bundan sonra da möhkəmlənəcək və inkişaf edəcək, səmərəli, qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün davamlı bünövrə olacaqdır.

İcazə verin, Sizə uğurlu iş və Azərbaycan xalqının rifahı naminə yeni nailiyyətlər arzulayım.

Sizə, doğmalarınıza və yaxın adamlarınıza möhkəm cansağlığı, xoşbəxtlik, xeyirxahlıq və firavanlıq diləyirəm.

Səmimi hörmətlə,

***Eduard ROSSEL,***
***Sverdlovsk vilayətinin qubernatoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Seçkilərdə inamlı qələbəniz, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz xalqın Sizə olan dərin hörmətini və böyük etimadını göstərir.





Fürsətdən istifadə edərək əmin olduğumu bildirmək istəyirəm ki, Dağıstanı və Azərbaycanı bir-birinə bağlayan dostluq, qarşılıqlı anlaşma və səmərəli əməkdaşlıq telləri bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, əmin-amanlıq və firavanlıq, Azərbaycan xalqının rifahı, Qafqazda sülhün daha da möhkəmlənməsi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

***Gitinoməhəmməd HACIMƏHƏMMƏDOV,***
***Dağıstan hökuməti sədrinin***
***birinci müavini***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Əliyev!

2003-cü il oktyabrın 15-də keçirilmiş prezident seçkiləri nəticəsində əldə etdiyiniz müvəffəqiyyət və Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Qardaş və dost Azərbaycan xalqının xoşbəxtliyi və rifahı üçün görəcəyiniz bütün işlərdə uğurlar diləyir və hörmətlərimi ifadə edirəm.

***Əhməd AYIK,***
***Olimpiya və dünya çempionu,***
***FİLA-nın idarə heyətinin üzvü***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm. Mən seçkilərdən xeyli əvvəl əmin idim ki, böyük Azərbaycan xalqı düzgün seçim edəcək və öz torpağında inqilablara və yenidənqurmalara yol verməyəcəkdir.

Ümidvaram ki, Rusiya ilə Azərbaycan arasındakı münasibətlər Sizin rəhbərliyinizlə də əvvəlki tək səmimi və mehriban olacaqdır. Mən əvvəlki prezident Heydər Əliyevə həmişə çox böyük hörmətlə yanaşmışam. Əminəm ki, Sizinlə də bu cür yaxşı, xoş münasibətlərimiz olacaqdır.

***Vladimir JİRİNOVSKİ,***
***Rusiya Dövlət Duması sədrinin müavini***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Prezident seçkilərində qələbəniz münasibətilə ən xoş təbriklərimizi qəbul edin. Sizin qələbəniz Heydər Əlirza oğlunun qələbəsidir. Azərbaycan xalqının qələbəsi və demokratiyanın təntənəsidir.

Hörmətli İlham. Sizi hələ yeniyetmə çağlarınızdan, bütün ailənizin Pyatiqorska istirahətə gəldiyi vaxtlardan xatırlayıram. Sonralar tale bizi Heydər Əlirza oğlu ilə Moskvada onun SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi vaxtlarda dəfələrlə görüşdürdü. Yaxşı bilirəm, siyasi xadimlər və dövlət xadimləri Heydər Əliyevin peşəkarlığını, prinsipiallığını və yüksək nüfuzunu tam qərəzsizliklə vurğulayır və səmimiyyətlə qiymətləndirirdilər.

Heydər Əlirza oğlu Azərbaycana yenidən rəhbərlik etməyə başlayanda Rusiyada çoxları rahat nəfəs aldılar: ölkəmizi əsrlərdən bəri mehriban qonşuluq və tərəfdaşlıq münasibətlərinin bağladığı dövlətə nəinki Azərbaycanda, həm də bütün postsovet məkanında ən layiqli, ən nüfuzlu rəhbər başçılıq edir.

Heydər Əlirza oğlu prezidentlik illərində sabitliyin möhkəm bünövrəsini yarada bilmiş və dövlətin sosial-iqtisadi inkişafına güclü təkan vermişdir. İlham Heydər oğlu, Siz Azərbaycanın dünya iqtisadi və siyasi sisteminə daha yaxından inteqrasiyasının uzun sürən və çətin prosesinə başçılıq etməli olacaqsınız.

Siz artıq dünya birliyində öz dövlətinin milli mənafelərini qoruyan praqmatik və rasional siyasətçi kimi tanınmısınız.

İlham Heydər oğlu, Stavropol diyar ali məktəbləri rektorları şurasının sədri kimi, böyük siyasətdə on illərlə işləmiş insan kimi, Heydər Əlirza oğluna və Azərbaycan xalqına dərin hörmət bəsləyən insan kimi mən Sizi güclü hakimiyyətə, güclü iqtisadiyyata, güclü dövlətə doğru çox mühüm yolda hərtərəfli dəstəklədiyimi bəyan edirəm.





Dərin hörmətlə və bütün Azərbaycan xalqına xoş arzularla,

***V. KAZNAÇEYEV,***
***Stavropol diyar rektorlar şurasının sədri, Pyatiqorsk Dövlət Texnologiya Universitetinin rektoru, professor***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz İlham Heydər oğlu!

Ölkənin prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycanın və onun xalqının rifahı naminə bütün işlərinizdə Sizə səmimi qəlbdən uğurlar, eləcə də yeni-yeni idman qələbələri arzulayıram.

Hörmətlə,

***Vitali SMİRNOV,***
***Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

İcazə verin, namizədliyinizin, irəli sürdüyünüz dövlət proqramları və planlarının Azərbaycan xalqı tərəfindən geniş dəstəklənməsi və inamla Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edim.

Xahiş edirəm, yüksək dövlət işlərində və məsələlərində uğurlar diləyi ilə ən səmimi arzularımı qəbul edin.

Sizə dərin hörmətlə, Azərbaycanın, eləcə də ümumən bütün MDB-nin mülki aviasiyasının uğurlu inkişafı naminə yorulmadan işləməyə səy göstərmək əzmini təsdiqləməklə,

***Tatyana ANODİNA,***
***Dövlətlərarası Aviasiya Komitəsinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Beynəlxalq Uşaq Fondları Assosiasiyası adından ən səmimi təbrikləri qəbul edin.

Azərbaycan Prezidentinin seçkilərində inamlı qələbəniz Sizə, ölkənin müdrik, güclü, uzaqgörən rəhbəri, uşaqların problemlərini heç zaman unutmayan atanızın işinin davamçısına xalqın yüksək hörmət və etimad göstərdiyinə parlaq sübutdur. Siyasi Büronun üzvü olarkən Heydər Əliyevin yetimlərin müdafiəsi üçün irəli sürdüyümüz təşəbbüsləri fəal surətdə dəstəkləməsini Uşaq Fondu yaxşı xatırlayır və yüksək qiymətləndirir. Sizinlə Moskvadakı görüşümüzü də xatırlayıram.

İlham Heydər oğlu, Sizə dövlət fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına tərəqqi, özünüzə və yaxın adamlarınıza xoşbəxtlik, cansağlığı, firavanlıq arzulayıram.

Səmimi hörmətlə və əməkdaşlıq ümidi ilə,

***Albert LİXANOV,***
***Beynəlxalq Uşaq Fondları Assosiasiyasının prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Əminəm ki, respublikanın rifahı naminə, onun tərəqqisi və firavanlığının həmişə artması naminə Sizə etibarlı rəhbər kimi etimad göstərmiş Azərbaycan sakinlərinin xoş həyatı üçün bütün səylərinizi, istedadınızı sərf edəcəksiniz.

Əminəm ki, atanızın – Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin işini və xalqa xidmətini davam etdirəcəksiniz. Mən ona sağalmağı və uzun ömür arzulayıram.





Çox hörmətli İlham Heydər oğlu, Sizi xalqa xidmət etmək kimi çətin və məsul vəzifə gözləyir. Qoy, Ulu Tanrı bu işdə Sizə yar olsun, mənəvi və fiziki qüvvələrinizi möhkəmləndirsin və artırsın, müdriklik versin və nəcib işlərinizə xeyir-dua versin. Atanız Heydər Əliyevin şərəfinə iqamətgahda təşkil etdiyi qəbulda Sizinlə tanışlığımı səmimiyyətlə xatırlayıram.

Dərin hörmətlə,

***ALEKSİ,***
***Moskvanın və Bütün Rusiyanın patriarxı***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Möhtərəm İlham Heydər oğlu!

Bütün Gürcüstan kimi, Gürcüstan Pravoslav kilsəsi də Sizi əlamətdar hadisə - prezident vəzifəsinə seçilməyiniz münasibətilə ürəkdən təbrik edir.

Biz keçid dövrünün çox ağır bir vaxtını yaşayırıq, ona görə də istər Azərbaycanda, istərsə də Qafqazda sülhün bərqərar edilməsi işində Sizin siyasi təcrübəniz çox əhəmiyyətlidir.

Biz əminik ki, dövlət ilə müxalifət arasında münasibətlər Azərbaycan xalqının rifahı naminə tezliklə nizama salınacaqdır.

Sizə möhkəm cansağlığı, ölkənizin əmin-amanlığı və tərəqqisi üçün xoşbəxt uzun ömür arzulayırıq.

***II İLİYA,***
***Katolikos - Bütün Gürcüstanın patriarxı***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz İlham Heydər oğlu!

Seçkilərdə böyük və görkəmli qələbəniz münasibətilə bütün Çikvaidzelər ailəsi Sizi səmimi qəlbdən təbrik edir. Əminik ki, gürcü ictimaiyyə-

ti ilə şəxsi ünsiyyətlərimiz və əlaqələrimiz xalqlarımız arasındakı dostluğu daha da möhkəmləndirəcəkdir.

İki oğul atası olaraq təsəvvür edirəm ki, çox hörmətli Heydər Əlirza oğlu Sizin prezident seçilməyinizdən necə böyük qürur duyur. Xahiş edirik, bizim səmimi təbriklərimizi, möhkəm cansağlığı və xoşbəxtlik arzu etdiyimizi ona yetirəsiniz.

Sizi bağrıma basıram.

*Aleksandr ÇİKVAİDZE,*
*Gürcüstanın İsveçrə və Vatikandakı səfiri*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edim. Azərbaycan xalqının bu qərarında onun nəinki çoxəsrlik müdrikliyi, həm də dövlətinizin inkişaf perspektivini dəqiq müəyyənləşdirmək qabiliyyəti öz əksini tapmışdır.

Ölkələrimizin dövlətçiliyinin təşəkkülünün son illəri, şübhəsiz ki, xalqlarımız arasında qardaşlıq münasibətlərinin köklərini və sıx Azərbaycan-Gürcüstan strateji əməkdaşlığını möhkəmləndirmişdir. Ölkələrimizin tərəfdaşlığı işində yeganə düzgün yol - mümkün olan köməyi göstərmək və belə bir faktın başa düşülməsi yolu seçilmişdir ki, dövlətlərimizin təhlükəsizliyi və sabitliyi, eləcə də regional və qlobal siyasətdə uğurları bir-birindən ayrılmazdır.

Şübhə yoxdur ki, yuxarıda göstərilən və bir çox digər nailiyyətlər Sizin atanızın - hörmətli Heydər Əlirza oğlunun və Gürcüstan Prezidenti Eduard Şevardnadzenin adları ilə sıx bağlıdır.

İcazə verin, Azərbaycan-Gürcüstan tərəfdaşlığının inkişafına Sizin də şəxsi töhfənizi lazımınca qiymətləndirək. Şübhəsiz ki, Sizin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz sayəsində bu tərəfdaşlığa keyfiyyətcə yeni təkan veriləcəkdir.

Bizim görüşlərimiz şəxsən mənim xüsusilə xatirimdədir və Sizi bir daha əmin etmək istəyirəm ki, mənim bütün şəxsi əlaqələrim əvvəllər olduğu kimi, yenə də ümumi işimizə xidmət edəcəkdir.





Fürsətdən istifadə edərək, Sizə yüksək dövlət vəzifəsində yeni qələbələr və nailiyyətlər, möhkəm cansağlığı, böyük xoşbəxtlik və firavanlıq arzulayıram.

Hörmətlə,

*Tedo CAPARİDZE,*
*Gürcüstan Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi -*
*Milli Təhlükəsizlik Şurasının katibi*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirik.

Məmnunuq ki, Azərbaycan xalqı yeganə düzgün və doğru qərar qəbul edərək, Sizi bu yüksək vəzifəyə seçdi. Bunu etməklə xalq əmindir ki, Siz ölkənizin və millətinizin firavanlığı üçün bütün səylərinizi əsirgəməyəcək, təcrübəli və alicənab atanızı layiqincə əvəz edəcəksiniz.

Ümidvarıq ki, ölkələrimiz arasında uzunmüddətli və ənənəvi dostluq və əməkdaşlıq gələcəkdə daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Sizə bir daha səmimi təbriklərimizi çatdırırıq və ən yüksək hörmət və ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

Səmimiyyətlə, Sizin

*Cansuq BAQRATİONİ,*
*Gürcüstan Milli Olimpiya Komitəsinin prezidenti,*

*Emzar ZENAŞVİLİ,*
*Gürcüstan Milli Olimpiya Komitəsinin baş katibi*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

İcazə verin, yüksək vəzifəyə - Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi Rusiya Avrasiya Partiyası - Vətənpərvərlər İttifaqının Siyasi Şurası, Müşahidə Şurası adından və şəxsən öz adımızdan səmimiyyətlə təbrik edək.

Prezident seçkilərində Sizin inamlı qələbəniz Azərbaycan cəmiyyətində yüksək hörmət və nüfuza malik olduğunuzu bir daha sübut edir. Biz Sizi dövlətlərimiz arasında dostluğun və əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi üçün böyük qüvvə və enerji sərf edən beynəlxalq miqyaslı siyasi xadim kimi tanıyırıq. Bütün bunlar Sizə ölkələrimizin xalqları arasında nüfuz qazandırmışdır.

Hörmətli cənab baş nazir, Rusiya-Azərbaycan əməkdaşlığının möhkəmlənməsi naminə fəaliyyətinizdə Sizə böyük uğurlar, habelə möhkəm cansağlığı və firavanlıq arzulayırıq.

Hörmətlə,

***Pavel BORODİN,***
***Rusiya Avrasiya Partiyası - Vətənpərvərlər İttifaqı Müşahidə Şurasının sədri,***

***Əbülvahid NİYAZOV,***
***Rusiya Avrasiya Partiyası - Vətənpərvərlər İttifaqı Siyasi Şurasının sədri, Rusiya Dövlət Dumasının deputatı***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

İcazə verin, Azərbaycan Respublikası Prezidentinin seçkilərində qələbəniz münasibətilə Sizi şəxsən öz adımdan təbrik edim.

Sizi qarşıda çox mühüm dövlət işi gözləyir və bu işdə müvəffəqiyyətinizə şübhə etmirəm.





İcazə verin, Sizin üçün yeni vəzifədə, ali dövlət vəzifəsində Sizə Azərbaycan xalqının rifahı naminə enerji və qüvvə arzulayım.

Sizə, çox hörmətli atanıza, doğma, yaxın adamlarınıza və silahdaşlarınıza cansağlığı, firavanlıq diləyirəm.

Hörmətlə,

***Aleksandr KORJAKOV,***
***Rusiya Dövlət Dumasının Müdafiə Komitəsinin sədri, general-leytenant***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Sizin Azərbaycan Prezidenti seçilməyinizə belə inandırıcı şəkildə çox böyük əksəriyyətlə səs verən Azərbaycan xalqının müdrikliyinə və Vətənin taleyi üçün məsuliyyət hissinə heyranam.

Əminəm ki, Siz Azərbaycanı tərəqqiyə və sabitliyə doğru aparan dəyişiklikləri layiqincə davam etdirəcəksiniz. Sizin Azərbaycan Prezidenti seçilməyinizi Rusiyada ürəkdən alqışlayır, bunu ölkələrimiz arasında hərtərəfli mehriban qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsinin rəhni hesab edirlər.

Bir daha ən səmimi təbriklərimi qəbul edin.

Hörmətlə,

***Leonid SLUTSKİ,***
***RF Dövlət Dumasının Beynəlxalq işlər komitəsi sədrinin müavini***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ən səmimi diləklərimlə təbrik edirəm.

Ölkələrimiz arasında mövcud olan yaxın dost münasibətlərinin prezidentliyiniz dövründə daha da inkişaf edəcəyinə dərindən inanıram.

Bu fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar arzulayır, hörmətimi bildirirəm.

***Erkan MUMCU,***
***Türkiyənin mədəniyyət və turizm naziri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Türksoy Beynəlxalq Təşkilatı Sizi ürəkdən salamlayaraq, seçkilərdə böyük səs çoxluğu ilə qələbə qazanmağınız münasibətilə səmimiyyətlə təbrik edir.

Prezident seçkilərinin demokratik prinsiplərə və ənənələrə uyğun şəkildə, dünya ictimaiyyətinin gözü önündə və nəzarəti ilə azad, sərbəst, şəffaflıq və tərəfsizlik şəraitində keçirilməsi Azərbaycan dövlətinin dünya miqyasında imicinə böyük və müsbət töhfə vermişdir.

Azərbaycan xalqının Sizin kimi cavan, dinamik, qətiyyətli və gələcəyə ümid verən bir siyasət adamını bu qədər sevgi və inamla özünə rəhbər seçməsi, eyni zamanda müasir türk dünyasının böyük liderlərindən biri olan atanız Heydər Əliyevin siyasətinə ümumxalq etibarının aşkar təzahürüdür. Bu uzaqgörən siyasəti davam etdirmək yolunda Sizə və Azərbaycan xalqına böyük uğurlar diləyirik.

On il ərzində Türksoya ən yaxın dəstək və qayğısını əsirgəməyən möhtərəm prezident Heydər Əliyevin yüksək münasibəti nəticəsində Azərbaycan təşkilatımızın ən fəal üzvlərindən biri olaraq fəaliyyətimizə ciddi töhfələr vermişdir.

İnanırıq ki, bu ali dövlət dəstəyi Sizin şəxsinizdə daha böyük miqyas qazanacaq, Azərbaycanın zəngin mədəni irsinin tanıdılmasına xidmət edəcəkdir.

Yüksək idarəçiliyiniz altında Azərbaycan xalqının sabitliyə, rifaha qovuşacağına, hamımızın milli dərdi olan Qarabağ probleminin ən yaxın zamanda ədalətlə həll olunacağına, regionda və dünyada sülhün qorunmasında mühüm rol oynayacağınıza ürəkdən inanırıq.

Bu duyğularla Sizi və düzgün qərar vermiş bütün Azərbaycan xalqını bir daha təbrik edir, ən dərin hörmətimizi bildiririk.

***Türksoy Təşkilatının Baş müdirliyi***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Prezident seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul etməyinizi rica edirəm.

Atanız qoyduğu yolla Azərbaycanın sabitlik içərisində inkişafını davam etdirəcəyinizə əminəm. Türkiyə-Azərbaycan münasibətlərinin daha da inkişafına böyük inamla Sizə müvəffəqiyyətlərinizi davam etdirməyi arzulayıram.

Dərin hörmətlə,

***Atilla DOĞAN,***
***"Anşad" neft şirkətinin həmtəsisçisi,***
***Türkiyə-Azərbaycan Dostluq Cəmiyyəti***
***təsisçilər qrupunun üzvü***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Prezident seçkilərində qazandığınız müvəffəqiyyət münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan möhtərəm atanızın dövründə olduğu kimi, Sizin rəhbərliyiniz altında da sürətlə inkişaf edərək, layiq olduğu səviyyəyə çatacaqdır.

Türkiyə və Azərbaycan iki qardaş ölkə olaraq münasibətlərini sıxlaşdıracaq və daha uğurlu bir mərhələyə qədəm qoyacaqlar. Qənaətim budur ki, prezidentliyiniz hər iki ölkəmizə yararlı olacaq, səadət və nailiyyətlər gətirəcəkdir.

Uğurlarınızın bundan sonra da davam etməsini arzulayır, Sizə dərin hörmətimi bildirirəm.

***Professor Güntəkin KÖKSAL,***
***Pet-holdinq şirkəti***
***idarə heyətinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə özümün və bütün dünyanın gömrük əməkdaşlarının təbriklərini Sizə yetirirəm.

Mənim ən xoş arzularımı atanıza yetirsəniz, Sizə çox minnətdar olardım. Azərbaycanın nailiyyətləri üçün gördüyü bütün işlərə görə ona ən yüksək ehtiram hisslərimi çatdırıram.

Mən bu imkandan istifadə edib zati-alinizə ən yüksək hörmətimi ifadə edirəm.

***Mişel DANE,***
***Dünya Gömrük Təşkilatının baş katibi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Mənim hörmətli İlham Əliyevim!

Azərbaycanın Prezidenti vəzifəsinə böyük səs çoxluğu ilə müzəffərcəsinə seçilməyinizi eşitməkdən çox məmnun oldum. Seçkilərdə layiqlə qazanılmış qələbəniz münasibətilə ürəkdən gələn təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Əminəm ki, Siz Azərbaycanın milli maraqlarına xidmət edərək, ölkənizin dünyadakı nüfuzunu yüksəyə qaldıracaqsınız. İnanıram ki, Sizin bacarıqlı rəhbərliyiniz altında ölkəniz iqtisadi və sosial sahələrdə daha da inkişaf edəcəkdir. Həmişə böyük lider kimi rəğbət bəslədiyim atanız Sizə yaxşı ölkə qoydu və mən əminəm ki, Siz onu daha da inkişaf etdirmək işini davam etdirəcəksiniz.

Mən Beynəlxalq Həvəskar Boks Assosiasiyasının (BHBA) İcraiyyə Komitəsinin iclasında iştirak etmək məqsədilə İstanbula səfərə çıxacağam. Bu iclas zamanı BHBA mənim 80 illiyimi qeyd edəcəkdir. Daha sonra, Avropa Həvəskar Boks Assosiasiyası İcraiyyə Komitəsinin toplantısında iştirak etmək üçün Rusiyaya yollanacağam. Elə həmin tarixdə, noyabrın 1-də Rusiya Boks Federasiyası da mənim ad günümü qeyd etməyi planlaşdırır.

Bu tarixi anda Sizi şəxsən təbrik etmək məqsədilə Bakıya səfərimin mümkünlüyünü dünən cənab Ağacan Abıyevlə müzakirə etdim. Mən noyabrın 2-si günorta gələ bilərəm və noyabrın 4-də isə qayıdaram. Şəxsən Sizinlə görüşmək məqsədilə mənə çox gərgin olan iş cədvəlinizdən vaxt ayırmağınızı xahiş etmək istərdim.





Ən ülvi arzularla Sizə uzun ömür, rəhbərliyiniz altında ölkənizə tərəqqi diləyirəm.

Səmimiyyətlə, Sizin

***professor Ənvər ÇOUDRİ,***
***Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz İlham!

İcazə verin, ölkənizin inkişafı yolunda önəmli olan bir mərhələdə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə BP şirkətinin bütün əməkdaşları adından səmimi təbriklərimi yetirim. Mən əminəm ki, Siz atanızın irsinə sadiq qalacaq, beynəlxalq ədalət normalarına və kommersiya qanunlarına uyğun şəffaf, məsul, demokratik hökumətə artan sədaqətin təmin olunmasına çalışacaqsınız. Eyni zamanda ona da əminəm ki, Siz ölkədə sabitliyin qorunub saxlanması və qonşu ölkələrlə dinc əlaqələr qurmaq arzusunun həyata keçirilməsi istiqamətində səylərinizi davam etdirəcəksiniz. Mən şübhə etmirəm ki, Sizin beynəlxalq təcrübəniz və beynəlxalq əməkdaşlığa sədaqətiniz ölkənizin birbaşa xarici sərmayələr üçün cəlbediciliyini və bununla da Azərbaycanın gələcək iqtisadi inkişafını və xalqınızın rifahının yüksəlməsini daha da gücləndirəcəkdir.

Atanızın yeritdiyi müdrik siyasətin uğurları göz qabağındadır və bunun nəticəsi olaraq Azərbaycan yaxın bir neçə il ərzində getdikcə artan neft və qaz gəlirləri əldə edəcəkdir. Mən bilirəm ki, Siz hökumətdə daha ardıcıl islahatlar aparılmasının, bürokratik müdaxilələrdən azad, açıq və sabit biznes mühiti yaradılmasının, iqtisadiyyatın çoxşaxəliliyinə və inkişafına şərait yaratmaq üçün gəlirlərin səmərəli istifadəsinin təmin olunmasının vacibliyini dəstəkləyərək, bu işlərin həyata keçirilməsinin tərəfdarısınız.

Mən sıx əməkdaşlığımızın davamını səbirsizliklə gözləyir və Azərbaycanın enerji ehtiyatlarının bütün xalqınızın mənafeyi naminə sərf olunmasında Sizə və hökumətinizə kömək göstərə biləcəyimizə ümid edirəm.

Bir daha Sizdən xahiş edirəm ki, BP şirkətinin bütün əməkdaşları adından təbriklərimi və yeni vəzifənizdə uğur qazanmaq istəyi ilə ən xoş arzularımı qəbul edəsiniz.

Dərin hörmət və ehtiramla,

***Devid VUDVORD,***
***BP-Azərbaycan şirkətinin prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Cənab baş nazir!

Azərbaycan Respublikasının Prezidenti seçilməyinizi eşitməkdən çox məmnun olduq.

Ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirik. Biz, həmçinin xalqınıza xoşbəxtlik, tərəqqi arzulayır və şübhə etmirik ki, Siz xalqınızı daha böyük nailiyyətlərə doğru aparacaqsınız.

***Bernar REYNYE,***
***TASC İnternational şirkətinin***
***baş direktoru və prezidenti,***

***Hüşəng AZƏRMƏHD,***
***prezidentin müşaviri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Əminəm ki, Sizin rəhbərliyinizlə ölkə iqtisadi və demokratik islahatlar yolu ilə irəliləyəcəkdir.

Rusiya Federasiyasının energetikləri ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün var qüvvə ilə səy göstərəcəklər.





Hörmətli İlham Heydər oğlu, ölkənin rifahı naminə fəaliyyətinizdə Sizə səmimi qəlbdən uğurlar, özünüzə və yaxın adamlarınıza möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə firavanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

***Anatoli ÇUBAYS,***
***Rusiyanın "Vahid Energetika Sistemləri Səhmdar Cəmiyyəti" İdarə heyətinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirik.

Seçkilərdə Sizin inamlı qələbəniz Heydər Əlirza oğlu Əliyevin cəmiyyətin ardıcıl surətdə demokratik qaydada yenidən qurulmasına, xalqın tərəqqisinə və xoşbəxtliyinə yönəldilmiş siyasi xəttinin davam etdirilməsinə Azərbaycan xalqının tərəfdar olduğunu parlaq şəkildə nümayiş etdirdi. Azərbaycan seçiciləri öz seçimini etməklə, həm də Sizin açıqladığınız xəttə - Rusiya ilə strateji ittifaqın inkişaf etdirilməsi, ölkələrimizin xalqları arasında dostluq və mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsi xəttinə tərəfdar olduqlarını bildirmişlər.

Rusiya jurnalistləri, bütün rusdilli dünya jurnalistika birliyi Bakıda Rus mətbuatının V Ümumdünya Konqresinin Sizin sayənizdə uğurla keçirildiyi vaxtda Sizinlə olan səmimi və çox məzmunlu görüşləri yaxşı xatırlayırlar.

Hörmətli İlham Heydər oğlu, ali dövlət vəzifəsində Sizə səmimi qəlbdən uğurlu iş, respublikanın iqtisadiyyat və mədəniyyətinin inkişafında yeni nailiyyətlər, özünüzə və gözəl ailənizə firavanlıq və sevinc diləyirik.

Hörmətlə,

***Vitali İQNATENKO,***
***İTAR-TASS-ın baş direktoru, Ümumdünya Rus Mətbuatı Assosiasiyasının prezidenti,***

***Mixail QUSMAN,***
***İTAR-TASS-ın baş direktorunun birinci müavini***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycanda prezident seçkilərində Sizin inamlı və qanunauyğun qələbəniz haqqında xəbər Regionlararası İşçi Heyətini İdarəetmə Akademiyasında böyük sevinc və ruh yüksəkliyi ilə qarşılandı.

Burada, akademiyamızda biz ölkənizə, xüsusən onun lideri, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevə xüsusi məhəbbət və hörmət hissləri bəsləyirik. Təsadüfi deyildir ki, akademiya sistemində Azərbaycan Prezidenti Heydər Əliyevin adını daşıyan Ukrayna-Azərbaycan Sosial Elmlər İnstitutu neçə illərdir uğurla fəaliyyət göstərir. Müxtəlif ölkələrdən olan tələbələr - gələcək siyasətçilər, diplomatlar, alimlər, dövlət xadimləri bu institutda müasir elmin sirlərinə, dərin biliklərə yiyələnirlər.

Azərbaycan Mədəniyyət Mərkəzi Ukrayna-Azərbaycan İnstitutunun xüsusi iftixar obyektidir. Bu Mərkəzdə görkəmli, dünya miqyaslı siyasi və ictimai xadim Heydər Əliyevin həyat və fəaliyyətindən, habelə bizə dost olan Azərbaycandan bəhs edən ekspozisiya açılmışdır.

Biz Sizi müdrik siyasətçi, istedadlı dövlət xadimi, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin ideyaları və işlərinin davamçısı kimi tanıyırıq. Siz onun çox zəngin irsini yaradıcılıqla inkişaf etdirərək, müasir Azərbaycanın iqtisadiyyatı tarixində və xarici siyasətində cəsarətli addım ataraq, Azərbaycanın "neft sivilizasiyası"na daxil olmasının və ölkənizin beynəlxalq münasibətlərin tam hüquqlu subyektinə çevrilməsinin təşəbbüsçülərindən biri kimi çıxış etmisiniz.

Biz qəti əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan öz dövlətçiliyini təkmilləşdirmək, iqtisadi cəhətdən güclü və siyasi baxımdan sabit, müstəqil dövlət qurmaq işində böyük uğurlar qazanacaqdır.

Əziz İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, yeni, müstəqil Azərbaycan yaradılması işində yeni-yeni uğurlar, dost Azərbaycan xalqına isə firavanlıq və tərəqqi arzulayırıq.

Dərin hörmətlə,

***Q. ŞOKİN,***
***Regionlararası İşçi Heyətini İdarəetmə Akademiyasının prezidenti***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə "Dünya Sərmayə Xəbərləri" şirkəti Sizə ən səmimi təbriklərini çatdırır və Zati-alilərinizə, o cümlədən Azərbaycan Respublikasına davamlı tərəqqi arzulayır.

Ən xoş arzularla,

***"Dünya Sərmayə Xəbərləri" mətbuat-informasiya şirkəti,***
*Madrid, İspaniya*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Prezident seçkilərində parlaq qələbəniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm və demokratik Azərbaycanın lideri kimi məsul vəzifədə işinizdə Sizə uğurlar arzulayıram.

Qoy, ölkənizin tərəqqisi naminə, Azərbaycanın bütün ölkələr və xalqlarla dostluq və əməkdaşlığının möhkəmlənməsi naminə bütün nəcib təşəbbüslərdə müvəffəqiyyət Sizin qismətiniz olsun.

Bu yaxınlarda Bakıda keçirilən Rus mətbuatının Ümumdünya konqresi zamanı Sizinlə şəxsi ünsiyyətimiz mənə çox dərin təsir bağışladı.

Əminəm ki, Siz bundan sonra da bütün qüvvənizi, enerjinizi, istedadınızın gücünü, bir şəxsiyyət kimi bacarığınızı Azərbaycan xalqının tərəqqisinə yönəldəcəksiniz.

Hörmətlə,

***Vadim RABİNOVİÇ,***
***Rus Mətbuatı Ümumdünya Assosiasiyası Naşirlər Şurasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Güclü tarixi və mədəni bağlara əsaslanan dostluq, qardaşlıq və əməkdaşlıq içində olduğumuz Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə zati-alinizi Qafqaz Universiteti adından və şəxsən öz adımdan təbrik edirəm.

Universitetimizin fəxri doktoru, hörmətli cənab Heydər Əliyevin təşviqedici dəstəyini doğrultmaq üçün Azərbaycanla ölkəmiz arasında elm və mədəniyyət sahəsində körpü yaratmaq cəhdlərimizi uğurla davam etdiririk. Azərbaycanın Sizin liderliyiniz altında elm, mədəniyyət və iqtisadiyyat sahələrində böyük irəliləyişlərə nail olacağına tamamilə inanırıq.

Fürsətdən istifadə edərək, Sizə yeni vəzifənizdə uğurlar arzulayır, qardaş Azərbaycan xalqının xoşbəxtliyi üçün ən xoş diləklərimi bildirirəm.

***Professor Necati QAYA,***
***Qafqaz Universitetinin rektoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli baş nazir!

Prezident seçilməyiniz münasibətilə duyduğumuz məmnuniyyəti diqqətinizə çatdırır, yeni vəzifənizin Sizə və ölkənizə xeyirli olmasını arzu edirəm.

Atanız möhtərəm Prezident Heydər Əliyevin sanki yenidən yaratdığı Azərbaycanın Sizin liderliyinizlə daha da irəliləyəcəyinə tamamilə inanıram.

Ən dərin hörmətlərimlə,

***Ərdal AKSOY,***
***"Aksoy" şirkətlər qrupu***
***idarə heyətinin sədri***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Müstəqil Dövlətlər Birliyi məkanında fəaliyyət göstərən milli həmkarlar ittifaqı mərkəzlərini və beynəlxalq həmkarlar ittifaqları birliklərini birləşdirən Həmkarlar İttifaqlarının Ümumi Konfederasiyası adından səmimiyyətlə təbrik edirəm.

Həmvətənlərinizin oktyabrın 15-də etdiyi seçim Sizə olan yüksək etimad və hörmətin ifadəsidir.

Respublika vətəndaşlarının hisslərinə şərik çıxaraq, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq, Azərbaycan xalqına səmərəli xidmət etmək, dövlət başçısı vəzifəsində çox çətin fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Əminəm ki, Siz Birliyin həmkarlar ittifaqı hərəkatında layiqli nüfuza malik olan respublikanın həmkarlar ittifaqları tərəfindən əməli surətdə dəstəklənəcəksiniz.

Səmimi hörmətlə,

***V. ŞERBAKOV,***
***Həmkarlar İttifaqları Ümumi Konfederasiyasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Əziz Əliyev adına Beynəlxalq Humanitar-Texniki Akademiyasının professor-müəllim heyəti, tələbələri xalq tərəfindən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirlər.

Biz əminik ki, Dağıstanın və Azərbaycanın ali məktəblərinin və elmi müəssisələrinin səmərəli əlaqələri Sizin rəhbərliyinizlə daha da möhkəmlənəcəkdir.

Hörmətlə,

***Adil-Gerey HACIYEV,***
***Əziz Əliyev adına Beynəlxalq Humanitar-Texniki***
***Akademiyasının rektoru, akademik***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab baş nazir!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm. Azərbaycan xalqı düzgün seçim edərək, özünün tarixi müdrikliyini bütün dünyaya göstərdi. Sizin təcrübəniz və ictimaiyyət arasında nüfuzunuz Azərbaycanın inkişaf və tərəqqi yolu ilə irəliləməsinə kömək edəcəkdir.

Rusiyada boru istehsalı sahəsində lider olan Boru-Metallurgiya Şirkəti Azərbaycanla Rusiya arasında siyasi və iqtisadi əlaqələrin möhkəmlənməsinə tərəfdar olmuş və tərəfdardır. Azərbaycan iqtisadiyyatının, ilk növbədə, neft və qaz sahəsinin sürətlə inkişafı xeyli dərəcədə Sizin fəaliyyətiniz sayəsində baş vermişdir. İnkişaf etmiş iqtisadiyyata malik güclü Azərbaycan tərəfdarı olduğunuzu bilərək, əminik ki, bu müsbət proses davam edəcəkdir.

Məlum olduğu kimi, boru istehsalı və neft sahəsi qarşılıqlı surətdə sıx bağlıdır. Bu baxımdan, ümidvarıq ki, Boru-Metallurgiya Şirkəti ikitərəfli əməkdaşlığın möhkəmlənməsi sahəsində bundan sonra da Sizdən dəstək alacaqdır.

Biz Sizə belə çətin və məsul vəzifədə uğurlar və bütün planlarınızın həyata keçməsini arzulayırıq.

Hörmətlə və ən xoş diləklərlə,

***Dmitri PUMPYANSKİ,***
***Boru-Metallurgiya Şirkətinin***
***baş direktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Qardaş Azərbaycan Respublikasının Prezidentliyinə seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi təqdim edir, bu vəsilə ilə zatı-alilərinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

***Professor-doktor Mehmet AYDIN,***
***Türkiyə Respublikasının dövlət naziri***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zatı-aliləri!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) Daimi beynəlxalq katibliyi adından səmimi qəlbdən təbrik edim.

QİƏT-in təsisçi dövlətlərindən biri olaraq Azərbaycan Respublikası bir çox praktiki sahələrdə səmərəli regional əməkdaşlığa öz töhfəsini hər zaman uğurla vermişdir.

Sizin hörmətli ölkənizin ənənəvi sıx əməkdaşlıq ruhu və Xarici İşlər Nazirliyinin fəal dəstəyi Azərbaycan Respublikasının son altı ayı əhatə edən görkəmli və nəzərəçarpacaq qədər dinamik sədrliyi ilə bir daha vurğulanmışdır.

Fürsətdən istifadə edərək, bir daha vurğulamaq istərdim ki, zatı-alilərinizlə keçirilmiş bir sıra görüşlərdə Sizin regional əməkdaşlığa baxışınız və böyük əhəmiyyət kəsb edən konkret regional layihələrin həyata keçirilməsinə töhfəniz məndə dərin təəssürat oyatmışdır.

Bununla əlaqədar olaraq, rüsxət verin, Bakıda sentyabrın 19-da QİƏT-in energetika nazirlərinin, sentyabrın 25-26-da QİƏT regionunda turizm imkanlarına dair beynəlxalq konfransın və oktyabrın 3-də Qara dəniz və Xəzər dənizi hövzələri ölkələrinin nəqliyyat nazirlərinin toplantılarının uğurla keçirilməsinə və Azərbaycan hökuməti tərəfindən iştirakçılara göstərilən qonaqpərvərliyə görə bir daha minnətdarlığımızı və səmimi təşəkkürümüzü ifadə edim.

Həmişə Sizin sərəncamınızda olmaqla, Azərbaycan Respublikasının uğurlu sədrliyinə töhfə verməyə hazır olduğumuzu bildirərək, icazə verin, zati-alilərinizi əmin edim ki, Azərbaycan Respublikası ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı arasında sıx işbirliyinin daha da inkişafı üçün QİƏT-in Daimi beynəlxalq katibliyi mümkün olan hər şeyi edəcəkdir.

Fürsətdən istifadə edərək, baş nazir, mənim ən xoş arzularımı, dərin hörmət və yüksək ehtiram hisslərimi qəbul etməyinizi xahiş edirəm.

***Səfir Valeri ÇEÇELAŞVİLİ,***
***baş katib***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirik.

Sizin inamlı qələbəniz müstəqil Azərbaycan vətəndaşlarının əksəriyyətinin sabitliyin, sülhün, firavanlıq və varisliyin xeyrinə düzgün seçim etdiyindən xəbər verir.

Şübhəsiz ki, Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun təşəkkülünə və yüksəlməsinə atanız - çox hörmətli Heydər Əlirza oğlu çox böyük töhfə vermişdir.

Onun danılmaz nüfuzu, çox yüksək iş qabiliyyəti və peşəkarlığı Azərbaycanın sivilizasiyalı və demokratik dövlətə çevrilməsinə imkan vermişdir.

İlham Heydər oğlu, əminik ki, Siz Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin işini davam etdirəcəksiniz. Siz ömrünüzün bütün illəri ərzində Heydər Əlirza oğlunun yanında olaraq, bir insan kimi və dövlət miqyaslı rəhbər kimi zəngin təcrübə əldə etmisiniz.

Sizə Azərbaycan Respublikasının Prezidenti vəzifəsində böyük uğurlar arzulayırıq.

Arzu edirik ki, məsul və nəcib fəaliyyətiniz doğma Azərbaycanımızın və bütün Azərbaycan xalqının rifahı naminə yalnız müsbət nəticələr versin!

Rusiya ilə Azərbaycan arasında mehriban qonşuluq münasibətlərinin səmərəli inkişafının davam etdirilməsini arzulayırıq.

Heydər Əlirza oğluna çoxlu salamımızı və tezliklə sağalmaq diləyimizi yetirin.

Dərin hörmətlə, səmimiyyətlə, sizin

***Nikolay BAYBAKOV,***
***Rusiya-Azərbaycan Dostluğu Cəmiyyətinin prezidenti,***

***A. ROMAŞİN,***
***vitse-prezident***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli baş nazir!

Seçkilərdə prezident seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Yeni vəzifənizdə uğurlarınızın davam etməsini arzu edir, türk dünyasının böyük lideri, möhtərəm öndərimiz Heydər Əliyevə Cənabı Allahdan şəfalar diləyir, onun dəyərli xidmətlərinin davam etməsini, Sizin də uğurla fəaliyyət göstərməyinizi arzulayıram.

***Seyid Əhməd ƏRDƏM,***
***Türkiyədə yaşayan azərbaycanlıların dini lideri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Möhtərəm baş nazir!

Seçkilərdə qazandığınız böyük qələbə münasibətilə Zati-alinizi Türkiyə-Azərbaycan İşgüzar Şurası adından təbrik edirəm. Ölkələrimiz və millətlərimiz arasında bütün sahələrdə sağlam təmələ əsaslanan münasibətlərimizi daha da irəli səviyyələrə yüksəldəcəyinizdən əminəm.

Böyük dövlət xadimi, əvəzsiz insan Heydər Əliyevlə başladığımız işlərin davamını onun bizim qarşımızda qoyduğu bir vəzifə kimi qəbul etməkdəyik. Ürəkdən inanıram ki, prezidentliyiniz dövründə Sizin dəstəklərinizlə bu vəzifəni, ölkələrimiz arasındakı münasibətləri bütün sahələrdə layiq olduğu səviyyədə yerinə yetirəcəyik.

Prezidentliyiniz dövründə Şuramızın iki ölkə arasında ticarət və iqtisadiyyat sahələrində əməkdaşlığın yüksəldilməsi, artırılması istiqamətində təşəbbüs və fəaliyyətlərinə qiymətli dəstəklərinizi əsirgəməyəcəyinizə olan inamımı ifadə etməklə, Sizə uğurlar arzulayıram.

***Əli YÜCƏL,***
***Türkiyə-Azərbaycan İşgüzar Şurasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Prezident seçkilərində böyük səs fərqi ilə qələbə qazanmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm. Möhtərəm prezident zati-aliləri cənab Heydər Əliyevin yolundan Azərbaycan xalqının rifahı və xoşbəxtliyi üçün dönmədən və əzmlə çalışacağınıza əminəm.

Yeni vəzifənizin zati-alinizə, Azərbaycan xalqına və ailənizə xeyirli olmasını arzu edir, ən dərin hörmətlərimi qəbul etmənizi rica edirəm.

***Əli Naci TÜNCƏR,***
***21-ci çağırış***
***Trabzon millət vəkili***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Türk dünyasının ən böyük simalarından olan hörmətli Heydər Əliyevə Allahdan uzun ömür və cansağlığı diləyirəm. O, əbədiyyətə qədər, hər zaman türk dünyasının ən qardaş Azərbaycan xalqının qəlbində böyük bir əhəmiyyətlə yaşayacaqdır.

Hörmətli İlham Əliyev!

Prezident seçkilərində böyük müvəffəqiyyətlər əldə edərək, əziz atanızın siyasətini daim yürüdəcəyinizə dərindən inanır, gələcəkdə Azərbaycan xalqına səadət gətirəcəyinizə əminik. Yolunuz açıq, uğurunuz mübarək olsun. Şəxsən öz adımdan və İqdır əhalisi adından sonsuz sayğı və sevgilərimi Sizə yetirir, uğurlarınızın davam etməsini diləyirəm. Biz əziz türk oğlu olaraq Sizinlə hər zaman qürur duyacağıq.

***Süleyman TAŞQİN,***
***İqdır vilayəti Sanay ilinin başqanı***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli baş nazir!

Sizin prezident seçilməyiniz bizləri xoşbəxt etmişdir. Yeni vəzifənizdə müvəffəqiyyətlərinizin davam etdirilməsini diləyir, hörmətlərimi bildirirəm.

***Əli GÜVƏNSOY,***
***Qars Ticarət və Sənaye***
***Palatasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz həmkar və dost!

Yüksək vəzifəyə - Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirik.

İnanır və bilirik ki, dahi atanızın müdrik məsləhətlərinə əməl edərək ölkənizi inkişafın yeni səviyyəsinə çıxara biləcəksiniz.

Bu çətin, nəcib işdə Sizə və ailənizə səmimi qəlbdən hər cür uğurlar arzulayırıq.

Səmimiyyətlə, sizin

***Leonid MİROŞNİÇENKO,***
***Rusiya Olimpiya Komitəsinin***
***baş katibi,***

***Aleksandr KOZLOVSKİ,***
***Rusiya Olimpiya Komitəsinin***
***vitse-prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab İlham Əliyev!

Bu yaxınlarda biz böyük məmnunluqla ölkənizdə ən yüksək vəzifəyə - Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz xəbərini aldıq.

Sizi Rumıniya Olimpiya Komitəsi adından səmimiyyətlə təbrik edir, ölkənizin və onun olimpiya hərəkatının davamlı inkişafı sahəsində Sizə uğurlar arzulayırıq.

Bizim Olimpiya ideallarına və idman həmrəyliyinə inamımıza əsaslanaraq, Olimpiya sahəsində (idman yarışlarının hazırlanması, məşqçilər, idarəetmə, marketinq və sair) müəyyən təcrübəmizi bölüşməklə maraqlansanız, biz bu yardımı etməkdən şərəf duyar və şad olarıq.

Səmimiyyətlə, sizin

***İon TİRİAÇ,***
***Rumıniya Olimpiya***
***Komitəsinin prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

İcazə verin, prezident seçkilərində inamlı qələbəniz və Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə ədalətlə seçilməyiniz münasibətilə Sizi təbrik edim.

Sizə bildirməyimə çox şadam ki, mənim təbriklərimə nəinki Gürcüstan karateçilərinin böyük əksəriyyəti, həm də Azərbaycana həmişə əsl qardaş və ən yaxşı qonşu olacaq ölkəmizin bütün əhalisi qoşulur.

Dərin hörmətlə,

***O.QRDZELİŞVİLİ,***
***Gürcüstan Karate***
***Federasiyasının prezidenti***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Seçkilərdə inamlı qələbəniz münasibətilə Sizi təbrik edirəm. Əliyevlər nəsli müstəqil Azərbaycanın dövlətçiliyinin təşəkkülündə tarixi rol oynamışdır və oynamaqda davam edir. Azərbaycan xalqının Sizə göstərdiyi yüksək etimad dostumuz və silahdaşımız Heydər Əlirza oğlu Əliyevin apardığı xəttə və dövlət siyasətinə sadiqliyin təsdiqidir.

Sizə siyasi fəaliyyətinizdə yeni-yeni uğurlar, möhkəm cansağlığı və Qafqaz uzunömürlülüyü arzulayıram.

Səmimi hörmətlə,

***Ramazan ABDULATİPOV,***
***RF Federal Məclisi Federasiya***
***Şurasının üzvü***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

"Bilik və Vətən" - Vahid Rusiya Ümumrusiya Siyasi Partiyasının rəhbərliyi adından və şəxsən öz adımdan Sizi prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edirəm.

Əminik ki, Sizin rəhbərliyinizlə ölkəniz həyatın müxtəlif sahələrində yeni uğurlar qazanacaq, Azərbaycan xalqının rifahına yönəldilmiş köklü iqtisadi və sosial dəyişikliklər aparacaqdır.

Biz müdrik rəhbər, zəmanəmizin görkəmli siyasi və dövlət xadimi, Rusiyanın böyük dostu kimi Sizə dərin hörmət bəsləyirik.

Azərbaycanla Rusiya arasında mehriban qonşuluğun və əməkdaşlığın möhkəmlənməsinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndiririk. Ölkələrimizi ənənəvi olaraq dostluq münasibətləri bağlayır. İndi bu münasibətlər əsl tərəqqi dövrünü keçirir, yeni məzmunla dolğunlaşır və əminik ki, partiyalarımız - Yeni Azərbaycan Partiyası və Vahid Rusiya Partiyası bu əlaqələrin daha da fəallaşdırılması və dərinləşdirilməsi üçün çox iş görə bilərlər.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, çoxsahəli fəaliyyətinizdə uğurlar, xoşbəxtlik və firavanlıq arzulayırıq.

Səmimiyyətlə, Sizin

***V. BOQOMOLOV,***
***Vahid Rusiya Partiyası***
***baş şurasının katibi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri,

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi böyük məmnuniyyət hissi ilə təbrik edirəm. Sizin mütərəqqi rəhbərlik keyfiyyətiniz, geniş təcrübəniz və Azərbaycan xalqı tərəfindən göstərilən böyük ümumxalq dəstəyi prezidentliyə başladığınız vaxt Sizə kömək edəcəkdir.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan demokratik dövlət təsisatlarının və bazar iqtisadiyyatının yaradılmasında böyük nailiyyətlər əldə etmişdir. Sizin hökumətiniz dünyanın EksonMobil kimi iri neft və qaz şirkətlərinə ölkənin enerji ehtiyatlarının kəşfiyyatı və işlənilməsində iştirak etmək imkanı verən əlverişli sərmayə qoyuluşu mühitinin yaradılmasında müvəffəqiyyətlər qazanmışdır. Bu nailiyyətlərə əsaslanaraq, Azərbaycanın daimi inkişafına rəhbərlik etmək həm mühüm və həm də maraqlı bir işdir. Biz Sizə bu səylərin həyata keçirilməsində ən xoş arzularımızı bildiririk.

EksonMobil şirkəti Azərbaycan hökuməti ilə gözəl iş əlaqələrini yüksək qiymətləndirir və biz bu əlaqələrin gələcəkdə də davam etdirilməsini böyük məmnuniyyətlə gözləyirik. Xahiş edirəm, prezident seçilməyiniz münasibətilə bir daha səmimi təbriklərimi və xoş arzularımı qəbul edəsiniz.

Hörmətlə,

***Tim SEYKA,***
***EksonMobil şirkətinin***
***icraçı vitse-prezidenti***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri İlham Əliyev!

Sizi Azərbaycanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edir, bu seçimin qardaş Azərbaycan xalqı üçün xeyirli olmasını diləyir, Sizə cansağlığı və müvəffəqiyyətlər arzulayıram.

***Erhan ÖNƏR,***
***Tekfen Holdinq şirkətlər***
***qrupunun prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçkilərdə inamlı qələbəniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Azərbaycan coğrafi-siyasi mövqe baxımından son dərəcə mühüm rol oynayır, çox böyük iqtisadi potensiala, zəngin mədəni ənənələrə malikdir. Bu gün respublikanız ən dinamik inkişaf edən regionlardan biridir. Əminəm ki, Azərbaycan Respublikasının iqtisadi və mədəni əhəmiyyəti bundan sonra da artacaqdır.

Rusiya və Azərbaycan xalqlarını bir-birinə dərin tarixi əlaqələr, iqtisadi, siyasi, humanitar proseslərin birliyi bağlayır.

Şübhə yoxdur ki, Sizin müdrik və fəal rəhbərliyinizlə Azərbaycan firavanlığa və tərəqqiyə doğru yolda intensiv inkişafını davam etdirəcəkdir.

Sizə, doğma və yaxın adamlarınıza möhkəm cansağlığı, xoşbəxtlik və bütün işlərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

***N. SVETKOV,***
***"NİKoyl" maliyyə korporasiyasının prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz İlham Heydər oğlu!

Rusiya Jurnalistlər İttifaqı və şəxsən mən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirik. Seçkilərdə inamlı qələbəniz ayanı şəkildə nümayiş etdirdi ki, Azərbaycan xalqı şəxsən Sizi və respublikanın iqtisadi, sosial, mədəni və digər bütün sahələrdə bundan sonra da ardıcıl inkişafına dair proqramınızı yekdilliklə dəstəkləyir.

Rusiyada biz Sizin qələbənizə ürəkdən şadıq və əminik ki, Siz xarici siyasətdə də Rusiya ilə və Rusiya xalqı ilə ənənəvi dostluğun və əməkdaşlığın möhkəmləndirilməsi məqsədlərinə sadiq qalacaqsınız. Sizin bu istiqamətdə hər hansı addımlarınız ölkəmizin xalqlarında son dərəcə xeyirxahlıqla qarşılanacaqdır.

Rusiya Jurnalistlər İttifaqı bizim təşkilatımıza və onun tədbirlərinə daim səmimi münasibət bəslədiyinizə görə Sizə ürəkdən minnətdardır. Ümidvar olduğumuzu bildiririk ki, şəxsən Sizinlə olan bu dostluq münasibətləri ölkələrimizin jurnalistlərinin və KİV-lərinin mənafeləri naminə davam etdiriləcəkdir.

Əziz İlham Heydər oğlu, Sizə yüksək vəzifənizdə səmimi qəlbdən ən böyük uğurlar arzulayır və əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası və Azərbaycan xalqı ölkənizin tərəqqisinə nail olmağa doğru növbəti addım atacaqlar. Şübhə etmirik ki, ölkələrimizin xalqları və jurnalistləri arasında qardaşlıq münasibətləri və sarsılmaz dostluq möhkəmlənəcək və inkişaf edəcəkdir.

Ən səmimi şəxsi salamla, Sizin

***Vsevolod BOQDANOV,***
***Rusiya Jurnalistlər***
***İttifaqının sədri***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikası Prezidentinin seçkilərində parlaq qələbəniz münasibətilə Sizi səmimiyyətlə təbrik etmək imkanına ürəkdən şadam.

Respublika sakinlərinin böyük əksəriyyətinin Sizə səs verməsi nəinki apardığınız islahatların düzgünlüyünə, həm də bir siyasətçi və dövlət xadimi kimi Sizə çox dərin hörmət olduğuna sübutdur.

Əminəm ki, ölkənin mənafelərini hər şeydən uca tutan Sizin kimi şəxslər insanlara layiqli həyatı təmin etməyə qadirdirlər.

Sizə möhkəm cansağlığı və məsul dövlət vəzifənizdə yeni uğurlar, Azərbaycan Respublikasına isə nailiyyətlər və tərəqqi arzulayıram.

Hörmətlə,

***O. SOSKOVETS,***
***Rusiya Maliyyə-Sənaye Qrupları***
***Assosiasiyasının prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində parlaq qələbəniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Mən ötən onillik ərzində Sizin atanızın Azərbaycanın inkişafını möhkəmləndirmək və davam etdirmək üçün həyata keçirdiyi əvəzsiz fəaliyyətinin şahidi olmuşam.

Eyni zamanda neft sahəsində çalışdığım üçün Sizin yüksək fəaliyyətinizi müşahidə edə və Azərbaycanın beynəlxalq münasibətlər sahəsindəki uğurlarınızı diqqətlə izləyə bilmişəm.

Beləliklə, əminəm ki, Siz bütün Azərbaycan xalqının rifahı naminə ölkənizi sülh və firavanlıq yolunda irəli aparacaqsınız.

Hörmətli cənab baş nazir, Sizə fəaliyyətinizdə ən böyük uğurlar arzulayır və yüksək ehtiram hisslərimi qəbul etməyinizi xahiş edirəm.

***Jil REMİ,***
***CIFAL qrupunun prezidenti***

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ**

Zati-aliləri!

Mən istərdim ki, Sizin layiqincə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə hərarətli təbriklərimi ifadə edim.

Həqiqətən də prezidentliyə yüksəlməyiniz Sizin dövlət xadimi keyfiyyətlərinizin bariz nümunəsidir.

Əminəm ki, Sizin bacarıqlı və məharətli liderliyinizlə Azərbaycan Respublikası tərəqqi yolunu davam edəcək və vətəndaşlarınıza firavan həyat gətirəcəkdir.

Zati-aliləri, xahiş edirəm, Sizə olan yüksək ehtiram hisslərinə əmin olasınız.

*Səfir Bekjasar NARBAYEV,*
*İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi*

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ**

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikası Prezidentinin seçkilərində qələbəniz münasibətilə Ukrayna hökuməti adından və şəxsən öz adımdan səmimi təbrikləri qəbul edin.

Əminəm ki, Sizin fəal rəhbərliyinizlə Azərbaycan sabitlik və hərtərəfli inkişaf xəttini davam etdirəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, məsul dövlət fəaliyyətinizdə Azərbaycan xalqının rifahı naminə böyük uğurlar arzulayıram.

Biz əminik ki, Ukrayna ilə Azərbaycan arasındakı ənənəvi dostluq münasibətləri və qarşılıqlı surətdə faydalı əlaqələr yaxın gələcəkdə strateji tərəfdaşlığın daha yüksək səviyyəsinə qalxacaqdır.

Hörmətlə,

*Viktor YANUKOVİÇ,*
*Ukraynanın baş naziri*





**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ**

Hörmətli cənab Əliyev!

2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə qələbə qazanaraq Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə zati-alinizi səmimi qəlbdən təbrik edirəm.

Ölkələrimiz arasındakı dostluq münasibətlərinin daha da inkişafı yolundakı səylərin aktuallığını qoruyaraq davam etdirəcəyinə ürəkdən inanıram.

Yeni vəzifənizdə Sizə uğurlar diləyi ilə dost və qardaş Azərbaycan xalqına ən xoş arzularımı yetirirəm.

*Vecdi KÖNÜL,*
*Türkiyə Respublikasının*
*milli müdafiə naziri*

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ**

Zati-aliləri!

2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, yeni vəzifənizdə müvəffəqiyyətlər arzulamaqdan böyük qürur və xoşbəxtlik duyuram.

Ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələrinin gələcək illərdə də xalqlarımızın xeyrinə inkişaf edəcəyinə dərin inamımı ifadə etmək istəyirəm.

Sizin şəxsinizdə bütün Azərbaycan xalqına ən xoş diləklərimi və hörmətimi yetirirəm.

*Professor Recəb AĞDAĞ,*
*Türkiyə Respublikasının*
*səhiyyə naziri*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Sizi, görkəmli dövlət xadimini Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirik.

Hörmətli İlham Heydər oğlu, Azərbaycanda demokratik dəyişikliklərin həyata keçirilməsində, onun iqtisadi inkişafının aparıcı dünya dövlətlərinin iqtisadiyyatları səviyyəsinə qaldırılmasında Sizə böyük uğurlar arzulayırıq.

Çox böyük siyasi və elmi potensialınıza bələd olduğumuza görə əminik ki, Siz Heydər Əlirza oğlunun Azərbaycanda başladığı mütərəqqi dəyişiklikləri davam etdirəcək və xalqlarımız arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsinə kömək edəcəksiniz.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və Azərbaycanda sülhə, həmrəyliyə, iqtisadi və siyasi sabitliyə nail olmaq istiqamətində bütün niyyətlərinizin həyata keçməsində uğurlar arzulayırıq.

Şəhər sakinləri adından dərin hörmətlə,

***F.QAZIƏHMƏDOV,***
***Dərbənd Şəhər İcra Hakimiyyətinin başçısı***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati aliləri!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi böyük məmnunluq və dərin sevinc hissi ilə təbrik edirəm.

Biz, Azərbaycandakı demokratik seçkilərdə qələbənin məhz Sizə, neft-qaz sənayesinin, beynəlxalq münasibətlərin, idmanın inkişafında, sonda isə öz yüksək peşəkarlığına, istedadına və Azərbaycan xalqına sədaqətinə, bariz nümunə kimi baş nazir vəzifəsində özünün nəzərəçarpacaq nailiyyətləri ilə ölkəsi üçün artıq çox işlər görmüş bir insana nəsib olmasından çox şadıq.

Biz əminik ki, məhz Siz ən layiqli davamçı olacaq, atanız, istedadlı rəhbər, böyük şəxsiyyət Heydər Əliyev tərəfindən başlanmış və müstəqil





Azərbaycanın hərtərəfli inkişafına və möhkəmləndirilməsinə yönəldilmiş böyük siyasəti davam etdirəcəksiniz.

Məhz bu siyasət Azərbaycana ölkənin həyatının bütün sahələrində bunca sürətli və mütərəqqi inkişaf imkanı bəxş etmiş və məhz bu siyasət sayəsində Yaponiya-Azərbaycan əlaqələri bu cür uğurla inkişaf etməkdədir.

Öz tərəfimdən, biz - İTOÇU korporasiyası daha böyük inamı və nikbinliklə Sizin hörmətli ölkənizdə həm iri, strateji baxımdan mühüm layihələrdə və həm də Azərbaycan Respublikasının iqtisadiyyatının, sənayesinin, ticarətinin və infrastrukturunun digər sahələrində bundan sonra daha fəal iştirak etmək yolu ilə öz fəaliyyətimizi davam etdirəcəyik. Bununla əlaqədar olaraq, hökumətinizin bundan sonrakı dəstəyinə ümid bəsləyirik. İcazə verin, bu gözəl və tarixi baxımdan böyük əhəmiyyət kəsb edən hadisə münasibətilə Sizi və bütün Azərbaycan xalqını bir daha təbrik edim. Sizə gələcək fəaliyyətinizdə səmimi qəlbdən uğurlar, möhkəm cansağlığı və bütün Azərbaycan xalqına xoşbəxtlik arzulayım.

Dərin ehtiramla,

***Uiçiro NİVA,***
***İTOÇU korporasiyasının prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz cənab baş nazir!

Bu həyəcan dolu anda Sizə ürəkdən gələn hərarətli təbriklərimi yetirirəm. Qoy, Sizin xoş qədəmləriniz Azərbaycanın və Qafqazın sülh şəraitində, müstəqil və firavan həyatının və eləcə də Sizin liderliyinizlə xaricdə olan həqiqi dostlarınızla sıx işbirliyinin başlanğıcı olsun.

Səmimiyyətlə, Sizin

***Frederik STARR,***
***Con Hopkins Universitetinin***
***Mərkəzi Asiya və Qafqaz***
***İnstitutunun rəhbəri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

İcazə verin, Sizə ehtiramımı ifadə edim və Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi şəxsən öz adımdan və Gürcüstan Ali Məhkəməsi adından təbrik etməkdən şərəf duyduğumu bildirim.

Səmimi qəlbdən Sizə yeni-yeni uğurlar, möhkəm cansağlığı və şəxsi həyatınızda xoşbəxtlik arzulayıram.

Əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı sıx mehriban münasibətlər bundan sonra da davam edəcək, dostluq və əməkdaşlığın inkişafına və möhkəmlənməsinə kömək edəcəkdir.

Ən xoş arzularla,

*Lado ÇANTURİYA,*
*Gürcüstan Ali Məhkəməsinin sədri*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi görkəmli və nüfuzlu elm, mədəniyyət xadimlərinin, yaradıcı ziyalıların, senator və deputatların daxil olduqları Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin bütün üzvləri adından təbrik edim.

Siz təkcə Vətəninizdə deyil, onun hüdudlarından uzaqlarda da görkəmli ictimai və siyasi xadim kimi geniş şöhrət qazanmış şəxsiyyətsiniz.

Sizi əmin etmək istəyirəm ki, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyəti rumın və Azərbaycan xalqları arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi və ənənəvi mehriban əlaqələrin və dostluq əlaqələrinin daha da inkişaf etdirilməsi istiqamətində bundan sonra da böyük iş aparacaqdır.

Əminik ki, Siz bu yüksək vəzifədə gözəl ölkənizin daha da inkişaf etməsi və tərəqqisi üçün, habelə Rumıniya ilə Azərbaycan arasında münasibətlərin dərinləşməsi və möhkəmlənməsi üçün bütün işləri görəcəksiniz.





Sizin üçün bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, böyük insani səadət və işinizdə uğurlar arzulamaq istərdim.

Zati-aliləri, Sizə yüksək hörmət bəslədiyimə əmin olmağınızı xahiş edirəm.

Səmimiyyətlə, Sizin

*İoan Pop de POPA,*
*Rumıniya-Azərbaycan Dostluq*
*Cəmiyyətinin baş katibi*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Möhtərəm baş nazir!

Prezident seçkilərindən zəfərlə çıxaraq dost və qardaş Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ən səmimi duyğularla təbrik edirəm.

Azərbaycanda uzun müddətdən bəri aparılan sabit və dinamik iqtisadi, sosial və mədəni siyasətin Sizin liderliyiniz altında daha da inkişaf edərək davam edəcəyinə və Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da yüksələcəyinə ürəkdən inanıram.

Böyük dövlət və siyasət xadimi möhtərəm Heydər Əliyevin yandırdığı demokratiya və müasirləşmə məşəlinin zati-alinizin liderliyi ilə Azərbaycan Respublikasını yüksək zirvələrə çatdıracağına və bu gözəl ölkəni Orta Asiya və Qafqazın nümunəvi respublikasına çevriləcəyinə əminəm.

Xaricdəki ilk sərmayəni səkkiz il öncə Azərbaycana yatırmasından qürur və fəxr duyan bir iş adamı olaraq zati-alilərinizə dost və qardaş Azərbaycan xalqının rifahı və səadəti yolundakı fəaliyyətinizdə ən səmimi diləklərimi yetirirəm.

Dərin hörmət və ehtiramla,

*Hüseyn BAYRAQDAR,*
*Bayraqdar Holdinqin fəxri sədri*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

2003-cü il oktyabrın 15-də keçirilmiş prezident seçkilərində Azərbaycan Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi yetirirəm.

Liderliyiniz altında Türkiyə və Azərbaycan arasında mövcud olan mükəmməl münasibətlərin daha da inkişaf edəcəyinə və xalqlarımızın dostluq və qardaşlıq əlaqələrinin yaxşılaşacağına əminəm. Liderliyinizin bölgədə ehtiyac duyulan sülh və əmin-amanlıq yaranmasına son dərəcə müsbət töhfələr verəcəyinə şübhəm yoxdur.

***Hikmət ÇƏTİN***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz İlham Heydər oğlu!

Günəşli Azərbaycanın Prezidenti seçilməyiniz xəbərini böyük sevinclə qarşıladım.

Xalqın bu seçimi təsadüfi deyildir. Bu seçim ürəkdən və aydın zəkadan irəli gəlmişdir. Xalqın bu seçimi böyük şəxsiyyət olan atanız Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi bütün illər ərzində - istər sovet dövründə, istərsə də demokratik Azərbaycanın Prezidenti olduğu dövrdə xalq üçün gördüyü bütün yaxşı işlərə görə ona minnətdarlığın ifadəsidir.

Bu seçim xalqın oğula bütün işləri Atası kimi, bəzən də daha yaxşı görmək arzusudur.

Bu seçim xalqın bütün xalqlarla və ilk növbədə, Rusiya xalqları ilə dostluğu möhkəmlətmək, keçmiş əməkdaşlığı dirçəltməyə nail olmaq tapşırığıdır.

Heydər Əlirza oğluna mənim ürəkdən gələn salamımı, tezliklə və tamamilə sağalması barədə arzumu yetirin.

Sizə, eləcə də bütün Azərbaycan xalqına xoşbəxt həyat qurmaq yolunda böyük uğurlar arzulayıram.

Hörmətlə,

***Nikolay KONAREV,***
***"İntertrans" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Respublikada yüksək vəzifəyə seçilməyiniz münasibətilə Azərbaycan xalqını şəxsən öz adımdan və başçılıq etdiyim kollektiv adından səmimiyyətlə və ürəkdən təbrik etmək istərdim. Hər bir ölkənin xalqı sabitlik, qayda-qanun, milli ləyaqətə hörmət və firavanlıq olmasına çalışır. Sizin Azərbaycan Prezidenti seçilməyiniz bunun daha bir təsdiqidir.

Şəxsən Sizə və bütün Azərbaycan xalqına uğurlar, tərəqqi və firavanlıq arzulayıram.

Hörmətlə,

***S.KOVANDA,***
***"Şimal-Şərq Alyansı" Səhmdar Kommersiya Bankı Direktorlar Şurasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz və hörmətli İlham Heydər oğlu!

Ölkə prezidentinin seçkilərində heyrətamiz qələbəniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Sizə cansağlığı, ailə həyatınızda xoşbəxtlik və ölkə prezidenti vəzifəsində hər cür uğurlar arzulayıram.

Hörmətlə,

***Aleksandr MALİK,***
***"Beynəlxalq tərəfdaşlıq" vəkillər kollegiyasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Ali dövlət vəzifəsinə seçilməyiniz münasibətilə Avrasiya Televiziya və Radio Akademiyasının iki yüzdən çox üzvü, 18 ölkənin peşəkar televiziya, radio və kino birliklərinin ən hörmətli və tanınmış nümayəndələri adından Sizi ürəkdən təbrik edir və Azərbaycan xalqının müdrik seçiminə tam şərik çıxırıq.

Biz televiziyaya xeyirxah münasibət bəslədiyinizi bilir və əminik ki, Avrasiya Televiziya və Radio Akademiyasının ölkələrin və xalqların əmin-amanlığı və həmrəyliyi naminə MDB dövlətlərinin yaradıcılıq qüvvələrinin birləşdirilməsinə yönəldilmiş fəaliyyəti Sizin mötəbər dəstəyinizi qazanacaqdır.

Sizə yüksək hörmət bəslədiyimizə və ən xoş arzularımızı yetirdiyimizə əmin olmağınızı xahiş edirik.

Hörmətlə,

***O.POPTSOV,***
***Avrasiya Televiziya və Radio Akademiyasının prezidenti,***

***V.RUZİN,***
***vitse-prezident, baş direktor***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli cənab baş nazir!

Azərbaycan Respublikasının Prezidenti kimi yüksək vəzifəyə seçilməyiniz münasibətilə Sizi MDB Qiymətləndiricilər Birlikləri Şurası adından və şəxsən öz adımdan təbrik edirəm. Bununla əlaqədar, daim dərin hörmət, ehtiram və yüksək münasibət bəslədiyimiz atanız Heydər Əliyevin çoxillik rəhbərliyi sayəsində Azərbaycanın qazandığı sosial-iqtisadi uğurların daha da artırılması ilə bağlı ən xoş arzularımızı qəbul edin.

Şübhə yoxdur ki, Heydər Əliyevin ənənələri və xətti Sizin rəhbərliyinizlə davam etdiriləcək, Azərbaycan isə daha güclü və demokratik dövlət





olacaqdır. Sizi əmin edirəm ki, peşəkarlar olaraq MDB qiymətləndiriciləri Azərbaycan Respublikasının iqtisadiyyatının inkişafına öz töhfələrini verməyə hazırdırlar.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

Dərin hörmətlə,

***Nikolay TRİFONOV,***
***MDB Qiymətləndiricilər Birlikləri Şurasının baş direktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri İlham Əliyev!

Azərbaycan Respublikasının Prezidentliyinə seçilməyiniz münasibətilə bütün xalqımız adından Sizi ürəkdən təbrik edir, ən dərin hörmətimi qəbul etmənizi rica edirəm. Möhtərəm atanız zati-aliləri cənab Heydər Əliyevə şəfalar diləyirəm. Bir daha zati-alinizə uğurlar, Azərbaycan xalqına xoşbəxtlik arzulayıram.

Hörmətlə,

***Erkan ERUYSAL,***
***"Həyat" qəzetinin sahibi və baş redaktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikası Prezidentinin oktyabrın 15-də keçirilmiş demokratik seçkilərində inamlı qələbəniz münasibətilə "Domodedovo Aviaxətləri" aviasiya şirkətinin kollektivi Sizi ürəkdən təbrik edir.

Əminik ki, Sizin dövlət başçısı vəzifəsinə seçilməyiniz Rusiya ilə Azərbaycan arasında dövlətlərarası, iqtisadi, mədəni əlaqələrin və hava nəqliyyatı sahəsində əlaqələrin daha dinamik inkişafına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Azərbaycan xalqına isə sülh, firavanlıq və tərəqqi arzulayırıq.

Hörmətlə,

***Andrey MASLOV,***
***"Domodedovo Aviaxətləri" aviasiya şirkəti***
***Açıq Səhmdar Cəmiyyətinin baş direktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə ən səmimi və ürəkdən gələn təbriklərimi qəbul edin. Siz Heydər Əliyev siyasi məktəbinin layiqli yetirməsi, mötəbər beynəlxalq təşkilatın - Avropa Şurasının rəhbərlərindən biri, müasir Azərbaycan gənclərinin liderisiniz.

Azərbaycan xalqı Sizi özünə prezident seçməklə müdrik addım atmışdır. Mən tam əminəm ki, bu, demokratiyanın sağlam qüvvələrinə arxalanan Azərbaycanın gələcəyi naminə, yeniləşən, çiçəklənən Azərbaycan naminə, Azərbaycan və Rusiya xalqlarının sarsılmaz dostluğu naminə yeganə düzgün seçimdir.

Sizə dövləti fəaliyyətinizdə tükənməz enerji, cansağlığı, Azərbaycan xalqına isə bundan sonra da tərəqqi arzulayıram.

Dərin hörmətlə,

***A.KOVŞOV,***
***Moskva Dövlət Açıq Universitetinin rektoru, professor***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə lütfən ən səmimi təbriklərimi qəbul edin.

Bu gün Siz Azərbaycan Respublikasında və onun hüdudlarından uzaqlarda insanların ehtiyaclarını bilən, düşünülmüş qərarlar qəbul etməyə və onları ardıcıl surətdə həyata keçirməyə qadir olan fəal siyasətçi və ictimai xadim kimi tanınmısınız.





Seçkilərin nəticələri sülh, sabitlik və tərəqqi siyasətinə səs vermiş Azərbaycan xalqının arzu və iradəsini açıq bir şəkildə nümayiş etdirmişdir.

Seçkilərdə qazandığınız qələbə inam yaradır ki, respublikada demokratik dəyişikliklər və iqtisadi islahatlar bundan sonra da davam etdiriləcəkdir.

Sizə bütün qəlbimlə möhkəm cansağlığı, sonsuz enerji, xoşbəxtlik və Azərbaycanın rifahı yolunda uğurlar arzulayıram.

Səmimi hörmətlə,

***Səfa GÖMDƏNİZ,***
***"Burc" şirkəti idarə heyətinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli baş nazir!

Prezident seçilməyiniz münasibətilə Sizi təbrik edir və bu vəzifənizin Sizə, ailənizə və qardaş Azərbaycan xalqına daha artıq rifah və xoşbəxtlik gətirməsini arzu edirəm. Müstəqil Azərbaycan xalqına və dövlətinə nə qulluq etmək lazım gələrsə, tapşırıqlarınızı gözləyirik.

Hörmətlə,

***A. Kamal TOSYALI,***
***Köhnə Baybank idarə heyətinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Əliyev!

İcazə verin, 2003-cü il oktyabrın 15-də keçirilmiş prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi öz adımdan və ABB şirkətlər qrupunun rəhbərliyi adından səmimi qəlbdən təbrik edim.

ABB şirkəti əmindir ki, Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikasının iqtisadiyyatı yeni nailiyyətlər qazanacaq və gözəl ölkəniz tərəqqi edəcəkdir.

Bu fürsətdən istifadə edərək bildirirəm ki, ABB şirkəti ölkənizdə gələcək yeni sərmayə layihələrində iştirak etmək arzusundadır.

Ən yüksək hörmətlə,

***Bruno BERQQREN,***
***ABB şirkətlər qrupunun birinci***
***vitse-prezidenti***

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ**

Hörmətli İlham Əliyev!

Dost və qardaş Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ən səmimi duyğularla təbrik edir, XXI əsrin türk əsri olmasını arzulayıram.

Bu vəsilə ilə gələcəyin ölkələrimiz üçün sabitlik və rifah gətirməsini Ulu Tanrıdan təmənna edirəm.

Müstəqil Azərbaycanın böyük lideri, şərəfli və qürurlu insan, möhtərəm atanız cənab Heydər Əliyevə Allahdan şəfa diləyirəm.

Böyük hörmətlə,

***Tarkan YAVAŞ,***
***Elmi Araşdırmalar Vəqfi***
***idarə heyətinin sədri***

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ**

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirik. Sizə bu məsul vəzifədə uğurlu, səmərəli fəaliyyət arzulayırıq.

Ümidvar olduğumuzu bildiririk ki, atanızın başladığı və müstəqil Azərbaycanın dinc inkişafına və tərəqqisinə yönəldilmiş xətt davam etdiriləcəkdir. Ulu Tanrının hökmü ilə, Sizin yüksək vəzifəyə seçilməyiniz mübarək Ramazan ayı ərəfəsində baş vermişdir.

Fürsətdən istifadə edərək, Sizi və Sizin simanızda Azərbaycanın bütün müsəlmanlarını bu böyük hadisə münasibətilə təbrik edirik. Xoşbəxtlik və uğurlar arzulayırıq.

***Şeyx Əhməd TƏMİM,***
***Ukrayna Müsəlmanları İdarəsinin sədri,***
***Ukraynanın müftisi***

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ**

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikası Prezidentinin seçkilərində qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Respublika vətəndaşları və bütün dünyada yaşayan azərbaycanlılar dövlət hakimiyyətini və sabitliyi möhkəmlətmək üçün göstərdiyiniz səyləri dəstəklədiklərini bildirirlər. Biz Sizin atanızın - çox hörmətli Heydər Əlirza oğlu Əliyevin insanın hüquq və azadlıqlarını ali dəyər kimi təsbit edən demokratik, hüquqi dövlət qurulmasına yönəldilmiş siyasi xəttini dəstəkləyirik. Siz bu xəttin layiqli davamçısısınız.

Vaxtı çatmış siyasi və sosial-iqtisadi problemlərin daha uğurla həlli üçün indi hər cür imkanlar var. Dünyada bizim yerimiz də, əmin-amanlığımız və firavanlığımız da, respublikanın nüfuzu da bundan bilavasitə asılı olacaqdır.

Bizim ümumi məqsədimiz insanlara layiqli həyatı təmin etməkdir. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan xalqı bu məqsədə çatmağa doğru qətiyyətlə və ardıcıl surətdə irəliləyəcəkdir.

Biz Azərbaycan ilə Rusiya arasında dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi sahəsində fəaliyyətdə Sizə bundan sonra da hər cür kömək göstərməyə hazır olduğumuzu bildiririk.

İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, Vətənin rifahı naminə işinizdə böyük uğurlar arzulayıram.

Dərin hörmətlə,

***Akif GİLALOV,***
***"ZARR" qrupunun prezidenti, Ümumdünya***
***Dağ Yəhudiləri Konqresinin baş katibi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli baş nazir!

2003-cü il oktyabrın 15-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində qazandığınız qələbə münasibətilə Türkiyə Böyük Millət Məclisinin üzvləri adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi ifadə edirəm.

Türkiyə ilə Azərbaycan arasında mövcud olan və təməli tarixi, mədəni bağlara əsaslanan dostluq, qardaşlıq və əməkdaşlığın zati-alilərinizin prezidentliyi dövründə daha da inkişaf edəcəyinə ürəkdən inanıram.

Seçildiyiniz yeni vəzifədə zati-alinizə uğurlar diləyir, Sizə cansağlığı, səadət arzulayır, qardaş Azərbaycan xalqının rifahı naminə ən xoş diləklərimi bildirirəm.

***Bülənd ARİNC,***
***Türkiyə Böyük Millət Məclisinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin. İnsanlar Sizi dəstəkləməklə ölkənin iqtisadi inkişafına, sosial sabitliyə, Azərbaycanın tərəqqisinə səs vermişlər.

Mən, öz tərəfimdən ölkələrimiz arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsi və inkişaf etməsi üçün əlimdən gələni etməyə hazıram.

Sizə möhkəm cansağlığı, nikbinlik, bütün işlərinizdə və niyyətlərinizdə uğurlar arzulayıram.

Xahiş edirəm, mənim səmimi salamımı və xoş arzularımı gözəl xanımınıza yetirin.

***Qalina KARELOVA,***
***Rusiya Federasiyası hökuməti sədrinin müavini***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Atanızın bütün həyatı Azərbaycanın taleyi ilə, onun tərəqqisi, sülhün və həmrəyliyin qorunub saxlanması, doğma diyarın xalqları arasında bərabərhüquqlu əməkdaşlığın möhkəmlənməsi ilə qırılmaz surətdə bağlıdır. Əminəm ki, Sizin seçilməyiniz nəinki istər dövlətin daxilində, istərsə də beynəlxalq aləmdə artıq təşəkkül tapmış əlaqələrin möhkəmlənməsinə kömək edəcək, həm də Azərbaycanın bir çox digər sahələrdə inkişafına və qüdrətli olmasına gətirib çıxaracaqdır.

İcazə verin, Rusiyanın bütün yəhudiləri adından Sizə Azərbaycanın sosial və iqtisadi inkişafı ilə bağlı çətin vəzifələrin həllində tükənməz enerji, ruh yüksəkliyi və uğurlar arzulayım.

Ulu Tanrıdan Sizə xeyir-dua, özünüzə və yaxın adamlarınıza uzun və xoşbəxt illər diləyirəm.

***Berl LAZAR,***
***Rusiyanın baş ravvini***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Biz bu əlamətdar hadisəni Azərbaycan xalqının dövlətçiliyin möhkəmlənməsi, vətəndaş həmrəyliyi və demokratik islahatların həyata keçirilməsi naminə qanunauyğun tarixi seçimi kimi qiymətləndiririk.

Rusiyada Sizi ölkələrimiz və xalqlarımız arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsinin ardıcıl tərəfdarı kimi tanıyır, dostcasına ənənəvi strateji tərəfdaşlıq münasibətlərinin hər vasitə ilə inkişaf etdirilməsi sahəsində coşğun fəaliyyətinizi yüksək qiymətləndirirlər.

Əminəm ki, beynəlxalq terrorizm və digər qlobal təhdidlərlə birgə mübarizə məsələlərində səylərin əlaqələndirilməsi, münaqişələrin, o

cümlədən regional münaqişələrin ədalətlə və dinc həllinə yönəldilmiş vətta dövlətlərimizin daim sadiq qalması Cənubi Qafqazda sülhün və sabitliyin qorunub saxlanması və möhkəmlənməsinin mühüm amillərindən biridir.

Fürsətdən istifadə edərək, Rusiya DİN-in və Azərbaycan DİN-in hüquq-mühafizə fəaliyyəti sahəsində əməkdaşlığın yüksək səviyyəsindən məmnunluğumu bildirmək istərdim.

Sizə möhkəm cansağlığı, firavanlıq, dövlət və siyasi fəaliyyətinizdə Azərbaycanın tərəqqisi naminə uğurlar arzulayıram.

Dərin hörmətlə,

***Boris QRIZLOV,***
***Rusiya Federasiyasının daxili işlər naziri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli cənab baş nazir!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edim. Sizin inamlı qələbəniz Azərbaycan xalqının Sizə böyük hörmət və etimad bəslədiyinə sübutdur.

Azərbaycanı və Moskva Dövlət Universitetini istər kadrlar hazırlanması sahəsində, istərsə də elmi tədqiqatlar sahəsində sıx və uzunmüddətli əməkdaşlıq bağlayır. Bizi Bakı Dövlət Universiteti və Azərbaycan Respublikasının digər ali məktəbləri ilə dostluq və əməkdaşlıq telləri bağlayır.

Biz universitetimizin fəxri professoru, Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin münasibətlərimizin inkişafına yetirdiyi böyük diqqəti çox dərin hörmətlə xatırlayır və yüksək qiymətləndiririk.

Ümidvarıq ki, münasibətlərimiz dərinləşəcək və inkişaf edəcəkdir. Sizi Moskva Dövlət Universitetində hərarətlə salamlamağımıza şad olacağıq.

İcazə verin, Sizə nəcib fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına tərəqqi və firavanlıq arzulayım.

***Viktor SADOVNİÇİ,***
***Moskva Dövlət Universitetinin rektoru***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli baş nazir!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi, habelə Linkoln Universitetinin təbriklərini çatdırmaq istəyirəm.

Əminəm ki, Sizin rəhbərliyiniz altında inkişaf yolunda olan Azərbaycan bütün maneələri uğurla keçəcək və gələcəkdə özünü regional "oyunçu" və qüdrətli dövlət kimi təsdiqləyəcəkdir.

Gələcəkdə Sizinlə rəsmi olaraq Linkoln Universiteti İdarə heyətinin sədri kimi və şəxsən keçmiş siyasi elmlər professoru və beynəlxalq iqtisadi hüquqşünas kimi görüşməyi səbirsizliklə gözləyirəm.

Bir daha ən xoş arzularım və təbriklərimlə, səmimiyyətlə, Sizin

***Allan A. SAMSON,***
***Linkoln Universiteti İdarə heyətinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasındakı Prezident seçkilərində qələbəniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Mən Sizinlə birlikdə sevinirəm ki, ölkənizin inkişafı naminə gördüyünüz böyük işlər bu seçimlə xüsusi tərzdə qiymətləndirilmişdir. Bu, eyni zamanda Sizin hörmətli atanızın bazar iqtisadiyyatı və demokratiyanın inkişafı yolunda təşəbbüslərinin, daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması istiqamətində həyata keçirdiyi tədbirlərin layiqincə qiymətləndirilməsinin ifadəsidir.

Siz bu vəzifəni qlobal iqtisadi və siyasi tələblər zamanında öz üzərinizə götürmüsünüz. Bu tarixi dövrdə müasir texnologiyaların köməyi ilə gələcək üçün bir çox nailiyyətlər əldə etmək mümkündür.

Mən Sizə yeni vəzifənizin öhdəsindən gəlmək üçün qüvvə və müvəffəqiyyət, bir qədər də, hətta ən cəsarətli insana da lazım olan baxt

arzulayıram. Bu arzularımı mən Azərbaycanla bizim konsern arasında olan ənənəvi əməkdaşlığı möhkəmləndirmək ümidi ilə əlaqələndirirəm.

Dərin hörmətlə,

***Henrix fon PİRER,***
***"Simens" Səhmdar Cəmiyyəti Mərkəzi rəyasət heyətinin üzvü***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Ukrayna Milli Elmlər Akademiyasının Rəyasət heyəti adından ürəkdən təbrik edirəm.

Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, ölkənin iqtisadiyyat, elm və mədəniyyətinin inkişafında, beynəlxalq elmi əməkdaşlığın, o cümlədən Beynəlxalq Elmlər Akademiyaları Assosiyasiyası çərçivəsində əməkdaşlığın genişlənməsində uğurlu fəaliyyət arzulayıram.

Dərin hörmətlə,

***Boris PATON,***
***Ukrayna Milli Elmlər Akademiyasının prezidenti, akademik***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Möhtərəm baş nazir!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində əldə etdiyiniz yüksək nailiyyət qarşısında duyduğumuz sevinc sözlə ifadə edilməyəcək qədər sonsuzdur.

Atanız zati-aliləri Heydər Əliyevin açdığı işıqlı yolda Azərbaycanı nurlu sabahlara çatdıracağınıza əminik.





Sizi təbrik edir, Sizin şəxsinizdə azərbaycanlı qardaşlarımıza da təbriklərimizi yetiririk.

Prezidentliyiniz Azərbaycana, regiona, türklüyə və insanlığa xeyirli olsun!

Ən dərin hörmət və ehtiramla,

***Əli Talib ÖZDƏMİR,***
***Ana Vətən Partiyasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ötən seçkilərin inandırıcı yekunları seçicilərin mənafelərinin müdafiəsi sahəsində fəaliyyətinizə verilən yüksək qiymətdir. Respublikanın sakinləri Sizi dəstəkləməklə, bir rəhbər kimi, iqtisadi islahatların ardıcıl tərəfdarı kimi layiqli nüfuza malik olduğunuzu təsdiqlədilər. Şübhə etmirəm ki, tükənməz enerjiniz, böyük təşkilatçılıq təcrübəniz Azərbaycanın bundan sonra inkişaf etdirilməsi, tərəqqisi və rifahının yüksəlməsi proqramını həyata keçirməkdə Sizə yardımçı olacaqdır.

Sizə səmimi qəlbdən möhkəm cansağlığı, enerji və nikbinlik, bütün ən cəsarətli layihələrinizin həyata keçməsini, yaxın adamlarınıza isə xoşbəxtlik və sevinc arzulayıram.

Hörmətlə,

***Boris TİTOV,***
***"Solvalyub" şirkətinin prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının ali dövlət vəzifəsinə seçilməyiniz münasibətilə Sizə səmimi və xoş təbriklər göndərməkdən şərəf və məmnunluq duyuram. Əmin olduğumu bildirirəm ki, Sizin rəhbərliyinizlə dost Azər-

baycan xalqı bundan sonra da tərəqqi və hərtərəfli inkişaf yolu ilə ardıcıl suratda irəliləyəcəkdir.

Azərbaycan ilə "Intersputnik" Beynəlxalq Kosmik Rabitə təşkilatı arasında yüksək texnologiyalı peyk rabitəsi sahəsində konstruktiv, qarşılıqlı suratdə faydalı əməkdaşlığı hər vasitə ilə genişləndirmək üçün son vaxtlar çox əlverişli imkanlar yaranmışdır. Biz bu potensialdan tamamilə istifadə etmək niyyətindəyik ki, bu da həm Azərbaycan Respublikasının, həm də təşkilatımızın üzvü olan bütün ölkələrin mənafelərinə uyğundur.

Fürsətdən istifadə edərək, ümidvar olduğumu bildirmək istərdim ki, Heydər Əlirza oğlu ilə qarşılıqlı ünsiyyətimizi uzun illər ərzində səciyyələndirmiş şəxsi rəğbət və hörmət münasibətləri eynən bizim aramızda da yaranacaqdır.

Səmimi hörmətlə,

***Q. KUDRYAVTSEV,***
***"İntersputnik" Beynəlxalq Kosmik Rabitə Təşkilatının baş direktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli cənab İlham Əliyev!

İcazə verin, ilk növbədə, Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edim və Sizə dostluq salamımı, möhkəm cansağlığı və Azərbaycan Respublikasının rəhbəri kimi fəaliyyətinizdə böyük uğurlar diləyimi yetirim.

İcazə verin, şirkətimizin Azərbaycanın neft şirkətləri ilə qarşılıqlı suratdə faydalı əməkdaşlıq yaratmaqda maraqlı olduğunu təkrar edim.

Hörmətli cənab İlham Əliyev!

Sizə xüsusi ehtiram bəslədiyimə əmin ola bilərsiniz.

Ölkələrimiz arasında uzunmüddətli səmərəli əməkdaşlıq ümidi ilə və dərin hörmətlə,

***George KONSTANTİNESKU,***
***Rumıniyanın "Petrom" Milli Neft Cəmiyyətinin baş direktoru***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zatı-aliləri, möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti kimi yüksək, məsul və çox çətin vəzifəyə seçilməyiniz münasibətilə Bakı və Xəzəryanı bölgə yeparxiyasının bütün pravoslav xristianları adından səmimi təbrikləri qəbul edin.

Şübhəsiz ki, seçkilərdə qələbəniz çoxmillətli Azərbaycan xalqının Sizə etimadının bəhrəsidir, etibarlı, güclü və perspektivli rəhbər kimi, dahi valideyniniz möhtərəm Heydər Əliyevin xəttinin davamçısı kimi xalqın Sizə inamının ifadəsidir.

Əminik ki, Siz Azərbaycan torpağının milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq, onun xalqının rifahı naminə bütün səylərinizi və istedadınızı əsirgəməyəcəksiniz, respublikada əmin-amanlığı və həmrəyliyi bərpa etmiş Heydər Əlirza oğlu Əliyevin yorulmaz əməyi və güclü iradəsi sayəsində sosial, iqtisadi sahədə və xarici siyasi həyatda əldə olunmuş nailiyyətlərin qorunub saxlanması və artırılması üçün özünüzəxas dərin məsuliyyəti və əsl vətənpərvərliyi həmişə rəhbər tutacaqsınız.

Sizin qarşınızdakı fəaliyyətdən də məqsəd eynidir - respublikanın rifahı daim yüksəlsin və yaxşılaşsın, insanlar isə dinc və xoşbəxt yaşasınlar. Axı, İlahi vergisi olan insan həyatı hər şeydən ucadır.

Sizi çətin və məsuliyyətli vəzifə gözləyir. Qoy, bu işdə Tanrının özü sizə yar olsun, mənəvi və cismani qüvvənizi möhkəmlətsin və artırsın, müdriklik və səbr versin, hər cür nəcib işlərinizə xeyir-dua versin.

Daim hörmətlə,

***ALEKSANDR,***
***Bakı və Xəzəryanı bölgənin yepiskopu***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycanın Prezidenti seçilməyiniz münasibətilə müasirlərimizin çoxsaylı təbrikləri sırasında mənim ağsaqqal təbrikimi də qəbul edin.

Bu, artıq həqiqətdir. Dünya ictimaiyyəti ümumxalq seçkilərinin gedişini və yekunlarını çox diqqətlə izləyirdi və demək lazımdır ki, ümidlərimiz və gözlədiklərimiz doğruldu, həyata keçdi.

Dövlət vəzifəsinin atadan oğula keçməsi ilə bağlı qeyri-adi varislik faktının özü xalqın məhz Sizə dərin hörmət bəslədiyinə sübutdur. Seçilən şəxs xalqın gözü qarşısında mənən, açıq surətdə və şərəflə böyüdükdə, onun siyasi reytinqi ictimai fəaliyyətin və şəxsi həyatın müşahidə edilən prosesi gedişində formalaşdıqda, məhz belə olur.

Siz millətin belə yüksək münasibətini haqlı olaraq qazanmısınız. Şübhəsiz ki, buna uyğun olaraq, Siz müasirləriniz və ölkə qarşısında məsuliyyəti də əla başa düşürsünüz.

Atanız Heydər Əliyevə və İlham Heydər oğlu, Sizə hörmət bəsləyən,

***Çingiz AYTMATOV,***
***Beynəlxalq Aytmatov Fondunun prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasında keçirilmiş prezident seçkilərində qələbəniz münasibətilə zati-alilərinizi səmimi qəlbdən təbrik etməkdən şərəf duyuram.

Sizə xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər və ölkələrimiz arasında mövcud olan əlaqələrin daha da inkişaf etməsini arzulayıram.

***Məktum bin Rəşid Al MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti,***
***baş naziri, Dubay Əmirliyinin hökmdarı***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə səmimi təbriklərimi yetirməkdən və Azərbaycan Respublikasının Prezidenti kimi məsul vəzifədə Sizə ən böyük uğurlar arzulamaqdan şərəf və məmnunluq duyuram.

Biz "Mitsui ənd Ko. Ltd" olaraq, əminik ki, zati-alinizin parlaq rəhbərliyi ölkənizi yeni iqtisadi nailiyyətlərə doğru aparacaq və Azərbaycan xalqının tərəqqisini təmin edəcəkdir. Azərbaycan Respublikası ilə Yaponiya arasında əlaqələrin bundan sonra da möhkəmlənməsinə yönəldilmiş işdə var qüvvə ilə səy göstərməyi davam etdirərək, Sizə yüksək ehtiramımı bildirirəm.

Səmimiyyətlə, Sizin

***Şoey UTSUDA,***
***"Mitsui ənd Ko. Ltd" şirkətinin prezidenti***
***və baş icraçı direktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Cənab baş nazir!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edim.

Son illər ərzində Siz ARDNŞ-nin rəhbərlərindən biri olmusunuz və həmin şirkətlə əməkdaşlıq "Total" şirkətinə Azərbaycanın qaz yataqlarının istismarında əsas iştirakçı olmağa imkan verdi. Buna görə Sizə ən səmimi minnətdarlığımı bildirirəm və şadam ki, Siz prezident Heydər Əliyev tərəfindən yerinə yetirilən böyük işləri davam etdirə biləcəksiniz.

Bu əməkdaşlığın davam etdirilməsini və Sizin ölkənizdə fəaliyyətimizin möhkəmləndirilməsini arzu edir və buna böyük ümid bəsləyirəm. Zati-alinizə Azərbaycanın inkişafı və tərəqqisində uğurlar diləyirəm.

Dərin hörmətlə və səmimiyyətlə,

***Tyerri DEMARE,***
***"Total" şirkətinin prezidenti***
***və baş direktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli baş nazir!

2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə qazandığınız müvəffəqiyyət münasibətilə Sizi təbrik edirik. Azərbaycan Prezidenti vəzifəsinə seçilməyinizin ölkələrimiz arasında dostluq, qardaşlıq və əməkdaşlıq ruhunun inkişafına töhfə verəcəyinə inanırıq. Yeni vəzifənizdə Sizə böyük uğurlar arzulayırıq.

Hörmətlə,

*Müzəffər AKPINAR,*
*"Türksell" rabitə xidmətləri səhmdar şirkətinin baş direktoru*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizin simanızda respublika düşünülmüş və müdrik siyasətin dövlətin iqtisadiyyatının inkişafı və Rusiya ilə mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsi üçün Azərbaycanın ardıcıl surətdə apardığı siyasətin layiqli davamçısına malik olmuşdur.

Sizə möhkəm cansağlığı, nəzərdə tutulan məqsədlərin həyata keçirilməsində enerji və uğurlar arzulayıram. İnanırıq ki, böyük dövlətlər olan Azərbaycan və Rusiya öz xalqlarını tərəqqiyə və firavanlığa gətirib çıxaracaqlar.

Hörmətlə,

*Gennadi RAYKOV,*
*Rusiya Dövlət Dumasının "Xalq deputatı" deputat qrupunun sədri*





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Bilirəm ki, bu gün Azərbaycanın qarşısında çoxlu vəzifə, həll edilməmiş problemlər var, lakin respublikanız çox böyük sərvətə malikdir, xalqınız çox əməksevər və qonaqpərvərdir, ona arxalanaraq istənilən vəzifələri və problemləri həll etmək olar.

Sizə və bütün Azərbaycana yeni-yeni uğurlar və tərəqqi arzulayıram.

Hörmətlə,

*Vladimir VİNOKUR,*
*Rusiyanın xalq artisti*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Cənab baş nazir!

Sizə yüksək hörmət bəslədiyimə və bütün xalq tərəfindən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbriklərimin səmimiliyinə əmin olmağınızı xahiş edirəm.

Sizə ürəkdən möhkəm cansağlığı və Azərbaycan xalqının tərəqqisi, ölkələrimiz arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsi naminə böyük uğurlar arzulayıram.

Xalqlarımızın və dövlət başçılarımızın ənənəvi dostluq münasibətləri Ukrayna Prezidenti Yanında Milli Dövlət İdarəçiliyi Akademiyasının və Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçiliyi Akademiyasının qarşılıqlı fəaliyyətində də öz əksini tapır. Bu il akademiyalarımızın imzaladığı niyyət protokolu işgüzar, elmi və mədəni tərəfdaşlıq üçün yeni perspektivlər açır.

Dərin hörmətlə,

*V. LUQOVOY,*
*Ukrayna Prezidenti Yanında Milli Dövlət İdarəçiliyi Akademiyasının rektoru*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab baş nazir!

Azərbaycan Sizin liderliyiniz ilə yeni dövrə qədəm qoyduğu bir vaxtda mən ümid edirəm ki, ölkəniz güclü demokratiyaya, iqtisadi firavanlığa və vətəndaş cəmiyyətinə doğru inkişafını davam etdirəcəkdir.

Bildiyiniz kimi, Cənubi Qafqaz və Xəzər bölgəsində regional sabitlik, enerji mənbələri, ixrac marşrutlarının təhlükəsizliyi və çoxşaxəliliyi həm Sizin ölkə, həm qonşularınız, həm də bütün dünya üçün böyük əhəmiyyət kəsb edir. ABŞ-Azərbaycan Ticarət və Kommersiya Palatasındakı son çıxışım zamanı mən ABŞ-Azərbaycan əməkdaşlığının bütün sahələrdə artdığını və dərinləşdiyini məmnuniyyətlə bildirmişəm. Mən Azərbaycanı Birləşmiş Ştatların vacib dostu hesab edirəm və bazar iqtisadiyyatının, demokratik islahatların dəstəklənməsi sahəsində səyləri davam etdirəcəyəm.

Mən Milli Məclislə daha sıx əməkdaşlığa da ümidlə baxır və bu əlaqələri iki ölkə arasında işbirliyini daha da artıracaq vasitə hesab edirəm. İnanıram ki, iki qanunverici orqan arasında əlaqələri gücləndirməklə biz ABŞ-Azərbaycan münasibətlərinə müsbət təsir göstərəcəyik.

Mənim səylərimə dəstək verdiyinizə görə sağ olun və ümid edirəm ki, gələcəkdə Sizinlə və həmkarlarınızla əməkdaşlıq edəcəyik.

Səmimiyyətlə,

***Kurt UELDON,***
***ABŞ Konqresinin üzvü***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Çox hörmətli cənab Əliyev!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik etməkdən xüsusi şərəf və məmnunluq duyuram.

Bolqarıstan Sosialist Partiyasının rəhbərliyi adından və şəxsən öz adımdan Sizə bu ali dövlət vəzifəsində fəaliyyətinizdə uğurlar arzuladığımızı bildirmək istəyirəm.





Prezident seçkilərində belə inamlı qələbəniz Azərbaycan xalqı tərəfindən Sizə etimad göstərildiyinə sübutdur. Şübhə etmirik ki, bu, Azərbaycanın və onun ləyaqətli xalqının gələcək demokratik inkişafı və tərəqqisi üçün fəal və enerji ilə işləməyinizdən ötrü həlledici amil və stimul olacaqdır.

Fürsətdən istifadə edərək, həmçinin bildirmək istəyirəm ki, biz xalqlarımız və ölkələrimiz arasında dostluq münasibətlərinin və qarşılıqlı surətdə faydalı əlaqələrin uğurla inkişafına və genişlənməsinə bundan sonra da kömək göstərməyə hazırıq. Əminik ki, bu nəcib işdə biz Azərbaycan Respublikasının Prezidenti kimi Sizin şəxsi dəstəyinizə tamamilə ümid bəsləyə bilərik.

Dərin hörmətlə,

***Sergey STANİŞEV,***
***Bolqarıstan Sosialist Partiyası Ali Şurasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Yaponiya-Azərbaycan dostluq qrupunun adından ürəkdən təbrik edirik.

İnanırıq ki, Sizin rəhbərliyiniz altında Azərbaycan daha sürətlə inkişaf edəcək və ölkələrimiz arasında əlaqələr daha da möhkəmlənəcəkdir.

Öz növbəmizdə, Yaponiya-Azərbaycan dostluq qrupu olaraq, ölkələrimiz arasında əlaqələri inkişaf etdirməyə daha çox səy göstərməyə çalışacağıq.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar və Azərbaycan xalqına firavanlıq arzulayırıq.

Hörmətlə,

***Akira AMARİ,***
***Yaponiya parlamentinin Yaponiya-Azərbaycan dostluq qrupunun sədri***

***Kenci KOSAKA,***
***sədrin müavini***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik etməkdən şərəf duyuram.

Zati-aliləri, fürsətdən istifadə edərək Dünya Meteorologiya Təşkilatı adından və şəxsən öz adımdan Sizə bu vəzifədə olduğunuz dövrdə milli, regional və beynəlxalq səviyyələrdə işinizdə hər cür uğurlar arzuladığımızı bildirmək istərdim. Sizi, həmçinin əmin etmək istərdim ki, DMT Azərbaycan Respublikasının sabit inkişafına töhfə vermək sahəsində öz vəzifəsini yerinə yetirməkdə ölkənizin Hidrometeorologiya Departamentinə bundan sonra da kömək göstərəcəkdir.

Mən Azərbaycan Respublikası ilə Dünya Meteorologiya Təşkilatı arasında səmərəli əməkdaşlığın daim möhkəmləndiriləcəyinə ümid bəsləyirəm.

Azərbaycan Respublikasının xalqına Sizin rəhbərliyinizlə inkişaf yolunda möhkəm sülh, tərəqqi və firavanlıq arzulayıram. Zati-aliləri, Sizə dərin hörmət bəslədiyimə əmin olmağınızı xahiş edirəm.

Hörmətlə,

***Q. OBASİ,***
***Dünya Meteorologiya***
***Təşkilatının baş katibi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli cənab baş nazir!

Bu gün bütün dünya azərbaycanlıları kimi, İran İslam Respublikası üçün də çox xoş bir gündür. Ona görə ki, Azərbaycanda ədalət zəfər çalmışdır. 15 oktyabr 2003-cü il tarixdə keçirilən prezident seçkilərində Siz layiqli qələbə qazanmısınız.

İranda yaşayan bütün soydaşlarınız bu qələbəyə çoxdan əmin idi. Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi və bütün azərbaycanlı qardaşlarımızı ürəkdən təbrik edirik.





Ümidvarıq ki, Sizin prezidentliyiniz dövründə İran İslam Respublikası ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq münasibətləri daha da möhkəmlənəcəkdir.

Allahdan Sizə böyük xoşbəxtlik və işlərinizdə səadət arzu edirəm.

Hörmətlə,

*Əlirza AQHABALAİ,*
*Təbriz Ticarət, Sənaye və Mədənlər*
*Palatasının prezidenti*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti seçilməyinizi eşitməkdən çox məmnun olduq. Xahiş edirik, səmimi təbriklərimizi qəbul edəsiniz. Biz Sizin seçilməyinizi, Azərbaycan Respublikasını vacib keçid mərhələsindən adladaraq parlaq gələcəyə uğurla aparan müdrik atanız cənab Heydər Əliyevin düşünülmüş siyasətinin təsdiqi kimi qəbul edirik. Bildirmək istəyirik ki, Bayerişe Landesbank gözəl ölkənizin iqtisadi inkişafını dəstəkləməkdə maraqlıdır.

Keçmişdə Bayerişe Landesbank ölkənizdə bir sıra layihələri maliyyələşdirmişdir. Biz Sizinlə və Azərbaycan Respublikasının hökuməti ilə yaxşı və uğurlu işgüzar münasibətlərin davam etdirilməsini səbirsizliklə gözləyirik.

Səmimiyyətlə, Sizin

***Q. QARNER,***
***Bayerişe Landesbankın***
***baş vitse-prezidenti,***

***Doktor P. TREPTE,***
***birinci vitse-prezident***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli prezident Əliyev!

Azərbaycan Prezidenti kimi andiçmə mərasimi münasibətilə hərarətli və səmimi təbriklərimi Sizə çatdırmaq istəyirəm. Ölkənizin xalqına sadiqliyiniz, yüksək təhsil və bilik səviyyəniz, idarəçilik qabiliyyətiniz kifayət qədər bəllidir və mən əminəm ki, Siz Azərbaycan Respublikasını daha böyük tərəqqiyə və təhlükəsizliyə doğru aparacaqsınız.

Ümidvaram ki, Azərbaycandakı sürətli dəyişikliklər prosesində rəhbərlik etdiyiniz siyasətçilər Azərbaycanın özünəməxsus xüsusiyyətini itirməyə imkan verməyəcəklər. Bazar iqtisadiyyatının, demokratikləşmənin və qanunun aliliyinin möhkəmləndirilməsini həyata keçirərək, Azərbaycanın özünəməxsus həyat tərzinin, onun mədəniyyətinin, adət-ənənələrinin və dəyərlərinin qorunması vacibdir. Qərbdə olan hər şey götürülüb həyata keçirilməməlidir və Azərbaycan ailənin və qonşuların, eləcə də təhsilin daim qayğısına qalmaq mədəniyyətini Qərbə öyrədə bilər.

Siz peşəkar rəhbərlik etmək qabiliyyətinizi müxtəlif forumlarda nümayiş etdirmisiniz və mən bilirəm ki, Azərbaycanın üzləşdiyi çağırışlar Sizə bəllidir və Siz onları səmərəli şəkildə həll etmək məqsədilə uzunmüddətli strategiyanı həyata keçirəcəksiniz. Sizin prezident seçilməyinizdən sonra hökumətiniz tərəfindən başlanmış bir sıra işlər mənə çox böyük təəssürat bağışladı və bu işlər, öz siyasi baxışlarından asılı olmayaraq, Azərbaycan cəmiyyətində bütün sahələrdə istedadlı insanlardan istifadə etmək arzusunda olduğunuzu və həqiqətən təqdirəlayiq siyasəti nümayiş etdirir.

Hörmətlə,

***Doktor Brenda ŞAFFER,***
***Harvard Universitetinin "Kaspian Stadiz"***
***proqramının tədqiqatlar üzrə direktoru***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Tarixi dostluq, mehriban qonşuluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq ənənələrinin ölkələrimizin xalqları üçün daimi əhəmiyyəti var. Bu ənənələrin strateji tərəfdaşlıq əsasında daha da dərinləşdirilməsi Rusiyanın və Azərbaycanın qarşısında duran genişmiqyaslı sosial-iqtisadi, mədəni və humanitar vəzifələrin həyata keçirilməsi işinə sanballı töhfə olacaqdır.

Çox hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycan Respublikasının Prezidenti vəzifəsində dövlət fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

***Valentina TEREŞKOVA,***
***Rusiya Federasiyası Xarici İşlər Nazirliyi***
***yanında Rusiya Beynəlxalq Elmi və***
***Mədəni Əməkdaşlıq Mərkəzinin rəhbəri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Dost və qardaş Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə şəxsən öz adımdan və idarə heyətimiz adından Sizi ürəkdən təbrik edir, yeni vəzifənizin ölkələrimiz arasında bütün sahələrdə mövcud olan köklü qardaşlıq və əməkdaşlıq əlaqələrini daha da gücləndirərək, regionun iqtisadi yüksəlişinə və sülhün möhkəmlənməsinə dəyərli töhfələr verməsini arzulayıram.

Hörmətlərimi qəbul etmənizi rica edirəm.

***M. Rüfət HİSARÇİKLİOĞLU,***
***Türkiyə Ticarət, Sənaye, Dəniz***
***Ticarəti Palataları və Ticarət Birjaları***
***Birliyi idarə heyətinin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, ölkənizə əmin-amanlıq və tərəqqi arzulayıram. Yaponiya-Azərbaycan İqtisadi Komissiyasının sədri kimi mən qarşılıqlı münasibətlərimizin daha da möhkəmləndirilməsi və Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlığın səmərəli inkişafı üçün səylərimi əsirgəməyəcəyəm.

Fürsətdən istifadə edərək, bir daha da Sizi ürəkdən təbrik edir, bu şərəfli vəzifədə Sizə cansağlığı, səadət və işlərinizdə uğurlar arzulayıram.

Sizə dərin hörmət bəsləyən,

***Xiroşi TAKEDA,***
***"Niçimen Korporeyşn" şirkətinin prezidenti və baş icraçı direktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi "Mitsubişi" korporasiyası adından səmimi qəlbdən təbrik edirəm.

Əminik ki, başçılığınız altında ölkənizin iqtisadi inkişafı davam edəcək, xalqınızın rifahı daha da yaxşılaşacaqdır. Ölkənizin gələcək tərəqqisi naminə Sizə ən səmimi arzularımı yetirirəm.

Hörmətlə,

***Mikio SASAKİ,***
***"Mitsubişi" korporasiyasının prezidenti***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi "İTOÇU Oyl Eksploreyşn Ko., Ltd" şirkəti adından səmimi qəlbdən təbrik edək. İTOÇU əmindir ki, zati-aliləriniz bütün bacarığını və səyini Azərbaycan xalqının ümumi rifahının yaxşılaşdırılmasına və ölkənin gələcək inkişafına həsr edəcəkdir.

Biz ümid edirik ki, Yaponiya və Azərbaycan arasında iqtisadi münasibətlər zati-alilərinizin rəhbərliyi altında daha da güclənəcəkdir. İTOÇU 1996-cı ildə Azərbaycanda AÇG layihəsi ilə başlanan və indi tarixi BTC layihəsini də özündə cəmləşdirən biznes fəaliyyətini məmnuniyyətlə davam etdirəcəkdir. Biz hər iki layihənin həyata keçirilməsində iştirak etdiyimizə görə çox şadıq.

Son olaraq, zati-alilərinizdən xahiş edirik ki, Azərbaycan xalqı üçün əldə etmiş olduğu nailiyyətləri yüksək qiymətləndirdiyimizi ən xoş arzularımızla bərabər atanıza çatdırasınız.

İTOÇU inanır ki, atanız tezliklə tamamilə sağalacaqdır.

Dərin hörmətlə,

***Masao YAMAZAKİ,***
***prezident və icraçı direktor***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli Prezident İlham Əliyev!

"Sincyanq Qaramayı Sinkıao" şirkəti adından Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı, işinizdə müvəffəqiyyətlər arzulayıram.

***"Sincyanq Qaramayı Sinkıao" şirkəti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zatı-aliləri!

İcazə verin, Azərbaycan Respublikası Prezidentinin seçkilərində əldə etmiş olduğunuz parlaq qələbə münasibətilə Sizi səmimi qəlbdən təbrik edək. Azərbaycan xalqı tərəqqiyə, sabitliyə səs verməklə öz müdrikliyini bir daha nümayiş etdirdi.

Bu seçim bizi Azərbaycanın iqtisadiyyatına sərmayə qoymaqda maraqlı olan və əvvəllər bunu Sizin atanız, möhtərəm cənab Heydər Əliyevin xeyir-duası ilə dəfələrlə etmiş iş adamlarını da çox sevindirir.

Sizin Azərbaycan Respublikasının Prezidenti seçilməyinizi biz, ölkənizdə quruculuq işlərinin davam etdiriləcəyinin, qorunub saxlanılmış sabitliyin isə gələcəkdə də inamlı irəliləyiş üçün zəruri zəmin yaradacağının təminatı kimi qiymətləndiririk.

İcazə verin, Sizə gözəl ölkənizin tərəqqisi yolunda çətin, lakin Azərbaycan xalqı üçün çox gərəkli olan işinizdə yeni-yeni qələbələr arzu edək.

Ən səmimi arzularla,

***Caşvantal ŞAH,***
***"M. J. Group" şirkətlər qrupunun prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi hərarətlə və ürəkdən təbrik edirəm. Ciddi, məsul sosial-iqtisadi dəyişikliklər dövründə xalq həmişə öz taleyini müdrik, istedadlı dövlət xadimlərinə etibar edir.

Əminəm ki, bu məsul vəzifədə Sizin fəaliyyətiniz Azərbaycanın ictimai və iqtisadi tərəqqisinə kömək edəcəkdir.

İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, yaradıcı işinizdə böyük uğurlar, Azərbaycan xalqına isə firavanlıq və tərəqqi arzulayıram.

Dərin hörmətlə,

***Aleksandr XLOPONİN,***
***Krasnoyarsk diyarının qubernatoru***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Sizin Azərbaycan Respublikası Prezidentinin seçkilərində əldə etdiyiniz əsrarəngiz qələbənin qəlbimizdə oyatdığı sevinc hisslərini izhar etmək üçün söz tapmaq çətindir.

Əminik ki, bu, Sizin Azərbaycan xalqının tərəqqisi uğrunda qazanacağınız qələbələr silsiləsində yalnız birincisidir.

Ürəkdən arzulayırıq ki, Azərbaycan xalqı Sizin rəhbərliyiniz altında dünya ictimaiyyətinin ayrılmaz bir hissəsinə, Azərbaycan isə dünyanın ən çox inkişaf etmiş ölkələrindən birinə çevrilsin.

İcazə verin, Sizə və Azərbaycan xalqına bəslədiyimiz ən səmimi və dost münasibətlərimizə Sizi bir daha əmin edək, bundan sonra da Azərbaycanda sərmayə fəaliyyətimizi davam etdirməyə hazır olduğumuzu bildirək.

Ən xoş arzularla,

***Villem VANTVOUT,***
***"Fondel" şirkətinin prezidenti***
***və Direktorlar Şurasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

İcazə verin, dövlət başçısının seçkilərində qələbəniz və Azərbaycanın yeni Prezidenti seçilməyiniz münasibətilə Sizi Ulyanovsk İcra Hakimiyyəti adından və şəxsən öz adımdan təbrik edim.

Əminəm ki, Siz ölkəyə on il ərzində uğurla rəhbərlik etmiş atanızın - prezident Heydər Əliyevin işini şərəflə davam etdirəcəksiniz, ənənələrin və öncül istiqamətlərin varisliyi isə Azərbaycanın daha da inkişaf etməsinin və irəliləməsinin dayağı olacaqdır.

Ulyanovskın rəhbərliyi Azərbaycanla Rusiya arasında dostluq münasibətlərinin möhkəmlənməsinə kömək etməyi ürəkdən arzulayır. Ulyanovskdakı Azərbaycan diasporunun nümayəndələri şəhərin tarixinin ayrıl-

maz tərkib hissəsidir, regionumuzda iqtisadiyyat və biznesin bir çox sahələrinin inkişafına sanballı töhfə verirlər.

Sizə yeni məsul vəzifədə uğurlar, bütün Azərbaycan vətəndaşlarına isə möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq diləyirəm. Qoy, Rusiya ilə Azərbaycan arasında əməkdaşlıq, iqtisadi və mədəni əlaqələr, dostluq və qarşılıqlı yardım inkişaf etsin və möhkəmlənsin!

Hörmətlə,

***Pavel ROMANENKO,***
***Ulyanovsk şəhərinin meri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

İki materikin və üç qitənin yəhudilərini birləşdirən Avrasiya Yəhudi Konqresi adından Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə başlamağınız münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan yəhudilərinin tarixi əsrlərin dərinliklərindən başlayır və həqiqətən, nadir xarakter daşıyır. Sonralar, sovet yəhudilərinə qarşı ayrı-seçkilik dövründə isə ölkənizin rəhbərliyinin sərt və birmənalı mövqeyi sayəsində bu hadisələr Azərbaycan torpağına toxunmamışdır.

İndi də Azərbaycanda yəhudilər nəinki bir-biri ilə, həm də ölkədəki müsəlman və xristian əhalisi ilə dinc və razılıq şəraitində yaşayırlar. Biz İsraili və bütün Yaxın Şərqi bu cür görmək arzusundayıq.

Cari ilin martında Avrasiya Yəhudi Konqresinin rəhbərliyi və ravvinləri Bakıda Azərbaycanın digər iki konfessiyasının liderləri - şeyxülislam Hacı Allahşükür Paşazadə ilə Bakı və Xəzəryanı bölgənin yepiskopu Aleksandrla görüşmüşlər.

Qoy, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası planetimizin xalqlarının sülhə və həmrəyliyə doğru yoluna işıq saçan dözümlülük və sabitlik mayakı olsun.

Hörmətlə,

***Aleksandr MAŞKEVİÇ,***
***Avrasiya Yəhudi Konqresinin Prezidenti***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının yeni prezidenti seçilməyinizi eşitməkdən böyük məmnunluq duyuruq. Çin Milli Elektrik Avadanlığı Korporasiyası adından və şəxsən öz adımdan zati-alinizə ən hərarətli təbriklərimi və xoş arzularımı çatdırıram.

Səmimiyyətlə inanıram ki, zati-alinizin rəhbərliyi altında Azərbaycan xalqı firavan yaşayacaq, ölkə isə güclənməkdə və tərəqqi etməkdə davam edəcəkdir.

Energetika sahəsində peşəkar şirkət olaraq ümidvarıq ki, Sizin böyük ölkəniz Azərbaycanla iqtisadi və işgüzar əlaqələri inkişaf etdirəcək, enerji mənbəyi layihələrində iştirak etmək imkanında olacağıq.

Zati-alilərinizə cansağlığı və ən böyük uğurlar arzulayırıq.

***Cya DİN,***
***Çin Milli Elektrik Avadanlığı***
***Korporasiyasının prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli cənab İlham Əliyev!

Ötən seçkilərdə xalqın böyük əksəriyyətinin dəstəyini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə, ilk növbədə, səmimi təbrikimizi qəbul edin.

Prezident seçkilərində Sizin qələbəniz şirkətimiz üçün də böyük sevincdir.

Biz "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənilməsinə və Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasına dair layihələrin tam hüquqlu iştirakçısı kimi, onların dəqiq və səmərəli şəkildə həyata keçirilməsinə bundan sonra da bütün mümkün köməyimizi göstərməyə, habelə ölkənizin iqtisadi inkişafına və Yaponiya ilə Azərbaycan arasında iqtisadi münasibətlərin genişlənməsinə töhfə verməyə hazır olduğumuzu bildiririk.

Yaxın vaxtlarda Sizinlə görüşmək, Sizi yenidən təbrik etmək imkanından çox məmnun olardıq.

Biz Sizə səmimi qəlbdən möhkəm cansağlığı və işinizdə böyük uğurlar, habelə Sizin ola rəhbərliyinizlə Azərbaycan Respublikasının daha da inkişaf etməsini arzulayırıq.

Sonda, icazə verin, atanızın tezliklə sağalmasını diləyək. Biz ondan həmişə lütfkarlıq və səmimiyyətlə kömək və məsləhətlər alırdıq.

Dərin hörmətlə,

***Kunixiko MATSUO,***
***"İnpeks Korporeyşn"***
***şirkətinin prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Cənab Prezident!

Azərbaycan Prezidentinin səlahiyyətlərinin icrasına başlamağınız münasibətilə arzu edirəm ki, Sizin rəhbərliyiniz altında ölkəniz demokratiyaya keçid dövrünü arxada qoyaraq, mənsub olduğunuz Avropanın əsas dəyərləri sayılan fundamental hüquq və azadlıqlara, qanunun aliliyinə və siyasi plüralizmə hörmət edən, bütün vətəndaşların tam firavan yaşamasına zəmanət verən və sosial birliyi, siyasi sülhü təmin edən cəmiyyətə nail olsun.

Mən, həmçinin region xalqlarının nəhayət ki, çox istədiyi sülh, sosial-iqtisadi inkişafın əldə edilməsi məqsədilə regionda sabitliyə töhfə verməyinizi arzulayıram.

Venesiya komissiyası bu yolda ölkənizə yardım göstərmək üçün Sizin ixtiyarınızdadır.

Cənab Prezident, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Canni BUKİKKİYO,***
***Venesiya komissiyasının katibi***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi şirkətimiz adından təbrik etməkdən şərəf duyuram.

Zati-aliləri, fürsətdən istifadə edərək Almaniyanın iri proqram təminatı istehsalçısı olan SAP şirkətinin və şəxsən özümün ən xoş diləklərimizi Sizə yetirərək, bu vəzifədə çalışdığınız dövrdə milli, regional və beynəlxalq səviyyələrdə işlərinizdə hər cür uğurlar arzulayırıq. Sizi, həmçinin əmin etmək istərdim ki, SAP şirkəti Azərbaycan Respublikasına müasir texnologiyalar göndərilməsinə, onun davamlı inkişafına töhfə verilməsinə hər cür kömək göstərməyə hazırdır.

Mən Azərbaycan Respublikası ilə SAP arasında əməkdaşlığın səmərəli şəkildə inkişaf edəcəyinə və möhkəmlənəcəyinə ümid bəsləyirəm.

Azərbaycan Respublikasının xalqına Sizin rəhbərliyinizlə inkişaf yolunda maliyyə sabitliyi, tərəqqi və əmin-amanlıq arzulayıram.

Hörmətlə,

***Aleksey ŞLİKOV,***
***Almaniyanın "SAP CİS and Baltic States" Şirkətinin icraçı direktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Beynəlxalq İnsan Hüquqlarını Müdafiə Komitəsi dünyanın müxtəlif ölkələrindəki milyonlarla nümayəndəsi adından Sizi andiçmə günü münasibətilə ürəkdən və səmimiyyətlə təbrik edir.

Ümidvarıq ki, bu yüksək vəzifədə fəaliyyətiniz sülhə və xalqınızın tərəqqisinə xidmət edəcəkdir.

Hörmətlə,

***İ. DANİLOV,***
***komitənin sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti kimi yüksək vəzifəyə başlamağınız münasibətilə Sizi Rusiyanın "Tribuna" ümummilli qəzetinin kollektivi adından təbrik edək.

Qəzetimizi Azərbaycanla çoxdan və sıx əlaqələr bağlayır. Əsası hələ "Tribuna"nın sələfi olan "Sosialistiçeskaya industriya"nın dövründə qoyulan bu əlaqələri saxlamaq çətin deyildi, çünki atanız Rusiya-Azərbaycan münasibətlərinin inkişafı işində mətbuata həmişə kömək edirdi. Əminəm ki, bu varisliyi Siz də qoruyub saxlayacaqsınız.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni yüksək vəzifədə uğurlar arzulayıram. Sizə və xalqınıza dost olan "Tribuna" qəzetinin əlindən gələn köməyinə həmişə ümid bəsləyə bilərsiniz.

Hörmətlə,

***V.SİMONOV,***
***baş redaktor,***

***V.YURLOV,***
***baş direktor***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Bu gün, bütün düşünən və tərəqqipərvər bəşəriyyətin Azərbaycan xalqının müdrik qərarını - Sizin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyinizi yüksək qiymətləndirdiyi və alqışladığı bir vaxtda, Gürcüstan və gürcü xalqı bu məntiqi addımla xüsusilə fəxr edir. Bu addımla bizim ailəmiz də fəxr edir, çünki biz Azərbaycana biganə deyilik.

Mərhum atamız - tanınmış gürcü kinodramaturqu, Lenin və Dövlət mükafatları laureatı, "Əsgər atası", "Torpaq, sənin oğlun","Sənin əllərinin hərarəti", "Tinglər", "Don Kixot" filmlərinin və digər filmlərin müəllifi Suliko Jgenti zəmanəmizin qeyri-adi siyasətçisi və diplomatı Heydər Əlirza oğlu Əliyevin misilsiz keyfiyyətlərinə, nadir şəxsiyyətinə yüksək ehtiram bəsləyir və həmişə xüsusilə fəxr edirdi ki, onun "Əsgər atası" filmi dünyanın kinoekranlarına müzəffər yürüşünə 1965-ci ildə məhz Bakı şəhərindən başlamışdır.

Bu gün də ailəmiz çoxsaylı gürcü ziyalıları ilə birlikdə belə bir fakta sevinir ki, istedadlı, yüksək intellektli və ziyalı insan olaraq məhz Siz - atanızın böyük işlərini davam etdirməyə, xalqı əsl sənətin və əbədi bəşəri dəyərlərin həqiqi qiymətini bilən ölkəyə başçılıq etməyə layiqsiniz.

Sizə və bütün Azərbaycan xalqına ölkələrimizin xalqlarının rifahı və dostluğunun möhkəmlənməsi naminə uğurlar və tərəqqi arzulayırıq.

Sizə səmimi hörmətlə,

***Olqa və Ketevan,***
***kinodramaturq Suliko Jgentinin qızları***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə başlamağınız münasibətilə Sizi səmimi qəlbdən təbrik edirik.

Sizə möhkəm cansağlığı, şəxsi xoşbəxtlik, ailə səadəti, çətin işinizdə respublikanın və Azərbaycan xalqının rifahı naminə uğurlar arzulayırıq.

Bizim kollektivimiz Azərbaycan Respublikası ilə Skandinaviya ölkələri arasında ticarət-iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsi üçün var qüvvə ilə səy göstərəcəkdir.

Ən xoş arzularla,

***Mixail YUMAN,***
***Danimarkanın "D.B.Qaz and oyl ApS." şirkətinin baş direktoru,***

***Aleksandr KOVALYOV,***
***şirkətin Direktorlar Şurasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Xalq tərəfindən suveren Azərbaycan dövlətinin Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, bu yüksək vəzifədə çox böyük uğurlar arzulayıram.

Xoşbəxtəm ki, Almaniyada müalicədən qayıdıb, öz səsimi ölkəmizin prezidentini seçən xalqımızın səsinə qoşmağa müvəffəq oldum. Əminəm ki, Siz atanız Heydər Əlirza oğlu Əliyevin Azərbaycan xalqının tərəqqi etməsi, arzu və ümidlərinin gerçəkləşməsi üçün gördüyü böyük işləri davam etdirəcəksiniz.

Dərin hörmətlə,

*Hacımurad YEGİZAROV,*
*xalq artisti*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri, qardaşım İlham Əliyev!

Əs-salamu aleykum və rəhmətullahi bərəkatuhu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərindəki qələbəniz mənə gözəl bir fürsət verir ki, bu münasibətdən istifadə edərək, zati-alilərinizə Səudiyyə Ərəbistanı Krallığının xalqı və hökuməti adından və şəxsən öz adımdan ən səmimi qardaşlıq təbriklərimi və zati-alilərinizə möhkəm cansağlığı və səadət dolu arzularımı yetirim.

Qardaş Azərbaycan xalqının da arzuladığı tərəqqi yolundakı bütün səylərinizdə Ulu Tanrıdan Sizə kömək və uğur diləyirəm.

Zati-aliləri! Ən səmimi salamlarımı və ali təqdirimi qəbul edin!

Qardaşınız,

*Fəhd bin Əbdüləziz Al SƏUD,*
*İki Müqəddəs Məscidin xadimi,*
*Səudiyyə Ərəbistanı Krallığının məliki*





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi və ailənizi türk xalqı adından və şəxsən öz adımdan təbrik edir, bu vəzifənin ölkənizə və bütün türk aləminə xeyirli olmasını arzulayıram.

Prezidentliyiniz dövründə ölkələrimiz arasında mövcud olan yaxın dostluq və əməkdaşlığın zati-aliniz sayəsində daha da inkişaf və davam edəcəyinə ümidlərimi, iki qardaş ölkəyə layiq münasibətlərimizdə daha çox, daha cəsarətli və mütərəqqi addımlar atılacağına inamımı təkrarlamaq istəyirəm.

Zati-alinizə yeni vəzifənizdə böyük uğurlar arzulayır, bu vəsilə ilə Sizə və ailənizə cansağlığı və müvəffəqiyyət diləklərimi yetirirəm.

Ən səmimi hörmətlə,

*Əbdülqadir AKSU,*
*Türkiyə Respublikasının*
*daxili işlər naziri*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti kimi yüksək vəzifəyə seçilməyiniz münasibətilə 143 dövlətin, o cümlədən Azərbaycanın turizm sahəsində maraqlarını təmsil edən Dünya Turizm Təşkilatı adından ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizə dövlət başçısı vəzifəsində genişmiqyaslı fəaliyyətinizdə Azərbaycanın və onun xalqının rifahı naminə böyük uğurlar arzulayıram.

Ölkənizin olduqca böyük turizm potensialı var və bundan Azərbaycan xalqı, dünya turizm birliyi naminə fəal istifadə etmək lazımdır. Bu potensialın əsasını İpək Yolu üstündə əlverişli mövqedə yerləşən ölkənizin nadir təbiəti və mədəni irsi, onun sakinlərinin qonaqpərvərliyi təşkil edir.

Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşdırılmış idarəsinə çevrilmək işlərini başa çatdırmaqda olan Dünya Turizm Təşkilatı bizim qurumun nü-

lüzlü həqiqi üzvü olan Azərbaycanda turizmin sabit inkişafı işinə əvvəlkitək maksimum dəstək və kömək göstərəcəkdir.

Zati-aliləri, Sizə ən yüksək hörmət bəslədiyimə əmin ola bilərsiniz.

***Françesko FRANJİALLİ,***
***Dünya Turizm Təşkilatının baş katibi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Salam!

Cənabınızı layiqli şəkildə öz adımdan və Şərqi Azərbaycan ostanının şərafətli, müdrik insanları adından ehtiramla dost və qardaş Azərbaycanın Prezidenti seçilməyiniz münasibətilə təbrik edirəm.

Əminəm ki, cənabınızın prezidentliyi dövründə İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında iqtisadi, mədəni və qarşılıqlı münasibətlərin ölkələrimizin ortaq məram və maraqlarının həyata keçirilməsi naminə daha da inkişaf edib dərinləşməsinin şahidi olacağıq.

Bu mühüm və taleyüklü vəzifənizin icrasında cənabınıza böyük Allahdan günbəgün artan uğurlar diləyirəm.

İlahi uğur arzusu ilə,

***Məhəmmədəli SUBHANALLAHİ,***
***İran İslam Respublikası Şərqi***
***Azərbaycan ostanının valisi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Ehtiram hissləri ilə!

Cənabınızı layiqli şəkildə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edirəm.

Ümidvaram, cənabınızın yeni vəzifəsi ölkələrimizin daha da yüksək, dinamik dostluq və qardaşlıq əlaqələrinin rəhni olacaqdır.





Fürsətdən istifadə edərək, bir daha öz ehtiram hisslərimi bildirməklə cənabınıza və şərafətli Azərbaycan xalqına böyük Allahdan səadət və başucalığı diləyirəm.

***Möhsün ƏMİNZADƏ,***
***İran xarici işlər nazirinin müavini***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Ehtiram hissləri ilə!

Cənabınızı layiqli şəkildə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edirəm.

Əminəm ki, cənabınızın yeni vəzifəsi ölkələrimizin hərtərəfli əlaqələrinin daha da inkişaf edib güclənməsinin rəhni olacaqdır.

Fürsətdən istifadə edərək, bir daha öz ehtiram hisslərimi bildirməklə cənabınıza və şərafətli Azərbaycan xalqına böyük Allahdan günbəgün artan uğurlar və başucalığı diləyirəm.

***Mehdi SƏFƏRİ,***
***İran Prezidentinin Xəzər məsələləri üzrə***
***xüsusi nümayəndəsi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Son prezident seçkilərində qələbəniz münasibətilə cənabınızı təbrik edir və yeni vəzifədə Sizə uğurlar arzulayıram.

Gilan ostanının Azərbaycan Respublikası ilə qonşuluğunu nəzərə alaraq, ostanımızın bundan sonra da iki dost, qonşu ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişaf etdirilməsi yolunla səmərəli darvaza olacağına ümid edirəm.

***Məsud SOLTANİFƏR,***
***İran İslam Respublikası***
***Gilan ostanının valisi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Möhtərəm baş nazir!

Müdrik Azərbaycan xalqının prezident seçkilərində öz düzgün seçimini edərək, dahi şəxsiyyət, dünya siyasətində misilsiz əməyi olan möhtərəm Heydər Əliyevin siyasi xəttinin ən layiqli davamçısına - Sizə etimad göstərməyi bütün dünya azərbaycanlıları kimi, Ukraynada yaşayan həmvətənlərimizi də çox şad etmişdir.

İcazənizlə, Sizi Ukrayna Azərbaycanlıları Konqresi adından təbrik edir, tarixi Vətənimiz Azərbaycanın müstəqilliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması, xalqımızın rifahının daha da yaxşılaşdırılması naminə gördüyünüz işlərdə Sizə böyük uğurlar arzulayırıq.

Hörmətlə,

***Oqtay ƏFƏNDİYEV,***
***Ukrayna Azərbaycanlıları Konqresinin sədri,***
***Ukrayna Prezidenti Yanında Milli Azlıqların***
***İctimai təşkilatlarının Nümayəndələri***
***Şurasının icraçı direktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Ümumrusiya Azərbaycan Konqresinin Rəyasət Heyəti, Rusiyanın Azərbaycan diasporu Azərbaycan Respublikası Prezidentinin ümumxalq seçkilərindəki inamlı qələbəniz münasibətilə Sizi ürəkdən təbrik edir.

Bu seçkilərin nəticələri sülh, sabitlik və tərəqqi siyasətinə səs vermiş Azərbaycan xalqının kimi üstün tutduğunu və iradəsini tam aşkarlığı ilə nümayiş etdirdi.

Sizin seçkilərdə qələbəniz əminlik yaradır ki, prezident Heydər Əliyevin həyata keçirdiyi demokratik dəyişikliklər və iqtisadi islahatlar Azərbaycan xalqının rifahı və azad, müstəqil Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsi naminə daha da inkişaf etdiriləcəkdir.





Öz fəaliyyətini güclü və nüfuzlu Azərbaycan diasporu yaradılmasına yönəldən Ümumrusiya Azərbaycan Konqresi hazırda Rusiya ərazisində yaşayan Azərbaycan vətəndaşları ilə birlikdə bu qələbəyə töhfə vermişdir.

Konqres Rusiyada yaşayan milyonlarla həmvətənimizin iradəsini və niyyətini ifadə edərək, azərbaycanlıların sıx birləşməsinə, onların tarixi Vətənlə əlaqələrinin möhkəmlənməsinə hər vasitə ilə kömək göstərməyə və Rusiya-Azərbaycan münasibətlərinin hərtərəfli inkişafı və dərinləşməsi xəttinin həyata keçirilməsində Sizin dayağınız olmağa hazırdır.

Sizə respublikanın prezidenti kimi yüksək vəzifədə Azərbaycan xalqının əmin-amanlığı, firavanlığı və tərəqqisi naminə uğurlu və səmərəli fəaliyyət arzulayırıq!

Hörmətlə,

***Məmməd ƏLİYEV,***
***Ümumrusiya Azərbaycan Konqresinin prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti kimi and içməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, ali işinizdə Sizə böyük uğurlar arzulayırıq. ATƏT-in prinsip və öhdəliklərinə əməl edilməsində, o cümlədən Azərbaycan Respublikasının ATƏT çərçivəsində əməkdaşlığının Azərbaycan xalqının rifahı naminə daha da gücləndirilməsində gələcəkdə Sizinlə işləməkdən məmnun olardım.

Ofisimizin qanunun aliliyi və yaxşı idarəçiliyin möhkəmləndirilməsi, davamlı inkişafın dəstəklənməsi, eləcə də siyasi qərarların qəbul edilməsi prosesində açıqlıq, şəffaflıq və iştirakın təşviq olunması sahəsindəki səyləri Sizə bəllidir. Ümidvaram ki, Sizin rəhbərliyiniz altında Azərbaycanla birgə apardığımız işlər əsl ədalət, azadlıq və hər bir fərdin hüquq və ləyaqətinə hörmətlə yanaşma sahəsində daha böyük tərəqqi əldə etməyə imkan yaradacaqdır.

Xüsusən də Sizi Azərbaycan xalqının sosial və iqtisadi vəziyyətinin yaxşılaşdırılması məqsədinə nail olmaqda dəstək verəcəyimizə əmin et-

mək istərdik. Bu baxımdan, biz Azərbaycanda 600.000 iş yerinin açılması ilə bağlı fikrinizi xüsusi maraqla qarşılamışıq. Zati-aliləri cənab Prezident, biz bu işdə Sizə dəstək verməkdən məmnun olardıq və bu məqsədə çatmağın yollarını müzakirə etmək üçün yaxın gələcəkdə Siz münasib vaxtda məni qəbul etsəniz, çox şad olardım.

Zati-aliləri, bir daha təbriklərimi və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Səmimiyyətlə, Sizin

***Piter BURHARD,***
***səfir, ATƏT-in Bakı ofisinin rəhbəri***





## AZ QALA HƏR BİR AZƏRBAYCANLI İLHAM ƏLİYEVİ TƏBRİK ETDİ

***Ölkənin elm və mədəniyyət xadimlərinin, idarə və müəssisə rəhbərlərinin, ictimai təşkilat və partiya sədrlərinin, xaricdə yaşayan azərbaycanlıların təbrik teleqramlarının da sayı-hesabı yox idi. Onların bir qismini nəzərdən keçirdikdə, ilk öncə böyük səmimiyyətin şahidi olursan...***

### AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz İlham Heydər oğlu!

Azərbaycanın Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Tale və xalq öz seçimini etmişdir. Sizi çoxdan tanıdığıma görə inanıram ki, üzərinizə düşən tarixi vəzifəni yerinə yetirə biləcəksiniz. Azərbaycan işğal edilmiş ərazilərini qaytaracaq, onun hər bir sakini isə Vətəndə öz planlarını həyata keçirmək və nəyə qadir olduğunu göstərmək imkanına malik olacaqdır. Bir daha təbrik edirəm.

Hörmətlə,

***Rüstəm İBRAHİMBƏYOV,***
***Azərbaycanın xalq yazıçısı***

### AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirik. Sizə bu şərəfli, lakin çox çətin yolda böyük uğurlar arzulayırıq. Sizə və bütün gözəl ailənizə cansağlığı və səadət diləyirik.

Sizin

***Müslüm MAQOMAYEV və***
***Tamara SİNYAVSKAYA***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz İlham Heydər oğlu!

Sizi doğma respublikamızın Prezidenti seçilməyiniz münasibətilə təbrik edirəm.

Sizə sibirlilərə xas möhkəm cansağlığı, Qafqaz uzunömürlülüyü və akademik təmkin arzulayıram!

Bağrıma basıram!

*Fərman SALMANOV,*
*Rusiya Elmlər Akademiyasının*
*müxbir üzvü*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz cənab baş nazir!

Biz Bakı-Tbilisi-Ceyhan Boru Xətti Şirkətinin Direktorlar Şurası, Ceyhanın yaxınlığındakı Adana şəhərində görüşə yığışarkən Sizin Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz xəbərini öyrəndik və bundan çox məmnun olduq. İcazə verin, bu əla nailiyyət münasibətilə Sizi Bakı-Tbilisi-Ceyhan Boru Xətti Şirkəti və onun payçıları adından təbrik edək. Biz inanırıq ki, Sizin seçilməyiniz, bütün dünyada Azərbaycanın siyasi və iqtisadi həyatında inkişafın göstəricisi, son on ildə Heydər Əliyevin prezidentliyi ilə Azərbaycanın yaşadığı siyasi sabitlik və iqtisadi inkişafın davamının təsdiqi kimi qəbul olunur.

1994-cü ilin mayında İstanbulda "Azəri-Çıraq-Günəşli" yataqlarına dair danışıqlarla başlanan, 1994-cü ilin yayında Hyüston razılaşması ilə davam etdirilən və daha sonra "Əsrin müqaviləsi" ilə tamamlanan Heydər Əliyevin uzaqgörən neft siyasətinə Sizin sadiq xidmətiniz, ilkin neft ixracı marşrutu və "Çıraq-1" layihələrinə əvəzsiz töhfəniz, bu yaxınlarda birbaşa rəhbərliyinizlə Bakı-Tbilisi-Ceyhana - əsrin tikintisi layihəsinə hərtərəfli köməyiniz bizə Azərbaycan Respublikasının və ümumən Qafqaz regionunun inkişafına yönəlmiş Şərq-Qərb enerji dəhlizinin yaranması işində xidmətinizi davam etdirməyə inam verir.





Əsrin tikintisi layihəsinin işinə daimi dəstəyinizə görə minnətdarıq və icazə verin, regiondakı ən çətin işdə Sizə uğur diləyək.

Səmimiyyətlə, sizin

*Natiq ƏLİYEV,*
*Bakı-Tbilisi-Ceyhan Boru Kəməri*
*Şirkətinin prezidenti*

*Maykl TAUNSEND,*
*Bakı-Tbilisi-Ceyhan Boru Kəməri*
*Şirkətinin baş icraçısı*

*Devid VUDVORD (BP),*

*Mayk BARNES (Yunokal),*

*Con HOYNS (Statoyl),*

*Əli QARAQAYA (TPAO),*

*Yan Klod NARO (TotalFinaElf),*

*Alberto LUQLİ (Eni),*

*Syuçi ARASE (İtoçu),*

*Arne HOLHJEM (Konoko Filips),*

*Kazuaki KİHARA (İNPEKS),*

*Tom SPRİNQALL (Amereda Hess),*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu Əliyev!

Prezident seçkilərində qazandığınız inamlı qələbə ilk öncə göstərdi ki, Azərbaycan xalqı Heydər Əliyev kursunun - stabilliyin, firavanlığın və demokratiyanın tərəfdarıdır və bu yolda Sizi ən layiqli davamçı kimi qəbul edir.

Cənab Prezident, 30 ildən artıqdır ki, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Azərbaycan" nəşriyyatı Prezident Heydər

Əliyevlə bilavasitə təmasda olaraq, xüsusi dövlət sifarişlərini nəşr edib. Eyni peşəkarlıq və məsuliyyətlə nəşriyyatımız bundan sonra da Sizin rəhbərliyiniz altında çalışacaq, yüksək səviyyədə Sizi dəstəkləyəcək.

Cənab Prezident, Sizi səmimi qəlbdən təbrik edir, xalqın inam və etimadını doğruldacağınıza əminliklə Sizə Azərbaycanın tərəqqisi yolunda uğurlar arzulayırıq.

Hörmətlə,

***Nazim İBRAHİMOV,***
***"Azərbaycan" nəşriyyatının***
***Baş direktoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Respublikanın dünyanın bütün guşələrində olan nümayəndələri xalqımızın iradəsini dəstəkləyirlər. Parlaq siyasi karyeranız bizdə əminlik yaradır ki, respublikaya başçılıq edərək, Siz Heydər Əlirza oğlunun müdrikliyini və gənc prezidentin enerjisini özünüzdə təcəssüm etdirəcəksiniz.

Sizin prezident seçilməyiniz Azərbaycanın bütün dünyadakı tərəqqipərvər qüvvələrini daha sıx birləşdirir.

Vətənimizin rifahı naminə yaradıcı əməyinizdə Sizə uğurlar arzulayıram.

Səmimiyyətlə, sizin

***Araz AĞALAROV,***
***"Krokus İnternəşnl" Qapalı Səhmdar***
***Cəmiyyətinin prezidenti***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli, əziz İlham Heydər oğlu!

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Rusiya Rəssamlıq Akademiyasının rəyasət heyəti adından və şəxsən öz adımdan ən səmimi və ürəkdən gələn təbrikləri qəbul edin.

Sizin Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz ölkədə sülhə, sabitliyə, vətəndaş həmrəyliyinə və firavanlığa təminatdır.

Biz Sizi, yeni nəslə mənsub doğma ölkənizdə və onun hüdudlarından uzaqlarda geniş nüfuz qazanmış görkəmli ictimai və dövlət xadimini yüksək qiymətləndiririk.

Rusiya ilə Azərbaycan arasında çoxdankı mədəni əlaqələrin inkişafına misilsiz köməyə görə, gözəl ailənizlə çoxillik dostluq münasibətlərinə görə Sizə xüsusi minnətdarlığımızı bildiririk. Əminik ki, Siz müdrik, görkəmli atanız Heydər Əlirza oğlu Əliyev tərəfindən bünövrəsi qoyulmuş ənənələrin layiqli davamçısı olacaqsınız.

Əminik ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir.

İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, qonaqpərvər evinizə, gözəl ailənizə əmin-amanlıq və tərəqqi, başçılıq etdiyiniz respublikanın vətəndaşlarının rifahı naminə həmişə və hər bir işdə uğurlar diləyirik.

Səmimiyyətlə, Sizin

***Tahir SALAHOV,***
***Rusiya Rəssamlıq Akademiyasının***
***vitse-prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikası Prezidentinin seçkilərində parlaq qələbəniz münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti Sizə səs vermiş və bununla da ölkədə sülhü və sabitliyi qoruyub saxlamağa, iqtisadi yüksəlişi

və cəmiyyətin modernləşdirilməsini təmin etməyə, Qarabağ probleminin ədalətlə nizama salınmasına nail olmağa çalışdığını təsdiqləmişdir.

Sizə göstərilən etimad bütün dünyaya bir daha sübut etdi ki, Azərbaycan Respublikasının xalqı və rəhbərliyi öz prinsipial mövqelərində və gələcəklə bağlı niyyətlərində yekdildirlər. Siz yeni formasiyalı lider, işə və milli ideyaya sadiq siyasətçisiniz.

Sizə bu vəzifədə hər cür uğurlar, qarşınızda duran mürəkkəb məsələlərin həllində cəsarət və səbir arzulayıram.

Sizin qələbənizi bayram edərək, seçki kampaniyasını qısa bir müddətdə qeyri-adi inandırıcılıqla və düzgün aparmaq, siyasi xəttin varisliyinə təminat vermək və qeyd-şərtsiz qələbə qazanmaq bacarığınıza və qabiliyyətinizə də heyran qaldığımı bildirmək istərdim.

Sizi bir daha təbrik edirəm.

Hörmətlə, həmişə Sizin

***Toğrul BAĞIROV,***
***Moskva Beynəlxalq neft-qaz klubunun prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

İcazə verin, Azərbaycan Respublikası Prezidentinin ümumxalq seçkilərində heyrətamiz qələbəniz münasibətilə Sizi Rusiya Notariusları Həmkarlar İttifaqının təmsil etdiyi hüquq ictimaiyyəti adından və şəxsən öz adımdan ürəkdən təbrik edim və böyük Heydər Əliyevin başladığı tarixi dəyişikliklərin beləcə inamla və parlaq şəkildə davam etdirilməsini arzulayım.

Ötən seçkilərdə namizədliyinizin xalq tərəfindən geniş dəstəklənməsi Azərbaycan xalqının öz gələcəyini iqtisadi tərəqqi, sosial islahatlar və Azərbaycanın suverenliyinin möhkəmlənməsi xətti ilə bağlamaq iradəsini və arzusunu tam aşkarlığı ilə nümayiş etdirdi.

Sizin Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz tarixi vətənin hüdudlarından uzaqlarda yaşayan, lakin öz ata-babalarının torpağı ilə saysız-hesabsız tellərlə bağlı olan, Azərbaycan xalqının və gözəl vətənimizin rifahı naminə Sizə bütün işlərinizdə hər cür kömək göstərməyə hazır olan milyonlarla azərbaycanlı tərəfindən ruh yüksəkliyi ilə qarşılandı.

Sizə təzə, Azərbaycan üçün taleyüklü vəzifədə - respublikanın Prezidenti vəzifəsində tükənməz enerji və yeni heyrətamiz uğurlar arzulayıram.

Səmimi hörmətlə,

***Natiq AĞAMİROV,***
***Rusiya Notariusları Müstəqil Həmkarlar İttifaqı Mərkəzi Şurasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli baş nazir cənab İlham Əliyev!

Ulu Tanrının iradəsi və xalqımızın istəyi ilə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizin seçkilərdə qələbə çalacağınıza əvvəlcədən tam əmin idim, çünki hələ çox-çox illər bundan əvvəl yaxından tanıdığım zəhmətkeş babanız Əlirza kişinin ailəsindən Azərbaycana xeyli müdrik şəxslər bəxş edilibdir. Çünki hələ yeniyetmə, gənclik illərindən öz biliyi, bacarığı, çalışqanlığı və yüksək təşkilatçılığı ilə fərqlənən, həmişə qabaqcıl olan Heydər Əliyev xalqımıza məhz Sizin kimi ləyaqətli, qeyrətli bir vətəndaş, müdrik bir şəxs bəxş etməliydi.

Xalqımızın çox sevimli oğlu, həmişə fəxr etdiyim atanız Heydər Əliyevin həmişəyaşar daxili və xarici siyasətini davam etdirəcəyinizə qəlbən inanıram. İnanıram ki, qazandığınız Heydər Əliyev təcrübəsi və üstəlik şəxsi təcrübəniz sayəsində müstəqil Azərbaycan Respublikası daim inkişaf və tərəqqi edəcək, qüdrətli bir ölkəyə çevriləcək və bütün dünyada daim parlayan ulduz olacaqdır.

Böyük hörmətlə,

***Lətif HÜSEYNZADƏ,***
***101 yaşlı əməkdar müəllim, "İstiqlal" ordenli, prezident təqaüdçüsü***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz və hörmətli İlham Əliyev!

Sizi prezident seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm. Bu, belə də olmalıydı. Çinarlar öz kökləri üzərində ucalırlar. Siz elə dühanın ləyaqətli oğlusunuz ki, onun siyasətini davam etdirəcəksiniz. Xalq Sizi sevir, Siz də xalqı.

Mən dərindən inanıram ki, Siz mənim əziz dostum və qardaşım Heydər müəllimin dostluq və qardaşlıq ənənələrini layiqincə qoruyacaq və ucaldacaqsınız. Heydər müəllim həmişə mənim arxam və dirəyim olub. Mən də buna yaradıcılığımla cavab vermişəm. Sizə böyük uğurlar diləyirəm.

Dərin ehtiramla,

*Nəbi XƏZRİ,*
*xalq şairi*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Prezident seçilməyiniz münasibətilə Sizi təbrik edir, xalqın rifahı, Qarabağ düyününün açılması, torpaqlarımızın azad olunması naminə Sizə uğurlar diləyirəm.

Hörmətlə,

*Bəxtiyar VAHABZADƏ,*
*Xalq şairi*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirik. Ümid edirik ki, torpaqlarımızın azad olunması, qaçqın köçkünlərin doğma yurdlarına qaytarılması, xalqın sosial rifahının yaxşılaşması üçün bütün enerjinizi səfərbər edəcək və əlinizdən gələni əsirgəməyəcəksiniz. İnanırıq ki, möhtərəm Heydər Əliyevin sınaqdan çıxmış xəttini ləyaqətlə davam etdirəcək, ədəbiyyat, incəsənət, mədəniyyət və elmin inkişafına xüsusi qayğı ilə yanaşacaqsınız.

Sizi bir daha təbrik edir, ağır, məsuliyyətli və şərəfli işinizdə Sizə uğurlar arzulayırıq.

*ANAR,*
*Azərbaycan Yazıçılar Birliyinin sədri,*
*Fikrət QOCA, Çingiz ABDULLAYEV,*
*Arif ƏMRAHOĞLU*
*Azərbaycan Yazıçılar Birliyinin katibləri*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham müəllim!

Sizi - görkəmli ictimai xadimi, peşəkar siyasətçini, böyük təşkilatçını Azərbaycan xalqı tərəfindən yekdilliklə prezident seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, bundan sonrakı çətin və mürəkkəb fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirik.

Biz xalqımızın, respublikamızın gələcək taleyini Sizin adınızla bağlayırıq. Çünki Siz böyük Heydər Əliyev məktəbinin yetişdirməsi və layiqli davamçısısınız.

Heç şübhə etmirik ki, atanızın təməlini qoyduğu möhkəm ənənələrin - mədəniyyətimizə, musiqimizə olan diqqət və qayğısının davamının həmişə şahidi olacağıq.

Möhtərəm baş nazir!

Sizi əmin edirik ki, bundan sonra da biz sənətimizlə, yeni-yeni yüksək səviyyəli əsərlərimizlə Azərbaycanın musiqi mədəniyyətini daim inkişaf etdirəcəyik.

Azərbaycan bəstəkarları və musiqişünasları adından dərin hörmətlə,

*Vasif ADIGÖZƏLOV,*
*Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Bismillahir-rəhmanir-rəhim!

Möhtərəm cənab baş nazir!

Dövlətimizin ən ali vəzifəsinə seçilməyiniz münasibətilə zati-alilərinizi Azərbaycan və bütün Qafqaz müsəlmanları adından səmimi qəlbdən təbrik edir, Allah-təaladan cənabınıza Vətənimiz və xalqımız naminə fəaliyyətinizdə böyük uğur və möhtəşəm qələbələr arzulayıram. Qoy, Uca Tanrı özü bu şərəfli yolda yardımçınız, xalqın etimadı və gücü isə dayağınız olsun.

Biz, müsəlmanlar, həyatda baş verən hər bir hadisəni Ulu Tanrımızın əmri və iradəsi kimi qəbul edirik. Bu mənada, azad və demokratik seçkilərdə Sizin müzəffər qələbəniz məhz İlahi lütfün təzahürüdür. Müqəddəs Quranı-Kərimdə buyurulduğu kimi, Allah istədiyi bəndəsinə öz nurunu bəxş edər.

Xalq öz böyük seçimini hələ 1993-cü ildə etmişdi. O zaman fəlakətlərə düçar edilmiş, uçuruma sürüklənən Azərbaycan xalqı öz dahi oğlu Heydər Əliyevə üz tutdu və nicat tapdı. Həyat özü bu seçimin dürüstlüyünü barız şəkildə təsdiq etdi. Bu nəhəng şəxsiyyətin müdrikliyi, uzaqgörənliyi, xalqın təəssübünü çəkməsi Azərbaycan xalqının sabitliyini, tərəqqisini, dövlətimizin ardıcıl qələbələrinin davamlılığını təmin edəcək müqtədir, müzəffər siyasəti davam etdirəcək kamil şəxsiyyət yetişdirməsində də öz təzahürünü tapdı.

Milyonlarla həmvətənimiz Sizin simanızda Heydər Əliyev məfkurəsinin layiqli davamçısını görür, Sizə etibar edir və bu da öz təcəssümünü seçkilərdə əldə etdiyiniz möhtəşəm qələbədə tapdı. Əslində, Sizin bu vəzifədə olmağınız daha çox xalqımıza gərəkdir. Həzrəti Peyğəmbərimiz Məhəmməd Salavatullahın bir hədisi-şərifində buyurduğu kimi, "İnsanların ən yaxşısı camaatın xeyrinə çalışanıdır".

AMİN!

Hörmətlə,

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***





## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri!

Amerikanın Azərbaycan Cəmiyyəti Sizi bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edir. ABŞ-dakı bütün azərbaycanlılar yeni vəzifənizə başlamağınız ərəfəsində Sizə ən xoş arzularını və ən səmimi salamlarını çatdırırlar.

Birləşmiş Ştatlarda ən böyük diaspor qrupu kimi azərbaycanlı amerikalılar Azərbaycan mədəniyyəti və tarixinin bütün dünyaya daha da geniş yayılmasında Sizinlə işləmək arzusundadırlar. Mədəniyyətimiz özündə bir çox böyük amilləri cəmləşdirir və onlar Azərbaycanda, bütün dünyada demokratiyanın daha da möhkəmlənməsinə bir töhfə kimi dəyərləndirilməlidir. Biz özümüzü həm Azərbaycandakı demokratik islahatların, həm də iqtisadi, siyasi və mədəni istiqamətdə regiona güclü təsirin nümunəsi kimi göstərmək istəyirik. Düşünürəm ki, biz düz istiqamətdə işləyirik.

Orta Şərq ölkələrindəki qeyri-sabitliyi və münaqişələri nəzərə alaraq regionda güclü liderliyi təmin etməkdən ötrü ABŞ və Qərbin digər demokratik ölkələri ilə möhkəm əlaqələrin inkişaf etdirilməsi üçün çox gərgin iş aparılması vacibdir. Biz azərbaycanlı amerikalılar olaraq bu məsələdə yardımçı olmaq istəyirik və bunu Amerikanın Azərbaycan Cəmiyyətinin əsas vəzifəsi hesab edirik.

Azərbaycan mədəniyyətinin amerikalılara təqdim edilməsi də bizim buradakı missiyamızın vacib hissələrindən biridir. Azərbaycanlı amerikalılar də Sizin hökumət arasındakı əməkdaşlığı dəstəkləyərək, əvvəllər olduğu kimi, birgə işləmək arzusundayıq.

Bir daha Sizi təbrik edir və ümid edirik ki, Siz güclü və daha qüdrətli Azərbaycanın qurulması istiqamətində fəaliyyətinizi davam etdirəcək, eyni zamanda daim qloballaşan dünyada Azərbaycana kömək etmək üçün azərbaycanlı amerikalılar ilə də sıx əlaqələri daha da gücləndirəcəksiniz.

Hörmətlə,

***Tomris AZƏRİ,***
***Amerikanın Azərbaycan***
***Cəmiyyətinin prezidenti***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Cənab Prezident!

Xalqın əksər səsi ilə Azərbaycan Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

***QABİL,***
***xalq şairi, Azərbaycan Yazıçılar Birliyi***
***Ağsaqqallar Şurasının sədri***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Əziz, doğma və hörmətli İlham müəllim!

Prezident seçilməyinizlə yalnız Sizi yox, doğma yurdumuzun mədəniyyətini, ədəbiyyatını, elmini və gələcəyini təbrik edirəm. Sizin səlahiyyətli nümayəndəniz olmağımdan qürur duyuram. Azərbaycanı yenə də xaosa sürükləmək istədilər. Mətinlik, qətiyyət göstərib buna imkan vermədiniz. İlk addımınız uğurlu oldu. Mən buna əmin idim. Mənim ağsaqqal təşəkkürümü qəbul edin.

Ailənizlə birgə Sizi, Mehriban xanımı, balalarınızı bir daha ürəkdən təbrik edirəm.

Sizin

***Vaqif SƏMƏDOĞLU,***
***xalq şairi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Sizi Azərbaycanımızın yeni rəhbəri seçilməyiniz və ali dövlət kürsüsündə – prezident kürsüsündə əyləşməyiniz münasibətilə təbrik edirəm. Böyük hörmət və ehtiram bəslədiyim atanız Heydər Əlirza oğlunun sevincinə qoşuluram. Arzum budur ki, doğma Vətənimizə ləyaqət-





lə başçılıq edəsiniz. Həmişə xeyirxah fərmanlar, sərəncamlar imzalayasınız.

Tanrı Sizi qorusun, bütün işlərinizə rəvac versin. Sağlamlıq həmişə h basınız olsun.

***Hüseyn İBRAHİMOV,***
***Naxçıvan Yazıçılar Birliyinin sədri,***
***xalq yazıçısı***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Şöhrətli Azərbaycanımızın Prezidenti seçilməyinizi böyük fərəh hissi ilə təbrik edirəm. Dünya miqyaslı siyasətçi Heydərimizlə yanaşı, uzun illər yaşayıb yaratmağınızı arzu edirəm.

***İsa HÜSEYNOV,***
***(Muğanna),***
***xalq yazıçısı***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli cənab prezident!

Əziz İlham Heydər oğlu!

İcazə verin, seçkiqabağı kampaniyanın uğurla başa çatması və ümumxalq iradəsinin ifadə olunmasının heyrətamiz nəticələri münasibətilə Sizi səmimi qəlbdən təbrik edim.

Azərbaycan xalqı Sizin namizədliyinizə səs verərək, artıq 10 ildir respublikamızı irəli aparan siyasi və iqtisadi xəttə sadiqliyini nümayiş etdirdi. O, daha heç kimə öz üzərində təcrübələr aparmağa yol verməyəcəyini sübut etdi. Azərbaycanı yenidən anarxiya və idarəolunmaz xaos vəziyyətinə salmaq cəhdlərinə qətiyyətlə "Yox!" dedi.

1993-2003-cü illər gərgin dövlət quruculuğu, hakimiyyətin mərkəzləşdirilmiş vertikalının möhkəmləndirilməsi, cəmiyyətin siyasi və iqti-

sadı həyatının ən müxtəlif sahələrində vüsətli islahatlar və dəyişikliklər aparılması dövrü olmuşdur. Həmin illərdə Heydər Əliyev Azərbaycanı dünyaya açdı və bütün dünyaya tanıtdı. O, respublikanın dövlət müstəqilliyini qoruyub saxladı və möhkəmlətdi, bu prosesi dönməz etdi.

Əziz İlham Heydər oğlu, inanırıq ki, Siz bu nailiyyətləri qoruyub saxlayacaq və artıracaqsınız, ölkəyə rəhbərliyinizin ilk beş ili yeni heyrətamiz uğurlarla, daxili və xarici problemlərin həllində irəliyə doğru böyük sıçrayışla əlamətdar olacaqdır.

Əminəm ki, bütün işlərinizdə və təşəbbüslərinizdə uğurlar qazanacaqsınız, çünki Sizin arxanızda Heydər Əliyevin siyasi dühası və çoxmilyonlu Azərbaycan xalqının etimadı durur!

Yalnız ilk addım çətin olur. Lakin yolun damarını yolçu qırar!

Səmimi hörmətlə,

*Elmira AXUNDOVA,*
*Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü, Respublika Prezidenti Yanında Əfv Komissiyasının üzvü*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Möhtərəm İlham Heydər oğlu!

2003-cü ilin 15 oktyabrında ədalətin tam hökmranlığı şəraitində keçirilmiş prezident seçkilərində olduqca inandırıcı surətdə müxalifətə qalib gəlməyiniz və bununla doğma xalqımızın sevimli, istəkli, əziz oğlu olmağınızın rəsmi təsdiqini almağınız münasibətilə Sizi ürəkdən təbrik edir, dövlətimiz və xalqımız naminə Sizə yeni-yeni uğurlar diləyirik.

Zati-aliləri! Biz əminik ki, tariximizin son 30 ili kimi gələcəyimiz də böyük öndər, misilsiz prezident, əziz cənab Heydər Əlirza oğlu Əliyevin parlaq zəkasının ziyası ilə işıqlanacaq, onun əzəmətli, tükənməz yaradıcılıq istedadı ilə gerçəkləşən inkişaf yolları sevimli xalqımızı firavan, səadət dolu həyata gətirib çıxaracaqdır. Fikrimizcə, Sizin prezidentlik dövrünüz bu inkişafın olduqca böyük əhəmiyyət kəsb edən yeni tarixi mərhələsinin yaradıcısı kimi ümumbəşər rəğbəti qazanacaqdır.





Möhtərəm Prezident!

Heç şübhə etmirik ki, Siz böyük Heydər Əliyevin rəhbərlik ənənəsinə sadiq qalaraq, digər sahələrlə yanaşı, mədəniyyətin, o cümlədən ifaçılıq sənətinin tərəqqisinə də daim diqqət və qayğı göstərəcəksiniz. Biz isə fəaliyyətini respublikamızda klassik vokal ifaçılığın inkişafına həsr etmiş sənət adamları kimi, bu işdə Sizə var qüvvəmizlə kömək etməyi özümüzün şərəfli borcu bilirik.

Çox hörmətli və əziz İlham Heydər oğlu!

Respublika Prezidenti vəzifəsində fəaliyyətinizin uğurlu olacağına inanır, xalqımız, dövlətimiz naminə Sizə, gözəl ailənizə böyük müvəffəqiyyətlər və səadət arzulayırıq.

*Fidan və Xuraman QASIMOVALAR,*
*xalq artistləri*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham müəllim!

Prezident seçkilərində qəti qələbə qazanmağınız münasibətilə Sizi ürəkdən təbrik edirik. Azərbaycanın Prezidenti vəzifəsində yalnız Sizi - böyük Heydər Əliyev siyasətinin layiqli davamçısını görmək arzusunda olan Bakı Musiqi Akademiyasının professor-müəllim heyəti yekdilliklə Sizin namizədliyinizi dəstəkləmiş, öz səsini Sizə vermişdir.

Akademiyamızda çalışan musiqiçilər cənab Heydər Əliyevin himayəsini, Azərbaycanın sənət xadimlərinə, musiqi mədəniyyəti və təhsilinin inkişafına göstərdiyi xüsusi qayğını həmişə hiss etmiş və yüksək qiymətləndirmişlər. Vətənimiz və xalqımız üçün çətin olan illərdə də Heydər Əliyevin bu istiqamətdə yeritdiyi müdrik siyasət nəticəsində milli musiqi sənəti böyük təkamül yolu keçmiş və beynəlxalq miqyasda şöhrət qazanmışdır.

Milli bəstəkarlıq məktəbimizin uğurlarında da, ifaçılarımızın beynəlxalq müsabiqələrdə qazandığı müvəffəqiyyətlərdə də, gənc kadrların üzə çıxarılmasında da Heydər Əliyevin böyük şəxsi xidməti olmuşdur. BMA-da çalışan adlı-sanlı musiqiçilər içərisində də, tələbələr arasında da bir

çox Prezident təqaüdçüləri vardır və onların hamısı bu gün Sizin simanızda həmin müdrik siyası xəttin davamçısını dəstəkləməyə hazırdır.

Sizin sənət adamlarına, BMA-da çalışan və təhsil alan musiqiçilərə daim qayğı və diqqətlə yanaşacağınıza, bizi yeni sənət uğurlarına ilhamlandıracağınıza inanır və milli musiqi mədəniyyətimizin tərəqqisi yolunda prezident kimi göstərəcəyiniz fəaliyyətdə Sizə müvəffəqiyyətlər arzulayırıq.

Hörmətlə,

***Fərhad BƏDƏLBƏYLİ,***
***rektor, xalq artisti, professor***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham Heydər oğlu!

Sizin Azərbaycan Respublikasının Prezidenti seçilməyinizi ürəkdən alqışlayıram və gecəli-gündüzlü Ulu Tanrının səcdəsindəyəm ki, Azərbaycan torpağının şanlı oğlu, bizim hamımız üçün doğma və müqəddəs olan qüdrətli, bənzərsiz, dünya şöhrətli siyasi xadim, mənim üçün xüsusilə daha qiymətli və əvəzsiz olan böyük Heydər Əliyevin xeyir-duasından sonra ölkəmizə məhz Siz başçılıq edəcəksiniz.

Mənim taleyim, ömrüm, sənətdə uğurlarım, Azərbaycan xalqına bir övlad kimi xidmətim, şanım-şöhrətim, dünənim, bu günüm Heydər Əliyevin yüksək adı ilə bağlıdır.

Bütün sənət adamları belə düşünür və yaxşı bilirlər ki, iqtisadi-sosial sahələrdə olduğu kimi, mədəniyyətimizin də inkişafında, onun dünya xalqları arasında geniş yayılmasında, musiqi xadimlərimizin əməyinə ən ali qiymət verilməsində Heydər Əliyevin qayğısına, şəxsi təşəbbüsünə, əməli tədbirlərinə dair yüzlərlə misal çəkmək olar.

Biz sənət adamları onunla həmişə sıx ünsiyyət saxlamışıq, dəyərli məsləhətlərinə əməl etmişik, zəngin mədəniyyətimizin bütünlükdə tərəqqisinə onun işıqlı təfəkküründən bəhrələnərək nail ola bilmişik.

Mən Allahımdan bir də ona görə razıyam ki, taleyimizin prezidenti əziz Heydər Əliyevin qarşısında diz çöküb öpdüyü al-əlvan bayrağımızı indi bir ölkə başçısı kimi, böyük rəhbərimizin qüdrətli övladı, yurdumun mətin və cəsur oğlu kimi, yalnız Siz öpəcəksiniz və şanlı bayrağımızın Qarabağ səmalarında zəfərlə dalğalanması yolunla qəti qələbələr çalacaqsınız.





Biz Sizinlə fəxr edirik desək, sözümüzün səmimiyyətinə inanın.

Mənim canımdan artıq sevdiyim Azərbaycanımı inanıram ki, indən belə Siz zəfərlərdən-zəfərlərə, qələbələrdən-qələbələrə aparacaqsınız.

Sizi bağrıma basıram, bu şanlı işinizdə qələbələr arzulayıram, qoy Azərbaycanım Sizinlə daha da ucalsın, sevimli millətimiz ən xoşbəxt günlərə qovuşsun.

Ulu Tanrı Sizə yar olsun!

Ən xoş arzularla,

***Zeynəb XANLAROVA,***
***SSRİ xalq artisti, Milli Məclisin deputatı***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Prezident seçkilərində qələbə qazandığınıza görə Sizi və xalqımızı ürəkdən təbrik edirəm, Sizə yeni-yeni uğurlar, cansağlığı, ailə sevinci arzulayıram.

Dərin hörmətlə,

***Nəriman HƏSƏNZADƏ,***
***şair, əməkdar incəsənət xadimi***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham müəllim!

Prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi təbrik edir, uzun ömür, cansağlığı və Azərbaycan Respublikasının mədəniyyətinin daha da inkişaf etdirilməsi yolundakı fəaliyyətinizdə uğurlar diləyirəm.

***Yaşar NURİYEV,***
***xalq artisti,***
***Dövlət mükafatı laureatı***

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham müəllim!

Sizi prezident seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycanın uğurlu gələcəyi naminə Sizə əzm, mətanət, cansağlığı arzulayıram.

Hörmətlə,

*Rasim BALAYEV,*
*xalq artisti*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti kimi ali vəzifəyə seçilməyiniz münasibətilə Sizi ən səmimi duyğularla təbrik edirəm.

Əminəm ki, uzun illər ərzində dərin hörmət, ehtiram və yüksək münasibət bəslədiyim atanız, xalqımızın böyük öndəri cənab Heydər Əliyevin çoxillik rəhbərliyi sayəsində doğma Azərbaycanımızın sosial-iqtisadi, elm, təhsil və mədəniyyət sahələrində əldə etdiyi uğurlar Sizin liderliyiniz altında daha da inkişaf etdiriləcək, ölkəmiz regionun ən güclü demokratik dövlətinə çevriləcəkdir.

Sizə möhkəm cansağlığı, gələcək fəaliyyətinizdə böyük uğurlar, ölkəmizə tərəqqi və xalqımıza xoşbəxtlik arzulayıram.

Dərin hörmət və ehtiramla,

*Zərnş xanım HƏMZƏYEVA,*
*xalq artisti*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən qürur hissi ilə təbrik edirəm. Bu, böyük bir qələbədir.





Xalqımızın rifahı və ölkəmizin daha da tərəqqisi naminə Sizə yorulmaz bir həyat, sağlam və uzun ömür arzu edirəm. Xoşbəxt olun!

Mədəniyyətimizin daha da inkişaf edib bütün dünyaya səs salmasında Sizlərə həmişə var gücümlə xidmət etməyə hazıram.

Dərin hörmətlə,

*Lütfiyar İMANOV,*
*professor*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Sizin prezident seçkilərində qalib gəlməyiniz məni ürəkdən sevindirdi. Azərbaycanın müstəqilliyi möhkəm əllərdədir. Sizə bu çətin işdə müvəffəqiyyətlər arzulayıram.

*Mərahim FƏRZƏLİBƏYOV,*
*xalq artisti,*
*Prezident mükafatçısı, rejissor*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham müəllim!

Sizi 15 oktyabr prezident seçkilərində qalib gələrək Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, respublikamızın daha da tərəqqisi üçün əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə bu yolda böyük uğurlar, möhkəm cansağlığı arzulayıram.

Dərin hörmətlə,

*Alim QASIMOV,*
*"ALİM" Mədəniyyət Mərkəzinin rəhbəri, xalq artisti,*
*YUNESKO Musiqi mükafatı laureatı*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli Prezidentimiz!
Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Layaqətli ömür yolunuza uğurlar və Sizə xalqımızın sevgisini diləyirəm.
Hörmət və ehtiramla,

*Zərnigar AĞAKİŞİYEVA,*
*xalq artisti*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli İlham müəllim!
Xalqımızın prezidenti seçilməyiniz münasibətilə Sizi ailəm, övladlarım və nəvələrim adından səmimi qəlbdən təbrik edir, Sizə cansağlığı, xoşbəxtlik və müstəqil Azərbaycanımıza uzunmüddətli prezident olmağınızı arzulayıram.
Dərin hörmətlə,

*Habil ƏLİYEV,*
*xalq artisti, Prezidentin fərdi təqaüdçüsü*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri möhtərəm cənab prezident!
Böyük fərəh və sevinc hissi ilə Sizi, zəmanəmizin ən cavan görkəmli dövlət və ictimai xadimini yüksək vəzifəyə - Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.
Sizin Azərbaycan Respublikasının dövlətçilik tarixində müstəsna xidmətləriniz vardır. Xalqımızın rifahının yaxşılaşması, məmləkətimizin sivilizasiyalı ölkə kimi dünyaya tanıdılması, onun qüdrətinin günü-gündən artması istiqamətində iki əsrin prezidenti, dünya şöhrətli prezident cənab Heydər Əliyevin apardığı xarici və daxili siyasəti layiqincə, peşəkarcasına davam etdirməklə, Siz xalqın haqlı dostəyini qazanmısınız. Beynəlxalq aləmdə hansı nüfuz sahibi olmağınızı Sizin yekdilliklə Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və büro üzvü seçilməyiniz təsdiq edir. Azərbaycanda ilk siyasətçisiniz ki, belə bir mötəbər beynəlxalq qurumda yüksək vəzifəyə seçilmisiniz. Bu, hamımız üçün fəxrdir. Sözsüz ki, belə bir şəxsiyyət dövlət başçısı kürsüsünə yiyələnməli idi.
Dərin hörmət və ehtiramla,

*İlhamə QULİYEVA,*
*xalq artisti, Prezident təqaüdçüsü,*
*Dünya Azərbaycanlılarının Mədəniyyət*
*Mərkəzinin vitse-prezidenti*

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Hörmətli prezident!
15 oktyabr 2003-cü il tarixdə Azərbaycan Respublikasında prezident seçkiləri tam demokratik şəraitdə keçirilmişdir və bu seçkilərdə Sizin qələbəniz bizi ürəkdən sevindirdi. Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı kimi, Sizə respublikamızın prezidenti vəzifəsində Azərbaycanımızın bundan sonra da qüdrətlənməsi, iqtisadiyyatımızın, mədəniyyətimizin və xalqımızın rifahının yüksəlməsində uğurlar arzu edirəm. Həyatda Sizə və ailənizə, balalarınıza cansağlığı və xoşbəxtlik arzulayıram.

*Niyaməddin MUSAYEV,*
*xalq artisti*

# AZƏRBAYCANIN BƏZİ MÜXALİFƏT PARTİYALARININ RƏHBƏRLƏRİ DƏ BAŞ NAZİR İLHAM ƏLİYEVİ TƏBRİK ETDİLƏR

AzərTAc-a daxil olan məlumata görə, Azərbaycan Respublikası prezidentinin seçkilərində qeydə alınmış prezidentliyə namizədlər — Azərbaycan Xalq Cəbhəsi Partiyası birləşdiricilər qanadının sədri Qüdrət Həsənquliyev, Milli Vəhdət Partiyasının sədri Yunus Əliyev, Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev, Ədalət Partiyasının sədri İlyas İsmayılov, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı, habelə Milli İstiqlal Partiyasının sədri Etibar Məmmədov və Yurddaş Partiyasının sədri Mais Səfərli Azərbaycanın baş naziri İlham Əliyevi oktyabrın 15-də keçirilmiş seçkilərdə seçicilərin böyük əksəriyyətinin dəstəyi ilə respublika prezidenti seçilməsi münasibətilə təbrik etmiş, ali dövlət vəzifəsində ölkəmizin tərəqqisi və xalqımızın rifahı naminə fəaliyyətində ona böyük uğurlar diləmişlər. Baş nazir isə vurğulamışdır ki, Azərbaycanı dünyanın qüdrətli dövlətləri sırasına çıxarmaq üçün ilk növbədə, daxildə milli həmrəyliyə nail olunmalıdır. Və o, xalqın etibar etdiyi ali vəzifəsində bu istiqamətdə mümkün olan bütün addımları atmağa hazırdır.





# VƏTƏNƏ, XALQA VƏ DÖVLƏTƏ SƏDAQƏT ANDI

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM HEYDƏR OĞLU ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİ

Oktyabrın 31-də Bakının Respublika sarayında Azərbaycan Prezidenti İlham Əliyevin təntənəli andiçmə mərasimi keçirildi.

Respublika sarayının bayram tərtibatı salonuna Milli Məclisin üzvləri, siyasi partiyaların, ictimai təşkilatların, ölkə ictimaiyyətinin nümayəndələri - ziyalılar, gənclər, hərbçilər, din xadimləri, əməkçilər, andiçmə mərasimində iştirak etməyə gəlmiş xarici ölkələrin təmsilçiləri, səfirlər, digər qonaqlar, mətbuat işçiləri toplaşmışdılar.

Salona toplaşanlar Gürcüstan Prezidenti Eduard Şevardnadzeni, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironovu, Türkiyə baş nazirinin müavini, dövlət naziri Əbdüllətif Şənəri, İranın vitse-prezidenti seyid Məhəmmədəli Əbtəhini və Ukraynanın baş naziri Viktor Yanukoviçi səmimiyyətlə qarşıladılar.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ayağa qalxaraq hərarətlə, gurultulu və sürəkli alqışlarla qarşıladılar.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.

Ölkənin Silahlı Qüvvələrinin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.

Azərbaycan Respublikasının Konstitusiyası müqəddəs kitab Qurani-Şərif ilə yanaşı qoyulmuşdu.

Respublika Mərkəzi Seçki Komissiyasının sədri Məzahir PƏNAHOVA söz verildi. O dedi:

- Möhtərəm cənab İlham Heydər oğlu Əliyev!

Hörmətli xanımlar və cənablar!

Bu il oktyabrın 15-də xalqımız mühüm tarixi hadisənin şahidi oldu.

Müstəqil Azərbaycan Respublikasında azad və ədalətli prezident seçkiləri keçirildi. Tam məsuliyyətlə deyə bilərəm ki, yeni Seçki Məcəlləsi əsasında keçirilən bu seçkilər, ümumiyyətlə, Azərbaycanda seçki sisteminin təkmilləşdirilməsində yeni bir mərhələ oldu. Ölkəmizdə mövcud olan siyasi plüralizm əsasında formalaşdırılmış seçki komissiyalarında 32 mindən artıq həlledici səs hüquqlu üzv, habelə qeydə alınmış namizədlərin və namizədləri qeydə alınmış siyasi partiyaların təyin etdiyi məşvərətçi səs hüquqlu üzvlər daxil olmaqla, 50 minə yaxın komissiya üzvü çalışırdı. Onların fəaliyyəti beynəlxalq standartlara uyğun hazırlanmış və demokratik, şəffaf seçkilər üçün normal şərait təmin edən qanunla tənzimlənirdi.

Mərkəzi Seçki Komissiyası tərəfindən yüksək peşəkarlıq səviyyəsində hazırlanan və beynəlxalq müşahidəçilər tərəfindən çox müsbət qiymətləndirilən 50-dən artıq təlimat, izah və qaydalar, faktiki olaraq, bütün seçki prosedurasını əhatə etmişdi. Seçki tədbirlərinin lazımi maddi-texniki təchizatı təmin olunmuşdu.

Geniş aşkarlıq şəraitində hazırlanıb keçirilən seçkiləri siyasi partiyaların, seçicilərin təşəbbüs qruplarının, ictimai təşkilatların çoxsaylı təmsilçiləri, habelə nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri və yerli vətəndaşlarımız da daxil olmaqla, 44 mindən artıq müşahidəçi izləmişdir. Azərbaycanın və dünyanın 70-dən yuxarı aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri tədbirin bütün mərhələlərini əhatəli işıqlandırırdı.

Mərkəzi Seçki Komissiyasının nəzdindəki Seçkilər İnformasiya Mərkəzi səsvermə başlanandan nəticələr müəyyənləşdirilib başa çatanadək seçicilərin fəallığı, səsvermənin gedişi və ilkin nəticələri haqqında məlumatları mütəmadi qəbul edir, kütləvi informasiya vasitələrinin köməyi ilə ictimaiyyətə çatdırırdı.

Beş mindən artıq məntəqə seçki komissiyasının protokollarındakı məlumatlar səsvermənin başa çatmasından keçən 12 saat ərzində Mərkəzi Seçki Komissiyasının internet saytına qoyularaq dünya ictimaiyyətinə çatdırıldı ki, bu da seçkilərin aşkarlığı baxımından mühüm nailiyyət kimi xüsusi qeyd edilməlidir.

Seçkilərin yüksək səviyyədə hazırlanması və keçirilməsi üçün böyük əmək sərf olunmuşdur. Bu ilki prezident seçkilərini fərqləndirən mühüm cəhət odur ki, ölkəmizin vətəndaşları, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində səs verən soydaşlarımız da daxil olmaqla, seçkilərdə böyük fəallıq göstərmişlər. Seçicilərin 71,23 faizi öz seçki hüququnu həyata keçirmək üçün həvəslə seçki məntəqələrinə gəlmişlər. Onların böyük əksəriyyəti vətənin tərəqqisi, xalqımızın xoşbəxt gələcəyi, şəhər və kəndlərimizdə əmin-amanlıq naminə prezidentliyə layiqli namizəd cənab İlham Heydər oğlu Əliyevə səs vermişdir. Cənab İlham Əliyev 76,84 faiz səs toplayaraq, növbəti beş il müddətinə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.





Möhtərəm İlham Heydər oğlu Əliyev!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edim, dövlətimizin başçısı kimi son dərəcə çətin və məsuliyyətli işinizdə Sizə böyük uğurlar, möhkəm cansağlığı, səadət arzulayım.

* * *

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri Fikrət Babayev, Bəhmən Qəribov, Rafael Qvaladze, Eldar Məmmədov, İsa Nəcəfov, Sona Salmanova və Ələddin Sultanov səhnəyə dəvət olundular.

Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev salondakıların sürəkli alqışları altında səhnəyə dəvət edildi.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad ABDULLAYEVƏ söz verildi. O dedi:

- Hörmətli xanımlar və cənablar!

Bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2003-cü il 28 oktyabr tarixli qərarı ilə prezident seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının protokolunda əks etdirilmiş nəticələri təsdiqləyərək cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə and içməyə dəvət edirəm.

Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV əlini Azərbaycan Respublikasının Konstitusiyasının üzərinə qoyaraq dedi:

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Sonra Prezident müqəddəs Quranı-Şərifə əl basaraq dedi:

- Əlimi Quranı-Şərifə basaraq and içirəm. Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam.

***

Azərbaycan Respublikasının dövlət himni əzəmətlə səsləndi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində geniş nitq söylədi.

***

Azərbaycanın dövlət bayrağı səhnədən aparıldı.

Sonra incəsənət ustalarının iştirakı ilə böyük bayram konserti oldu.

Konsertin iştirakçıları İlham Əliyevi prezident vəzifəsinə başlaması münasibətilə ürəkdən təbrik etdilər.





# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİNİN QƏRARI

## 2003-cü İL OKTYABRIN 15-DƏ KEÇİRİLMİŞ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏSDİQ VƏ RƏSMƏN ELAN EDİLMƏSİ

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi F.Abdullayev (sədr), F.Babayev, B.Qəribov, R.Qvaladze (məruzəçi-hakim), E.Məmmədov, İ.Nəcəfov, S.Salmanova (məruzəçi-hakim) və Ə.Sultanovdan ibarət tərkibdə, məhkəmə katibi İ.İsmayılovun, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri M.Pənahovun, sədr müavini S.Qasımovanın, katibləri İ.Nəsirov və V.Mahmudovun, üzvləri F.Cavadov, R.İbrahimov, V.Kazımova, O.Orucov, Ə.Əliyev, X.Əhmədov, A.Tağıyev, İ.Məmmədov, U.Bağırzadə və A.Əliyevin, ekspertlər, Bakı Dövlət Universiteti hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının müəllimi, hüquq elmləri namizədi M.İsmayılov və həmin kafedranın müəllimi A.Cəfərovun, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları H. Hüseynova və U. Həmidovanın iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə və 130-cu maddəsinin VIII hissəsinə müvafiq olaraq, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə 2003-cü il oktyabrın 15-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair xüsusi konstitusiya icraatı qaydasında konstitusiya işinə baxdı.

Hakimlər S.Salmanova və R.Qvaladzenin məruzələrini, maraqlı subyektin qanuni nümayəndələri M.Pənahov, S.Qasımova, V.Mahmudov, İ.Nəsirov və F.Cavadovun çıxışlarını, ekspertlər M.İsmayılov və H.Hüseynovanın rəylərini dinləyib işin materiallarına baxaraq, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müəyyən etdi:

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası 2003-cü il oktyabrın 15-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkiləri-

nə yekun vuraraq, nəticələrinin təsdiq və elan edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim etmişdir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş konstitusiya işlərinə baxılmasının ümumi qaydalarına müvafiq olaraq, seçkilərlə bağlı şikayətlərə baxılmanın nəticələrinə dair Azərbaycan Respublikası Prokurorluğuna, Apellyasiya Məhkəməsinə və Ali Məhkəməsinə sorğular göndərmiş, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasından daxil olmuş sənədlərin qanunvericiliyin tələblərinə uyğunluğunun yoxlanılması üçün müvafiq mütəxəssisləri cəlb etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin müvafiq normalarında müəyyən edilən qaydalara uyğun olaraq, 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçkiləri keçirilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarındakı bütün məlumatları ümumiləşdirərək Azərbaycan Respublikası üzrə səsvermənin nəticələrinə dair 2003-cü il 20 oktyabr tarixli protokolu və bu protokolun təsdiq edilməsinə dair həmin tarixli 41348 saylı qərarı qəbul etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsinə uyğun olaraq, göstərilən protokol, qərar və onlara əlavə olunmuş sənədlər səsvermənin nəticələrinin təsdiq və elan olunması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim edilmişdir.

Təqdim olunmuş sənədlərlə müəyyən edilir ki, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası dairə seçki komissiyalarının protokollarını araşdıraraq, özünün 2003-cü il 20 oktyabr tarixli 41347 saylı qərarı ilə seçkilərə dair 694 məntəqə seçki komissiyalarının qərarlarını ləğv etmiş və həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrini etibarsız hesab etmişdir.

Etibarlı hesab edilmiş 2 421 061 (iki milyon dörd yüz iyirmi bir min altmış bir) səs prezidentliyə namizədlər arasında aşağıdakı qaydada bölünmüşdür:

1. **ƏLİYEV** İlham Heydər oğlunun lehinə - 1 860 346 (bir milyon səkkiz yüz altmış min üç yüz qırx altı) səs və ya 76.84 faiz;





2. **HACIYEV** Hafiz Ələmdar oğlunun lehinə - 8 267 (səkkiz min iki yüz altmış yeddi) səs və ya 0.34 faiz;

3. **HACIYEVA** Lalə-Şövkətin lehinə 87 523 (səksən yeddi min beş yüz iyirmi üç) və ya 3.62 faiz;

4. **HƏSƏNQULİYEV** Qüdrət Müzəffər oğlunun lehinə - 12 071 (on iki min yetmiş bir) və ya 0.50 faiz;

5. **İSMAYILOV** İlyas Abbas oğlunun lehinə - 24 098 (iyirmi dörd min doxsan səkkiz) və ya 1.00 faiz;

6. **QƏMBƏR** İsa Yunis oğlunun lehinə - 338 145 (üç yüz otuz səkkiz min yüz qırx beş) və ya 13.97 faiz;

7. **MƏMMƏDOV** Etibar Səlidar oğlunun lehinə - 70 638 (yetmiş min altı yüz otuz səkkiz) və ya 2.92 faiz;

8. **RÜSTƏMXANLI** Sabir Xudu oğlunun lehinə - 19 973 (on doqquz min doqquz yüz yetmiş üç) və ya 0.82 faiz.

"Azərbaycan Respublikası Seçki Məcəlləsinin təsdiq edilməsi və qüvvəyə minməsi haqqında" Azərbaycan Respublikası Qanununun 3.6-cı maddəsinə əsasən, Mərkəzi Seçki Komissiyasının qərarları həmin komissiyanın iclasında 15 üzvü iştirak etdikdə azı 10 nəfərin səs çoxluğu ilə qəbul edilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.12-ci maddəsində nəzərdə tutulmuşdur ki, protokollar seçki komissiyasının həlledici səs hüquqlu üzvləri tərəfindən tərtib edilir və seçki komissiyasının səs hüquqlu üzvlərinin ümumi sayının ən azı 2/3-si tərəfindən imzalanır.

Yuxarıda göstərilən protokol və onun təsdiq edilməsinə dair qərardan göründüyü kimi, həmin sənədlər Mərkəzi Seçki Komissiyasının 15 üzvündən 12 üzvünün səs çoxluğu ilə qəbul edilmişdir.

Ekspert qismində cəlb edilmiş Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları H. Hüseynova və U.Həmidovanın rəyindən məlum olur ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2003-cü il 20 oktyabr tarixli protokolu və onun təsdiq edilməsinə dair qərarı Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələrinin tələblərinə uyğun tərtib edilmişdir.

Məhkəmə iclasında çıxış etmiş ekspert H. Hüseynova verilmiş rəyin düzgünlüyünü təsdiq etmişdir.

Azərbaycan Respublikası Prokurorluğunun 2003-cü il 24 oktyabr tarixli 033 saylı məktubunda göstərilir ki, Azərbaycan Respublikası Preziden-

ı seçkiləri ilə bağlı Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasından Baş Prokurorluğa 7 müraciət daxil olmuşdur. Həmin müraciətlər araşdırılarkən qanun pozuntularına yol verilməsi müəyyən olunmamışdır.

Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin 2003-cü il 27 oktyabr tarixli 5d-20503 saylı, Azərbaycan Respublikası Ali Məhkəməsinin 2003-cü il 27 oktyabr tarixli 2n-346 saylı məktublarından göründüyü kimi, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının protokolu və qərarı ilə bağlı göstərilən məhkəmələrə Seçki Məcəlləsinin müəyyən etdiyi qaydada heç bir şikayət verilməmişdir.

Konstitusiya Məhkəməsi belə nəticəyə gəlir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2003-cü il 20 oktyabr tarixli protokolu, bu protokolun təsdiq edilməsinə dair qərarı və onlara əlavə olunmuş sənədlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələrinin tələblərinə uyğundur və bununla əlaqədar olaraq, 2003-cü il oktyabrın 15-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolunda əks etdirilmiş nəticələri təsdiq edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

Eyni müddəanı özündə əks etdirmiş Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsində göstərilir: "Konstitusiyanın 101-ci maddəsinin II hissəsinə əsasən, prezidentliyə namizədə səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu səs verdikdə, o, Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır".

Yuxarıda göstərildiyi kimi, seçici səslərindən 1 860 346 (bir milyon səkkiz yüz altmış min üç yüz qırx altı) səs və ya 76.84 faiz Əliyev İlham Heydər oğlunun lehinə verilmişdir.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinin və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinin tələblərinə uyğun olaraq, prezidentliyə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilməlidir.





Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsini və 130-cu maddəsinin VIII hissəsini, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 75, 76, 78, 81, 83 və 85-ci maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi **qərara aldı:**

1. 2003-cü il oktyabrın 15-də keçirilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2003-cü il 20 oktyabr tarixli protokolunda əks etdirilmiş nəticələri təsdiq edilsin.
2. Azərbaycan Respublikası Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilsin.
3. Bu Qərar elan olunduğu gündən qüvvəyə minir.
4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı qətidir, heç bir orqan və ya vəzifəli şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədrlik edən**
**F. ABDULLAYEV,**

*Bakı şəhəri, 28 oktyabr 2003-cü il.*

# MÜDRİK HEYDƏR ƏLİYEVİN ƏSƏRİ OLAN MÜASİR AZƏRBAYCAN DÖVLƏTİ BUNDAN SONRA DA HƏRTƏRƏFLİ İNKİŞAF EDƏCƏKDİR

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM HEYDƏR OĞLU ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Azərbaycan Respublikasının Prezidenti seçilməyimlə mənə göstərilmiş bu böyük etimada görə Azərbaycan seçicilərinə, Azərbaycan vətəndaşlarına, bütün Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirirəm.

Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur.

Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir. Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Ölkəmiz beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Beynəlxalq təşkilatlarda Azərbaycan çox uğurlu fəaliyyət göstərir, onun nüfuzu artır. Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilat Azərbaycanın təkidi ilə Ermənistanı işğalçı dövlət kimi tanıyıbdır. Bu proses davam edəcəkdir. Azərbaycan beynəlxalq aləmdə, dünya miqyasında daha da möhkəm mövqelərə sahib olacaqdır.

Qonşularımızla münasibətlərimiz çox uğurla inkişaf edir. Həm ikitərəfli münasibətlərimiz güclənir, həm də regional əməkdaşlıq inkişaf edir. Bu





gün andiçmə mərasimində iştirak etmək üçün Azərbaycana, Bakıya gəlmiş qonşu dövlətlərin görkəmli dövlət xadimlərinin iştirakı bunu bir daha sübut edir.

Mən bu fürsətdən istifadə edərək, bu gün bizimlə birlikdə mərasimdə iştirak edən Gürcüstan Prezidenti cənab Eduard Şevardnadzeni, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri cənab Sergey Mironovu, Türkiyə Cümhuriyyəti baş nazirinin müavini cənab Əbdüllətif Şənəri, İran İslam Respublikasının vitse-prezidenti cənab seyid Məhəmmədəli Əbtəhini və Ukrayna hökumətinin başçısı cənab Viktor Yanukoviçi salamlayıram.

Azərbaycan hərtərəfli inkişaf edir, iqtisadiyyatı güclənir. Azərbaycanda iqtisadi islahatlar aparılır. Bu islahatların nəticəsində ölkəmiz qısa müddət ərzində öz iqtisadiyyatının yüksəlişini təmin etmişdir. İqtisadiyyatın ən mühüm göstəricisi - ümumi daxili məhsul son beş il ərzində hər il 10 faiz artır, inflyasiyanın səviyyəsi 2 faiz təşkil edir. Halbuki, on il bundan əvvəl inflyasiyanın səviyyəsi 1600 faiz idi.

Azərbaycanda özəl sektor uğurla inkişaf edir. Çox sevindirici haldır ki, ümumi daxili məhsulun formalaşmasında özəl sektorun payı 70 faiz təşkil edir. Sahibkarlar sinfi yaranır. Genişmiqyaslı özəlləşdirmə proqramı həyata keçirilir. Torpaq islahatı aparılıbdır və torpaq artıq kəndlilərin özəl mülkiyyətinə verilibdir. Bunun nəticəsində kənd təsərrüfatı istehsalı artır. Bütün bunlar onu göstərir ki, Azərbaycanda Heydər Əliyevin rəhbərliyi altında aparılan iqtisadi islahatlar öz gözəl nəticələrini verməkdədir.

Azərbaycana xarici sərmayə qoyuluşu çox yüksək səviyyədədir və bu proses davam edir. Sizə deyə bilərəm ki, bütün mənbələrdən qoyulan sərmayələrin həcmi 15 milyard dollar təşkil edir. Adambaşına xarici sərmayənin həcminə görə Azərbaycan keçmiş sovet respublikaları arasında qabaqcıl yerdədir, bəzi Şərqi Avropa dövlətlərini də qabaqlayır.

Amma heç kəsə sirr deyil ki, sərmayələr, xüsusilə xarici sərmayələr sabitlik olan ölkələrə qoyulur. Çünki hər bir sərmayədar o qədər də risk etmək istəmir. Bu baxımdan da, Azərbaycan sərmayə qoyuluşu üçün çox münasib ölkədir. Azərbaycanda son illər ərzində hökm sürən sabitlik, ictimai-siyasi asayiş sərmayələrin cəlb olunması istiqamətində böyük addımlar atmağa imkan veribdir.

Əlbəttə, bizim hamımızın borcudur ki, Azərbaycanda yaranmış bu sabitliyi qoruyaq, saxlayaq, möhkəmləndirək. Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik. Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik.

Bu sabitlik bizə imkan verəcək ki, gələcəkdə Azərbaycanı daha da sürətlə, hərtərəfli inkişaf etdirək. Bu barədə bizim çoxlu planlarımız vardır. Azərbaycanın hər bir sahəsi inkişaf etməlidir.

Təbii ki, Azərbaycan iqtisadiyyatının əsas istiqaməti onun neft strategiyasının həyata keçirilməsidir. 1994-cü ildə Heydər Əliyev tərəfindən başlanmış yeni neft strategiyası Azərbaycana böyük uğurlar gətiribdir. "Əsrin müqaviləsi"nin imzalanması ilə bu strategiya artıq 9 ildir ki, həyata keçirilir. Bunun nəticəsində Azərbaycan öz neft-qaz ehtiyatlarını çox səmərəli şəkildə dünya bazarlarına çıxarır. Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda xarici şirkətlərlə çox uğurlu əməkdaşlıq edir. Azərbaycanın neft sənayesinə on milyard dollar sərmayə qoyulubdur. On minlərlə yeni iş yerləri açılıb, qısa müddət ərzində qazma qurğuları, platformalar, neft kəmərləri, neft terminalları və ölkəmiz üçün vacib olan digər infrastruktur yaradılıbdır.

Azərbaycan öz neftini dünya bazarlarına artıq iki kəmər vasitəsilə çıxarır. Bakı-Novorossiysk neft kəməri ilə hazırda ildə 2,5 milyon ton neft ixrac olunur. Bakı-Supsa neft kəməri vasitəsilə qərb istiqamətində ildə 6,7 milyon ton neft ixrac edilir. Hazırda Bakı-Tbilisi-Ceyhan neft kəməri inşa edilir və artıq işlərin 40 faizi görülübdür. Artıq bu kəmərin inşasına 1 milyard 200 milyon dollar sərmayə qoyulubdur. Gələn ilin sonunda biz bunun açılışını qeyd edəcəyik.

Azərbaycan böyük qaz ehtiyatları olan "Şahdəniz" yatağında uğurla işləməyə başlayıbdır. Bakı-Ərzurum qaz kəmərinin tikintisinə vəsait qoyulur və əgər hər şey cədvəl üzrə gedərsə, 2006-cı ildə Azərbaycan qazı Avropaya çatdırılacaqdır.

Bütün bu planların, görülən işlərin əsası 1994-cü ildə qoyulubdur. O vaxt çətin və mürəkkəb şərait vardı, Azərbaycan çox riskli bir ölkə sayılırdı. Azərbaycana sərmayənin cəlb edilməsi üçün cənab prezident Heydər Əliyev böyük işlər görmüşdür. Nəhayət, əfsanəni reallığa, gerçəkliyə çevirmişdir.

Neft strategiyasının tərkib hissəsi ondan ibarətdir ki, neftdən əldə olunan gəlirlər Azərbaycan xalqına səmərəli şəkildə xidmət etsin. Bu məqsədlə Azərbaycan Dövlət Neft Fondu yaradılmışdır. Fondun yaradılması Azərbaycanın müasir tarixində çox əlamətdar hadisədir. O, bütün beynəlxalq standartlara cavab verən, şəffaf qurumdur. Beynəlxalq maliyyə qurumları onun fəaliyyətini çox yüksək qiymətləndirirlər.

Hazırda neft fondunda 800 milyon dollar vəsait yığılıbdır. Bu, xalqın vəsaitidir. Buna görə də neft fondunun fəaliyyəti haqqında ictimaiyyətə mütəmadi qaydada məlumat verilir. Hər bir vətəndaş bilməlidir ki, onun ölkəsinin valyuta ehtiyatları nə qədərdir və necə, hansı istiqamətlərə sərf olunur.





Gələcəkdə Azərbaycan öz iqtisadi potensialını inkişaf etdirdikcə, Azərbaycanda yeni neft yataqları kəşf olunandan Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara veriləndən sonra, əlbəttə, ölkəmizin imkanları daha da artacaqdır. Hər il Azərbaycana milyardlarla dollar vəsait daxil olacaqdır. Bu vəsaitlə Azərbaycanda bütün sahələrdə quruculuq işləri aparılacaq, sosial problemlərin həlli istiqamətində böyük işlər görüləcəkdir.

Bilirsiniz ki, neft fondundan ayrılan vəsait, ilk növbədə, Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın-köçkünlərə, onların həyat səviyyəsinin yaxşılaşdırılması üçün sərf olunur. Cənab prezident Heydər Əliyevin fərmanları ilə bu məqsəd üçün 70 milyon dollar ayrılmışdır və qaçqın-köçkünlərdən ötrü yeni qəsəbələr, şəhərciklər, evlər tikilir. On minlərlə qaçqın və köçkün artıq çadır düşərgəsindən çıxarılaraq müasir evlərə köçürülüb və bu proses davam edəcəkdir. Biz gələcəkdə də bu məsələyə çox böyük diqqət göstərəcəyik. Əminəm ki, yaxın gələcəkdə işğaldan əziyyət çəkən bütün qaçqın və köçkünlər müasir şəraitlə təmin olunacaqlar.

Azərbaycanda digər sosial məsələlər də öz həllini tapır. Bilirsiniz ki, bu yaxınlarda cənab prezidentin sərəncamları ilə səhiyyə, təhsil, mədəniyyət işçilərinin və başqalarının əmək haqqı 50 faiz artırılmışdır. Pensiyalar 40 faiz artırılmışdır. Bu, bir daha onu göstərir ki, sosial məsələlər prezidentimizin daim diqqət mərkəzində olmuşdur. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Ölkənin bütün imkanları buna xidmət edəcəkdir. Təsadüfi deyil ki, gələn ilin büdcəsinin 60 faizi sosial məsələlərə sərf olunacaqdır.

Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəkdir. Neft strategiyasını davam etdirərək, qısa müddət ərzində ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik.

Xüsusilə, qeyri-neft sektoruna böyük diqqət göstəriləcəkdir. Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycanda iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir. Bizdə bütün imkanlar - təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik. Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu mə-

sələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir. Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Təəssüflər olsun ki, bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti hələlik heç bir nəticə vermir. Biz hələ də ümidlərimizi itirmirik. Hələ də ümid edirik ki, həmsədrlər bu məsələ ilə daha ciddi şəkildə, məsuliyyətlə məşğul olacaqlar. Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir.

Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır.

Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm. Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

Mən bu gün bu yüksək kürsüdən əziz prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: əziz prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik. Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik.

Yaşasın Azərbaycan xalqının milli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev!

Yaşasın qəhrəman Azərbaycan xalqı!

Yaşasın azad və müstəqil Azərbaycan!





## "GÜLÜSTAN" SARAYINDA RƏSMİ QƏBUL

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təntənəli andiçmə mərasimindən sonra, oktyabrın 31-də "Gülüstan" sarayında bu əlamətdar hadisə münasibətilə rəsmi qəbul təşkil olundu.

Saraya toplaşanlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və onun xanımı Mehriban Əliyevanı hərarətli alqışlarla qarşıladılar.

Prezident İlham Əliyev "Gülüstan" sarayının foyesində İranın vitse-prezidenti cənab Seyid Məhəmmədəli Əbtəhi ilə görüşdü. İranlı qonaq İlham Əliyevi prezident seçilməsi münasibətilə təbrik edərək, İran-Azərbaycan əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycanın dövlət başçısı əmin olduğunu vurğuladı ki, iki ölkə arasındakı münasibətlər gələcəkdə də inkişaf edəcəkdir. Prezident Heydər Əliyevin İrana son səfərindən sonra ikitərəfli əlaqələrin möhkəmlənməsində böyük irəliləyiş əldə olunmuşdur. İndi İran və Azərbaycan hökumətləri bir sıra birgə layihələr həyata keçirir. Prezident İlham Əliyev İran Prezidenti Məhəmməd Xatəminin ona zəng edib İrana rəsmi səfərə dəvət etdiyini bildirərək dedi ki, mən dəvəti məmnuniyyətlə qəbul etdim və yaxın zamanlarda bu səfəri həyata keçirəcəyəm.

Seyid Məhəmmədəli Əbtəhi İranın dövlət başçısının xüsusi salamlarını Azərbaycan Prezidentinə çatdırdı.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbula gəlmiş qonaqlarla - Ukraynanın baş naziri Viktor Yanukoviçlə, Gürcüstanın xarici işlər naziri İrakli Menaqarişvili ilə, Rusiya Federasiyasının xarici işlər naziri İqor İvanovla görüşdü.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda nitq söylədi.

# MƏN HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞI ÜÇÜN PREZİDENT OLACAĞAM

## "GÜLÜSTAN" SARAYINDA RƏSMİ QƏBUL ZAMANI İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və dəvətimizi qəbul edib bu axşam qəbulda iştirak etdiyinizə görə sizə təşəkkürümü bildirirəm.

Bu gün mənim həyatımda çox əlamətdar bir gündür. Azərbaycan xalqının dəstəyi ilə mənə göstərilən böyük etimadın nəticəsində bu gün mən prezident vəzifəsinin icrasına başlayıram.

Mən bu gün də, bundan əvvəlki çıxışlarımda da gələcək planlarım haqqında ətraflı danışmışam. Hesab edirəm ki, bunları təkrarlamağa ehtiyac yoxdur. Ancaq bir məqamı yenə vurğulamaq istəyirəm ki, Azərbaycanın xoşbəxt gələcəyi, hərtərəfli inkişafı üçün ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir.

Düşünürəm ki, bu gün ən çox sevinən və bu günü gözləyən cənab prezident Heydər Əliyevdir. Onun əsəri olan müasir Azərbaycan özünün müəyyən etdiyi yolla gedəcəkdir. Onun siyasəti yaşayacaqdır və Azərbaycan xalqına yeni qələbələr gətirəcəkdir. Ona görə də mən istəyirəm ilk badəni cənab prezident Heydər Əliyevin sağlığına qaldıraq, ona uzun ömür, cansağlığı arzulayaq. Bütün dövrlərdə və mərhələlərdə o, əsl mənada xalqın lideri olmuşdur və olaraq qalır. Sovet İttifaqı dövründə fərqli sistem olmasına baxmayaraq, Heydər Əliyev çalışırdı ki, Azərbaycanda yeni zavod və fabriklər yaradılsın, iş yerləri açılsın, mədəniyyət, elm, təhsil, ədəbiyyat inkişaf etsin. O, bütün bu məsələlərə böyük diqqət göstərirdi. Məhz o illərdə Azərbaycanda neft infrastrukturu yaradılmışdır. Biz bu gün neft strategiyası haqqında danışırıq, ancaq bilməliyik ki, əgər onun belə uğurla həyata keçirilməsi üçün 1970-ci illərdə möhkəm zəmin yaradılmasaydı, indi gördüyünüz işləri yerinə yetirə bilməzdik. Yəni o dövrdə də Heydər Əliyev öz xalqına xidmət edirdi.





Azərbaycan müstəqillik əldə etdikdən sonra formalaşmış yeni ictimai-siyasi mühitdə də Heydər Əliyev əsl liderlik xüsusiyyətlərini nümayiş etdirdi, xalqı böhrandan, anarxiyadan, hərc-mərclikdən inkişafa doğru apardı. Biz hamımız Azərbaycanın hansı təhlükələrlə üzləşdiyini yaxşı xatırlayırıq. Ona görə biz heç vaxt imkan verməməliyik ki, ölkədə yenidən sabitlik pozulsun, xaos və anarxiya yaransın. Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcək, biz də buna yol verməyəcəyik.

Təklif edirəm, bu badələri cənab prezidentin sağlığına qaldıraq. Biz hamımız, bütün Azərbaycan xalqı ona cansağlığı, uzun ömür arzulayır və onun Vətənə dönməsini səbirsizliklə gözləyir.

- Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən bu tədbirdə iştirak edən xarici ölkələrdən gəlmiş qonaqları bir daha salamlamaq istəyirəm.

Mən andiçmə mərasimində iştirak etmək üçün ölkəmizə gəlmiş Sergey Mixayloviç Mironovu salamlamaq istəyirəm. Bu gün biz onunla görüşdük və bir çox məsələləri müzakirə etdik.

Rusiya ilə Azərbaycan arasında son illər yaranmış münasibətlərdən biz çox razıyıq. Bu münasibətlərin əsası Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana səfəri zamanı qoyulmuşdur. İki ölkənin prezidentinin - Vladimir Putinin və Heydər Əliyevin şəxsi münasibətləri və qarşılıqlı hörməti ölkələrimiz arasında münasibətlərin inkişafının, möhkəmlənməsinin və yeni məzmun almasının əsasını qoymuşdur. Ötən 3 il ərzində bütün istiqamətlərdə - həm siyasi, həm mədəni sahələrdə böyük tərəqqi əldə olunmuş və əlaqələrimiz keyfiyyətcə yeni mərhələlərə qədəm qoymuşdur. Bu, bir daha sübut edir ki, rəhbərlərin siyasi iradəsi olarsa, problemlər həllini tapacaqdır. Bu gün Rusiya ilə Azərbaycan arasında həll olunmayan heç bir problem yoxdur. Bütün məsələlər, hətta uzun illərdən bəri yığılıb qalmış və kimin üçünsə həlli qeyri-mümkün görünən mürəkkəb məsələlər də hər iki tərəfin mənafeyinə uyğun olaraq həll edilmişdir.

Əminəm ki, gələcəkdə də Rusiya və Azərbaycan arasında münasibətlər dostluq, qarşılıqlı anlaşma və strateji tərəfdaşlıq zəminində qurulacaqdır. Mən vaxt tapıb bizim tədbirimizdə iştirak etdiyi üçün Sergey Mixayloviçə öz təşəkkürümü bildirirəm.

Bu gün bu tədbirdə bizə dost ölkə olan Ukraynanın baş naziri də iştirak edir. Azərbaycan və Ukraynanı dərin tarixi köklər birləşdirir. Müstəqillik əldə etdikdən sonra ölkələrimizin əsl tərəfdaş olması çox sevindiri-

edir. Biz beynəlxalq təşkilatlarda əməkdaşlıq edirik, demək olar ki, həmişə eyni mövqedən çıxış edirik. Bizim ikitərəfli əlaqələrimiz real məzmuna malikdir. Bu sahədə məlumatı olan şəxs kimi deməliyəm ki, əlaqələrimizin inkişafında ölkələrimizin prezidentləri - Leonid Kuçmanın və Heydər Əliyevin dostluq münasibətlərinin böyük rolu vardır.

Sentyabr ayında Yaltada Ukrayna Prezidentinin məni səmimi qəbul etməsi bir daha onu göstərir ki, gələcəkdə də ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri inkişaf edəcəkdir.

Mən bizim bugünkü tədbirimizdə iştirak etdiyinə görə Viktor Fyodoroviçə təşəkkürümü bildirirəm və ümidvaram ki, ölkələrimiz gələcəkdə də bir-birinə dost və qardaş münasibəti bəsləyəcək, xalqlarımız daha da yaxın olacaqlar.

Bizim bugünkü tədbirimizin rəsmi hissəsindən sonra Eduard Şevardnadze vətənə qayıtdı. Bu gün onun çox gərgin iş cədvəli var idi. O, Azərbaycana gəlməzdən əvvəl çox mühüm tədbir keçirmişdir. Hamımız bilirik ki, iki gündən sonra Gürcüstanda parlament seçkiləri olacaqdır. Əlbəttə, mən bu gün orada təbliğat kampaniyasının son günü olmasına rəğmən Eduard Şevardnadzenin vaxt tapıb ölkəmizə gəlməsini çox yüksək qiymətləndirirəm. Bu ölkəni - müasir Azərbaycanı onun dostu və qardaşı Heydər Əliyev yaratmışdır. O, öz Vətəninə, öz ailəsinə, öz evinə gəlmişdir.

Mən baş nazir vəzifəsinə təyin olunduqdan sonra MDB dövlət başçılarının zirvə görüşündə ilk dəfə iştirak etdim. Orada mən Eduard Amvrosiyeviçlə görüşmək şərəfinə nail oldum. O, məni çox səmimiyyətlə və hərarətlə qarşıladı. Bizim rəhbərlərimiz - Eduard Şevardnadze və Heydər Əliyev arasında olan münasibətlər həmişə, demək olar ki, 40 ilə yaxın müddət ərzində qardaşlıq münasibətləri olmuşdur. Onlar bir-birinə həmişə kömək etmişlər, istər hüquq-mühafizə orqanlarında çalışdıqları dövrdə, istər respublikalarımıza rəhbərlik etdikləri dövrdə, istərsə də Moskvada işlədikləri dövrdə. Siyasi Büronun üzvü olarkən bir-birlərini yaxından tanıyırdılar. O zaman onlar sovet dövlətinin inkişafını müəyyən edən səkkiz nəfərdən ikisi idi.

Ən başlıcası, ölkələrimizi parçalanmaqdan, xaosdan və anarxiyadan xilas etmək üçün çağırdıqları zaman da onlar çiyin-çiyinə müasir Gürcüstanı və müasir Azərbaycanı yaratdılar. Onlar bir çoxlarına əfsanə kimi gələn layihələri həqiqətə çevirdilər. Hər iki rəhbərin siyasi müdrikliyi, əzmi, cəsarəti və öz xalqına sədaqəti onlara bu işləri görməyə imkan verdi.





Mən Eduard Amvrosiyeviçin xidmətlərini xüsusi qeyd etmək istəyirəm və xarici işlər nazirindən mənim xoş arzularımı bir daha ona çatdırmağı xahiş edirəm.

Bu gün Türkiyənin hörmətli baş nazirinin müavini Əbdüllətif Şənər də bizim qonağımızdır. Mən onu səmimiyyətlə salamlayıram.

Türkiyə ilə Azərbaycan arasında mövcud olan dostluq və qardaşlıq münasibətləri əbədidir, sarsılmazdır. Bu münasibətlər gələcəkdə də inkişaf edəcək və xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Türkiyə bütün sahələrdə daim Azərbaycana dayaq və arxa olmuşdur. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ilk olaraq ölkəmizi tanıyan məhz qardaş Türkiyə olmuşdur. Biz daim belə bir ifadəni işlədirik: Türkiyə haradadır, Azərbaycan da oradadır, Azərbaycan haradadır, Türkiyə də oradadır.

Mən hörmətli Əbdüllətif bəydən səmimi salamlarımı dostum və qardaşım hörmətli baş nazir Rəcəb Tayyib Ərdoğana və hörmətli prezident Əhməd Necdət Sezərə çatdırmağı xahiş edirəm. Bir daha sizi əmin etmək istəyirəm ki, ölkələrimiz gələcəkdə də vahid mövqedən çıxış edərək həm ikitərəfli münasibətlərdə, həm də regional məsələlərdə yaxından əməkdaşlıq edəcəklər.

Əziz dostlar, bu gün mən fürsətdən istifadə edərək bütün Azərbaycan xalqına müraciət etmək istəyirəm. Oktyabrın 15-də mənə göstərilən etimada görə bir daha xalqımıza öz minnətdarlığımı bildirmək istəyirəm. Bu gün Respublika sarayında keçirilmiş andiçmə mərasimində iştirak etmək istəyən insanların hamısı orada iştirak edə bilmədilər. Bilirəm ki, bu gözəl salonda da vətəndaşlarımız iştirak etmək istəyirlər. Əlbəttə, buna imkan yoxdur. Eyni zamanda bilirəm ki, Azərbaycanın müxtəlif yerlərində - Bakıda, digər şəhərlərdə şənliklər keçirilir. Bu gün Bakının Azadlıq meydanında yüz minlərlə insan elə bu vaxt yığışaraq bu günü qeyd edirlər, sevinirlər, bir-birlərini təbrik edirlər, bayram edirlər. Mənim üçün ən böyük xoşbəxtlik məhz bundadır. Oktyabrın 15-də Azərbaycan xalqı sərbəst şəkildə öz iradəsini ifadə etmişdir ki, bu da mənim üçün böyük səadətdir. Seçkilərin nəticələri məhz Azərbaycan xalqının iradəsini əks etdirir.

Bu gün mən bu masa arxasında Azadlıq meydanında toplaşmış və şənlənən soydaşlarımızı salamlayıram. Qaçqın düşərgəsində yaşayan soydaşlarımızı salamlayıram. Orduda xidmət edən, sərhədlərimizin keşiyində duran əsgərləri salamlayıram. Bu gün növbədə olan həkimlərimizi, hər bir Azərbaycan vətəndaşını salamlayıram. Mən hər bir Azərbaycan vətəndaşı üçün prezident olacağam. Milliyyətindən, dinindən, siyasi əqidəsindən

asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam.

Bu badəni Azərbaycan xalqının şərəfinə qaldırıram.

***

"Gülüstan" sarayında təşkil olunmuş rəsmi qəbulun sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev idmançılarla və incəsənət xadimləri ilə səmimi görüşdü.

Sonra Prezident İlham Əliyev, onun xanımı Mehriban Əliyeva və dəvət olunmuş qonaqlar saraydan bayram atəşfəşanlığını seyr etdilər.





# PREZİDENTLİYİN İLK 100 GÜNÜ

Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prezident səlahiyyətlərini icra etməsindən 100 gün keçdi. Prezidentin fəaliyyətini və ötən müddət ərzində gördüyü işləri təhlil edən analitiklərin rəyi birmənalı oldu: Cənab İlham Əliyev prezidentliyinin ilk yüz günündə bir sıra mühüm Fərman və sərəncamlar imzalayıb, onun daxili və xarici siyasətinin prioritet istiqamətləri aşkarlanıb.

Fevralın 3-də Bakıda Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlər paketinin imzalanması təkcə Azərbaycan üçün deyil, dünya iqtisadiyyatı üçün də böyük əhəmiyyət daşıyan bir mərasim hesab edildi, tarixə daxil oldu.

Bakı Biznes Mərkəzində yerli sahibkarlarla görüşən Prezident onların fəaliyyətinə mane olan bütün neqativ halların aradan qaldırılması sahəsində əməli tədbirlərə başladı, iş adamlarına dövlət səviyyəsində güclü dəstək veriləcəyini bildirdi. Dərhal sonra inhisarçılığın aradan qaldırılması, daha çevik gömrük, vergi və kredit mexanizminin yaradılması istiqamətində ciddi işlərə başlandı.

Yeni prezidentin 168 məhbusa şamil edilmiş əfv fərmanı istər ölkə ictimaiyyəti, istərsə də beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirildi, təsdiqləndi ki, o, humanizm, demokratiya prinsiplərinə sadiqdir. Ölkədə vətəndaş həmrəyliyinin möhkəmləndirilməsinin yeni prezidentin siyasi fəaliyyətinin prioritetlərindən biri olması öz təsdiqini tapdı.

100 gün ərzində prezident İlham Əliyev regional inkişaf konsepsiyasını irəli sürdü. Onun müvafiq fərmanına əsasən Nazirlər Kabineti və digər əlaqədar dövlət təşkilatları tərəfindən geniş proqram və layihələr hazırlamağa başladı, yeni iş yerlərinin yaradılması üçün əsaslı tədbirlərə start verildi.

Yeni prezident Fransaya və Rusiyaya ilk rəsmi səfərlərini etdi. Bu uğurlu səfərlər təsdiqlədilər ki, Prezident Heydər Əliyev tərəfindən əsası qoyulan balanslaşdırılmış xarici siyasət kursu əzmlə davam etməkdədir.

100 gün ərzində İlham Əliyev 2 çox əhəmiyyətli hadisənin də reallaşmasını gündəmə gətirdi: Onun sərəncamları ilə müstəqil Azərbaycan dövlətinin ilk ensiklopediyasının nəşr edilməsi prosesinə başlandı. Habelə, Azərbaycan və dünya ədəbiyyatı incilərinin latın qrafikalı əlifbayla çap edilməsinə start verildi. Bu, hər şeydən öncə, əlifba dəyişikliyindən sonra ədəbi irslə tanışlıqdan məhrum olmuş yeni nəslin nümayəndələrinə, uşaq və gənclərə əvəzedilməz bir töhfə oldu.





## YÜZ GÜNÜN SOSİAL-İQTİSADİ MƏNZƏRƏSİ

### (Dövlət Statistika Komitəsinin məlumatı əsasında)

Ali vəzifənin icrasının ilk vaxtlarında Prezident "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman imzaladı. Bu, xalqın rifahının yaxşılaşdırılması üçün atılmış uğurlu addımlardan biri oldu.

Üç ay ərzində sənaye, kənd təsərrüfatı, ticarət, tikinti və başqa sahələrdə iri-li-xırdalı 1000-dən çox istehsal və xidmət obyektləri yaradıldı, 3400 fiziki şəxs fəaliyyətə başladı. Ölkə iqtisadiyyatını və sosial sahələrdəki vəziyyəti xarakterizə edən ümumi daxili məhsul istehsalı 100 gün ərzində 9 trilyon manatı ötdü. İqtisadiyyatın müxtəlif sahələrində çalışan muzdlu işçilərin orta aylıq əmək haqqı 416,1 min manata çatdı.

Sənaye sahəsində fəaliyyət göstərən fərdi sahibkarlıq da nəzərə alınmaqla ölkə sənayesində 100 gün ərzində 6,3 trilyon manatlıq məhsul istehsal edildi və xidmətlər göstərildi. İstehsal edilmiş sənaye məhsulunun 47 faizi hasilat, 44 faizi emal sənayesi, qalan hissəsi isə elektroenergetika, qaz və suyun istehsalı, bölüşdürülməsi müəssisələrinin payına düşür.

100 gün ərzində hasilat sənayesində 4 milyon tona yaxın neft və 1,3 milyard kubmetr qaz hasil edilmişdir. Bundan əlavə, 6 milyard kVt-saat elektrik enerjisi, 180 min ton avtomobil benzini, 500 min ton dizel yanacağı, 73 min ton ağ neft və s. məhsullar istehsal edildi.

Bu dövr ərzində ümumi sahəsi 722,8 min kvadratmetr olan yaşayış evləri, 10525 şagird yeri olan ümumtəhsil məktəbləri, 96 yerlik məktəbəqədər uşaq müəssisələri, səhiyyə ocaqları, körpülər, 43,3 min nömrəlik avtomat-telefon stansiyaları istifadəyə verildi. Əsas kapitala 5727.4 milyard manatlıq investisiya yönəldildi, onun 2608.6 milyard manatı tikinti-quraşdırma işlərinə sərf olundu.

Əhalinin heyvandarlıq məhsullarına olan tələbatını təmin etmək üçün aqrar bölmədə 59 min ton ət, 189,8 min ton süd, 147,6 milyon ədəd yumurta istehsal olundu.

Nəqliyyat sektorunda 28,3 milyon ton yük və 235,3 milyon nəfər sərnişin daşındı.

Avtomobil nəqliyyatı vasitələrinin sayı 5,5 min ədəd, o cümlədən vətəndaşların mülkiyyətində olan şəxsi minik avtomobillərinin sayı 4,1 min ədəd artdı.

Rabitə müəssisələri əhaliyə göstərdikləri xidmət müqabilində 329,5 milyard manatlıq gəlir əldə etdilər. Mobil telefon abunəçilərinin sayı 2003-cü ilin oktyabr ayından sonrakı dövr ərzində 67,4 min nəfər artdı və hazırda 1,1 milyon nəfər təşkil edir.





## RESPONDENTLƏR PREZİDENTİ DƏSTƏKLƏYİRLƏR

Dünyanın bir sıra ölkələrində prezidentin 100 günlük işinə ictimai qiymət verirlər. "Sel" Analitik İnformasiya və Sorğu Mərkəzi də bu məqsədlə Bakı və Sumqayıt şəhərlərində sosioloji sorğu keçirdi. Sorğu 1000 nəfər arasında aparıldı. Respondentlərin 87 faizi müxtəlif peşə sahibləri, 10 faizi evdar qadınlar, 3 faizi isə işsizlər oldu. Onların 52 faizi kişi, 48 faizi qadın idi. Sorğuda iştirak edənlərin 51 faizini gənclər, 39 faizini orta yaşlılar, 10 faizini isə təqaüdçülər təşkil edirdi. Nəticələr aşağıdakı kimidir.

I. Prezidentin 100 gün ərzində yeritdiyi xarici siyasət xətti sizi qane edirmi?

a) Bəli - 86 faiz
b) Xeyr - 10 faiz
c) Cavab verməkdə çətinlik çəkirəm - 4 faiz.

Qeyd: Rəyi soruşulanlar prezident İlham Əliyevin Fransaya səfərini düzgün addım sayırlar. Onlar bu səfərdə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mühüm danışıqların aparıldığına inanırlar. Sorğu iştirakçıları səfərin ölkəmizin Qərbə inteqrasiyası siyasətinə uyğun gəldiyi qənaətindədirlər. Görünür, respondentlər prezident İlham Əliyevin ABŞ, Türkiyə, Rusiya, Pakistan, Gürcüstan və Ukrayna rəsmiləri ilə fəal təmasda olmasına önəm veriblər.

II. Sizcə, 100 günlük fəaliyyət seçki kampaniyasında iqtisadi sahə üzrə verilən vədlərə uyğun gəlirmi?

a) Bəli - 62 faiz
b) Xeyr - 20 faiz
c) Bilmirəm - 18 faiz

Qeyd: İctimaiyyət prezident İlham Əliyevin seçki kampaniyasında iqtisadi sahə ilə bağlı verdiyi vədlərə əməl edəcəyinə əmindir. Prezidentin xarici sərmayədarları Azərbaycana daha çox cəlb etmək yönündə atdığı addımlar və bölgələrdə yeni istehsal obyektləri açmaq sahəsində konkret planları maraqla qarşılanıb. Bununla bağlı problemlərin

hazırlanmasına dəqiq vaxtın verilməsi ümid yaradıb. Görünür, respondentlər taxılın bahalaşmasına qarşı atılan addımları da müsbət dəyərləndiriblər.

III. 100 günlük fəaliyyətdə sosial təminata yönələn diqqət sizi qane edirmi?

a) Bəli - 83 faiz
b) Xeyr - 14 faiz
c) Cavab verməkdə çətinlik çəkirəm - 3 faiz.

Qeyd: Bu dəstək, yəqin ki, daha çox Heydər Əliyevin sosial təminat sahəsində apardığı siyasətin davam etdirilməsi ilə bağlıdır. Sosial təminat üzrə yeni proqramların hazırlanması, vergi tutulmalarında daha əlverişli yeni qaydaların tətbiqi, poliklinikaların pulsuz xidmətə keçməsi və təqaüdlərin verilməsində çox sərfəli kart sisteminin tətbiqi respondentlərin ürəyincədir. Prezident İlham Əliyevin 2003-cü ilin noyabrında sosial-iqtisadi inkişafla bağlı verdiyi fərman bu istiqamətdə təkan rolunu oynayıb. Rəyi soruşulanlar prezidentin sosial sahədə sistemli və ardıcıl dəyişikliklər edəcəyinə inanırlar.

IV. Prezident İlham Əliyevin ötən müddət ərzində milli-mənəvi dəyərlərin qorunması ilə bağlı atdığı addımlara münasibətiniz necədir?

a) Çox müsbət - 61 faiz
b) Müsbət - 25 faiz
c) Mənfi - 7 faiz
d) Çox mənfi - 3 faiz
e) Cavab verməkdə çətinlik çəkirəm - 4 faiz.

Qeyd: Respondentlər prezident İlham Əliyevin 100 gün ərzində həm şəxsi davranışında, həm də dövlət başçısı kimi gördüyü işlərdə milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verdiyini vurğulayıblar. Onun Heydər Əliyevin dəfn mərasimini milli adət-ənənələrə tam uyğun şəkildə təşkil etməsi və islam qaydaları ilə yas saxlaması ictimai rəyə təsir edib. Şəhidlər xiyabanının ziyarəti zamanı ailəsinin sıravi vətəndaşlarla bir sırada durması prezidentin "xalqın adamı" obrazını tamamlayıb. Azərbaycan ensiklopediyasının və görkəmli ziyalılarımızın əsərlərinin latın qrafikalı əlifba ilə yenidən nəşr edilməsi haqqındakı fərman isə milli-mənəvi dəyərlərin qorunmasına gözəl nümunədir.

V. Kadr dəyişikliyi ilə bağlı prezidentin planlarını necə qəbul edirsiniz?





a) Tam dəstəkləyirəm - 65 faiz
b) Müəyyən dərəcədə dəstəkləyirəm - 30 faiz
c) Dəyişikliyə ehtiyac yoxdur - 3 faiz
d) Cavab verməkdə çətinlik çəkirəm - 2 faiz.

Prezident İlham Əliyevin 100 gününün sosial-iqtisadi mənzərəsi, əhalinin onun prezidentliyinə münasibəti olduqca ümidvericidir. Deməli, xalq öz seçimində yanılmayıb.

# MÜNDƏRİCAT

Faktların dili ilə ..... 3

Azərbaycan dövləti və Azərbaycanın dövlət başçısı ..... 6

Yeni minilliyin ilk prezident seçkiləri ..... 11

Paytaxt sakinlərinin yüksək fəallığı ..... 12

Baş nazir İlham Əliyev 6 saylı seçki məntəqəsində səs verdi ..... 21

Azərbaycanın bölgələri də seçkiyə fəal qoşuldular ..... 24

Xarici ölkələrdə yaşayan azərbaycanlılar seçkilərdə həvəslə iştirak etdilər ..... 43

MSK-nın sədri Məzahir Pənahovun mətbuat konfransı ..... 51

Seçkinin rəsmi yekunları elan olundu ..... 54

Xarici ölkələrdəki səfirliklərdə keçirilmiş seçkilərdə də İlham Əliyev qələbə qazandı ..... 55

Azərbaycanın yeni prezidenti ..... 56

Seçkilər beynəlxalq müşahidəçilərin gözü ilə ..... 57

Avropa Şurası və ATƏT müşahidəçilərinin mətbuat konfransı ..... 59

Müstəqil Dövlətlər Birliyindən olan beynəlxalq müşahidəçilərin bəyanatı ..... 60

Azərbaycanda 15 oktyabr seçkilərinin gedişi və ilkin nəticələri beynəlxalq aləmdə müsbət qarşılanmalıdır ..... 65

İslam Konfransı təşkilatının bəyanatı ..... 67

İran İslam Respublikası müşahidəçilər qrupunun bəyanatı ..... 68

Prezident seçkilərinin əks-sədası ..... 69

Dünyanın dövlət və hökumət başçılarının, tanınmış siyasi xadimlərin təbrikləri ..... 72





Azərbaycanın yeni prezidentinin poçtundan ..... 105

Az qala hər bir azərbaycanlı İlham Əliyevi təbrik etdi ..... 211

Azərbaycanın bəzi müxalifət partiyalarının rəhbərləri də baş nazir İlham Əliyevi təbrik etdilər ..... 232

Vətənə, xalqa və dövlətə sədaqət andı ..... 233

Azərbaycan Respublikası Konstitusiya məhkəməsinin qərarı ..... 237

Müdrik Heydər Əliyevin əsəri olan müasir Azərbaycan Dövləti bundan sonra da hərtərəfli inkişaf edəcəkdir ..... 242

"Gülüstan" sarayında rəsmi qəbul ..... 247

"Mən hər bir Azərbaycan vətəndaşı üçün prezident olacağam" ..... 248

Prezidentliyin ilk 100 günü ..... 253

Yüz günün sosial-iqtisadi mənzərəsi ..... 255

Respondentlər prezidenti dəstəkləyirlər ..... 257

**Kitabın nəşrinə göstərdikləri köməyə görə yaradıcı heyət Ağamirzə Əhədova və "Nurgün" şirkətlər qrupuna öz minnətdarlığını bildirir.**

**Kitabda AzərTAc-ın və "Azərbaycan" qəzetinin rəsmi materiallarından, AzərTAc-ın və F. Bağırovun fotolarından istifadə olunmuşdur.**


Redaktor
*Varis Yolçiyev*

Texniki redaktor
*Elmira Tağıyeva*

Kompüter işləri
*İlqar Əliyev*
*Nazım Rzaquliyev*

Bu kitab satış üçün nəzərdə tutulmayıb.
Gəlir götürmək məqsədilə kitabın satılması qadağandır.

Çapa imzalanmışdır 12.05.2004. Kağız formatı 70x100 1/16. Ofset kağızı. Qarnituru Times.
Şərti çap vərəqi 22,57. Uçot-nəşr vərəqi 21,14. Tirajı 500. Sifariş 625.

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
Az 1073 Bakı, Mətbuat prospekti, 529-cu məhəllə. Tel.: (99 412) 38 00 10.
Fax (994 12) 98 97 75. E-mail: azerbneshr@azeronline.com